Xalqın qəzeti!

# Xalq qəzeti

№ 234 (30928) 1 noyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# 1 noyabr 2003-cü il: 22 illik yüksəliş marafonunun ilk günü

*Prezident İlham Əliyev həmin tarixdə dövlət başçısı kimi fəaliyyətə başlamışdır*



**Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir.**

**Azərbaycan Prezidenti İlham Əliyevin 31 oktyabr 2003-cü il tarixli andiçmə mərasimindəki nitqindən**

**Bəli, o, həmin il oktyabrın 31-də prezident seçkilərinin qalibi kimi and içmiş, ertəsi günü – noyabrın 1-də dövlət başçısı kimi siyasi fəaliyyətə başlamışdır. Yəni bu gün cənab Ali Baş Komandanımızın dövlət başçısı kimi işə başlamasının 22 ili tamam olur.**

Maraqlıdır ki, onun Prezident kimi fəaliyyətə başlaması da noyabr ayının bəxtinə düşdü, ilk andiçmədə səsləndirdiyi "Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir" – qətiyyətinin reallaşması da.

*(ardı 5-ci səhifədə)*

## İşçi qrupları ilə Cənubi Qafqazda tarixi əməkdaşlıq gözlənilir



Səhifə ⇨ 6

## Azərbaycanın ideoloji təhlükəsizliyinə təhdid yolverilməzdir!



Səhifə ⇨ 8

## Afrikada hələ də Avropa kabusu dolaşmaqdadır



Səhifə ⇨ 6

## Azərbaycan jurnalistləri Çində



Səhifə ⇨ 11

## Qarabağda quruculuq dünyanı heyran qoyur



Səhifə ⇨ 7

## Ermənistan sülh sazişi imzalanmasını niyə ləngidir?

*Nikol Paşinyanın Paris Sülh Forumundakı çıxışına sözardı*



**Baş nazir Nikol Paşinyan Paris Sülh Forumu çərçivəsində keçirilən "Liderlik qovşağında" adlı müzakirə zamanı bildirib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiasına dair məsələlərə kökündən son qoymaq üçün hər iki ölkə arasında sülh müqaviləsi imzalanmalı və sənəd ratifikasiyadan keçərək, hüquqi qüvvəyə malik olmalıdır. Prezident İlham Əliyev isə avqustun 8-də Vaşinqtonda Azərbaycanın media vasitələrinə müsahibəsində bunu demişdi: "Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər".**

Qeyd edək ki, N.Paşinyan əvvəldə diqqətə çatdırdığımız fikri Azərbaycanın Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbi ilə bağlı mövzuya münasibətində səsləndirmişdi. Nikol onu da demişdi ki, ölkəsinin Konstitusiya Məhkəməsi 2024-cü ildə qərar qəbul edib: "Bu, ali səviyyəli hüquqi qərardır. Həmin qərara görə, Ermənistan konstitusiyası qonşu ölkələrdən heç birinə qarşı ərazi iddiası ehtiva etmir".

*(ardı 8-ci səhifədə)*

## "3+3" platforması və "Qafqaz evi" ideyası gündəmdədir

*Regionda sülh və dialoqun yeni arxitekturası formalaşır*

**Cənubi Qafqaz regionu geosiyasi baxımdan Avrasiya məkanının ən mürəkkəb və strateji əhəmiyyətli zonalarından biridir. Tarixən imperiyalar, ideologiyalar və enerji marşrutlarının toqquşma nöqtəsi olan bu region bu gün postmünaqişə dövrünün yeni siyasi arxitekturasını formalaşdırmaq ərəfəsindədir. Arxitekturanın mərkəzində isə Azərbaycanın təşəbbüsü ilə formalaşan "3+3" əməkdaşlıq platforması dayanır. Platforma – Azərbaycan, Ermənistan, Gürcüstan və regionun qonşuları olan Rusiya, Türkiyə, İran arasında çoxtərəfli dialoqun institusional çərçivəsidir.**

*(ardı 5-ci səhifədə)*



# Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1139 (Cild I); 2025, № 3, maddə 227, № 8, maddə 758) ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində "6 783 392 (altı milyon yeddi yüz səksən üç min üç yüz doxsan iki)" sözləri "26 783 392 (iyirmi altı milyon yeddi yüz səksən üç min üç yüz doxsan iki)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 oktyabr 2025-ci il**

# Milli Məclisin növbəti plenar iclası



**Oktyabrın 31-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib.**

İclası açan Milli Məclisin sədri oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyinə həsr edilən beynəlxalq parlament konfransı barədə məlumat verib.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb.

Sonra spiker Sahibə Qafarova bugünkü iclasın gündəliyinə 11 məsələnin daxil edildiyini deyib. O, birinci məsələnin 8 noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı olduğunu söyləyib.

Milli Məclisin sədri bildirib ki, noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində Zəfərinin beşinci ildönümü tamam olur. 8 noyabr Azərbaycanın tarixinə müdrik siyasi rəhbərliyin və uzaqgörən hərbi strategiyanın təntənəsi, xalqımızın yenilməz gücünün və qəhrəmanlığının rəmzi kimi daxil olub.

Milli Məclisin sədri deputatlara müraciətlə bildirib ki, icazə verin, Azərbaycana tarixi Zəfəri bəxş etmiş Müzəffər Ali Baş Komandana, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığımızı bildirək, onları ürəkdən təbrik edək. Parlamentin sədrinin sözləri alqışlarla qarşılanıb.

Sonra Sahibə Qafarova təklif edib ki, Zəfər Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlansın, Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışına yekun vuran Milli Məclisin sədri bildirib ki, müharibə itkisiz olmur. Biz də bu müharibədə şəhidlər vermişik. O, şəhidlərimizə rəhmət, qazilərimizə isə möhkəm cansağlığı diləyib.

Sonra iclasda deputat Vüqar Rəhimzadə Milli Məclisin Bəyanatının mətnini oxuyub. 8 Noyabr Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı səsə qoyularaq qəbul edilib *(Bəyanatın mətni mətbuatda dərc olunur).*

Milli Məclisin sədri növbəti 5 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Dövlət xidmətləri haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Deputat qanun layihəsi ilə bağlı birinci və ikinci oxunuşlar zamanı geniş müzakirələrin aparıldığını və layihədə bir sıra dəyişikliklərin edildiyini söyləyib. O, 13.9-cu və 16.4-cü maddələrdə edilən dəyişiklikləri nəzərə çatdırıb, habelə əvvəlki müzakirələrdə səsləndirilən bəzi qeydlərin qanunvericilik təşəbbüsü subyekti tərəfindən məqbul hesab edilmədiyini deyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (üçüncü oxunuş) mahiyyətini açıqlayıb.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsinin mahiyyəti barədə söhbət açıb. Qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin sədri növbəti 4 məsələnin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinin mahiyyətini diqqətə çatdırıb. Komitə sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov təqdim edib. Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin sonuncu məsələsinin birinci oxunuşda olan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. Dəyişikliklərlə bağlı deputat Asif Əsgərovun fikirləri dinlənildikdən sonra layihə birinci oxunuşda qəbul olunub.

Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***XQ***

# Hikmət Hacıyev: Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlıq münasibətləri nəzərdən keçirilir



**Prezident İlham Əliyevin avqustun 8-də ABŞ-a səfəri əsnasında ABŞ-Azərbaycan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ilə əlaqədar ABŞ ilə Azərbaycan arasında anlaşma memorandumu imzalanıb.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Baku TV"yə müsahibəsində deyib.

H.Hacıyev qeyd edib ki, bu anlaşma memorandumunun şərtlərindən biri iki ölkə arasında işçi qrupunun yaradılması və bu işçi qrupunun strateji tərəfdaşlıq gündəliyi ilə və strateji tərəfdaşlıq əlaqələrinin mahiyyəti üzrə təkliflər hazırlamasından ibarətdir:

"ABŞ Dövlət Departamentinin verdiyi açıqlamanın mahiyyəti ondan ibarətdir ki, ABŞ-Azərbaycan strateji tərəfdaşlığı ilə əlaqədar işçi qrupu yaradılıb. Aidiyyəti qrup Azərbaycanda da mövcuddur. Azərbaycanın müvafiq təklifləri ABŞ-a təqdim olunub. Anlaşma memorandumunda qeyd olunduğu kimi, ABŞ ilə Azərbaycan arasında enerji, nəqliyyat, süni intellekt, yüksək texnologiyalar, müdafiə, təhlükəsizlik və digər sahələri özündə ehtiva edən strateji tərəfdaşlıq münasibətləri nəzərdən keçirilir".

O, həmçinin bildirib ki, Azərbaycan Prezidentinin İrəvanda keçiriləcək Avropa Siyasi Birliyinin sammitində iştirakı üçün rəsmi dəvət məktubu hələ daxil olmayıb: "İkincisi, biz hazırkı şəraitdə düşünmürük ki, Azərbaycanda ali səviyyədə bu tədbirdə iştirak həyata keçirilmiş olsun".

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 309** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**"Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfinə daxil edilməsi və ya çıxarılması meyarları və Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 255 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adlarının (təsiredici maddələrin adlarının) və tibb vasitələrinin xidmətlər zərfinə daxil edilməsi və ya çıxarılması meyarları və Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# 8 Noyabr Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Milli Məclisin Bəyanatı

**2025-ci il noyabrın 8-də Azərbaycan xalqı ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası uğrunda uzun illər apardığı mübarizənin həlledici mərhələsinə yekun vurmuş Zəfər Gününü böyük milli qürur duyğusu ilə qeyd edəcəkdir. 2020-ci ilin sentyabr–noyabr aylarında 44 günlük Vətən müharibəsində əldə edilən Zəfər milli tariximizin ən şərəfli və taleyüklü hadisələrindən biridir.**

Azərbaycan beynəlxalq miqyasda tanınmış ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu 30 ilə yaxın dövrdə beynəlxalq hüquqa sadiq qalaraq torpaqlarını sülh yolu ilə azad etməyə çalışmışdır. Dövlətimizin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq təşkilatların qərar və qətnamələri münaqişənin nizama salınması üçün hüquqi zəmin yaratmışdı. Təəssüf ki, beynəlxalq qurumlar qəbul etdikləri qərarları həyata keçirməkdə qətiyyətsizlik göstərmiş və təcavüzkarı öz adı ilə çağırmaqdan boyun qaçırmış, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarından işğalın nəticələrini bu və ya digər şəkildə rəsmiləşdirmək, bu mümkün olmadıqda isə vaxt uzatmaq üçün istifadə edilmişdir. İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, Ermənistanın rəhbər vəzifəli şəxslərinin "yeni ərazilər üçün yeni müharibə" iddialarını səsləndirməsi, digər bəyanatları və hərəkətləri işğalçı dövlətin əsl niyyətlərini üzə çıxarmışdır.

Azərbaycan dövlətinin rəhbərliyi onilliklər boyu bəyan etmişdir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və bütün imkanlardan istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək, təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışlar. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən 300-ə yaxın yaşayış məntəqəsi azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur.

Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyətini etiraf etmişdir. 44 günlük Vətən müharibəsi 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktını imzalaması ilə başa çatmışdır. Döyüş meydanında qazanılan Zəfərin siyasi-diplomatik müstəvidə də təsdiq edilməsi Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla Azərbaycana qaytarılmasını təmin etmişdir.

Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin uğurla yerinə yetirilərək Azərbaycan torpaqlarının işğalına son qoyulması, tarixi ədalətin bərpa olunması xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Bütün dünyaya nümayiş etdirilmişdir ki, Azərbaycan haqsızlıqla barışmayan qüdrətli dövlətdir və bundan sonra heç kəs onunla güc və təzyiq dili ilə danışa bilməz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti 44 günlük Vətən müharibəsində tarixi Zəfərin həlledici amili olmuşdur. Həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası, iqtisadi müstəqilliyin əldə edilməsinə yönələn düşünülmüş tədbirlər sayəsində Azərbaycan maliyyə dayanıqlığı və xarici yardım olmadan müharibə aparmaq qabiliyyəti qazanmışdır. Hərbi quruculuq sahəsində zəruri addımlar atılmışdır. Müdafiə sistemində geniş miqyaslı islahatlar aparılmış, müasir peşəkar ordu yaradılmış, hərbi sənaye gücləndirilmişdir.

Suverenlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan xarici siyasətin həyata keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmişdir. Bütün vasitələrdən istifadə edilərək Azərbaycan torpaqlarının işğalı haqqında həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdır.

Xalq, iqtidar və ordu arasında möhkəm birlik yaradılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan gənc nəsil yetişdirilmişdir. Bütün siyasi qüvvələr ərazi bütövlüyünün bərpa edilməsi ideyası ətrafında birləşmişlər.

Ölkədə yaradılmış idarəçilik modeli Azərbaycana lazımi məqamda dəqiq və qətiyyətlə hərəkət etmək imkanı vermişdir. Azərbaycançılıq ideallarından güc alan xalqımızın milli birliyi döyüş meydanında düşmənə endirilən "dəmir yumruğa" çevrilərək qələbənin mühüm amillərindən biri olmuşdur.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri beynəlxalq hüquq normalarını və prinsiplərini, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı dəhşətli cinayətlər törətmişlər. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ şəhərlərinə, Siyəzən, Xızı rayonlarına, digər yaşayış məntəqələrinə ballistik raketlər, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli mərmilər ilə edilən hücumlar nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 450-dən çox insan yaralanmışdır. Bu dövlət terrorizmi aktları müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdir.

Qarşı tərəfin qanlı hücumlarına və vəhşilik əməllərinə baxmayaraq, Azərbaycan Ordusu beynəlxalq humanitar hüquq normalarına dönmədən əməl etmiş, düşmənin yalnız silahlı qüvvələrini və hərbi obyektlərini hədəf almış, mülki şəxslərə və yaşayış məntəqələrinə zərər vurulmasına yol verməmişdir.

2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı nəticəsində isə Ermənistan tərəfindən yaradılmış kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuş, Azərbaycanın suverenliyi onun bütün ərazisində bərqərar edilmişdir. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu olmuşdur.

Beləliklə, son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi Vətən naminə canını fəda etmiş şəhidlərin əziz xatirəsinə dərin ehtiramını bildirir, döyüş meydanlarında həyatını ölümcül təhlükələrə ataraq böyük qələbəmizə töhfə vermiş əsgər və zabitlərimizə minnətdarlığını ifadə edir.

Bu gün azad Qarabağ və Şərqi Zəngəzur innovativ və dayanıqlı inkişaf məkanına çevrilmişdir. İşğalçılar tərəfindən yerlə-yeksan edilmiş şəhər və kəndlər bərpa olunur. Hava limanları, yollar, körpülər, tunellər, digər obyektlər inşa edilir, elektrik, su xətləri çəkilir. Bölgədə Azərbaycanın gələcək inkişafının yeni modellərindən biri formalaşır. Məcburi köçkünlər ata-baba yurdlarına qaytarılır.

Təəssüflə qeyd edilməlidir ki, Ermənistan tərəfinin işğal dövründə və müharibədən sonra Azərbaycan ərazilərində basdırdığı yüz minlərcə tank və piyada əleyhinə minalar bərpa və quruculuq işlərinin sürətlə aparılmasına maneçilik törədir. Hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə 400-dən çox mülki şəxs və hərbçi minaların partlaması nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Bütün bu itkilərə baxmayaraq, məhz Azərbaycan bölgədə sabitlik yaradılması və Ermənistanla münasibətlərin normallaşması üçün 5 baza prinsipini təqdim etmiş, sülh gündəliyinin irəliyə aparılması üçün siyasi iradə və konstruktiv yanaşma nümayiş etdirmişdir. Sülh sazişinin layihəsi də məhz Azərbaycan tərəfindən tərtib olunmuşdur. Bu ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və regionumuzda uzunmüddətli sülh və sabitliyin yolunu açmışdır.

Əldə edilmiş razılaşmalara uyğun olaraq reallaşacaq Zəngəzur dəhlizi qitələri birləşdirən mühüm nəqliyyat bağlantısına çevriləcəkdir. Vaşinqton razılaşmalarının daha bir önəmli yekunu isə ATƏT-in Minsk qrupunun ləğv edilməsi olmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi İkinci Qarabağ müharibəsində Qələbənin tarixi əhəmiyyətini qeyd edərək dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin möhkəmləndirilməsi işinə sadiqliyini bir daha ifadə edir. Milli Məclis Azərbaycan Respublikası Prezidentinin bölgədə sülh və əməkdaşlıq mühiti yaradılmasına yönələn səylərini dəstəklədiyini bildirərək xalqımızı öz liderinin ətrafında daha sıx birləşməyə səsləyir.

***(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 31 oktyabr tarixli iclasında qəbul edilib).***

# Xarici diplomatlar Cəbrayıl və Zəngilanda







**Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri oktyabrın 31-də Cəbrayıl rayonunun Horovlu kəndində olublar.**

Burada onlara işğaldan azad ediləndən sonra kənddə aparılmış bərpa-quruculuq işləri və yaradılmış şərait barədə məlumat verilib.

*

**Sonra akkreditə olunmuş diplomatik korpus nümayəndələri üçün Zəngilan şəhərindəki Konqres Mərkəzində "Zəngəzur dəhlizi - regional nəqliyyat şəbəkəsi" mövzusunda brifinq keçirilib.**

Brifinqdə güclü beynəlxalq tərəfdaşlığın, eləcə də infrastruktur və dəmir yolu nəqliyyatının modernləşdirilməsinin ölkənin inkişafının əsas amilləri olduğu bildirilib. Qeyd edilib ki, bu nailiyyətlər Azərbaycanın əsas nəqliyyat mərkəzinə necə çevrildiyini göstərir.

Təqdimat zamanı nəqliyyat və dəniz infrastrukturuna xüsusi diqqət yetirilib. Vurğulanıb ki, bu gün ölkənin dəmir yolu ilə yükdaşımalarının həcmi artıb və Azərbaycan Xəzər dənizində ən böyük dəniz donanmasına malikdir.

Diplomatlar həmçinin Həkəri çayının Zəngilan rayonu ərazisindən keçən hissəsində yerləşəcək Həkəri dəmir yolu stansiyası ilə tanış olublar.

Onlar burada görülən işlər, dəmir yolunun və stansiyanın tikintisi ilə bağlı həyata keçirilmiş və gələcəkdə görüləcək işlər barədə məlumatlandırılıb. Bildirilib ki, bu dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin (TRIPP) tərkib hissəsi olacaq.

Səfər çərçivəsində iştirakçılar, həmçinin Zəngilan məscidi ilə tanış olublar.

Qeyd edək ki, Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxslərinin Cəbrayıl və Zəngilan rayonlarına səfərində 51 ölkə və 12 beynəlxalq təşkilatdan ümumilikdə 100-dən artıq nümayəndə iştirak edir.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə baş tutan bu səfər işğaldan azad olunmuş ərazilərə diplomatik korpus nümayəndələrinin sayca 20-ci səfəridir.

***XQ***

# Konstitusiya və məhkəmə sistemi mövzusunda konfrans






**Oktyabrın 31-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Xankəndi şəhərindəki Qarabağ Universitetində "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib.**

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov açılış nitqi ilə çıxış edərək 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının dövlətçiliyin möhkəmlənməsi və hüquqi dövlətin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edilib ki, aparılan məqsədyönlü islahatlar məhkəmə-hüquq sisteminin inkişafına, onun müstəqilliyinin və şəffaflığının təmininə xidmət edir. Diqqətə çatdırılıb ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğunun hüquqi bünövrəsini formalaşdırıb. Hazırda ölkəmizdə Konstitusiyanın ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, Azərbaycan xalqı bu il təkcə Konstitusiyanın qəbulunun ildönümünü deyil, həm də onun prinsiplərinin həyatda bərpası mərhələsini yaşayır. 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiya müstəqil dövlət quruculuğunun, insan hüquq və azadlıqlarının təminatçısına çevrilib.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov bildirib ki, suverenlik mövzusuna həsr olunmuş tədbirin məhz Xankəndidə keçirilməsinin xüsusi mənası var. Çünki məhz Xankəndinin azad edilməsi ilə Azərbaycanın dövlət suverenliyi tam bərpa olunub. Qeyd edilib ki, Qarabağ Universiteti bölgədə məskunlaşma prosesinin önündə gedən ali təhsil müəssisəsi kimi təkcə tədris deyil, həm də elmi-tədqiqat və innovativ həllərin hazırlanması istiqamətində fəaliyyətini genişləndirir.

Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, Bakı Dövlət Universitetinin kafedra müdiri, Məhkəmə-Hüquq Şurasının üzvü Əlizadə Məmmədov, Xankəndi Şəhər Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü İlkin Abdullayev çıxış edərək ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyasının dövlət tariximizdə ən əlamətdar hadisələrdən biri olduğunu vurğulayıblar. Həmçinin məhkəmə hakimiyyətinin cəmiyyətin sabitliyini və davamlı inkişafını təmin edən, eyni zamanda, iqtisadi inkişafa stimul verən mühüm institut olduğu da vurğulanıb.

Sonda Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədov, Kommersiya Kollegiyasının sədri Kəmalə Abiyeva və Mülki Kollegiyanın sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev tələbələr qarşısında çıxış edərək Ali Məhkəmənin fəaliyyəti və rəhbərlik etdikləri kollegiyaların iş istiqamətləri barədə ətraflı məlumat veriblər. Həmçinin tələbələri maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# Belçika müstəmləkəçiliyinə beynəlxalq baxış

**Ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Belçikanın müstəmləkə keçmişinə və onun bu günə qədər davam edən ağır fəsadlarına həsr olunmuş "Belçika müstəmləkəçiliyi: tanınma və məsuliyyət" adlı beynəlxalq konfrans keçirilib.**



Konfransda Belçikanın keçmiş müstəmləkələri – Konqo Demokratik Respublikası, Ruanda və Burundidən olan nümayəndələr, diplomatlar və rəsmi şəxslər, ümumilikdə tədbirə 8 ölkədən beynəlxalq hüquq üzrə ixtisaslaşmış mütəxəssislər iştirak ediblər.

Konfransda Belçikanın müstəmləkə dövründə törətdiyi cinayətləri, onun neokolonial siyasətini və müstəmləkəçilikdən irəli gələn kompensasiya (reparasiya) məsələlərini müzakirə edilib.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu beynəlxalq hüquq çərçivəsində Belçikanın keçmiş müstəmləkələrində törətdiyi cinayətlərə görə kompensasiya tələbinin beynəlxalq səviyyəyə çıxarılması və bu mövzunun beynəlxalq təşkilatların gündəliyinə salınması istiqamətində iş aparır.

Belçikanın müstəmləkə siyasəti nəticəsində Konqo Demokratik Respublikasında 10 milyondan çox insanın ölümü, on minlərlə insanın əllərinin kəsilməsi və ölkənin mədəni resurslarının talan edilməsi kimi ağır cinayətlər baş verib. Belçika Ruanda və Burundidə 1933-cü ildə 600 min etnik kimlik kartı paylayaraq etnik bölgü siyasəti aparıb və bu, sonradan 1972 və 1994-cü illərdə kütləvi soyqırımılara zəmin yaradıb. 1940–1950-ci illərdə 20 min metis uşaq ailələrindən zorla ayrılaraq Belçikaya aparılıb. Belçikada yerləşən Tervuren Muzeyində Belçika müstəmləkəsi dövründə 180 min talan edilmiş artefakt saxlanılır. Ruandadan Tervuren Muzeyinə 40 mindən çox mədəni artefakt (maskalar, könüllü alətlər) talan edilərək aparılıb.

BMT-nin 2019-cu ildə dərc etdiyi hesabatda Belçikanın keçmiş müstəmləkələrinə vurduğu zərərlərlə bağlı faktların araşdırılması, arxivlərin açılması və təzminat ödənilməsi tövsiyə olunur. Hesabatda Konqo Demokratik Respublikası üçün 500 milyard avro, Burundi üçün isə 36 milyard avro həcmində reparasiya tələbi irəli sürülüb.

Bunumla yanaşı, Belçikanın keçmiş müstəmləkə ərazilərində, xüsusilə kobalt mədənlərinin 80 faizinə nəzarət etməklə neokolonial istismar siyasətini davam etdirir.

***XQ***

# XİN-in məlumatı



**Oktyabrın 31-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Özbəkistanın Səmərqənd şəhərinə işgüzar səfəri çərçivəsində Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığın siyasi, təhlükəsizlik, iqtisadi və nəqliyyat, humanitar istiqamətləri üzrə inkişaf perspektivləri, eləcə də regional gündəmdə yer alan aktual məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb.

Azərbaycan və Gürcüstan arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, iki ölkə arasında formalaşmış fəal siyasi dialoqun, regional platformaların əlaqələrin möhkəm əsasını təşkil etdiyi vurğulanıb. Nazirlər regionda dayanıqlı sülhün və sabitliyin təmin olunması üçün birgə səylərin önəmini qeyd ediblər.

*

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov səfər çərçivəsində Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.**



Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud siyasi və strateji dialoqun, qarşılıqlı səfər və təmasların tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

İkitərəfli əsasda Azərbaycan ilə Macarıstan arasında iqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, bərpaolunan enerji ehtiyatları, humanitar, təhsil, mədəniyyət və s. istiqamətlər üzrə əməkdaşlıq gündəliyində duran çoxşaxəli məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Xüsusilə iqtisadi əlaqələrin daha da gücləndirilməsi baxımından potensialın mövcudluğu, bu istiqamətdə perspektivlərin müzakirəsi istiqamətində Azərbaycan və Macarıstan Hökumətləri arasında İqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın rolu diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdəki quruculuq işlərinə Macarıstanın töhfəsi minnətdarlıqla qeyd olunub.

***XQ***

# Ədliyyə nazirinin Gəncədə vətəndaş qəbulu



**Ədliyyə naziri Fərid Əhmədov oktyabrın 30-31-də Gəncə şəhərində vətəndaşları müraciətlərini dinləyib.**

Qəbulda Gəncə şəhər və Samux, Göygöl, Daşkəsən, Goranboy, Naftalan, Kəlbəcər rayonlarından ümumilikdə 118 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Mədəniyyət nazirinin Xızıda sakinlərlə görüşü



**Mədəniyyət naziri Adil Kərimli oktyabrın 31-də Xızı şəhərində vətəndaşları qəbul edib.**

Xızı rayon Heydər Əliyev Mərkəzində keçirilən qəbulda nazir Sumqayıt şəhəri, Xızı, Abşeron, Qubadlı və Zəngilan rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib. Vətəndaşlar, əsasən, iş yerinin dəyişdirilməsi, mədəniyyət sahəsi ilə bağlı layihə və təşəbbüslər, məşğulluq və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar. Hər bir məsələnin operativ araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı addımlar atılacağı qeyd edilib.

***XQ***

# Əmək və əhalinin sosial müdafiəsi naziri Naxçıvanda müraciətləri dinləyib



**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasının sakinlərinin müraciətlərini dinləyib.**

Vətəndaşlar məşğulluq, əlillik, mənzil təminatı, ünvanlı sosial yardım və digər məsələlərlə bağlı müraciət ediblər. Onların sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

***XQ***

# Azərbaycan–Qazaxıstan hərbi əməkdaşlıq planı



**Qazaxıstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 31-də bu ölkənin müdafiə naziri general-leytenant Dauren Kosanov ilə görüşüb.**

Görüşdə Azərbaycanla Qazaxıstan arasında əlaqələrin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu qeyd edilib, hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın cari vəziyyəti müzakirə olunub.

Hər iki ölkə arasında hərbi əlaqələrin yeni perspektivlərinin müzakirə edildiyi görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qazaxıstan müdafiə naziri general-polkovnik Z.Həsənova "Beynəlxalq əməkdaşlığın inkişafına töhfəyə görə" medalını təqdim edib.

Görüşün sonunda Azərbaycan və Qazaxıstan respublikaları Müdafiə nazirlikləri arasında 2026-cı il üçün hərbi əməkdaşlıq planı imzalanıb.

***XQ***

# Şeyxülislam Vatikan və İtaliya səfirliklərimizdə



**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanın Müqəddəs Taxt-Tacdakı və İtaliyadakı səfirliklərinə baş çəkib.**

Şeyxülislam Allahşükür Paşazadə hər iki binada yaradılan şəraitlə tanış olub, xeyir-dua verib. Məlumat verilib ki, Müqəddəs Pyotr Bazilikasına aparan əsas küçədə yerləşən Vatikandakı səfirliyimiz Apostol Sarayına və rəsmi qurumlara yaxın ərazidədir.

Bildirilib ki, İtaliyadakı səfirliyimizin binasında, həmçinin Azərbaycan Mədəniyyət Mərkəzi də fəaliyyət göstərir. Mərkəzin daxili tərtibatında Azərbaycanın dövlət rəmzlərindən, milli sənətkarlıq elementlərindən, o cümlədən şəbəkədən istifadə edilib. Azərbaycan xalçaları mərkəzdəki ekspozisiyanın ən qiymətli inciləri sırasındadır. Mədəniyyət Mərkəzində Heydər Əliyev Fondu tərəfindən italyan dilində nəşr olunmuş Azərbaycanla bağlı kitablar nümayiş etdirilir.

***XQ***

# YAP və BBP nümayəndələri Ümummilli liderin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər





**Türkiyənin Böyük Birlik Partiyasının sədri Mustafa Desticinin rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının dəvəti ilə ölkəmizə səfər edib.**

Səfər çərçivəsində YAP nümayəndələri və BBP nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Şəhidlər xiyabanı ziyarət edilib. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla anılıb, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Səfər çərçivəsində "Türk şəhidliyi" abidəsi də ziyarət olunub.

***XQ***

# İtkin şəhidlər doğma ünvanlarında dəfn olunublar





**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Mikayıl Atababa oğlu Əliyev oktyabrın 31-də paytaxtın Xəzər rayonunun Zirə qəsəbəsində yerləşən yeni məzarlıqda dəfn olunub.**

Dəfn mərasimində şəhidin ailə üzvləri, Xəzər Rayon İcra Hakimiyyətinin nümayəndələri, Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, Milli Məclisin deputatları, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi şəhidi Mikayıl Əliyev 1968-ci il oktyabrın 31-də paytaxtın Nizami rayonunda anadan olub. O, 1992-ci il fevralın 26-da Xocalı istiqamətində gedən döyüşlərdə itkin düşmüşdü.

*

**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Teymur Qüdrət oğlu Allahverdiyev oktyabrın 31-də Neftçala rayonunun Qaçaqkənd kəndindəki qəbiristanlıqda dəfn olunub.**

Əvvəlcə Qaçaqkənd kəndində itkin şəhidlə vida mərasimi olub, cənazə namazı qılınıb. Vida mərasimindən sonra hərbi orkestrin və yaylım atəşinin müşayiəti ilə itkin şəhid Qaçaqkənd kəndindəki qəbiristanlıqda torpağa tapşırılıb.

Qeyd edək ki, Teymur Allahverdiyev 1967-ci ildə Neftçalanın Qaçaqkənd kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb, 1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə itkin düşüb.

*

**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Elçin Ağamməd oğlu Heydərov oktyabrın 31-də İmişli rayon Ağaməmmədli kənd qəbiristanlığında dəfn olunub.**

Qeyd edək ki, Elçin Heydərov 1971-ci ildə İmişli rayonunun Ağaməmmədli kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərə yollanıb. 1994-cü il Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

***XQ***



# YAP və BBP heyətlərinin görüşü



**Oktyabrın 31-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türkiyənin Böyük Birlik Partiyasının sədri Mustafa Desticinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.**

Görüşdə ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinə, tarixi köklərə, ortaq milli-mənəvi dəyərlərə, dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslanan Azərbaycan–Türkiyə münasibətlərinin iki ölkənin liderləri – Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf edərək, ən yüksək səviyyəyə çatdığı bildirilib.

Azərbaycanın şanlı Zəfər qazanaraq öz ərazi bütövlüyünü bərpa etməsindən sonra 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin həm ölkələrarası münasibətlərin inkişafı, həm də regionda təhlükəsizliyin təmin edilməsi və çoxtərəfli işbirliyinin dərinləşdirilməsi baxımından önəmi diqqətə çatdırılıb. Görüşdə Azərbaycan–Türkiyə birliyinin Türk dünyasında əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaratdığı qeyd olunub. Bu kontekstdə Türk dövlətlərinin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsinin önəmi də xüsusi vurğulanıb.

Həmçinin 2021-ci il iyunun 2-də Əməkdaşlıq Protokolu imzalayan və ötən müddət ərzində ortaq maraqlara əsaslanan mühüm tədbirlər reallaşdıran YAP ilə Türkiyənin Hakim Ədalət və İnkişaf Partiyasının münasibətlərinin nümunəvi xarakter daşıdığı vurğulanıb, YAP ilə BBP arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

***XQ***

# Avropa Şurasında tərs prizma görüntüsü

## *Monoetnik Ermənistan hansı əsasla "tolerantlıq nümunəsi" sayılır?*

**Avropa Şurasının "İrqçilik və Dözümsüzlüyə Qarşı Komissiya"sı (ECRI) oktyabrın 29-da yeni hesabatını açıqlayıb. Sənəddə Cənubi Qafqaz ölkələrininin "tolerantlıq" kontekstində dəyərləndirilməsi əks olunub. Məğzi budur ki, "Ermənistan və Gürcüstan irqçilik və dözümsüzlüyə qarşı mübarizə istiqamətində irəliləyiş əldə edib, Azərbaycan isə geri qalır". Hesabatın yekununda Ermənistanla Gürcüstanın əlahiddə müqayisəsi aparılıb və Ermənistanın adı önə çəkilib. Yəni Komissiyanın məntiqinə görə, "Ermənistan Cənubi Qafqazın ən tolerant ölkəsidir".**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Avropa Şurasının davranışlarında ikili standartlar, qərəzli yanaşmalar həmişə olub. Amma əvvəlki illərdə bu eybi gizlətməyə, gerçək niyyəti pərdələməyə cəhd ediblər. İndi isə "həya pərdəsi" qaldırılıb, çılpaq bir davranışla məntiqin üzərinə gediblər.

### Monoetnik dövlət "tolerantlıq nümunəsi" ola bilərmi?

Rəsmi statistikaya əsasən, Ermənistan əhalisinin 98,2 faizi etnik ermənilərdən ibarətdir. Cəmi 1,8 faizini isə yezidi kürdlər və digər kiçik qruplar təşkil edir. Ərazisində əvvəllər yaşamış azərbaycanlı, rus, yunan, ukraynalı və digər xalqlar ya tamamilə qovulub çıxarılıb, ya da çox az sayda qalıb. Müqayisə üçün qeyd edək ki, vikipediya məlumatlarına əsasən, Gürcüstan əhalisinin 13 faizi, Azərbaycan əhalisinin isə 8,4 faizi etnik azlıqlardan ibarətdir. Bu göstəricilər Ermənistanın Cənubi Qafqazın ən monoetnik dövləti olduğunu sübut edir. Bir ölkədə etnik və dini azlıqlar mövcud deyilsə, orada hansı "dözümlülük"dən danışmaq olar? ECRI-nin hesabatında isə məhz bu ölkə "regionun tolerantlıq sahəsində irəliləyiş əldə etmiş dövləti" kimi təqdim olunur.

### Unudulan deportasiya: 250 min azərbaycanlının qovulması

Ermənistanın monoetnik strukturunun yaranması təbii prosesin nəticəsi deyil. 1918-1920-ci illər, 1948-1951-ci illər deportasiyasını misal çəkmirik. Çünki onlar Avropa Şurasının yaranışından öncəki tarixdir. Amma 1988–1991-ci illərin soyqırımı, zorakı deportasiyası Avropa Şurasının gözü qarşısında baş verib. 1988–1991-ci illərdə Ermənistan ərazisində yaşayan 250 mindən çox etnik azərbaycanlı zorla köçürülüb, kəndlər yandırılıb, insanlar qətlə yetirilib. Bu deportasiya dalğası nəticəsində azərbaycanlılar tamamilə ölkədən çıxarılıb. Əgər həmin etnik təmizləmə baş verməsəydi, bu gün Ermənistan əhalisinin ən azı 10 faizi azərbaycanlılar olardı.

Bu fakt Avropa Şurasının "dözümlülük qiymətləndirməsi"ni tamamilə alt-üst edir. Çünki ECRI-nin "irəliləyiş əldə edib" dediyi dövlət, əslində, monoetnikliyi zorakılıq və deportasiya ilə əldə etmiş ölkədir. Öz ərazisindəki azlıqları köçürüb qovmaqla, onları fiziki baxımdan aradan qaldırmaqla dözümlü sayılmaq olmaz.

### ECRI-nin məntiqdən uzaq metodologiyası

Bəs Avropa Şurası öz hesabatını hansı metodologiya əsasında aparıb? Ermənistanı hansı düstur əsasında "tolerantlıq örnəyi"nə çevirib?

ECRI-nin açıqladığı sənəddə qeyd olunur ki, Ermənistan "qarabağlı qaçqınların inteqrasiyası və tolerantlığın təşviqi istiqamətində" ciddi addımlar atıb. Bu istiqamətdə AŞ-nin tövsiyələrini "qismən yerinə yetirilib".

Çox aydın şəkildə görünür ki, bu qiymətləndirmənin arxasında siyasi seleksiya dayanır. ECRI Ermənistanın etnik homogenliyini və azlıqların faktiki yoxluğunu problem kimi qeyd etmir. Nəzərə almır ki, əgər bir ölkədə etnik azlıq qalmayıbsa, orada diskriminasiyanın ölçülməsi də mümkünsüzdür.

Digər tərəfdən, Azərbaycan 30 il ərzində öz ərazisində bir molyon nəfərə yaxın qaçqın




və məcburi köçkünü bəsləyib. Onların bütün qayğılarını həll edib, real həyata adaptasiya olunmalarına çalışıb. 30 il müddətində Avropa Şurası nə üçün bircə dəfə bu faktı nəzərə almayıb, Azərbaycanı qaçqınlar və məcburi köçkünlər üçün normal şərait yaratdığına görə yüksək formada dəyərləndirməyib?

### Azərbaycan multikultural dəyərlərin real nümunəsidir

Azərbaycan regionda milli və dini tolerantlığın ən sistemli şəkildə təmin olunduğu ölkədir.

Burada ləzgilər, talışlar, avarlar, yəhudilər, ruslar, gürcülər, ukraynalılar, tatarlar, udinlər və digər onlarca milli mədəni qruplar yüzilliklər boyunca dinc şəraitdə yaşayıblar və yaşayırlar. Sinqoqlar, pravoslav və katolik kilsələri, alban məbədləri, məscidlər və ziyarətgahlar bir-birinin yanında mövcuddurlar. Hazırda ölkədə Multikulturalizm Mərkəzinin, Azərbaycan Xalqları Assambleyasının, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyət göstərməsi deməyə əsas verir ki, burada milli-dini tolerantlıq həm xalqın mənəvi dəyəri, həm də Azərbaycan dövlətinin rəsmi siyasətidir.

Avropa Şurası daxil olmaqla, bəzi Qərb institutları Cənubi Qafqazda insan haqları məsələsinə yanaşmada siyasi konyuktura nümayiş etdirirlər. Azərbaycanın müstəqil və balanslı xarici siyasət kursu çox zaman bu təşkilatların "sabit maraqları" ilə uzlaşmır. Ermənistan isə Qərb siyasi platformaları yönündə pafoslu fikirlər səsləndirdiyi üçün onun barəsində yumşaldılmış tənqidə üstünlük verilir. Bu tendensiya Avropa Şurasının missiyasına, məramnamə və nizamnaməsinə ziddir. Əgər insan hüquqları siyasi münasibətlərin təsiri altında ölçülürsə, bu artıq hüquq deyil, siyasətdir. Əgər Avropa Şurası doğrudan da irqçilik və dözümsüzlüyə qarşı obyektiv mübarizə aparmaq istəyirsə, onda ilk növbədə Ermənistanda baş vermiş etnik təmizləmələrə, azərbaycanlıların deportasiyasına və bu gün davam edən monoetnik siyasətə qiymət verməlidir.

# 1 noyabr 2003-cü il: 22 illik yüksəliş marafonunun ilk günü

(əvvəli 1-ci səhifədə)

Onun “Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!” – cümlələri ilə əlli mi-yonluq xalqımıza gözaydınlığı verməsi də noyabr ayının bəxtinə düşdü, xalqımıza qarşı iki yüz ildən çox davam edən qanlı terror, təxribat, separatçılıq və işğal aktlarına son qoyulması da.

Amma ekspertlərin fikrincə, Ali Baş Komandanımızın noyabr zəfərləri hələ davam edir. Çünki bir həftədən sonra paytaxtımız Bakıda şanlı Zəfərin 5 illiyinə həsr olunmuş möhtəşəm hərbi parad keçiriləcək. Biz o paradın tribunasında beynəlxalq aləmdəki sədaqətli dostlarımızı da görəcəyik, meydan boyu qətiyyətlə addımlayan qalib Azərbaycan Ordusunun mərd, mətanətli, şücaətli əsgər və zabitlərini də. Dünya növbəti dəfə Azərbaycanın hərbi gücünə şahidlik edəcək.

Tarixçilər yazırlar ki, bizim 2003-cü ilin bir noyabrından sonra qazandığımız uğurlar çox olsa da, ən böyük nailiyyətimiz ulu öndər Heydər Əliyevin siyasi kursuna sədaqətimiz, həmin tarixi dəyərin (Heydər Əliyev siyasi kursunun “tarixi dəyər” adlandırılmasını ilk dəfə Türkiyə Prezidenti Süleyman Dəmirəl dilə gətirmişdi) qorunub saxlanılması olmuşdur. Çünki son 22 ildə bizim əldə etdiyimiz nailiyyətlərin hamısının təməlində ulu öndər Heydər Əliyevin müdrikcəsinə işləyib hazırladığı siyasi kursun prinsipləri dayanır.

Xalqımız İlham Əliyevin Prezidentliyi dövründə ölkədə aparılan möhtəşəm tikinti-quruculuq işlərinə, misilsiz sosial layihələrin reallaşdırılmasına, müasir infrastruktur layihələrinin icrasına, beynəlxalq aləmdəki dost və tərəfdaşlarımızın



sırasının genişləndirilməsinə, paytaxtımızın beynəlxalq təşkilatların tədbirlərinin keçirildiyi məkana çevrilməsinə də şahidlik etdi, Bakıda NATO – Rusiya və Rusiya – ABŞ ali hərbçilərinin görüşməsinə də şahidlik etdi, kosmosa rabitə və müşahidə peyklərinin göndərilməsinə də.

Beynəlxalq aləmdəki dostlarımız və tərəfdaşlarımız Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə görə də bizi təbrik etdilər, həmin qurumun sessiya və iclaslarına sədrlik etməyimizə görə də. Tarixçilər Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etməsini, üstəlik, həmin sədrlik müddətinin daha iki il artırılmasını da gənc müstəqil dövlət üçün böyük uğur kimi etiraf etdilər, ölkəmizin BMT-nin mühüm tədbirlərindən olan COP29-a ev sahibliyi etməsini də.

Mütəxəssislərin fikrincə, Azərbaycanın son 22 ildəki uğurları arasında paytaxtımızın çoxsaylı beynəlxalq idman yarışlarına, mədəniyyət, musiqi tədbirlərinə evsahibliyi etməsi də var (Avroviziya mahnı müsabiqəsi, Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula – 1 yarışları, FİFA və UEFA-nın təşkil etdiyi bəzi futbol yarışlarının keçirilməsi) Bakı Prosesi kimi möhtəşəm siyasi-diplomatik zəfər də. Təsadüfi deyil ki, Avropa mütəxəssisləri Azərbaycanın təşəbbüsü ilə yaradılmış Bakı Prosesini “bütün din və konfessiyaların sabahına qayğı” kimi qiymətləndiriblər.

Xatırladaq ki, Bakı Prosesi və ya Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu – Azərbaycan Respublikasının təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüşdür. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ərazisində tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır.

Həmin beynəlxalq təşəbbüsün məğzinə gəlincə isə, deməliyik ki, 2008-ci ilin 2–3 dekabr tarixində təşkil olunan Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 islam ölkəsi dəvət edilmişdi. İslam dövlətlərinin iştirakı ilə mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olunmuş, Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi bu konfransda “Mədəniyyətlərarası dialoqunun təşviqinə dair Bakı Bəyannaməsi” qəbul edilmişdir.

Bu 22 ildə biz Avropa İttifaqına üzv olan ölkələrin əksəriyyəti ilə hərtərəfli əməkdaşlığa da imza atmışıq, Türkdilli Dövlətlərin Əməkdaşlığı Şurasının (TDƏŞ) Türk Dövlətləri Təşkilatına (TDT) çevrilməsinə də, Ərəb Dövlətləri Liqası ilə fəal tərəfdaşlıq etməyə də.

Ən mühümü odur ki, Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində qazanılan uğurların önündə ölkəmizin ərazi bütövlüyünün bərpası, İkinci Qarabağ müharibəsində qazanılan hərbi uğurlar, eləcə də ölkədə sabitliyin və təhlükəsizliyin təmin edilməsi gedir.

İndi isə növbə yeni vüsət götürmüş “Böyük Qayıdış” proqramının uğurla reallaşdırılmasınındır. Bu istiqamətdə həyata keçirilən tədbirlər işğaldan azad olunmuş ərazilərimizdə təşkil edilən beynəlxalq tədbirlərin iştirakçıları, səyyahlar, turistlər və dünya mediasının təmsilçiləri tərəfindən yüksək qiymətləndirilir. Xüsusən, həmin ərazilərdə qısa müddətdə ərsəyə gəlmiş hava limanları, dəmir yolları, avtonəqliyyat infrastrukturu, yeni yaşayış massivləri, məktəblər, sosial obyektlər, bərpa edilmiş kənd və qəsəbələr heyrətamiz şəkildə diqqət çəkir.

Yuxarıda qeyd etdiyimiz kimi, son 22 ilin uğurları davam etməkdədir. İnanırıq ki, həmin uğurlar silsiləsini bu il avqustun 8-də Vaşınqtonda imzalanmış sənədlərin icrası daha da zənginləşdirəcəkdir.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# “3+3” platforması və “Qafqaz evi” ideyası gündəmdədir

(əvvəli 1-ci səhifədə)

XX əsrin sonlarında SSRİ-nin dağılması Cənubi Qafqaz regionunda dərin geosiyasi boşluq yaratdı. Sovet sisteminin çökməsi inzibati sərhədlərlə yanaşı, siyasi idarəetmə və təhlükəsizlik sistemlərini də dağıtdı. Qısa zamanda üç yeni müstəqil dövlət – Azərbaycan, Ermənistan və Gürcüstan – beynəlxalq münasibətlər sisteminə daxil oldu. Lakin bu, regionda inteqrasiya deyil, əksinə, parçalanma tendensiyasını gücləndirdi. Yeni yaranan dövlətlər dövlətçilik institutlarını formalaşdırmaqla yanaşı, öz xarici siyasətlərində fərqli geosiyasi vektorlar seçdilər. Ermənistan Rusiya təhlükəsizlik orbitinə daxil olaraq hərbi asılılıq modelini seçdi, Gürcüstan Qərbyönümlü xəttə üstünlük verdi, Azərbaycan isə çoxvektorlu və balanslı siyasət strategiyasına əsaslandı. Fərqli istiqamətlər region daxilində ortaq platforma formalaşmasına imkan vermədi və Qafqazda yeni müstəqillik mərhələsi dərhal rəqabət və qarşılıqlı inamsızlıqla müşayiət olundu.

1990-cı illərin əvvəllərində Qafqaz xalqları arasında sülh, əməkdaşlıq və təhlükəsizliyə əsaslanan birgə həyat modelini təsəvvür edən “Qafqaz evi” ideyası cəlbedici görünsə də, siyasi reallıqlar onun həyata keçməsini mümkünsüz etdi. Müharibələr, etnik münaqişələr və böyük dövlətlərin regiondakı maraq toqquşmaları bu konsepsiyanın institusional əsasını formalaşdırmağa imkan vermədi. “Qafqaz evi” konsepsiyası sülh və etimad mühiti üçün zəruri olan sosial və siyasi bazadan məhrum idi. Həmin dövrdə regionda “təhlükəsizlik dilemması” üstünlük təşkil edirdi: hər bir dövlət öz təhlükəsizliyini digərinin zərərinə təmin etməyə çalışırdı.

Regiondakı münaqişələr – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsi, Abxaziya, Cənubi Osetiya – həm daxili legitimlik böhranı, həm də xarici güclərin rəqabəti kontekstində alətə çevrilmişdi. Moskva regionda öz hərbi və siyasi təsirini qorumaq üçün bu münaqişələr üzərindən nəzarət mexanizmlərini saxladı. Qərb isə regionu postsovet məkanının demokratiya laboratoriyası kimi görməyə çalışır, enerji və təhlükəsizlik xətləri vasitəsilə öz strateji maraqlarını qoruyurdu.

Cənubi Qafqazda real inteqrasiya üçün əsas şərt – sülh və bərabərhüquqlu tərəfdaşlıq mühiti – yalnız 2020-ci ilin İkinci Qarabağ müharibəsindən sonra formalaşmağa başladı. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi regionda otuz illik status-kvonu dəyişdi və siyasi coğrafiyanı tamamilə yenidən qurdu. Yeni şəraitdə artıq təkcə münaqişənin nəticələri deyil, onun struktur səbəbləri də siyasi analiz və diplomatik təşəbbüslərin mərkəzinə çəkildi. Azərbaycanın qalib tərəf kimi regionda sülhə və qarşılıqlı faydalı əməkdaşlığa yönəlik çağırışları Cənubi Qafqazın postmünaqişə gündəliyinə strateji dərinlik qazandırdı. Məhz bu mərhələdə “Qafqaz evi” ideyası uzun illərdən sonra yenidən aktuallaşdı, lakin bu dəfə praktik siyasi mexanizm formasında – “3+3” regional əməkdaşlıq platforması şəklində. Burada hər bir dövlətin maraqları fərqli olsa da, ümumi məqsəd – Cənubi Qafqazda sülh, sabitlik və qarşılıqlı asılılıq mexanizminin qurulması – bütün tərəflər üçün ortaq strateji dəyərə çevrildi.

*

Platformanın strateji əhəmiyyəti, ilk növbədə, onun inklüziv və simmetrik strukturunda əks olunur. Burada heç bir dövlət digərindən üstün statusda çıxış et-



mir; hər biri həm təhlükəsizlik, həm də iqtisadi maraqlar baxımından öz mövqeyini qoruyur. Belə bir yanaşma diplomatiyada “regional simmetriya” adlandırılan yeni konseptual yanaşmanı doğurur. Əslində bu, Cənubi Qafqazın son otuz il ərzində ilk dəfə öz siyasi məsuliyyətini öz üzərinə götürməsi anlamına gəlir.

Azərbaycan üçün bu model müharibədən sonra sülhün institusional təminatı baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın regional siyasətinin əsas xətti – sabitlik və qarşılıqlı asılılıq üzərində qurulan əməkdaşlıqdır. Azərbaycan “3+3” formatını siyasi revanşizmin deyil, iqtisadi qarşılıqlı faydanın alətinə çevirmək niyyətindədir. Məhz bu kontekstdə TRIPP dəhlizinin, Orta Dəhliz layihəsinin və Cənubi Qaz Dəhlizinin inteqrasiyası “3+3”-ün iqtisadi sütunlarını təşkil edir.

Türkiyə üçün “3+3” formatı Cənubi Qafqazla Orta Asiya arasında geoiqtisadi körpü rolunu oynayır. Ankara bu platformanı Türk dünyasının Avrasiya istiqamə-




tində daha dərin iqtisadi və nəqliyyat əlaqələri ilə birləşməsi üçün siyasi alət kimi görür. Türkiyə bu formatda yalnız Azərbaycanla müttəfiqlik çərçivəsində deyil, həm də İran və Rusiya ilə qarşılıqlı fayda prinsipinə əsaslanan əməkdaşlıqda iştirak edir.

İran üçün “3+3” formatı Qərbyönümlü marşrutların yaratdığı geosiyasi təcridi yumşaltmaq və öz tranzit potensialını qorumaq baxımından strateji əhəmiyyət daşıyır. Tehran uzun illərdir regionda Qərb təsirinə qarşı “balanslaşdırıcı qüvvə” rolunu oynayır və bu format onun üçün həm iqtisadi, həm də təhlükəsizlik baxımından yeni imkanlar açır.

Rusiya isə “3+3” platformasını Qafqazda geosiyasi mövqelərini qorumaq, Qərbin bölgəyə hərbi-siyasi nüfuzunun qarşısını almaq və öz təhlükəsizlik arxitekturasını yerli mexanizmlər vasitəsilə saxlamaq baxımından vacib vasitə kimi qiymətləndirir. Moskva üçün bu model həm də postsovet məkanında özünü legitim regional güc kimi təqdim etmək fürsətidir.

Ermənistan üçün “3+3” həm təcriddən çıxış, həm də postmünaqişə iqtisadi reabilitasiya imkanı deməkdir. Əgər İrəvan bu platformada rasional və praqmatik xətti seçərsə, regiondakı kommunikasiya dəhlizlərinin açılması və iqtisadi inteqrasiya proseslərindən real fayda əldə edə bilər. Bununla belə, Ermənistan siyasətində Qərb–Rusiya dilemması hələ də aydın həllini tapmadığından, bu ölkənin “3+3”-dəki iştirakı müəyyən dərəcədə tərəddüd və ziddiyyətlərlə müşayiət olunur.

Gürcüstanın mövqeyi isə daha kompleksdir. Rəsmi Tbilisi Qərbyönlü siyasətini qoruyaraq, “3+3” formatında formal iştirakdan çəkinir, lakin reallıqda regiondakı iqtisadi və tranzit əlaqələrdə mərkəzi mövqeyə sahib olmaqdan maraqlıdır. Gürcüstanın enerji və logistika sistemində oynadığı strateji rol onu bu formatın potensial iştirakçısına çevirir, “səssiz tərəfdaş” statusunda saxlayır.

Bütün bu fərqli maraqlara baxmayaraq, “3+3” modelinin mahiyyəti maraqların kəsişdiyi nöqtəni tapmaq üzərində qurulub. Məhz bu yanaşma “3+3” platformasını beynəlxalq münasibətlərdə yeni bir modelə – “daxili çoxtərəfli diplomatiya” nümunəsinə çevirir. Burada tərəflər öz aralarındakı münaqişələri birbaşa regional dialoq vasitəsilə həll etməyə çalışırlar.

*

Azərbaycanın bu prosesdə oynadığı rol xüsusi qeyd edilməlidir. Bakı “Qafqaz evi” ideyasını yalnız mədəni simvol deyil, siyasi alət kimi reaktuallaşdırdı və onu “3+3” formatı ilə reallaşdırmaqla, regional liderliyini institusional çərçivəyə saldı. “3+3” formatı nəzəri baxımdan regional sülh və əməkdaşlığın ən rasional modeli kimi görünür. Lakin onun praktik həyata keçirilməsi qarşısında duran çağırışlar bu reallığı mürəkkəbləşdirir. Ən ciddi çətinlik Ermənistanın qeyri-müəyyən siyasi vektorunda cəmlənir. İrəvan hazırda iki istiqamət arasında qalır: bir tərəfdən, Qərblə yaxınlaşma və Rusiyadan uzaqlaşma tendensiyası, digər tərəfdən isə regionda reallığın diktə etdiyi inteqrasiya zərurəti. Ermənistanın Qərb strukturlarına inteqrasiya arzusu onun regional təşəbbüslərə, o cümlədən “3+3” formatına qoşulmasını ləngidir. Halbuki bu platforma İrəvan üçün təcriddən çıxış və iqtisadi nəfəs yolu ola bilərdi.

Rusiya amili də “3+3” üçün həm fürsət, həm risk mənbəyidir. Moskva bu formatı Qərb vasitəçiliyinə alternativ kimi görür, lakin Ukrayna müharibəsi sonrası resurs məhdudiyyətləri onun regional təsirini zəiflədir. Rusiya artıq Cənubi Qafqazda nəzarətçi deyil, daha çox tərəfdaş statusuna doğru çəkilir. Moskva “3+3” platformasında təhlükəsizlik məsələlərinə dominant yanaşma gətirməyə çalışır. İran və Türkiyə arasında geosiyasi balans da “3+3”-ün uğuru üçün həssas məsələdir. Tehran özünü regionun təbii mərkəzi kimi təqdim etsə də, onun siyasətində zaman-zaman təcridçi və şübhəçi meyillər üstünlük təşkil edir. İran xüsusilə TRIPP dəhlizi məsələsində Türkiyə–Azərbaycan əməkdaşlığını ehtiyatla izləyir və bu xətti öz tranzit maraqlarına alternativ kimi görür. Halbuki həmin dəhliz regionu bütövlükdə inteqrasiya etdirə biləcək yeni nəqliyyat və iqtisadi magistral funksiyası daşıyır. Əgər Tehran bu reallığı qəbul edib onu öz iqtisadi strategiyasına inteqrasiya edə bilsə, “3+3” formatında İranın rolu sabitləşər. Əks halda, Tehran–Ankara rəqabəti regionda periodik gərginlik yarada bilər.

Platformanın qarşısında duran digər mühüm çağırış Qərbin bu prosesdəki mövqeyidir. “3+3” modeli Qərb strukturlarının – xüsusən də Aİ və ABŞ-ın – regionda vasitəçilik və normativ rolunu dolayısı ilə kənarda qoyur. Brüssel və Vaşinqton regionun təhlükəsizlik arxitekturasının yalnız Qərb institutları ilə təmin edilə biləcəyini iddia edir. Halbuki, “3+3” post-Qərb reallığında regional subyektivliyin ifadəsidir.

Digər bir risk platformanın institusional zəifliyidir. “3+3” hələlik daha çox siyasi niyyət bəyanatı və diplomatik format kimi fəaliyyət göstərir; onun daimi sekretariatı, qərarverici orqanı və hüquqi mexanizmləri mövcud deyil. Formatın effektiv işləməsi üçün strukturlaşdırılmış mexanizm zəruridir.

Bütün bu çətinliklərə baxmayaraq, “3+3”-ün əsas üstünlüyü onun elastikliyidir. Əgər tərəflər siyasi iradə göstərsələr, o, həm böhranların idarə olunması, həm də regional inteqrasiyanın təməl mexanizminə çevrilə bilər. Bu baxımdan Azərbaycan və Türkiyənin təşəbbüskarlığı, Gürcüstanın tranzit rolu, İranın geoiqtisadi imkanları və Rusiyanın təhlükəsizlik resursları birləşsə, Cənubi Qafqazda uzunmüddətli sabitlik modeli formalaşa bilər.

Beləliklə, “3+3” qarşısında riskləri idarə etməyi bacardığı təqdirdə, təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında regional əməkdaşlığın yeni arxitekturasına çevrilə bilər. Əks halda isə “Qafqaz evi”nin ilk versiyası kimi, o da ideal səviyyəsində qalmaq təhlükəsi ilə üzləşər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İşçi qrupları ilə Cənubi Qafqazda tarixi əməkdaşlıq gözlənilir



**ABŞ hökuməti ilin sonunadək Azərbaycan və Ermənistanla ilk İşçi qruplarının yaradılmasını planlaşdırır. Məlumatı Birləşmiş Ştatların Dövlət Departamentinin mətbuat xidməti yayıb. Bildirilib ki, işçi qruplar infrastrukturun inkişafı, sərhədin demarkasiyası, minalardan təmizlənməsi və Cənubi Qafqaz nəqliyyat marşrutlarının ümumi beynəlxalq logistika sisteminə inteqrasiyasına yönəlmiş nəqliyyat və enerji təşəbbüsü olan Zəngəzur dəhlizi (TRIPP) layihəsini həll edəcək. Bəyanatdan göründüyü kimi, Tramp administrasiyasının bu addımı Vaşinqtonun Cənubi Qafqazda sülh prosesinə sistemli yanaşmaq və tərəflərlə paralel əməkdaşlıq mexanizmləri formalaşdırmaq niyyətindən xəbər verir. Qurum, həmçinin Azərbaycanın öz ərazisindən yüklərin Ermənistana tranzitinə icazə verməklə bağlı son qərarını, eləcə də iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin İrəvanda keçirdiyi görüşü yüksək qiymətləndirib.**

Regionda yaranan yeni geosiyasi reallıqlar, xüsusilə Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının intensivləşməsi beynəlxalq aktorların marağını yenidən bölgəyə yönəldib. ABŞ Dövlət Departamenti tərəfindən təsdiqlənmiş planın mahiyyəti, əslində, uzun illərdən bəri davam edən münaqişənin diplomatik yolla yekunlaşmasına dəstək vermək məqsədi daşıyır. Bu təşəbbüs Prezident İlham Əliyevin Vaşinqton səfəri və orada keçirilən yüksək səviyyəli görüşlərin məntiqi davamıdır. Azərbaycan–ABŞ münasibətləri bu gün strateji əməkdaşlıq səviyyəsinə yüksəlib. Bunun bariz nümunəsi kimi Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupun yaradılması barədə Anlaşma Memorandumunun imzalanmasını göstərmək olar. Bu, enerji, ticarət, tranzit, müdafiə və süni intellekt kimi sahələrdə əməkdaşlığı genişləndirməyə imkan yaradacaq. Ekspertlərin fikrincə, bu qurum regional olmaqla yanaşı, həm də beynəlxalq səviyyədə mühüm töhfələr verəcək.

Məlum olduğu kimi, bu il avqustun 8-də dövlətimizin başçısının ABŞ-a səfəri, iki ölkə liderləri arasında aparılan danışıqlar enerji təhlükəsizliyinin və nəqliyyat-kommunikasiya xətlərinin gələcək inkişafı ilə bağlı mühüm istiqamətləri müəyyənləşdirdi. Səfərin ən diqqətçəkən məqamlarından biri isə "907-ci düzəliş"in tətbiqinin dayandırılması barədə sənədin imzalanması idi. Bu addım uzun illərdir Azərbaycanın qarşısında duran süni maneələrin aradan qaldırılmasını təmin edir və Vaşinqtonla münasibətlərin yeni reallıqlara uyğun formata keçirildiyini göstərir. Həmçinin Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında imzalanan Birgə Bəyannamə də regionda sülhün təməlinin qoyulduğunu göstərir. Sənəddə Azərbaycanın irəli sürdüyü əsas tələblərin – ATƏT-in Minsk qrupunun ləğvi, Ermənistan Konstitusiyasının preambulasından ərazi iddialarının çıxarılması, eləcə də Naxçıvana quru yolun açılmasını nəzərdə tutan Zəngəzur dəhlizinin (TRIPP) reallaşdırılması öz əksini tapıb. Donald Trampın dəhlizin təminatçısı kimi çıxış etməsi bu layihəyə qlobal əhəmiyyət qazandırır. Dəhlizin məqsədi Cənubi Qafqazı enerji, logistika və ticarət baxımından birləşdirən müasir nəqliyyat arteriyası yaratmaqdır. Zəngəzur dəhlizi (TRIPP) həm iqtisadi, həm də siyasi baxımdan regional sabitliyi gücləndirəcək potensiala malikdir. Dəhliz istifadəyə verildiyi təqdirdə Azərbaycan Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzi kimi əhəmiyyəti daha da arta bilər. Bununla da rəsmi Bakı regional sülhün və əməkdaşlığın əsas dayağı kimi çıxış edəcək. Bundan başqa, sənədlərin Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən paraflanması sülh müqaviləsinin imzalanmasına aparan vacib mərhələdir.

Qeyd olunduğu kimi, ABŞ-ın bu təşəbbüsləri 30 illik Azərbaycan–Ermənistan münaqişəsinə son qoydu. Bayden administrasiyasından fərqli olaraq, prezident Donald Trampın səyləri nəticəsində Cənubi Qafqaz yeni mərhələyə keçid edib. Azərbaycanın ərazi bütövlüyünün bərpası, separatizmin tam ləğvi ABŞ dövləti tərəfindən qəbul edilib. Ağ Ev sahibinin bu prosesdə şəxsən iştirakı bölgədə sabitliyin bərqərar olmasına yönələn tarixi addımdır və bir çox ekspertlər bunu vaxtilə ABŞ-ın 39-cu prezidenti Cimmi Karterin təşəbbüsü ilə İsrail və Misir arasında əldə olunan sülh razılaşması – Kemp-Devid müqaviləsi ilə müqayisə edirlər.

Sonda onu da qeyd edək ki, ABŞ–Azərbaycan İşçi qrupunun yaradılmasından fərqli olaraq, ABŞ–Ermənistan İşçi qrupu ilə bağlı cəmiyyətində və media orqanlarında fikirlər müxtəlifdir. Burada həm müsbət yanaşma, həm də narahatlıq ifadələri yer alır. Hökumətyönlü saytlar məsələyə müsbət şərhlər versə də, bəzi xəbər portalları bu tip təşəbbüslərin əsasən ABŞ-ın maraqları daxilində olduğunu və Ermənistan üçün risklər daşıdığını bildirir. Xüsusilə Rusiya–Ermənistan informasiya şəbəkəsinin bir hissəsi olan "ArmenianReport" hesab edir ki, bundan sonra ölkənin Rusiya təsir dairəsindən uzaqlaşması daha da sürətlənəcək.

*Musa BAĞIRLI*
*XQ*

### *Ekspert rəyi*

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



İşçi qrupunun yaradılması, təbii ki, iki ölkə arasında əməkdaşlığın daha da gücləndirilməsinə, xüsusən də ticarət əlaqələrinin genişləndirməsinə gətirib çıxaracaq. Nəzərə alsaq ki, Azərbaycanla ABŞ arasında illik ticarət dövriyyəsi 1,8 milyard dollardır. Burada əsas məqsədlərdən biri Azərbaycanın qeyri-neft məhsullarının ABŞ bazarlarına çıxarılmasıdır. Bu istiqamətdə həm strateji tərəfdaşlıq, həm də strateji işçi qrupunun yaradılması və fəaliyyətə başlaması praktiki olaraq Azərbaycan üçün iqtisadi baxımdan yeni imkanlar yaradacaq.

Digər tərəfdən isə bu regionda sülhün dəstəklənməsi və davamlı sülhün əldə edilməsi baxımdan vacibdir. Azərbaycan regionda sülh və əməkdaşlığın gücləndirməsində maraqlıdır. Nəticə etibarilə Azərbaycan ərazisindən Ermənistana tranzit daşımalarına məhdudiyyətlərin aradan qaldırılması da ondan xəbər verir ki, ölkəmiz əməkdaşlığın gücləndirməsində real addımlar atır.

İşçi qrupun yaradılması, sözsüz ki, sülh gündəliyində duran əsas vasitələrdən biridir. Bu, həm Azərbaycan–Ermənistan arasında normallaşma prosesinə, eyni zamanda, növbəti mərhələdə iqtisadi əlaqələrin və kommunikasiyaların yenidən bərpasına gətirib çıxaracaq. Həmçinin beynəlxalq platformalarda Azərbaycanın siyasi mövqeyinin daha da gücləndirilməsinə xidmət edəcək

### *Ekspert rəyi*



**Asim MOLLAZADƏ,**
**Milli Məclisin deputatı**

İşçi qrupunun yaradılması təkcə diplomatik planda yeni mərhələnin başlanğıcı deyil, həm də regionda sabitlik və uzunmüddətli əmin-amanlıq mühitinin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Bu təşəbbüs göstərir ki, Birləşmiş Ştatlar Cənubi Qafqazda sülhün bərqərar olması istiqamətində real və praktiki addımlar atmaq niyyətindədir. Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasından sonra bölgədə yaranan yeni geosiyasi reallıq beynəlxalq güclər, xüsusilə də ABŞ tərəfindən qəbul edilir. İşçi qrupunun yaradılması məhz bu reallığın tanınmasının və əməkdaşlığa çevrilməsinin göstəricisidir.

Azərbaycan və ABŞ arasında əlaqələr Donald Trampın prezidentliyi dövründə yüksələn xətlə inkişaf edir. Prezident İlham Əliyevin ABŞ-a avqust səfəri və Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşlər iki ölkə münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu təsdiqlədi. Səfər çərçivəsində imzalanmış sənədlər, elan edilən işçi qruplarının hüquqi və siyasi bazasını təşkil edir. Eyni zamanda, bu təşəbbüs Vaşinqtonun regionda uzunmüddətli sülhün və iqtisadi əməkdaşlığın təşviqində maraqlı olduğunu göstərir. ABŞ Cənubi Qafqazı artıq təkcə təhlükəsizlik baxımından deyil, həm də enerji, nəqliyyat və innovasiya platforması kimi dəyərləndirir. Bu kontekstdə Azərbaycanın Zəngəzur dəhlizi (TRIPP) üzərindən həyata keçirdiyi layihələr Qərbin, xüsusən də ABŞ-ın diqqət mərkəzindədir.

ABŞ-Azərbaycan İşçi qrupu iki ölkə arasında iqtisadi, texnoloji və təhlükəsizlik sahələrində koordinasiyanı gücləndirəcək, regional sabitliyə töhfə verəcək. Paralel olaraq, Ermənistanla yaradılacaq işçi qrupunun fəaliyyətinin regionda qarşılıqlı etimad mühitinə xidmət edəcəyi gözlənilir. Bu baxımdan, ABŞ-ın təşəbbüsü həm Bakı, həm də İrəvan üçün yeni imkanlar açır. Əgər bu proses səmimi şəkildə davam etdirilərsə yaxın gələcəkdə iki ölkə arasında sülh müqaviləsinin imzalanması reallaşa bilər.

# Afrikada hələ də Avropa kabusu dolaşmaqdadır

## Bakı Təşəbbüs Qrupu tarixi ədalətin sonadək bərpa edilməsində israrlıdır

**Belçikanın müstəmləkə siyasəti nəticəsində Konqo Demokratik Respublikasında 10 milyondan çox insan öldürülüb, on minlərlə insanın əlləri kəsilib və ölkənin mədəni resursları talan edilib. 1933-cü ildə Ruanda və Burundidə 600 min etnik kimlik kartı paylanılaraq etnik bölgü siyasəti aparılıb. Bu, 1972 və 1994-cü illərdə kütləvi soyqırımlara zəmin yaradıb. 1940–1950-ci illərdə isə 20 min metis uşaq ailələrindən zorla ayrılaraq Belçikaya aparılıb.**

Yazımızım əvvəlində verdiyimiz bu dəhşətli faktları insanlığa qarşı ağır cinayətlə yanaşı, bəşəriyyət üçün üz qarası, "tarixi amneziya" adlandırmaq olar. Mərkəzi Afrikadakı Belçika müstəmləkəçiliyinin tarixi bəşəriyyətin ən qaranlıq səhifələrindən biridir. 1885-ci ildə Belçika Kralı II Leopold Konqo Azad Dövləti elan edərkən, o, Afrikanın böyük bir ərazisini faktiki olaraq şəxsi mülkiyyətinə çevirdi. "Sivilizasiya missiyası" və "Köləliyə qarşı mübarizə" şüarları altında Belçika monarxı yerli əhaliyə qarşı amansız məcburiyyətə, kütləvi qətl və iqtisadi talanlara əsaslanan istibdad sistemi yaratdı. İndi daşların toplanan dövrü başlayıb. Müharibə cinayətkarları kimi, müstəmləkə rejimlərini yaradanlar da Femida qarşısına çıxarılacaqlar.

Bakı Təşəbbüs Qrupu (BTQ) bir daha nümayiş etdirdi ki, Azərbaycan qlobal tarixi ədalət məsələlərindən kənarda deyil. İlk dəfə olaraq BTQ-nin təşkilatçılığı ilə Bakıda Belçikanın müstəmləkə keçmişinə və onun bu günə qədər davam edən ağır fəsadlarına həsr olunmuş "Belçika müstəmləkəçiliyi: tanınma və məsuliyyət" adlı beynəlxalq konfrans keçirildi. Tədbirdə Belçikanın keçmiş müstəmləkələri – Konqo Demokratik Respublikası, Ruanda və Burundidən olan nümayəndələr, diplomatlar və rəsmi şəxslər, 8 ölkədən beynəlxalq hüquq üzrə ixtisaslaşmış mütəxəssislər, tarixçilər, tədqiqatçılar, vətəndaş cəmiyyəti fəalları və reparasiya məsələləri üzrə ekspertlər iştirak ediblər.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu beynəlxalq hüquq çərçivəsində Belçikanın keçmiş müstəmləkələrində törətdiyi cinayətlərə görə kompensasiya tələbinin beynəlxalq səviyyəyə çıxarılması və bu mövzunun beynəlxalq təşkilatların gündəliyinə salınması istiqamətində də iş aparır. Konfrans iştitrakçılarının dilindən BTQ-nin, həmçinin ölkəmizin ünvanına səslənən, mənunluq və minnətdarlıq ifadələrini eşitmək qürurverici idi. Misal üçün, Fransalı jurnalist Jan-Mişel Brunun çıxışında söylədiyi "azərbaycanlılar bu məsələyə qarşı çox həssasdırlar. Azərbaycan müstəmləkəçilik və neokolonializmə qarşı mübarizədə dünyanın çoxmədəniyyətli ölkələrindən biridir" fikri maraqla qarşılandı. Brunun ardınca ölkəmizdə 50-dən çox fərqli etnik qrupun, xalqın yaşadığına, Azərbaycanın özünün də müəyyən mənada müstəmləkəçiliyə məruz qalmasına diqqəti çəkdi: "Azərbaycan əvvəlcə Sovet İttifaqının tərkibində olub, daha sonra isə Qarabağın ermənilər tərəfindən işğalı faktı bir növ müstəmləkəçilik formasına bənzəyir". Və bunun ardınca, ən azı, son 30 ildə Ermənistana hərtərəfli dəstək verən bir ölkənin nümayəndəsinin çıxışında Azərbaycanı dünyada müstəmləkəçilikdən əziyyət çəkmiş xalqların səsinə səs verən yeganə ölkə kimi qiymətləndirməsi heyrətamiz olduğu qədər də təqdirəlayiq sayılmalıdır.



*

BTQ-nin təşkil etdiyi beynəlxalq konfrans xüsusilə Afrika qitəsindən gəlmiş qonaqların çıxışlarının kəskinliyi, rəngarəngliyi ilə yanaşı, müstəmləkəçiliklə bağlı toxunulan məsələlərin çeşidi ilə seçilirdi. Lissabon Universitetinin nəzdindəki Beynəlxalq Araşdırmalar Mərkəzində doktorant və almaniyalı tədqiqatçı Abbas İsmail beynəlxalq konfransın "Tanınma və məsuliyyət: simvolik jestlər və təminatlar" mövzusunda keçirilən panel müzakirəsindəkı çıxışında siyasi kimlik məsələsini önə şəkdi və bu baxımdan Ruandanın yaxşı nümunə olduğunu bildirdi. "Belçika kolonializmi yalnız ərazini idarə etməyib, həm də Ruanda cəmiyyətində bugünkü zərərli kimlik kateqoriyalarını formalaşdırıb" – deyə Abbas İsmail vurğuladı.

Mövzuya paralel olaraq Belçikanın müstəmləkəçilik tarixinə bir daha nəzər yetirməyimiz yerinə düşər. Belçika idarəçiliyinin ağır nəticələri Konqoda hələ də hiss olunur. Dünyanın ən böyük mis, kobalt, uran və nadir torpaq metal ehtiyatlarına malik olan Afrikanın bu zəngin diyarı planetin ən kasıb ölkələrindən biri olaraq qalır. Elə buradaca onu da əlavə etmək lazımdır ki, müstəmləkəçiliyin irsi təkcə iqtisadi asılılıq deyil, həm də süni şəkildə yaradılmış etnik ziddiyyətlər, siyasi qeyri-sabitlik və xarici güc mərkəzlərindən asılılıqdır. Bunu bizə təkzibolunmaz tarixi faktlar deyir.



Məhz tarixi yaddaş nöqteyi-nəzərindən Afrika Peşəkar Sertifikatlaşdırma İnstitutunun sədri Atanga Desmond Funvienin beynəlxalq konfransın "Tanınma və məsuliyyət: simvolik jestlər və təminatlar" mövzusunda keçirilən panel müzakirəsində dilə gətirdiyi acı həqiqəti nəzərinizə çatdırırıq: "Tariximizi gənc nəsillərə öyrətmək zəruridir. Media işçiləri öz ölkələrinin tarixini yazmalı, kitablar və sənədli filmlər vasitəsilə nəsillərin bu məlumatlara çıxışını təmin etməlidirlər. Bu, icmalarda baş verən hadisələri anlamağa, bir nəsildən digərinə tarixi ötürməyə və insanların kim olduqlarını anlamalarına kömək edir".

Yəqin Desmond Funvienin nə qədər haqlı olduğunu beynəlxal tədbir iştirakçılarının hamısı qəbul edir. Bu gün Avropanın bir çox dövlətləri öz müstəmləkə tarixlərini ört-basdır etməyə, yenidən yazmağa çalışarkən, özlərini "maarifçi" kimi təqdim edərkən, Bakı Təşəbbüs Qrupu müstəmləkəçilik cinayətlərindən açıq danışan azsaylı beynəlxalq platformalardan birinə çevrilib. BTQ artıq bəyannamələrlə məhdudlaşmır; müstəmləkəçiliyin fəsadlarından hələ də əziyyət çəkən xalqları dəstəkləmək üçün praktiki və analitik fəaliyyət sərgiləyir.

Son illər təşkilat diqqəti əvvəllər Fransanın müstəmləkəsi olan ölkələrdəki vəziyyətə fəal şəkildə cəlb edərək, stereotipləri dağıtmağa və xalqların tarixi yaddaş və ədalət hüquqlarını müdafiə etməyə kömək edir. Bakı Təşəbbüs Qrupunun Afrika xalqlarına dəstəyi, əslində, Azərbaycanın işğaldan, zorakılıqdan, talandan sağ çıxanlarla dərin həmrəyliyinin təzahürüdür. Xarici təcavüzü, ədalətsizliyi, qərəzliyi təkbaşına yaşamış Azərbaycan dövləti müstəqillik, ləyaqət və söz haqqı uğrunda mübarizə aparmağın nə demək olduğunu mükəmməl şəkildə anlayır. Təcrübə isə paylaşılanda fayda gətirir. Hesab edirik ki, bu mövqe yeganə düzgün mövqedir. Axı dünya müstəmləkəçiliyin cinayətlərinə səssiz qalanda bunun adı, sadəcə olaraq, unutqanlıq deyil. Bu, ədalətsizliyin davamıdır. Bir çox Avropa paytaxtları öz müstəmləkə vəhşiliklərinin miqyasını etiraf etməsələr də, bizə və dünyaya o həqiqətləri xatırladan Bakıdan ucalan səslərdir. Bu səslər deyir ki, milyonlarla insanın qanı ilə heç bir rifah qurmaq mümkün deyil. Ən əsası isə Bakı Təşəbbüs Qrupu tarixi həqiqətin məqamının yaxınlaşdığını nümayiş etdirir.

Müstəmləkə imperiyaları keçdi, lakin onların kölgələri iqtisadi asılılıqlarda, bərabərsizliklərdə və stereotiplərdə qalmaqdadır. Və bu gün Afrika yenidən yüksəlməyə başladığı kimi, Azərbaycan da həqiqəti söyləmək istəyənlərin yanındadır. Çünki ölkəmiz özü kimi ədalət uğrunda mübarizə aparanlara hərtəfəli dəstəyini artıq sübuta yetirib.

**P.S.** *Hələ 5 il bundan əvvəl BMT-nin bir qrup eksperti rəsmi Brüsselə özünün müstəmləkəçi keçmişinə görə üzr istəməsini tövsiyə etsə də, onlardan səs çıxmamışdı. Amma Belçika rəhbərliyi anti-Azərbaycan və anti-Türkiyə fəaliyyətindən bu gün də əl çəkmir. Belçika ermənilərin mif yaradıcılığına lobbiçilik edənlərin yedəyində gedən və qondarma "erməni soyqırımı"nın tanınması barədə parlament qətnamələri qəbul edən ölkələrdən biridir. Tarixi ədalətin zəfərinə, yaxud taleyin ironiyasına diqqət edin: indi Belçikanın özü müstəmləkəçilik siyasətinə görə ittham olunur. Bəs, 5-6 il əvvəl başqasının gözündə tük axtaran, Türkiyəyə "keçmişinə cəsarətlə baxmağı" tövsiyə edən Brüsselin bu gün öz gözündə tiri görməyə cürəti çatacaqmı?*

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan–Türkiyə: terrorsuz Türk dünyası strategiyası

I MƏQALƏ

## Terrorun "institutlaşması": neqativ ənənə



Bəşəriyyət üçün hazırda terror bəlasından xilas olmaq əsas məsələlərdən biri hesab olunur. Müasir dünyanın siyasi mozaikasında tədqiqatçılar beynəlxalq terrorun yerini mütləq vurğulayırlar. Əslində isə, terror və onun müxtəlif formalarının qədim tarixə malik olduqlarını elmi araşdırmalarda yazırlar. Bir sıra elmi tədqiqatda terrorun kökünün qədim tarixə gedib çıxdığı vurğulanır (məsələn, Q.A.Antonovun dissertasiyasında). O da xüsusi qeyd edilir ki, tarix boyu terror və onun formaları transformasiyalara uğramışdır. O, fərdi zorakılıq xarakterindən qrup və kollektiv təcavüz və məhvetmə xüsusiyyətinə qədər dəyişmişdir. Müəyyən mənada bəşəriyyətin neqativ terror törətmə ənənəsi formalaşmışdır. Yəni indi terrordan daha çox bütövlükdə sosial-siyasi fenomen kimi danışırlar.

Bu qısa qeydlər heç də əsassız deyildir. İndi dünyada elə bir insan, qövm, cəmiyyət və ölkə yoxdur ki, terrordan xəbərsiz olsun. Bir sıra xalqlar əsrlərlə bu bəlaya məruz qalmışlar və mübarizə aparmışlar. Lakin terrorun sonu gəlmir...

Bundan başqa, qəribə də olsa, bəşər övladı özünü məhv etmək üçün terrorun müxtəlif üsullarını ixtira etməkdədir. Adını necə qoysalar da, terror istənilən formada insanı, insanlığı məhv edir. Kollektiv birgəyaşam formasını dağıdır, bütöv qövmün qarşısına çox ciddi problemlər çıxarır. Bir çox xalqlar faktiki olaraq ölüm-qalım savaşı verirlər.

İndi tədqiqatlarda terroru "qloballaşan cinayətkarlıq" kimi xarakterizə edən alimlər vardır (tarixçilər, politoloqlar, kulturoloqlar, filosoflar və s.) Onu milli, regional və qlobal təhlükəsizliyə təhdid hesab edirlər. Burada radikal siyasi niyyətlərin olduğundan bəhs olunur. Terrorun milli institusional strukturlaşmaya çox mənfi təsir etməsini araşdırırlar. Onun sosial mühiti müxtəlif aspektlərdə iflic etdiyindən yazırlar. Dolayısı ilə hazırda terror cəmiyyətdə sosial balansı pozur və onun bərpasına ciddi əngəllər yaradır. Qlobal səviyyədə isə terror dünyanın siyasi idarəedilməsinin sivil və hüquqi aspektinə, ədalətliliyə, humanitarlığa çox ciddi ziyanlar verir, beynəlxalq hüququ səmərəsiz edir. Buna görədir ki, müasir tədqiqatçılar "beynəlxalq terroru sosial-siyasi rejim dəyişmələrinin destruktiv modusu" kimi xarakterizə edirlər (Q.A.Antonov və başqaları).

Terror və onun müasir növləri haqqında uzun yazmaq olar. Ancaq yuxarıdakı qısa qeydlərdən belə aydın görünür ki, terror fenomeni sivil, hüquqi və qanuni sosial-siyasi institutlaşmanı pozmaqla özünün institutlaşması istiqamətində təkamülünü davam etdirir. Dünyanın elə bir regionu yoxdur ki, orada terror küləyi əsməsin. Hətta onun yeni texnologiyalardan istifadə və yeni daha incə, hiyləgər, böyük dağıdıcılıq potensialına malik təşkilatlanma üsullarına yiyələnidiyini müşahidə edə bilərik.

Bundan başqa, indi ciddi alimlər belə yazırlar ki, terror "milli, dini, geosiyasi, regional və digər sərhədlərini" aşmışdır – o, faktiki olaraq, ümumbəşəri miqyasda antiinsani, antimədəni, antisosial xarakteri almışdır. Artıq dünyada heç bir fərd, heç bir qövm və heç bir dövlət terror hədəfi olmaqdan yayına bilmir.

Özlüyündə belə bir sual meydana çıxır: terrorun bu dərəcədə "dəbə minməsi"nin, bəşər miqyasında dağıdıcılıq gücünün artmasının günahkarı kimlərdir və ya hansı siyasi kurlsardır? Niyə özünü çox güclü və hər şeyə qadir sayan "fövqəldövlətik" deyənlər terrora qarşı bu dərəcədə aciz və zavallı vəziyyətdədirlər? Necə olur ki, Azərbaycan regional miqyasda çox ciddi bəla olan terroru məğlub edir, amma dünyaya meydan oxuyan "yekə dövlətlər" bunu bacarmırlar?

## Həqiqət axtarışı: kimdir günahkar?

Bu sual nə formaldır, nə də ritorikdir. İstehzası da yoxdur. Bu sual terrorla bağlı indiyə qədər danışılanların üzünə dik baxıb, bəşəriyyətin xilası üçün rol oynaya biləcək həqiqət anının axtarışına dəvətdir! Həm də bəlkə də dünyada terrordan əsrlərlə zülm görmüş bir xalqın səslənişdir!

Qərb tarixçilərinin qənaətinə görə, "terror" sözü Avropada fransız inqilablarından (XVIII əsr) sonra geniş yayılmağa başladı. Fransada 1793-1794-cü illərdə mövcud olan idarəetmə sistemini terror rejimi adlandırırlar. Amerikan analitiki B.Hoffman yazır ki, Böyük fransız inqilabı dövründən "terrorizm" termini iki mühüm məna kəsb edir.

Birincisi, müasir KİV-in təqdim etməyə çalışdığı kimi, fransız terror rejimi təsadüfi və nizamsız xarakter daşımırdı. Əksinə, nizamlı, sistemli və düşünülmüş fəaliyyət göstərirdi.

İkincisi, onun əsas məqsədi və özünə haqq qazandırmasının arqumenti "yeni və daha yaxşı cəmiyyət" yaratmaqla bağlı idi.

Bu yanaşma əsasında B.Hoffman terrorun tarixi "institutlaşması" məsələsini qaldırır. Onu cəmiyyətin sosial-siyasi dəyişikliklərinin zəruri aləti adlandırır. Belə yanaşmanı öz növbəsində terrorun "qanuniləşməsi", onun cəmiyyətdə "yenilik alətlərindən biri" kimi təsəvvür edilməsi və həmin əsasda daha geniş məkanlara yayılmasına hüquqi əsas yaradılması istiqamətində atılan addım kimi qiymətləndirmək olar. Bu baxımdan B.Hoffmanın terroru müsbət mənada "potensial impuls" adlandırması da düşündürücüdür.

Burada tədqiqatçıların vurğuladıqları bir maraqlı məqamı mütləq vurğulamaq lazımdır. Onlar hesab edirlər ki, terrorun tarixi institutlaşmasının əlamətlərindən biri fransız anlamında onun Avropa və Rusiyada antimonarixst və inqilabi hərəkatın ideoloji bazası olmasından ibarətdir. Bu gedişat XVIII-XIX əsrlərdə terrora haqq qazandıran yeni "universal" ideologiyanı və onun fonunda isə terrorizmin yeni formasını (Terrora zorakı antidövlət fəaliyyəti kimi haqq qazandırma cəhdi. İtalyan inqilabçısı Karlo Pizakane bununla bağlı yazmışdır ki, "zorun tətbiqi yalnız cəmiyyətin diqqətini cəlb etmək üçün zəruri deyildir, həm də maarifləndirmədir, təlimdir") meydana gətirdi.

Bizim baxdığımız mövzu üçün bu fikirlər çox vacibdir. Çünki belə görünür ki, türk ölkələri, insanları, cəmiyyətləri və dövlətlərinin əsrlərlə üzləşdiyi amansız terror prosesinin sistemli, düşünülmüş və xüsusi məqsədli özəllikləri vardır. Onun ideoloji və feili qaynağı isə əsasən Qərb olmuşdur. Eyni zamanda, inqilabçılıq adı altında həmin tendensiyanın Rusiyaya güclü yayılması bu imperiyanı da qatı düşmənə çevirmişdir.

Ayrıca, ideoloji olaraq türk dövlətçiliyinə hücumlar "daha yaxşı cəmiyyət qurmaq" kimi ibarələr fonunda həyata keçirilirdi. Hesab edirdilər ki, bu kimi ideya bəhanələri ilə həmişəlik olaraq türk xalqlarına qarşı apardıqları soyqırımlara, terrorlara haqq qazandıra biləcəklər. Məsələ bu dərəcədə geniş və dərindən qoyulmuşdu.

Daha geniş aspektdə belə bir vəziyyət türk dövlətçiliyinin XVIII əsrdən başlayaraq "terror mühasirəsi"nə alınmasını əks etdirir. Bu tezisin sübutu üçün konkret olaraq Azərbaycana terrorun tətbiqinin dövlətçilik kontekstində bir sıra xronoloji, ideoloji və zorakı özəlliklərinə baxaq.

## Azərbaycan dövlətçiliyinə qarşı iki istiqamətdən sistemli terror

Əsasən XVII əsrdən başlayaraq Səfəvi və Osmanlıya qarşı həm Qərb, həm də Rusiya imperialist dairələri təcavüzkar fəaliyyətlərinə başladılar. Buna qədər 1514-cü ildə Səfəvi ilə Osmanlı imperiyasının hərbi toqquşması olmuşdu. İki türk imperiya dövlətinin, təəssüf ki, ittifaqı və ya düşmənə qarşı birləşmə meyilləri hiss edilmirdi. Onları qarşı-qarşıya qoyanlar tədricən hər ikisini əllərində olan bütün imkanlardan istifadə edərək vurmağa başladılar. Proseslər göstərdi ki, bura ideoloji təxribatlar, hərbi zərbələr, qarşıdurma yaratmaq cəhdləri və əsas olaraq terror daxildir. Tarixi xronologiyaya nəzər salaq.

1651-1653-cü illərdə birinci Rusiya-Səfəvi müharibəsi oldu. Səfəvilər müharibədə qalib gəldilər. Xatırladaq ki, Avropada 1648-ci ildə Vestfal Sazişi ilə öz aralarında sülh yaratmağa çalışırdılar. Məhz həmin dönəmdə Səfəvi, Rusiya və Osmanlının bir-biriləri ilə qanlı savaşlar aparmaları düşündürücüdür. Sonrakı illərdə, XVIII əsr boyu - 1722-1723-ci illər, 1730-1732-ci illər, 1734-1735-ci illər, 1795-1796-cı illərdə Səfəvi-Rusiya müharibələri oldu. Bu müharibələrin əsasən qalibi Səfəvi olmuşdur. Osmanlı İmperiyası ilə Rusiya imperiyasının aralarında apardıqları müharibələrin sayı XIX əsrin ikinci onilliyi də daxil olmaqla, 8 olmuşdur.

Deməli, XVII əsrdən başlayaraq XIX əsrin ilk iki onilliyinə qədər Səfəvi, Osmanlı və Rusiya arasında çoxlu sayda müharibələr baş vermişdir. Azərbaycan üçün ən faciəlisi Rusiyanın təcavüzünə qarşı aparılan müharibələrin nəticəsi olaraq imzalanan Kürəkçay (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri idi. Çünki Azərbaycanı iki yerə parçaladılar – Şimali və Cənubi Azərbaycana böldülər. Şimali Azərbaycan Rusiyanın nəzarətinə keçdi, Cənubi Azərbaycan isə Qacarların nəzarətində qaldı.

Ancaq anti–Azərbaycan siyasəti bunlarla yekunlaşmadı. Aydın hiss edilirdi ki, əlinə fürsət keçmiş imperialist dairələr, ümumiyyətlə, Azərbaycan (türk) dövlətçiliyini məhv etməyi qarşılarına məqsəd qoymuşlar. Bunu Türkmənçaydan sonrakı proseslər sübut edir. Ayrıca, İrəvan xanlığı hələ 1827-ci ildə işğal olunmuşdu. 1828-ci ildən sonrakı dönəmdə isə Zəngəzur, Zəngibasar, Göyçə, Borçalı və digər ərazilər işğal edildi.

Bununla yanaşı, XIX əsrin ikinci yarısından yeni bir terrorla təsiretmə xətti – erməni terroru yaratdılar. Azərbaycan dövlətçiliyi faktiki olaraq iki istiqamətdən, birincisi, Rusiya imperiyasının dövlət kimi hərbi yürüşləri, ikincisi, Qərb və Rusiyanın yaratdığı yeni təcavüz xətti – erməni terrorunun çarpaz fəaliyyətlərinə məruz qalmağa başladı.

Bu vəziyyət Azərbaycan dövlətçiliyinin sonrakı taleyi baxımından dönüş nöqtəsi kimi təsəvvür edilə bilər. Lakin onun təməlində Rusiya imperiyasının artıq Azərbaycanı siyasi və ərazi olaraq iki yerə parçalamasından yaranan mənzərə dayanırdı. Yəni erməni terrorunun aktiv fəaliyyəti üçün havadarları və himayədarları siyasi və coğrafi bazanı hazırlamışdılar. Onun ideya sütununu isə əsasən Qərbdə hazırlanmış prinsiplər müəyyən edirdi. Sonrakı proseslər göstərdi ki, həmin ideya prinsipi elə də mürəkkəb deyildir. Onun başlıca məzmunu ermənilərə müraciətən "harda müsəlman, türk gördün öldürmək tarixi haqqındır, çünki sən qədim mədəniyyətə, dövlətçilik ənənəsinə maliksən və türklərin məskən saldığı hər yer sənindir", deyirdilər və onu sənədlərdə yazırdılar.

Bununla havadarları erməni terrorunun fəlsəfi-ideoloji məzmununu hazır şəkildə ortaya qoydu. XIX əsrin ikinci yarısından tədricən həmin ideoloji prinsip əsasında radikal erməni qrupları yaratdılar və onları terror təşkilatı formasında təkmilləşdirməyə başladılar. Başlıca məqsədləri Azərbaycan (türk) dövlətçiliyini məhv etmək olan həmin erməni vəhşi qrupları ağalarının əmrlərini tam yerinə yetirməyə çalışdılar. Bunun başlıca əlaməti terrorçuların olduqca amansız və misli görünməmiş vəhşi üsullarla müsəlmanları və əsasən azərbaycanlıları, osmanlıları məhz etməkdən ibarət oldu. Burada iki tendensiya özünü göstərməyə başladı.

Birincisi, ermənilər hansı səviyyədə terror və dağıdıcılıq edirdilərsə, Qərbdə və Rusiyada ona haqq qazandırır və ya ən azından fikir vermirdilər.

İkincisi, azərbaycanlılar nə etsələr, onu günahkar çıxarırdılar və üstəlik, erməni terroruna qarşı mübarizə aparmaq haqlarını tanımaq istəmirdilər. Səfəvi və Osmanlı zəif olduqlarından bu prosesin qarşısını almaqda aciz qaldılar.

XIX əsr məhz bu ruhda sonuncu onilliyinə qədəm qoydu. Və daha güclü erməni terror hərəkatı həmin dönəmdən vüsət almağa başladı. Bu prosesin göstəricisi qısa müddətdə - 1885-ci il - 1890-cı illər müddətində, üç müxtəlif coğrafiyada eyni məqsədli üç erməni terror təşkilatının yaradılmasıdır. 1885-ci ildə Osmanlıda "Armenakan", 1887-ci ildə İsveçrədə "Hnçak" və 1890-cı ildə Tiflisdə "Daşnaksütun" meydana gəldi. Bu, erməni terrorunu həm məzmun və məqsəd, həm də funksiyaca yeni səviyyəyə yüksəltmək demək idi ki, çox keçmədən bütün Qafqaz onun şahidi oldu.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qarabağda quruculuq dünyanı heyran qoyur

## *Diplomatik korpus isə bölgənin gələcəyinə Zəngəzur dəhlizi layihəsindən baxdı*

**Beynəlxalq münasibətlər gücün və iradənin toqquşduğu arenadır və burada ən kəsərli silah inkarı qeyri-mümkün vizual reallıqdır. Azərbaycanın postmünaqişə dövründə yürütdüyü xarici siyasətin əsas sütununu məhz həmin prinsip təşkil edir. Sözlərin, bəyanatların yaratdığı informasiya dumanını birbaşa təmasın və gözlə görülən faktların aydınlığı ilə yarmaq. 31 oktyabr tarixində Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə 51 ölkəni və 12 beynəlxalq təşkilatı təmsil edən 100-dən artıq diplomatın Cəbrayıl və Zəngilana başlayan 20-ci yubiley səfəri strategiyanın yüksək zirvəsidir. Səfər beynəlxalq ictimaiyyətin diqqətini bərpa prosesinin miqyasına cəlb edərək Zəngəzur dəhlizinin artıq müzakirə mövzusu olmadığını, Avrasiyanın gələcək xəritəsini cızan reallıq olduğunu nümayiş etdirən yüksək səviyyəli diplomatik aksiyadır.**

Bu səfərlərin arxasında dayanan strateji məntiqi anlamaq üçün onun hədəf kütləsini və məqsədini dərindən bilmək lazımdır. Səfərin iştirakçıları təsadüfi seçilmiş şəxslər deyillər. Onlar öz ölkələrinin və təmsil etdikləri beynəlxalq təşkilatların "gözləri və qulaqları"dır. Həmin şəxslərin hazırladıqları hesabatlar, göndərdikləri teleqramlar və bölüşdükləri şəxsi təəssüratlar paytaxtlarda Azərbaycanla bağlı formalaşan xarici siyasət kursuna birbaşa təsir etmək gücündədir.

Azərbaycan tərəfi onilliklər boyu formalaşmış və bəzi hallarda hələ də davam edən qərəzli erməni təbliğatının yaratdığı informasiya blokadasını yarmaq üçün ən effektiv yolu birbaşa təması "görməyin inanmaq olduğu" prinsipini seçib. Bu, proaktiv və şəffaf diplomatiyanın bariz nümunəsidir. Bakı bu addımlar vasitəsilə beynəlxalq tərəfdaşlarına vasitəçilər olmadan birbaşa müraciət edir və onlara deyir: Gəlin, öz gözlərinizlə otuzillik işğalın nəticələrini, talan edilmiş şəhər və kəndləri, dağıdılmış mədəni irsi görün və eyni zamanda, həmin ərazilər üzərində cəmi bir neçə il ərzində hansı möcüzəvi quruculuq işlərinin aparıldığının şahidi olun. 20-ci dəfə təşkil edilən səfər siyasətin ardıcıl, sistemli və uzunmüddətli olduğunun göstəricisidir.

Cəbrayıl və Zəngilan səfərin marşrutu olaraq xüsusi strateji məna daşıyır. Cəbrayıl işğal dövründə ən çox dağıntıya məruz qalmış, erməni vandalizminin qurbanı olmuş rayonlardan biridir. Diplomatların burada aparılan bərpa işləri ilə tanış olması Azərbaycanın tamamilə sıfırdan qurulması tələb olunan ən çətin bölgələri belə dirçəltmək əzmini və gücünü nümayiş etdirir. Zəngilan isə bütün region üçün yeni gələcəyin qapısıdır. Məhz Zəngilan Avrasiyanın yeni nəqliyyat damarı olacaq Zəngəzur dəhlizinin Azərbaycan ərazisindəki başlanğıc nöqtəsidir.

Diplomatların Ağbənd qəsəbəsi ərazisindəki dəmir və avtomobil yolları ilə bağlı görülən işlərlə yerində tanış olması layihənin artıq nəzəri müzakirə mərhələsini keçərək sürətli fiziki reallığa çevrildiyini bütün dünyaya bəyan edir. Beynəlxalq nümayəndələr relslərin necə döşəndiyini, körpülərin necə ucaldığını və yolların necə çəkildiyini gözləri ilə gördükdə Zəngəzur dəhlizinin sadəcə Bakı ilə Naxçıvanı birləşdirən yol olmadığını, onun Çindən Avropaya uzanan Orta Dəhlizin həlledici bir parçasına, regional ticarət və logistika üçün alternativsiz marşruta çevrildiyini daha aydın dərk edirlər. Bu, Bakının strateji hədəflərindən bir addım belə geri çəkilməyəcəyinin və regionun gələcəyini müəyyən edən layihələri qətiyyətlə həyata keçirdiyinin əyani sübutudur.

Səfər proqramına daxil edilən digər obyektlər də Azərbaycanın Qarabağ üçün müəyyən etdiyi inkişaf modelinin konturlarını cızır. Zəngilan rayonundakı "Dost Aqropark" heyvandarlıq kompleksi, kənd təsərrüfatının sadəcə ənənəvi formada bərpa edilmədiyini, əksinə, ən müasir texnologiyalar "ağıllı ferma" konsepsiyası əsasında yenidən qurulduğunu göstərir. Bu, işğaldan azad edilmiş ərazilərin yüksək texnologiyalara əsaslanan ixrac potensiallı və rəqabətə davamlı iqtisadi zonaya çevrilməsi hədəfinin təzahürüdür. Həkəri çayının Zəngilan rayonu ərazisindən keçən hissəsində yerləşən Həkəri dəmir yolu stansiyasına baş çəkilməsi isə regionun nəqliyyat-logistika potensialının dərinliyini nümayiş etdirir. Stansiya Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə yüklərin daşınmasında mühüm bir qovşağa çevriləcək.

Diplomatların Zəngilan şəhərindəki yaşayış kompleksi məktəb və uşaq bağçası binaları ilə tanış olması "Böyük Qayıdış" proqramının sosial tərəfini onun insan amilinə yönəldiyini vurğulayır. Bu, insanların doğma yurdlarına qayıdaraq təhlükəsiz, müasir və rahat həyat qurması üçün bütün şəraitin yaradılması deməkdir. Məktəblərdən gələn uşaq səsləri, yeni tikilmiş mənzillərin pəncərələrində yanan işıqlar, dağıntı və digər proseslərdən sonra həyatın torpaqlara necə qayıtdığının ən güclü simvoludur. Eyni zamanda, Zəngilan şəhər məscidinə baxışın proqrama daxil edilməsi də mühüm simvolik məna daşıyır. Azərbaycanın otuz il ərzində mədəni və dini irsi laqeydliyə məruz qalmış tarixi-dini abidələrini necə həssaslıqla bərpa etdiyini və multikultural dəyərlərinə sadiq qaldığını göstərən amildir.



Diplomatik korpus nümayəndələrinin səfəri həyata keçirilən işlərin miqyasını və regionun inkişaf potensialını yaxından görmək, həmçinin işğaldan azad edilmiş ərazilərin davamlı bərpası, sosial-iqtisadi dirçəlişi, reinteqrasiyasının təmin olunması istiqamətində ölkəmizin səylərini dəyərləndirmək üçün unikal imkan yaradır. Lakin səfər bir neçə həlledici nəticəyə xidmət edir. Birincisi, Azərbaycan özünün postmünaqişə narrativini tamamilə özü formalaşdırır və beynəlxalq ictimaiyyətə birbaşa çatdırır. Bakı kiminsə onun haqqında nə yazmasını və ya nə danışmasını gözləmir, əksinə, gündəmi özü müəyyən edir və beynəlxalq ölkələri bu gündəmin iştirakçısına çevirir. İkincisi, həmin səfərlər vasitəsilə potensial investorlar və tərəfdaş ölkələr üçün aydın mesajlar göndərilir: Qarabağ və Şərqi Zəngəzur nəhəng iqtisadi potensiala malik, sərmayələr üçün açıq və təhlükəsiz regiondur.

Oktyabrın 31-də baş tutan səfər Azərbaycanın müasir diplomatiya tarixində uğurla tətbiq etdiyi strateji kommunikasiya siyasətinin növbəti parlaq səhifəsidir. Bu, regionda yeni təhlükəsizlik, əməkdaşlıq mühitinin yaradılması və Azərbaycanın Cənubi Qafqazın hərbi-siyasi lideri olmaqla yanaşı, həm də iqtisadi və quruculuq lokomotivinə çevrilməsi haqqında əsərdir. Dağıdılmış ərazilər üzərində ucalan yeni şəhərlər və kəndlər, o cümlədən öz yurdlarına qayıdan insanların ümid dolu baxışları Azərbaycanın ən güclü diplomatik silahıdır. Və dünyanın 100-dən artıq nümayəndəsi bərpa-quruculuq işlərinə heyran qalmaqla yanaşı, həmin silahın sarsılmaz gücünün bir daha şahidi oldu.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycanın ideoloji təhlükəsizliyinə təhdid yolverilməzdir!

## Kardinallar və emissarlar əmin olsunlar ki...

**Vaxtilə dünyanın cənginə almış qloballaşma ideyasının iflası fonunda yaşanan proseslər ortaya bir reallığı da qoyur. Söhbət qapanmadan gedir. Xeyir, bu qapanma heç də beynəlxalq aləmdən təcrid mahiyyəti daşımır. Dünyanı özünə düşmən bilmə kimi total qorxu da ön planda deyil.**



Məsələ ondadır ki, qloballaşma adı altında ayrı-ayrı cəmiyyətlərin ənənəvi dəyərlərinə zidd təmayüllər meydana çıxdı və duruma həssas yanaşmayanlar oldu. Onlar qloballaşmanın saxta mahiyyət daşıdığının, siyasi oyun olduğundan fərqinə varanda isə hər şey gec idi. Cəmiyyətlər, habelə onların qərarlaşdığı dövlətlərin təməlləri artıq sarsılmışdı.

Dünya Tunisdə, Misirdə, Liviyada "ərəb baharı" adı altında gerçək hakimiyyət çevrilişlərini gördü. O çevrilişləri ki, onlardan geniş xalq kütlələri heç bir fayda götürmədilər. Bu gün vaxtilə inqilab etmiş tunisli günlərini içməli su növbələrində keçirirsə, hələ də işsiz-gücsüz durumdadırsa, başqa nə deyəsən?

Əlbəttə, qloballaşma oyunu bumeranq effekti yaratmaya bilməzdi. Çünki liberalizm viruslarının yeridildiyi, liberalizmin demokratiya kimi təqdim olunduğu cəmiyyətlərdəki sonrakı durum, xüsusən insanların rifahının pisləşməsi kütləvi axın yaratdı. Bu axın "dünya bizim evimizdir" deyərək ağızlarını köpükləndirənləri hərəkətə keçirdi. Onlar evlərinin dünya əhalisi üçün darlığını nəinki gördülər, eyni zamanda, darlığın ağırlığını çiyinlərində daşımaq məcburiyyətində qaldılar. Məsələn, Avropanı götürək. Hazırda "köhnə qitə"nin çox öyündüyü sosial sistemində çatlar o qədər böyükdür ki, sızıntıların qarşısını almaq olmur. Fransada ard-arda nazirlər, baş nazirlər dəyişir, amma heç bir xeyri yoxdur. Çünki sistem çürüyüb. Ümumən, Avropanın bir çox yerlərində də durum eynidir. Ona görə ABŞ Prezidenti Donald Tramp qitənin liderlərini qarşısına qoyub uşaq kimi məzəmmət edir...

Yeni dünya nizamının qaydaları şəraitində əvvəldə haqqında söz açdığımız qapanma təmayülü ABŞ üçün necə keçərlidirsə, digər dövlətlər üçün də eyni dərəcədə labüddür. Başlıca vəzifə qloballaşmanın iflası, beynəlxalq hüquq prinsiplərinin sıradan çıxdığı, yeni dünya nizamının mahiyyətcə necə olacağının qeyri-müəyyənliyi fonunda ayaqda qalmaqdır. Nəzərə alaq ki, həmin nizamı özlərinin maraq və mənafeləri kontekstində görənlər, başqa dövlətlərin daxili işlərinə qarışaraq daha çox mənfəət dalınca qaçanlar fəaliyyətdədirlər. Onların iç üzünü "COVİD-19" pandemiyası zamanı yaxşı gördük. Gördük ki, həmin vaxtadək bəyan edilən bəşəri dəyər və prinsiplər lakmus kağızından başqa bir şey deyilmiş. Dövlətlərin bir-birilərinə qarşı çox amansız davrandıqları da diqqətimizdən yayınmadı.

Bütün bunların fonunda gözlərimiz önündə Azərbaycan reallıqları canlanır. Ulu öndər Heydər Əliyevin ustalıqla müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla icra edildiyinin şahidiyik. Bu gün dövlətimizin başçısının sayəsində ölkəmiz beynəlxalq miqyasda tam müstəqil xarici siyasət yürütməkdədir. 44 günlük müharibədəki Zəfərimizin verdiyi yüksək dividend Azərbaycanı Cənubi Qafqazın söz sahibinə, dünyanın hesablaşdığı, daha dəqiq desək, hesablaşmaq məcburiyyətində qaldığı mərkəzə çevirib. Uğurlarımıza sevinənlərin olduğu kimi, nailiyyətlərimizi gözü götürməyənlər də var. İkincilər, sanki, pusquda dayanaraq, azacıq zəiflik göstərməyimizi gözləyirlər. İstəyirlər ki, ölkəmiz 1990-cı illərin əvvəllərindəki kimi olsun. Çalışırlar ki, xaos və anarxiya şəraitində özlərinin mənfəət səltənətlərini qursunlar. Belələrinin xarici təzyiq metodları ilə yanaşı, daxili rıçaqlardan da yararlanmaq cəhdləri aktualdır. Çox güman, diqqətli oxucularımız, ümumən cəmiyyətimiz Prezident Aparatının keçmiş rəhbəri Ramiz Mehdiyevin ifşa olunması fonunda ölkəmizə qarşı ideoloji diversiya planının miqyasının böyüklüyünü təsəvvürə gətirir.

Bir anlıq həmin planın həyata keçəcəyi təqdirdə, Azərbaycanda vəziyyətin hansı şəkil alacağını düşünək. Düşünək ki, 44 günlük müharibədəki Zəfərimiz, torpaqlarımızın işğaldan qurtulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası baş verməyib, ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun həmsədrləri bölgəyə mənasız səfərlər gerçəkləşdirir, bizləri təcavüzlə barışmağa çağırıb sərsəmləyirlər.

Onu da düşünək ki, xaricdə kimlərsə doğma el-obamıza sahiblənmək əzmimizi qırmaq üçün gəlişigözəl cümlələri ilə ölkəmizdə, guya, anti-demokratik mühitin olduğunu iddia edir, "nowar"çı kəsimi, saxta sülh göyərçilərini, feministləri işə salaraq əsrlərdən bəri daşıdığımız dəyərləri heçə sayırlar. Hələ nəzərlərimizdə özünü müxalifət sayıb normal müxalif düşüncədən kənar qütbü də canlandıraq.

Şübhəsiz, bütün bunlar Azərbaycan xalqından manqurt, etinasız, idarə olunan kütlə və qövm yaratmaq istəyənlərin planları idi. Çox şükür, məhz bu kimi niyyətlər ifşa edilməkdədir və proses davamlı xarakter daşımalıdır. Proses ona görə davamlı olmalıdır ki, ölkənin siyasi industriyası özünüsağlamlaşdırma immunitetini qorusun, bu industriyada "5-ci kolon" təmsilçilərinə meydan tanınmasın.

Bəli, müxtəlif imitasiyalara baş vuraraq kimlərinsə, hansısa kənar qüvvələrinsə buyruğunu yerinə yetirən "kardinallar" Azərbaycan adlı məmləkətdə heç bir məkrli məqsədlərinə, dövlətimizi sarsıtmaq yönümlü istəklərinə nail ola bilməyəcəklərini anlamalıdırlar. Nəinki anlamalı, eyni zamanda, tam dərk etməlidirlər ki, təxribat və nifaq, bölücülük və dağıdıcılıq kimi yaramaz cəhdləri fayda verməyəcək. O kardinalların bozluqları özlərinə qalacaq.

Nəhayət, bütün dünya bilməlidir ki, Azərbaycan dövləti silah gücünə olduğu kimi, ideoloji müstəvidə də özünün təhlükəsizliyini təmin etmək iqtidarındadır. İdeoloji təhlükəsizlik həssas məsələdir. Bu həssaslıqda hakimiyyət uğrunda mübarizə ilə dövlətə xəyanətin bir-birindən tam ayrı seqmentləri var. Bu mühitdə plüralist fikir özündə cəmiyyətə fayda kimi əsaslandırılmış motiv daşımalıdır, dövlətə qarşı demarş xüsusiyyətini yox!

Ölkəmizdə təkcə antimilli qüvvələrə deyil, ümumən antimilli düşüncəyə yer olmamalıdır. Çünki qazandığımız uğur və nailiyyətlər əldən verilə bilməz. Heç bir qüvvə xalqımızı təcrübə dovşanı kimi təsəvvürə gətirib Cənubi Qafqaz siyasi platformasındakı yüksək mövcudiyyət dəyərimizi sarsıtmamalı, hətta buna cəhdə belə cəsarət göstərməməlidir.

Söz və ifadə, sərbəst toplaşmaq azadlığı adı altında manipulyativ gedişlər sıradan çıxarılmalı, belə gedişləri planlayanların müxtəlif sosial şəbəkələr vasitəsilə cəmiyyətimizdə bölücülük yaratmaq istəkləri faş olunmalıdır və olunacaq. Bütün bunlar müstəqilliyimizin və severenliyimizin ideoloji fazada da möhkəm struktura sahiblənməsi baxımından son dərəcə vacibdir.

Ona görə vacibdir ki, əvvəldə haqqında söz açdığımız qloballaşmanın iflası fonunda maskaların yırtılmasının ağır nəticələri ilə üzləşməyək. Biz müstəqilliyimizin ilk illərində uğursuzluğa düçar olmuş xalq kimi çörək növbələrinə düzüldük və üzüldük. Kimsə, heç bir qüvvə qalib xalqı su növbəsində dayanmağa məcbur edə bilməz və bilməyəcək!

***XQ-nin analitik qrupu***

# Ermənistan sülh sazişi imzalanmasını niyə ləngidir?

**(əvvəli 1-ci səhifədə)**

Göründüyü kimi, Ermənistanın hökumət rəhbəri, faktiki olaraq, əvvəlki tezisi təkrarlamaqla məşğuldur. O, eyni zamanda deyib ki, ölkəsi ilə Azərbaycan arasındakı sülh sazişinin mətnində tərəflərin bir-birilərinə ərazi iddialarının olmadığı və gələcəkdə də belə iddialar irəli sürməmək öhdəliyini üzərilərinə götürdükləri barədə çoxsaylı müddəalar var: "Buna görə də əgər hər hansı fərziyyələr və ya iddialar varsa, sülh sazişi bütün bu məsələləri əhatə edir".

Əlbəttə, Paşinyan əsl mahiyyəti nəzərə almır, bilərəkdən, yaxud bilməyərəkdən məsələləri qarışdırır. Başlıca məqam ondadır ki, Ermənistan Konstitusiya Məhkəməsinin 2024-cü ildə çıxardığı məlum qərar ölkənin əsas qanununun Azərbaycanla sülh sazişinin bağlanmasına maneə yaratmadığını vurğulayırdı. Başqa sözlə desək, qərar daha çox yozumdur və ya şərhdir. Yozumun və şərhin isə gerçək hüquqi təsir qüvvəsi yoxdur.



İkincisi, Ermənistan Konstitusiya Məhkəməsi məlum qərarı ona görə çıxarmışdı ki, həmin vaxt erməni müxalifəti Azərbaycanla sülh sazişi mətninin ölkənin əsas qanununa zidd olduğunu vurğulamışdı. Müxalif kəsimin təmsilçiləri bu məqamı qabardarkən, konstitusiyanın Ermənistanın 1990-cı ildə qəbul edilmiş İstiqlaliyyət Bəyannaməsinə istinadını əsas götürmüşdülər. Bəyannamədə isə "Dağlıq Qarabağ Muxtar Vilayəti" ifadəsi yer alır və keçmiş muxtar vahidin Milli Şurası deyilən qondarma qurumun qərarının Ermənistan Respublikasının yaranması üçün baza olduğu vurğulanır.

Belə bir durumda Ermənistan Konstitusiya Məhkəməsinin həmin bəyannamənin hazırkı Konstitusiyada və hüquqi sistemdə birbaşa qüvvəsinin olmadığını açıqlaması mənasızdır. Deməli, qurumun sözügedən qərarı Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasına və sülh sazişi prosesinə konstitusion əsas yaratsa da, ölkənin ərazi iddiası məntiqindən daşındığını təsdiqləmir. Bunun üçün referendum keçirilməlidir. Görəsən, məğzi anlamaq çoxmu çətindir?

Azərbaycan sülhə fundamental yanaşır və ona görə Ermənistan konstitusiyasının ölkənin İstiqlaliyyət Bəyannaməsinə istinad buxovundan qurtulmasının vacibliyini vurğulayır. Rəsmi Bakı sülhə həm də ona görə fundamental yanaşır ki, Paşinyan hakimiyyəti bu gün var, sabah olmaya da bilər. Deməli, məsələ hakimiyyətlərin deyil, xalqındır. Yəni erməni xalqı referendum yolu ilə özünün iradəsini göstərməli, işğalçılığa son qoyduğunu, ərazi iddiasına düşməyəcəyini bəyan etməlidir. O qədər uca səslə bəyan etməlidir ki, gələcəkdə ölkə rəhbərlik edəcək hansısa qüvvə onu avantürizm üçün alətə çevirməyi düşünməsin.

Yeri gəlmişkən, onu da bildirək ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamə imzalananda, habelə sülh sazişinin mətni paraflananda Ermənistandakı radikal kəsim sənədi lakmus kağızı kimi qiymətləndirmişdi. Belə nəticə hasil olmuşdu ki, həmin kəsimin təmsilçiləri hakimiyyətə yiyələndikləri təqdirdə razılaşmanı pozacaqlar.

Digər tərəfdən, Paşinyanın İstiqlaliyyət Bəyannaməsindəki "Dağlıq Qarabağ" ifadəsinin sülhə maneçilik törətdiyinə dair vaxtilə səsləndirdiyi fikir var. Yəni prinsip etibarilə, baş nazir Azərbaycanın tələbinin nədən qaynaqlandığının fərqindədir. Paşinyan, həmçinin, onu devirmək istəyən qüvvələrin sülhə necə yanaşdıqlarından da xəbərdardır. Deməli, hökumət rəhbəri xalqının gələcəyini düşünürsə, sülh yolundakı bütün maneələri aradan qaldırmalı, bunun üçün özündə cəsarət tapmalıdır. Cəsarət tapıb konstitusiya dəyişikliyinin Azərbaycanın Ermənistanın daxili işlərinə qarışması kimi təqdimatlarına meydan oxumalı, məsələyə prinsipial yanaşmalıdır.

Sonda onu da bildirək ki, otuz ilə yaxın işğal dövrünü nəzərə alsaq, Azərbaycanın Ermənistanda konstitusiya dəyişikliyi tələbi tam haqlıdır. Prezident İlham Əliyevin dediyi kimi, "Bu, birbaşa bizə aidiyyəti olan məsələdir. Bizim ərazi bütövlüyümüzə olan açıq tələbdir, iddiadır. Ona görə bu düzəliş edilmədən sülh sazişi imzalana bilməz". Dövlətimizin başçısı



Vaşinqtondakı müsahibəsində bunu da bildirib ki, ölkəmiz Ermənistan qarşısında qeyri-real və qəbul edilə bilməyəcək şərtlər qoymayıb.

Üstəlik, Prezident Əliyevin rəsmi Bakının İrəvanla sülh sazişinin imzalanması üçün irəli sürdüyü birinci şərti olan ATƏT-in Minsk qrupunun ləğvi ilə kostitusiya dəyişikliyi şərti arasında müqayisə apardığı da məlumdur: "Amma nədənsə Minsk qrupunun ləğvi ilə bağlı bizim əsaslı təklifimiz mənfi reaksiya ilə üzləşirdi. Halbuki dəfələrlə biz izah etməyə çalışırdıq ki, bir halda Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bir halda artıq Ermənistan özü deyir ki, Qarabağ Azərbaycandır, Minsk qrupunun de-yure qalması tamamilə məntiqsizdir. Onsuz da o, öz funksional mahiyyətini itirmişdir və biz heç vaxt imkan verməzik ki, bu, hər hansı bir formada canlansın, yaxud da hansısa başqa formaya minsin. Ona görə bu gün sülh sazişinin paraflanması və Minsk qrupunun ləğvi ilə bağlı bizim müştərək müraciətimiz, hesab edirəm ki, birinci maneəni aradan qaldırıb. Yenə də deyirəm, bu gün bu paraflanma Ağ Evdə baş tutdu. Ona görə mən şübhə etmirəm ki, Ermənistan Konstitusiyası dəyişdiriləndə, - Ermənistan tərəfi özü bunu bildirir ki, belə dəyişikliklər edilməlidir, - Azərbaycana olan ərazi iddiası oradan çıxarılacaq. Əks təqdirdə, bu, birinci növbədə Amerika Birləşmiş Ştatlarına hörmətsizlik olacaq. Hər kəs bilir və bizim mövqeyimiz, demək olar ki, bütün aparıcı beynəlxalq aktorlar, o cümlədən Amerika Birləşmiş Ştatları tərəfindən anlayışla qarşılanır. Çünki sülh sazişi imzalananda hər bir məsələ öz həllini tapmalıdır və bizə qarşı olan əsassız ərazi iddiası oradan çıxarılmalıdır. Ona görə mənim bu məsələ ilə bağlı şübhəm yoxdur. Yenə də deyirəm, bunun nə vaxt olacağı Ermənistanın öz işidir. Biz burada hər hansı bir təklif irəli sürə bilmərik. Ancaq mən hesab edirəm ki, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki məncə, vaxt itirmək lazım deyil. Bir halda ki, artıq Azərbaycanla Ermənistan sülh sazişini paraflayıb, onun rəsmi imzalanması da çox çəkməməlidir".

Sonda ümumiləşdirmə apararaq belə deyək: Ermənistanın Azərbaycana qarşı ərazi iddiasına dair məsələlərə kökündən son qoyulması üçün Paşinyanın bildirdiyi kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanması və sənədin ratifikasiyadan keçərək, hüquqi qüvvəyə malik olması deyil, ilk növbədə dövlətimizin başçısının vurğuladığı məqamlar əsas götürülməlidir. Yaxşı olar ki, rəsmi İrəvan mahiyyətdən uzaqlaşmasın. Çünki uzaqlaşma sülhü də ləngi, etimad mühitinin formalaşmasına zərər vurur.

***Ə.RÜSTƏMOV***
***XQ***

## “ART Weekend” çərçivəsində “Püstə: canlı irs” performansı







**Oktyabrın 31-də “Bakıya Uçuş. İncəsənət həftəsonu. Gələcəyimizi İNDİ Duy” (“Fly to Baku. Art Weekend. Sense the Future NOW”) layihəsinin daha bir tədbiri - “Püstə: canlı irs” təqdimatı Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində keçirilib.**

Əvvəlcə Maqsud İbrahimbəyovun “Püstə ağacı” hekayəsi əsasında hazırlanan monotamaşa təqdim edilib. Oxucunu duyğular, xatirələr və nostalji dünyasına aparan əsərin mərkəzində keçmişlə bu gün arasındakı ayrılmaz bağlılığın rəmzinə çevrilən püstə ağacı dayanır.

Maqsud İbrahimbəyovun ən təsirli əsərlərindən biri olan bu hekayədə hadisələr bir uşağın gözü ilə nəql olunur. Bu monotamaşada müharibə illərindəki uşaqlığını xatırlayan artıq böyümüş oğlan obrazını isə Azərbaycanın Əməkdar artisti Şövqi Hüseynov canlandırıb. Tamaşaçılar onunla birlikdə mərkəzində iri bir püstə ağacı bitən kiçik Bakı həyətinə səyahət ediblər.

Sonra "Azərxalça” ASC-nin toxuduğu triptix – üç xalçadan ibarət əsər təqdim olunub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva kompozisiya ilə tanış olub.

Bildirilib ki, kompozisiya çətinliklərə baxmayaraq həyatın yenidən başlaya və bar verə biləcəyini göstərir. Su isə triptixdə üç hissəni birləşdirən mühüm rəmz kimi verilir. O, böyümə və inkişaf üçün zəruri həyat gücünün rəmzi olaraq həyatın dövri xarakterini vurğulayır.

Daha sonra Leyla Əliyevanın iştirakı ilə Mərkəzin terrasında püstə ağacı əkilib.

Qeyd edək ki, bu mərasim suya, həyata və təbiətə qayğının rəmzi kimi təcəssüm olunur. Püstə - keçmişlə gələcəyin, sənətlə ekologiyanın, insanla torpağın vəhdəti kimi qələmə verilir.

Daha sonra IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri İçərişəhərdə təşkil olunmuş Zeytun Festivalını ziyarət edib. Ölkəmizin ayrı-ayrı bölgələrindən gətirilən zeytun və zeytun məhsulları ilə tanış olub. Festivala gələn şəhərimizin qonaqları və turistlərlə səmimi söhbət atmosferində keçən ziyarətdə xatirə şəkilləri də çəkilib.

# Heydər Əliyev Mərkəzində “ART Weekend” festivalının rəsmi açılışı

*Açılışda “Art Weekend” layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər*





**Oktyabrın 31-də Heydər Əliyev Mərkəzində “ART Weekend” festivalının rəsmi açılışı olub. Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə paytaxtımızda başlayan “ART Weekend” bir sıra ölkələrdən incəsənət və mədəniyyət xadimləri, kuratorları bir araya gətirib.**






Rəsmi açılışda “Art Weekend” layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Milli Məclisin sədri Sahibə Qafarova, mədəniyyət naziri Adil Kərimli və digər qonaqlar iştirak ediblər.

Festival günlərində paytaxtın müxtəlif sərgi salonları, muzeylər, təhsil ocaqları və ayrı-ayrı tarixi-mədəni məkanlarında sərgi, görüş, performanslar təşkil olunur. Festivalın Heydər Əliyev Mərkəzindəki açılış tədbirində isə “Mənim dənizlərim, mənim okeanlarım” (“My Seas, My Oceans”) sərgisinin və məşhur kolumbiyalı rəssam-heykəltaraş Fernando Boteronun əsərlərindən ibarət “Bədii formanın təntənəsi” (“The Triumph of Form”) sərgisinin təqdimatı keçirilib.

Açılış tədbirində qonaqlar “DanceAbility Azərbaycan” tərəfindən hazırlanan rəqsi də izləyiblər. “DanceAbility Azərbaycan” İnklüziv Performans Şirkətinin hədəfi ustad dərsləri, müəllim təlim proqramları, əlilliyi olan və olmayan şəxslərin birgə keçirdiyi rəqs və digər nümayişləri vasitəsilə inklüziv cəmiyyətin inkişafına töhfə verməkdən ibarətdir.

İncəsənət festivalının açılışında çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, bu günlərdə Azərbaycanda, xüsusilə də Bakı şəhərində çox mötəbər tədbirlər keçirilir. Məhz Leyla Əliyevanın təşəbbüsü ilə ilk dəfədir ki, böyük “Art Weekend" Bakıda keçirilir. A.Ələkbərov qeyd edib ki, festival çərçivəsində paytaxtda 40-a yaxın incəsənət tədbirinin keçirilməsi nəzərdə tutulur: “Çox sevindirici haldır ki, incəsənətsevərlər bu gün burada bir araya gəliblər. Dünyanın müxtəlif ölkələrindən Bakıya gələn qonaqları salamlayıram. Fürsətdən istifadə edərək, Bakı sakinlərini, qonaqlarımızı bu gözəl tədbirləri izləməyə dəvət edirik. Hazırda Heydər Əliyev Mərkəzində ənənəvi sərgilər, konsertlər və konfranslar keçirilir. Bu gün isə məşhur kolumbiyalı rəssam-heykəltaraş Fernando Boteronun əsərləri burada nümayiş etdirilir”.

“Bədii formanın təntənəsi” sərgisinin kuratoru, Fernando Boteronun qızı Lina Botero çıxışında atasının yaradıcılığının mahiyyətinin, rəssamlıq və heykəltaraşlığın paralel inkişafı ilə bağlı olduğunu deyib: “Atam bir tərəfdən rəngkarlıqla məşğul olur, digər tərəfdən barmaqlarının gücü ilə formalar yaradaraq heykəllər ərsəyə gətirirdi. Bu gün onun monumental heykəlləri dünyanın bir çox böyük şəhərində sərgilənir. Əsərləri ən məşhur məkanlarda – Parisdəki “Champs-Élysées” prospektində, Nyu-Yorkdakı “Park Avenue”-da nümayiş etdirilib. Ötən il, 2024-cü ildə isə Roma şəhərinin tarixi mərkəzində onun növbəti heykəltaraşlıq sərgisi açılıb”.

Lina Botero vurğulayıb ki, bu sərgilərdə təqdim olunan əsərlər Fernando Boteronun özünəməxsus, sadə, lakin dərin mənalı yaradıcılıq üslubunu əks etdirir.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov bildirib ki, Azərbaycan rəssamlarının hər zaman Latın Amerikası sənətinə böyük marağı olub: “Həm onun təsviri sənətinə, həm ədəbiyyatına, həm də musiqisinə dərin maraq göstərilib. Bir çox rəssamımız Latın Amerikası sənətkarlarının yaradıcılığından ilham alıblar”, - deyə Fərhad Xəlilov diqqətə çatdırıb.

Sonra Fernando Boteronun əsərlərindən ibarət “Bədii formanın təntənəsi” sərgisi ilə tanışlıq olub.

Kolumbiyalı rəssam-heykəltaraş, insanları və heyvanları, eləcə də müxtəlif fiqurları nəhəng ölçüdə təqdim etməklə “Boterismo” üslubunu yaratmış Fernando Boteronun Heydər Əliyev Mərkəzində nümayiş olunan “Bədii formanın təntənəsi” adlı fərdi sərgisində rəssamın 100-dən çox məşhur əsəri təqdim edilir.

Sərgidəki əsərlər kolumbiyalı rəssamın 70 il ərzində yaratdığı sənət nümunələridir. Müəllifin işləri parlaqlığı, həyat doluluğu ilə seçilir. Ümumilikdə Botero 3000-dən çox rəsm əsəri, 200-dən çox heykəltaraşlıq nümunəsi yaradıb.

Fernando Botero dünyada geniş auditoriyanın diqqətini özünə çəkə bilib.

30-dan çox ölkədə 100-dək muzey sərgisi keçirilən, milyonlarla izləyicisi olan rəssam 20 yaşında Kolumbiyanı tərk etsə də, vətəni hər zaman onun ilham mənbəyi olub. Özünü “kolumbiyalıların ən kolumbiyalısı” adlandıran Boteronun əsərlərindəki mərkəzi mövzu uşaqlıq xatirələridir: Latın Amerikası həyatı, natürmortlar, korrida. Bununla da o, İtaliya intibahının universal ruhunu Latın Amerikasının həyat enerjisi ilə birləşdirib.

Heydər Əliyev Mərkəzində təqdim olunan “Mənim dənizlərim, mənim okeanlarım” sərgisinin əsas mövzusu isə “Art Weekend” layihəsi ilə birbaşa əlaqəlidir. Festivalın əsas elementi kimi davamlılığın, yenilənmənin və ortaq yaddaşın rəmzi olan su seçilib. “Mənim dənizlərim, mənim okeanlarım” sərgisinin əsas məqsədi də su ehtiyatlarının qorunmasına çağırışdır. Sərgi iqlim dəyişikliyi, qlobal istiləşmə və həssas ekosistemlər dövründə planetimizin ən həyati ehtiyatlarından biri – su mənbələrinin qorunmasının vacibliyini vurğulamaq məqsədi daşıyır. 2022-ci ildə Cenevrədəki debütü ilə su ekosisteminin mühafizəsinə dair qlobal dialoqun əsasını qoyan sərgi Bakıda ilk dəfədir təşkil edilir.

Sərgidə müasir rəssamların çirklənmə və həddindən artıq balıq ovundan tutmuş bioloji müxtəlifliyin itirilməsinə qədər bir sıra qlobal problemləri əks etdirən əsərlər təqdim olunur. Həmin əsərlərdə su həyatın, yenilənmənin və təsəvvürün mənbəyi kimi təsvir edilir. Rəssam və heykəltaraşlar, multimedia və çoxsahəli sənətçilər su, iqlim dəyişikliyi, davamlılıq və dəniz biomüxtəlifliyi mövzularına müraciət edərək bədii işlər vasitəsilə dənizlərimizin, okeanlarımızın və ortaq gələcəyimizin qorunmasına çağırış edirlər.

Yer kürəsinin 70 faizindən çoxunu təşkil edən su ehtiyatları, dəniz və okeanların ekoloji sistemi getdikcə daha çox mənfi təsirə məruz qalır. Sərgi isə incəsənət vasitəsilə həmin təsirlərin azaldılması və qarşısının alınması, ümumiyyətlə qlobal məsələlərə diqqətin artırılması ismarışını dünyaya ötürür.

İtalyan heykəltaraş Cüzeppe Karta jurnalistlərə açıqlamasında “Art Weekend”in beynəlxalq səviyyəli tədbir olduğunu və layihənin şəhərin müxtəlif məkanlarında keçirildiyini bildirib. O qeyd edib ki, bu gün XX əsrin ən görkəmli heykəltaraşlarından olan Fernando Boteronun sərgisi açılır: “Düşünürəm ki, bir çox insan hələ onun yaradıcılığı ilə tanış deyil və bu sərgi onlar üçün maraqlı bir kəşf olacaq”.

İncəsənət müşaviri və kurator Viola Raikhel Azərbaycanda olduğu üçün böyük qürur hissi keçirdiyini bildirib: “Çox maraqlı bir həftəsonu yaşayırıq. Burada, Heydər Əliyev Mərkəzində bu qədər qeyri-adi sənət nümunələrini görmək məni tamamilə heyrətləndirir”.

Nyu-Yorkdan gələn naşir Sem Moris Azərbaycana ilk səfəri olduğunu bildirib. O qeyd edib ki, Bakının möhtəşəm memarlığı, ləziz təamları və zəngin mədəniyyəti var. “Zənnimcə, incəsənətdən dünyaya vacib mesajların yayılması üçün bir platforma kimi istifadə zəruridir. Təkrar emal, aşağı karbon izinə sahib olmaq və okean həyatına hörmətlə yanaşmaq okeanları təmiz saxlamaq səylərinə böyük töhfə verə bilər”, - deyə Sem Moris diqqətə çatdırıb.

İncəsənət tarixçisi və kuratoru Zelfira Tequlova bildirib ki, XX əsrin ən görkəmli rəssamlarından olan Fernando Boteronun sərgisinin açılışı Bakıda “Art Weekend”ə təsadüf edir. “Onun sənəti hər kəsə xitab edir, çünki böyük pozitiv enerji daşıyır, həm milli Kolumbiya ənənələrinə, həm də Meksikanın muralist məktəbinə bağlıdır. Eyni zamanda, Avropa klassik incəsənətinin dərin biliklərini özündə əks etdirir. Botero bütün bu təsirləri bənzərsiz şəkildə birləşdirir. Belə bir sənət hadisəsini Bakıda yaşamaq böyük sevincdir”, - deyə Zelfira Tequlova diqqətə çatdırıb.

Qeyd edək ki, paytaxtımızda ilk dəfə təşkil olunan “ART Weekend” festivalı noyabrın 2-dək davam edəcək.

***XQ***

Konstitusiya və Suverenlik İli – 2025

# Rəqəmsal transformasiya dövrünün konstitusiya anlayışı

## *Klassik modeldən “Smart konstitusiya”ya keçidin incəlikləri*




**Yüksək sürətlə inkişaf edən digitallaşma prosesi son illərdə cəmiyyət həyatımıza ağılasığmaz yeniliklər gətirmişdir: rəqəmsal təhsil, pul, səhiyyə, vətəndaşlıq, suverenlik və s. Planetimizdə tamamilə rəqəmsal cəmiyyətin meydana gəldiyini söyləməyin hələ tez olmasına baxmayaraq, hər halda, bu prosesin hiss olunmaz çevikliyi özünəməxsus qaydaları olacaq cəmiyyətin yaranacağını labüd edir.**

Rəqəmsal yenilikləri zəruri edən konstitusiya islahatlarının gerçəkləşdirilməsi isə hər bir ölkənin hüquqi və siyasi sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün çox zəruridir. Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan 30 il keçir və bu zaman intervalı ərzində dünya yüksək sıçrayışla yeni texnoloji mərhələyə qədəm qoyub.

Əvvəllər dünyada, demək olar ki, gündəmdə olmayan rəqəmsal transformasiya, elektron hökumət sistemləri və kibertəhlükəsizlik kimi mövzular bu gün konstitusiya səviyyəsində təznimlənməsi tələb olunan müzakirələrin vacib hissəsinə çevrilib.

Təbii ki, cəmiyyət inkişaf etdikcə və yeni çağırışlar meydana çıxdıqca, konstitusiyalar da bu yeniliklərlə ayaqlaşmaq məcburiyyətindədir. Xüsusilə son iyirmi ildə baş verən rəqəmsal inqilab və qloballaşma prosesləri dövlət idarəçiliyinə və bir sıra konstitusion institutlara yenidən baxış zərurətini meydana çıxarıb.

Yaşadığımız texnoloji inqilab dövrü çoxsaylı yeniliklər meydana gətirir və gətirəcəkdir. “Robotlaşma erası” və ya “Kiber era” olaraq da adlandıra biləcəyimiz müasir dövrümüzdə süni intellektin tətbiqi artıq bütün sahələrdə özünü göstərir. Rəqəmsallaşmanın, xüsusilə də süni intellektin elektron dövrün tələblərinə uyğun inkişafı ortaya çıxması proqnozlaşdırılan “Ağıllı konstitusiya” (“Smart Constitution”) anlayışını nəzəri və praktiki baxımdan qiymətləndirməyi tələb edir.

Digitalizasiya prosesinin təsiri ilə dünya dövlətlərinin konstitusiyalarının hansı formada dəyişikliyə uğrayacağı ilə bağlı elmi araşdırmaların aparılması artıq zərurətdən qaynaqlanır. Rəqəmsal yeniliklərin “şəxsiyyət, cəmiyyət və dövlət” üçlüyünün həyatına ciddi təsiri konstitusiya hüququ elmində mühüm müzakirəyə səbəb olacaq çoxsaylı problemləri meydana çıxarıb. Məlum olduğu kimi, ənənəvi konstitusiyaların təməlində duran “şəxsiyyət, cəmiyyət və dövlət” üçlüyü tarix boyunca hüquqi nizamın dayaq sütunları olmuşdur. Bu yanaşma insanın hüquq subyekti kimi mərkəzə alınmasını, cəmiyyətin birgəyaşayış qaydalarını və dövlətin idarəetmədəki rolunu müəyyən edib. Lakin XXI əsrin reallıqları artıq bu üçlüyü yetərli saymaqdan imtina etməyi zəruri edir. Klassik “şəxsiyyət, cəmiyyət və dövlət” üçlüyünə əlavə olaraq “təbiət” və “süni intelekt”in də qoşulması artıq vacib məsələlər sırasındadır.

Məlumdur ki, çağdaş dünyada təbiət yalnız yaşadığımız mühit deyil, həm də hüquqların və vəzifələrin obyekti kimi qəbul edilməlidir. Ekoloji böhranlar, iqlim dəyişiklikləri, təbii resursların tükənməsi və bəşəriyyətin gələcəyi təbiətlə münasibətlərin hüquqi tənzimlənməsini labüd edir. Artıq bəzi ölkələrin konstitusiyalarında təbiətə “hüquqi şəxs” statusu verilməsi, gələcək nəsillər qarşısında məsuliyyət və ekoloji hüquqlar kimi anlayışlar yer almağa başlayıb. Bu, sadəcə, hüquqi yenilik deyil, etik və sivilizasiyalı məsuliyyətin təzahürüdür.

***

Elektronlaşma dövrünün son mərhələsi kimi süni intellekt erasına keçid isə yeni hüquqi texnologiyalarının və alqoritmik dəyərlərin konstitusion tənzimlənməsini labüd edir. Bu da öz növbəsində klassik konstitusiyaların təbiətinin əhəmiyyətli dərəcədə dəyişikliyə uğramasına gətirib çıxaracağını ehtimal etməyə əsas verir. Təsadüfi deyil ki, rəqəmsallaşma prosesinin sürətlənməsi və süni intellekt texnologiyalarının inkişafı dövlətlərin “Ağıllı konstitusiya” anlayışına doğru irəliləməsini şərtləndirir.

Rəqəmsallaşma erası və süni intellekt texnologiyalarının yüksəksıçrayışlı tərəqqisi dövlətlərin rəqəmsallaşma prosesi ilə bağlı dəyişikliklərə klassik konstitusiyalar çərçivəsində deyil, “ağıllı konstitusiya”lar müstəvisində nəzər salmağı tələb edir.

“Klassik konstitusiyalar” adlandırılan dünya dövlətlərinin ənənəvi konstitusiyalarının tarixi təxminən 1700-cü illərə gedib çıxır. Dünyada ilk konstitusiya isə 1787-ci ildə ABŞ-da qəbul olunub. “Klassik konstitusiyalar” konstitusionalizm konsepsiyasına əsaslanır. Qeyd edək ki, dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdıran, insan və vətəndaş hüquq və azadlıqlarını dövlət qarşısında qorumaq məqsədilə adi qanunlardan üstün və onlardan daha çətinləşdirilmiş mexanizmə malik olan üsullarla dəyişdirə bilən və adına “konstitusiya” deyilən sərt bir ali qanunun qəbul edilməsini şərtləndirən düşüncəyə və axıma “konstitusionalizm” deyilir.

“Klassik konstitusionalizm” konsepsiyasına görə hüquqi termin kimi işlədilən “konstitusiya” sözü dövlətin ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan ali qanunvericilik aktı mənasında işlədilir və bu akt şəxsiyyət, cəmiyyət və dövlətlə bağlı ən mühüm münasibətləri tənzimləməklə yanaşı, dövlətin konstitusion quruluşunu, xalq hakimiyyəti və dövlətin əsaslarını təsbit edir, eləcə də ölkənin iqtisadi, siyasi, sosial, hüquqi, ideoloji və əxlaqi xüsusiyyətlərini əks etdirir. Bundan başqa, dünya dövlətlərinin konstitusiyaları dövlət orqanlarının təşkili və fəaliyyətinin prinsiplərini, dövlət hakimiyyətinin və dövlət idarəçiliyinin başlıca müddəalarını, məhkəmə hakimiyyətinin sistemini, vətəndaşların, ictimai təşkilat, birlik, müxtəlif qurumların hüquq və azadlıqlarını müəyyən edir.

Konstitusiya cəmiyyətin bütün üzvlərinin hüquqi statusunun əsasını müəyyən edir və bununla da dövlətlə fərd arasındakı əlaqələrin ümumi konturlarını cızır. Konstitusiya bütün ölkədə norma yaradıcılığının əsaslarını, qanunvericilik sistemini formalaşdırır və bütün qanunvericilik sisteminin başında durur.

Bəs, görəsən, rəqəmsal transformasiyanın hər sahəyə olduğu kimi hüquqa da təsir etməsi tamamilə yeni konstitusionallıq dəyərlərimi meydana çıxaracaq? Yoxsa mövcud olan klassik konstitusionalizm konsepsiyasının formatındamı müəyyən dəyişikliklər edəcəkdir? Bu və bunun kimi düşündürücü suallar cavablandırılmağı gözləyir.

Düzdür, klassik konstitusiyalarda olduğu kimi “Ağıllı konstitusiya”ların da əsas hədəfi elektron çağımızda şəxsiyyət, cəmiyyət və dövlətin mənafe və maraqlarını qorumaqdan ibarət olmalıdır. “Ağıllı konstitusiya”nın prioritet məqsədi yeni texnologiyaların geniş vüsət aldığı dövrdə əsas insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq, dövlətin və özəl sektorun güc və səlahiyyətlərini şəxsiyyət və cəmiyyətin xeyrinə məhdudlaşdırmağa istiqamətlənməlidir. Bundan başqa, rəqəmsal dövrdə ifadə azadlığı, məlumat azadlığı, şəxsi həyatın toxunulmazlığı kimi hüquqlar internet mühitində də təmin olunmalıdır. Azərbaycan Respublikası ilə yanaşı, bir çox ölkələrin konstitusiyasında fikir və söz azadlığı, eləcə də məlumat azadlığı artıq çoxdan tanınır. BMT-nin müvafiq qurumları isə dəfələrlə bəyan etmişdir ki, oflayn mühitdə insanların malik olduğu hüquqlar onlayn mühitdə də tanınmalıdır və təmin olunmalıdır. Lakin konstitusiya islahatı zamanı bu hüquqların məsələn, internetdə fikir bəyanetmə, onlayn media azadlığı kimi rəqəmsal hüquqların da eyni dərəcədə qorunması məsələsi konstitusiyalarda nəzərdə tutula bilər. Bu nöqteyi-nəzərdən “Ağıllı konstitusiya”lara ənənəvi insan və vətəndaş hüquq və azadlıqlarından başqa, rəqəmsal insan haqlarının da yaxın gələcəkdə daxil ediləcəyini düşünmək olar.

***

Elektron hökumətin konstitusiyalarda hüquqi baxımdan tanınması aktual məsələlərdən biridir. Hər bir halda, dövlət xidmətlərinin elektronlaşması, elektron imzanın tətbiq olunması, onlayn səsvermə, qanun layihəsinin müzakirəsində elektron qaydada iştirak hüququ kimi məsələlər hüquqa əsaslanmalıdır. Bu baxımdan konstitusiya islahatları çərçivəsində qeyd olunan məsələlərin legitim şəkildə həyata keçirilməsi son dərəcə vacibdir.

Meksika Konstitusiyasına 2013-cü ildə əlavə edilmiş müddəa ilə internetə çıxış hər bir vətəndaşın konstitusion hüququ kimi tanınıb. Maraqlıdır ki, Meksika Ali Məhkəməsi sonradan bu müddəaya istinadla bəzi mobil operatorların “məhdudiyyətli internet paketlərini” qanunsuz hesab edib. Bu isə onu göstərmişdir ki, konstitusiyada yazılan bir maddə praktiki hüquqi alətə çevrilə bilər.

Bu sahədə ən iradəli və yenilikçi addım Cənubi Amerikanın texnoloji cəhətdən ən qabaqcıl ölkələrindən biri olan Çilidən gəlib. Bu ölkə konstitusiyasının 19-cu maddəsinə 25 oktyabr 2021-ci ildə edilmiş əlavə ilə aşağıdakı məzmunda yeni bənd əlavə edilmişdir: “...Qanun beyin fəaliyyətinin və ondan əldə edilən məlumatların toplanması, saxlanması və istifadəsinin tələblərini, şərtlərini və məhdudiyyətlərini tənzimləyəcək”.

Bu maddədə “süni intellekt” ifadəsi birbaşa çəkilməsə də, real vaxtlı beyin oxuma texnologiyaları və onların süni intellekt alqoritmləri ilə emalı nəzərə alındıqda əslində bu müddəa dolayısı ilə süni intellekt texnologiyalarına da toxunur. Çili bu şəkildə süni intellekt dövrünə insan psixikasının toxunulmazlığını əsas prinsip kimi təqdim edərək daxil olur.

Beləliklə, Çili “neyro hüquqları” (beyin məlumatlarının toxunulmazlığı) barədə düzəliş qəbul etməklə süni intellektlə sıx bağlı olan neyrotexnologiyaları əsas qanun səviyyəsinə gətirən ilk nümunədir.

Yunanıstan, Meksika və Çili dövlətlərinin təcrübəsində konstitusion səviyyədə atılmış bu mütərəqqi addımlar, təbii ki, rəqəmsal bərabərliyi təmin etmək və vətəndaşların onlayn xidmətlərə çıxışını təminat altına almaq məqsədi daşıyır.

Kiber suverenliyin, başqa sözlə, “rəqəmsal suverenlik” anlayışının konstitusiyalarda hüquqi baxımdan tanınması da tamamilə yeni və düşündürücü problemlər sırasındandır. Kiber suverenlik dedikdə, dövlətin öz rəqəmsal məkanı üzərində suveren hüquqlarını həyata keçirməsi başa düşülür. Yəni hər bir dövlətin internet məkanında milli təhlükəsizliyini təmin etmək, milli qanunları tətbiq etmək və informasiya axınına nəzarət etmək səlahiyyəti olmalıdır. Bu anlayış son illərdə konstitusion beynəlxalq müzakirələrdə aktuallaşıb.

Bəzi ölkələr kiber suverenliyi ön plana çəkərək bildirirlər ki, internet üzərində tam milli nəzarət olmalıdır. Məsələn, Çin və Rusiya beynəlxalq platformalarda kiber suverenlik prinsipini fəal şəkildə müdafiə edirlər.

Rəqəmsal məlumatın mühafizəsi də suverenlik kontekstində önəmlidir. Şəxsi məlumatların qorunması həm vətəndaşların hüquqlarının müdafiəsi, həm milli təhlükəsizlik baxımından əhəmiyyətlidir. Beynəlxalq təcrübədə Avropa İttifaqının 2018-ci ildə qüvvəyə minmiş ümumi məlumat mühafizəsi reqlamenti olan “GDPR” fərdi məlumatların qorunması sahəsində qızıl standart hesab olunur və bir çox ölkələr öz qanunlarını bu prinsipə uyğunlaşdırırlar. Bir çox dövlətlər məlumatların ölkə hüdudlarından kənara çıxmasına nəzarət etməyə çalışırlar. Məsələn, bəzi ölkələrdə qanunlar vətəndaşların məlumatlarının ölkə daxilində saxlanılmasını tənzimləyən məcburi normalar nəzərdə tuturlar. Yəni verilənlərin lokallaşdırılmasından söhbət gedir. Azərbaycan Respublikasında da rəqəmsal məlumat təhlükəsizliyi təmin təhlükəsizliyinin təmin olunmasına yönələn addımlar atılır. 2009-cu ildə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklərdə şəxsi məlumatların qorunması hüququ konstitusiyon səviyyədə təsbit olunubdur. Daha sonra “Fərdi məlumatlar haqqında” qanun 2010-cu ildə qəbul olunaraq bu sahədə detallı tənzimlə müəyyən olunub.

***

“Ağıllı konstitusiya”nın rəqəmsal “sifəti” yeni texnologiyalardan, xüsusilə də süni intellektdən istifadə olunmasıdırsa, onun digər “sifəti”, yəni hədəf və məqsədləri demək olar ki, klassik konstitusiyalarda olduğu kimi dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərini insan hüquq və azadlıqları, eləcə də cəmiyyətin maraqları naminə məhdudlaşdırma ideologiyasına əsaslanır. Buradan isə o nəticəyə gələ bilərik ki, “Ağıllı konstitusionallıq” konsepsiyası rəqəmsal dövrün tələblərini, onun təhdid və risklərini hesablayan, həmin problemlərə modern tələblərə cavab verən həll yolları axtaran, elektron cəmiyyətin gözlən-tilərini qarşılaya bilən yeni bir hüquqi konsepsiyadır, görüşdür.

Hesab edirik ki, “Ağıllı konstitusionallıq” konsepsiyasının öz qneseoloji mənşəyi olan “klassik konstitusionalıq” konsepsiyasından tamamilə qopması ən azı indilik, hətta yaxın gələcəkdə mümkün olmayacaqdır. Bu baxımdan “Ağıllı konstitusionallıq” konsepsiyasına hələ ki, klassik konstitusionallığın hədəflərini elektron dövrün tələblərinə uyğun formada qorumağa xidmət edən bir vasitə, üsul kimi yanaşmalıyıq. Çünki “ağıllı konstitusionallıq” konsepsiyasına tamamilə fərqli prizmadan baxmağı şərtləndirən səbəblər hazırkı vəziyytətdə mövcud deyil. Məsələn, müasir dövrdə rəqəmsal dünyamızda yeni bir dövlət modelinin yaxın gələcəkdə meydana çıxacağını gözləmək yanlışlıq olar. Məhz buna görə də “klassik konstitusionalıq” konsepsiyasından tamamilə fərqlənən spesifik xarakterə malik yeni bir “rəqəmsal konstitusionalıq” ideologiyasının formalaşması hələ ki, çox tezdir. Bir qədər uzaq gələcəkdə isə bunun baş verəcəyini təxmin etmək mümkündür. Yəni, ehtimal etmək olar ki, uzaq gələcəkdə rəqəmsal dövrün tələblərinə uyğun bir formada dünyada yeni bir dövlət modeli meydana çıxa bilər.

Zənn edirik ki, elektron dövrün “Ağıllı konstitusiyası” rəqəmsallaşma və süni intellekt texnologiyalarının hüquq sisteminə inteqrasiyası nəticəsində formalaşan yeni bir hüquqi model olacaq və bu model operativ qərar qəbuletmə prosesləri, şəxsiyyətin rəqəmsal təminatı, dövlət orqanlarının fəaliyyətinin avtomatlaşdırılması, süni intellektin mürəkkəb hüquqi kazusların analitik həllində istifadə edilməsi kimi spesifik xüsusiyyətləri özündə ehtiva edəcəkdir. Şübhə yoxdur ki, “Ağıllı konstitusiya” vasitəsilə dövlət idarəetməsi daha effektiv həyata keçiriləcək, dövlət məmurlarının fəaliyyətində şəffaflıq artacaq, məhkəmə orqanlarında ədalət mühakiməsinin həyata keçirilməsində obyektivlik və ədalətlilik prinsiplərinə daha ciddi riayət olunacaq, qanunvericilik aktlarının təbiqində operativlik müşahidə olunacaq, kiber təhlükəsizliyə təminat veriləcək, son nəticədə isə insan hüquq və azadlıqları daha möhkəm qorunacaqdır.

Bunun üçün indidən yubanmadan müəyyən profilaktik işlər görməyin zəruriliyini anlayan dünya dövlətlərindən bəziləri rəqəmsallaşma dövrünün tələblərini nəzərə alaraq “Süni intellektə dair Milli Strategiyaları”nı artıq müəyyən müddət olar ki, qəbul ediblər. Məsələn, 2019-cu ildə Rusiya Prezidenti öz qərarı ilə “2030-cu ilə qədər olan dövr üçün Süni intellektin inkişafına dair Milli Strategiya”nı təsdiq edib. Türkiyədə də dövlət başçısının Rəqəmsal Transformasiya İdarəsi və Sənaye və Texnologiyalar Nazirliyi ilə birgə və bütün aidiyyəti tərəflərin fəal iştirakı ilə hazırlanmış “2021-2025-ci illər üçün Milli Süni intellekt Strategiyası” Prezidentin sərəncamı ilə təsdiq edilərək qüvvəyə minib. Ölkəmizə gəlincə, Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası” təsdiq edilib.

Rəqəmsallaşma prosesinin yüksək sürətlə inkişaf etdiyi bir dövrdə təhsil müəssisələrinin üzərinə də xeyli işlərin görülməsi düşür. Qeyd edək ki, son illərdə bu sahədə müəyyən müsbət addımlar atılır. Buna nümunə kimi Azərbaycan Texniki Universitetinin Elmi şurasının 3 fevral 2021-ci il tarixli qərarı ilə “Kibertəhlükəsizlik və Süni İntellekt İnstitutu”nu yaradılmasını, 2024-cü ildə Bakı Dövlət Universitetində (BDU) Beynəlxalq Türk Akademiyası ilə birgə “Süni intellekt etikası kafedrası” yaradılması təşəbbüsünü, süni intellektlə bağlı müəyyən təlimlərin gerçəkləşməsini, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Rusiyanın “Cənub” Universitetinin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində süni intellektlə bağlı iki gün davam edən beynəlxalq elmi konfransın keçirilməsini nümunə göstərmək olar.

Düşünürük ki, ölkəmizdəki xüsusilə hüquqşünaslıq ixtisaslarını tədris edən universitetlərimizdə “süni intellekt hüququ”, “internet hüququ” adlı hüquq sahələri tədris olunmalıdır. Bu, zərurətdən qaynaqlanır. Xarici ölkələrin universitetlərində bu fənlər artıq neçə illərdir ki, tədris edilir. Hətta bəzi ölkələrin (məsələn, Türkiyənin) universitetlərində süni intellekt hüququna dair praktiki məşğələlərin keçirildiyi “süni intellekt hüququ laboratoriyaları” fəaliyyət göstərir.

Ümumiyyətlə, hüquq texnologiyaları laboratoriyaları (“Legal Tech Labs”) hüququn rəqəmsal transformasiyasını dəstəkləmək üçün innovativ araşdırmalar və praktiki layihələr üzərində işləyən tədqiqat mərkəzləri hesab edilirlər. Bu laboratoriyalar, həm hüquqşünaslıq ixtisasının tələbələri və müəllimləri, həm hüquq mütəxəssisləri, həm də texnoloji sahədə çalışanlarla əməkdaşlıq edərək hüquq sahəsində yenilikçi modern texnologiyaların inkişafını sürətləndirməyə çalışır.

Sonda qeyd edək ki, rəqəmsal yenilikləri zəruri edən konstitusion islahatların həyata keçirilməsi ölkəmizin hüquqi sisteminin modern dövrün tələblərinə uyğunlaşdırılması üçün çox zəruridir.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universitetinin ümumi hüquq kafedrasının müəllimi***

# Azərbaycan jurnalistləri Çində

## "Asiya nəhəngi"nin əzəmətli dünəni, möhtəşəm bu günü

**İş gününün sonuna yaxın baş redaktorumuz Əflatun Amaşov mənə zəng edərək "Çinə səfərə getmək istəyirsinizmi?" soruşanda tərəddüd etmədən "Əlbəttə" cavabını verdim. Çünki Çini yaxından görmək, "Asiya əjdahası"nın nəfəsini duymaq həmişə məni maraqlandırıb. Mətbuatda, kitablarda, sənədli filmlərdə haqqında çox oxumuşdum, amma bilirdim ki, bu ölkəni anlamaq üçün onu görmək, hiss etmək, küçələrində gəzmək, insanları ilə danışmaq lazımdır.**





### "Yumşaq güc"ün Çin modeli

Çin uzaq kimi görünür, amma, əslində, bir çox mənəvi və tarixi oxşarlıqlar bizi birləşdirir. Hər iki xalq minillik ənənələrini qoruyub saxlayır, zəhməti, təhsili və nizamı yüksək dəyərlər kimi yaşadır.



Əlbəttə, bu gün qlobal səhnədə sürətlə yüksələn bir güc kimi Çin Xalq Respublikasının (ÇXR) xarici siyasətində getdikcə daha çox "yumşaq güc" (Soft Power) elementlərinə əsaslanması heç kimə sirr deyil. Amerikalı politoloq Cozef S.Nyenin irəli sürdüyü bu konsepsiya, bir dövlətin hərbi təzyiq və ya iqtisadi məcburiyyətə deyil, mədəni cəlbedicilik, siyasi dəyərlər və xarici siyasətin legitimliyi vasitəsilə digər ölkələrin davranışlarına təsir etmək qabiliyyətini ifadə edir. Bu mənada Çin üçün "yumşaq güc" onun iqtisadi və hərbi yüksəlişini "təhdid" kimi qəbul edənlərin narahatlığını azaltmaq və qlobal sistemə inteqrasiyasını dəstəkləmək üçün strateji bir vasitədir. Bu mənada son illərdə Çin beynəlxalq arenada "yumşaq güc" siyasətini daha da gücləndirərək, mədəniyyət, təhsil və media sahələrində əlaqələrini genişləndirir.

Belə bir siyasətin əsas məqsədi Çinin qlobal imicini formalaşdırmaq, tərəfdaş ölkələrlə qarşılıqlı etimadı möhkəmləndirmək və dünya ictimaiyyətinə öz inkişaf modelini tanıtmaqdır. Təsadüfi deyil ki, bu strategiyanın mühüm alətlərindən biri müxtəlif ölkələrin nümayəndələri üçün təşkil olunan seminarlar, təlimlər və tanışlıq səfərləridir. Çin Ticarət Nazirliyinin Beynəlxalq Ticarət Məmurları Akademiyası (AİBO), Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və digər dövlət qurumları tərəfindən həyata keçirilən bu proqramlar, adətən, ŞƏT, ASEAN, Afrika və Mərkəzi Asiya ölkələrinin jurnalistləri, məmurları və tələbələri üçün nəzərdə tutulur.

### Seminar diplomatiyanın yeni forması kimi

Oktyabrın 18-də qoşulduğumuz seminarı da Çin Ticarət Nazirliyinin dəstəyilə keçirilirdi. Seminarların məzmunu geniş idi: iştirakçılara Çin iqtisadiyyatı, texnoloji innovasiyalar, dövlət idarəçiliyi, media siyasəti və mədəniyyətin qorunması sahəsində təcrübə təqdim olundu. Bununla yanaşı, proqramlar zamanı iştirakçılara Pekin, Tsindao və Sian kimi şəhərlərdəki universitetlər, media mərkəzləri və texnoloji parklarla tanışlıq imkanı da yaradıldı. Bu, Çinin inkişaf modelini yalnız nəzəri şəkildə deyil, real nümunələrlə göstərməyə xidmət edir.

Təbii ki, bu tədbirlərin Çinin mədəniyyət diplomatiyasının əsas sütunlarından birinə çevrilməsi heç kimə sirr deyil. Pekin belə təşəbbüslərlə həm tərəfdaş ölkələrin gələcək liderləri və jurnalistləri ilə münasibət qurur, həm də öz ölkəsinin sivil, dinc və modern obrazını gücləndirir. Təcrübə göstərir ki, bu cür səfərlərdə iştirak edən-



lər sonradan öz ölkələrində Çin haqqında daha obyektiv və anlayışlı yanaşma formalaşdırır. Etiraf edim ki, seminarlar və ziyarət etdiyimiz məkanlar, görüşdüyünüz insanlarla söhbətlər hamıda Çinin "yumşaq güc" siyasətinin, sadəcə, mədəniyyət ixracı olduğu təəssüratını yaratmadı, həm də qarşılıqlı tanınma və dialoq siyasəti olduğu qənaətini gücləndirdi. Buna görə də böyük vəsaitlər hesabına təşkil edilən belə seminarlar, təlimlər və səfərlər bu dialoqun praktik təzahürünə çevrilərək, Çinin beynəlxalq nüfuzunun formalaşmasında vacib rol oynayır. Pekinin burada "yumşaq güc"ü silah yox, xalqları, ideyaları və gələcəyə baxışları birləşdirən körpüdür.

Pekinin səssiz, amma məqsədyönlü şəkildə dünyanın bir çox regionlarında, eləcə də Cənubi Qafqazda da öz təsir dairəsini genişləndirməsindən hamı xəbərdardır. Çünki Cənubi Qafqaz bu gün böyük güclərin geosiyasi maraqlarının kəsişdiyi mühüm məkanlardan biridir. Son illərdə Çin də regionda öz varlığını hiss etdirir. Amma Pekin bunu tank və silahlarla deyil, mədəniyyət, təhsil, texnologiya və iqtisadi əməkdaşlıq vasitəsilə, yəni "yumşaq güc" diplomatiyası ilə edir. Bu baxımdan Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü, sadəcə, iqtisadi layihə kimi deyil, həm də ideoloji bir platforma kimi dəyərləndirilir. Ona görə ki, bu təşəbbüs vasitəsilə Pekin özünü qlobal əməkdaşlığın, qarşılıqlı hörmətin və iqtisadi inteqrasiyanın tərəfdarı kimi təqdim edir. Seminarlarda çinli mühazirəçilər də çıxışlarında məhz bu məqamlara toxunur, Pekinin strateji vizyonunun nələrdən ibarət olduğunu diqqətə çatdırırdılar.

### Böyük Çin Səddi – tarixin daş möcüzəsi

Çinə səfər özündə həm də ölkənin tarixi məkanlarına ziyarətləri də əhatə edirdi. Seminarın ilk günündə Böyük Çin Səddinin əzəmətini izləməyə gəldik. Amma öncə onu vurğulamaq istəyirəm ki, Çinə səfəri sanki həm keçmişə, həm də gələcəyə eyni anda atılan addım kimi xarakterizə etmək olar. Bu ölkəyə ayaq basanda burada zamanın bir yerdə dayanmadığını hiss edirsən, zamanın hər daşda, hər küçədə, hər texnoloji yenilikdə iz qoyduğunu görürsən. Qədim məbədlərin sakitliyi ilə futuristik şəhərlərin enerjisinin bir-birini tamamlaması, qədim sivilizasiya ruhunun müasir həyatın ritminə qarışması istənilən əcnəbidə unudulmaz təəssürat yaradır.

Təbii ki, belə bir təəssüratın yaranması təsadüfi deyil. Çinin minilliklər boyu insan düşüncəsinin, zəhmətinin və yaradıcılığının mərkəzi olduğundan hamı xəbərdardır. Qədim imperator saraylarının əzəməti, Konfutsi fəlsəfəsinin dərinliyi, ipək, kağız, kompas və barıt kimi ixtiraların insanlıq tarixindəki izi Çin xalqının yenilik və nizam sevgisindən qaynaqlanır. Burada mədəniyyət yalnız keçmişin mirası deyil, həm də gündəlik həyatın bir hissəsidir. Çin səddinə yaxınlaşan zaman keçmişin izləri ilə tanış olmaq, bu qədim müdafiə istehkamının ölkə və region ölkələrinin tarixinə necə böyük təsir etdiyini anlamaq mümkündür.

Böyük Çin Səddi dünyanın ən uzun insan tikilisi və yer üzündə inşa edilmiş ən nəhəng müdafiə istehkamı hesab olunur. O, çoxdan Çinin simvoluna çevrilib və hər il on minlərlə turistin maraq mərkəzi olur. Səddin yerləşdiyi ərazi Çinin 15 vilayət, rayon və bələdiyyəsini əhatə edir. Onun başlanğıcı Sarı dəniz sahilindəki Lyaodun yarımadasından başlayaraq Şimali Çin boyunca uzanır və Qansu əyalətindəki Ciayuqan (Jiayuguan) hissəsində başa çatır. Tikinti zamanı təbii relyefdən maksimum istifadə olunub, buna görə də təxminən min kilometrlik hissə Yinşan dağ silsiləsi boyunca uzanır. Deyilənə görə, səddin çəkildiyi ərazilər qəsdən ən əlçatmaz, keçilməz yerlərdən seçilib - nə qədər çətin olsa da, bir o qədər ciddi iş görülüb.

Onu dünyanın ən böyük memarlıq möcüzələrindən biri adlandırmaq təsadüfi deyil. Böyük Çin Səddinin ümumi uzunluğu 21 min kilometrdən çoxdur. Səddin eni müxtəlifdir: ən geniş yerlərdə 7 metrə çatır - bu, qədim dövrlərdə 10 nəfərlik əsgər sırasının və ya 5 atlı dəstənin yan-yana hərəkət etməsinə imkan verirdi. Ən dar hissə Simatay dağ keçidində yerləşən "Göy körpü" adlanır. Onun uzunluğu təxminən 100 metr, ən dar yeri isə cəmi 40 santimetrdir.

Kədərli faktdır ki, Böyük Çin Səddi həm də ölkənin ən böyük qəbiristanlığı hesab edilir. Tarixçilərin hesablamalarına görə, səddin inşası zamanı 2-3 milyon işçi həlak olub. Dəqiq say bu günədək məlum deyil. "Sədd sümüklər üzərində ucaldılıb" ifadəsi, demək olar ki, bu ehtimaldan qaynaqlanır. Əfsanələrə görə, tikinti zamanı həlak olanların cəsədləri divarlara hörülürmüş və bu, səddin daha möhkəm olması üçün edilirmiş. Lakin alimlər bu fikri elmi dəlillərlə təsdiqləmirlər, deyilənlərin həqiqətə uyğun olmadığını bildirirlər.

Böyük Çin Səddinin əsas funksiyası müdafiə idi. O, Çini düşmən tayfaların hücumlarından qorumaq üçün inşa edilmişdi. Genişliyi sayəsində sədd həm də ordu üçün yol rolunu oynayırdı: əsgərlər burada təhlükəsiz şəkildə hərəkət edə, düşmən hücumlarından qorunaraq lazımi mövqelərə keçə bilirdilər. Səddin daha bir maraqlı funksiyası isə "teleqraf" rolunu oynaması idi. Onun boyunca yerləşdirilən siqnal qüllələri bir-birini görəcək məsafədə idi. Düşmən hücumu zamanı qüllələr arasında baraban sədaları və ya tüstü siqnalları vasitəsilə xəbərdarlıq edilirdi. Beləcə, ən uzaq nöqtədən Pekinə xəbər maksimum bir gün ərzində çatırdı – qədim dövrlər üçün bu, inanılmaz sürət idi.

Səddin üçüncü, az önəmli olmayan funksiyası ideoloji xarakter daşıyırdı. O, imperiyanın birliyinin və "mədəni dünya ilə barbarlar arasındakı sərhədin" rəmzinə çevrilmişdi. Bəzi tarixçilər hesab edirlər ki, səddin əsas məqsədi elə bu olub, müdafiə isə ikinci planda qalıb. Əslində, Böyük Çin Səddi fasiləsiz divarlardan ibarət deyil. Onun bəzi hissələrində, ümumiyyətlə, tikili yoxdur - xüsusilə dağlıq yerlərdə, burada qayalıqlar təbii sədd rolunu oynayır.

Səddin dik pilləkənlərilə yuxarı qalxmaq o qədər də asan məsələ deyil. Qrupumuzdakı həmkarlarım ilə bu əzəmətli səddin pik nöqtəsini ancaq yarıyolda dayanaraq seyr edə bildik. Amma müşahidə məntəqələrindən birinə baş çəkərək kosmosdan da göründüyü iddia edilən əzəmətli istehkamın uzandığı yola nəzər salmağı bacardıq. Möhtəşəm mənzərə idi! Səddin uzandığı yola nəzər yetirərkən, qədim Çin insanının qüdrətinin, zəkasının və inadının gücünə heyran olmaya bilmirsən. Böyük Çin Səddinə qalxmaq, sadəcə, tarixi bir abidəni görmək deyil, sanki keçmişlə üz-üzə gəlmək deməkdir. Bu möhtəşəm tikili qarşısında dayananda insan özünü zamanın və məkanın sərhədlərində hiss edir. Qədim dövrlərin nəfəsi, daşlara hopmuş min illərin sükutu səni əhatə edir. Hər addımda bir əfsanənin izi, hər daşın altında bir insanın əli, bir xalqın inad və iradəsi duyulur.

Səddin üstündə addımladıqca, düşünürsən ki, insan necə böyük qüvvəyə sahibdir: dağları yarıb, uçurumların üzərindən keçərək belə bir möcüzə yarada bilib. Eyni zamanda, anlayırsan ki, bu divar yalnız müdafiə üçün deyil, həm də bir mədəniyyətin, bir sivilizasiyanın əbədi var olmaq arzusunun simvoludur. Gözün uzaqlara baxanda sanki səddin sonu görünmür - o, dağlarla birləşib gözdən itir. Bu sonsuzluq hissi insanda həm heyranlıq, həm də kədər duyğuları yaradır. O səddin üstündə dayananda insan yalnız uzaqlara baxmır, həm də tarixin dərin qatlarına enir. Əzəmətli Çin Səddini aşıb hotelə qayıdanda belə səfərlərin heç də təsadüfi və səmərəsiz olmadığını anladım. Böyük Çin Səddi keçmişin müdafiə qalası olmaqdan çıxaraq, bu günün diplomatik metaforuna çevrilib. Onun üzərində əsrlərlə dayanmış küləklər kimi, Çin diplomatiyası da sınaqlardan keçib möhkəmlənib. Pekin üçün Böyük Sədd – özünü qoruyaraq dünyaya açılmaq, tarixi yaddaşla müasir gücü birləşdirmək deməkdir.

**(ardı var)**

***Səbuhi MƏMMƏDOV***
***(Fotolar müəllifindir)***
***XQ***

# Şəhidlərin uyuduğu torpaq müqəddəsdir




**Onsuz da şəhidlərimizin uyuduğu torpaq cənnətdir. Çünki bu torpaq onların qanı ilə suvarılıb, canı ilə qorunub. Amma bu günlərdə Göygöl Rayon İcra Hakimiyyəti həmin cənnəti bir daha işıqlandırıb, şəhidlərimizin ruhunu şad edib.**

Zəfər Günü ərafəsində rayonun Şəhidlər xiyabanı tamamilə yeni görkəm alıb. Əvvəllər burada gecələr qaranlıq olurdu, indi isə hər tərəf nur içindədir. İşıqlandırma sistemi quraşdırılıb, ziyarət üçün oturacaqlar düzülüb, yaşıl xiyabanlar salınıb, bardürlər səliqə ilə yenilənib. Bu dəyişikliklər xiyabana təkcə xüsusi gözəllik yox, həm də dərin bir mənəvi ab-hava verib.



**Göygöl Rayon İcra Hakimiyyətinin şöbə müdiri Ariz Eyvazov söhbət zamanı bunları dedi:**

– Şəhidlərimizin uyuduğu bu məkan müqəddəsdir. Onların ruhu daim bizimlədir. Çalışırıq ki, bu torpaq hər zaman bax beləcə nurlu olsun, ehtiramla anılsın. Qoy gələcək nəsillər buraya gələndə bilsinlər ki, bu torpaq uğrunda kimlər canlarından keçiblər və onlara bu xalqın ehtiramı necə olub...

İndi Göygölün Şəhidlər xiyabanı həm bir ziyarətgah, həm də Vətən sevgisi, qəhrəmanlıq məkanıdır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Göygöl rayonu***

# ABŞ aliminin səhiyyədə süni intellekt təqdimatı

**Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda ABŞ-ın Çikaqo Dövlət Universitetinin Sağlamlıq Elmləri və Əczaçılıq Kollecinin professoru Nadeem Fazal ilə keçirilən görüşdə süni intellektin təbabətdə yaratdığı üstün imkanlar diqqət mərkəzində olub.**



İnstitutun direktoru akademik Rasim Əliquliyev qonağı salamlayaraq ona Azərbaycanda rəqəmsal tibb sahəsində atılan addımlar, bu sahənin problemləri və prioritetləri barədə məlumat verib. Alim bildirib ki, müasir dövrdə rəqəmsal səhiyyənin inkişaf etdirilməsi dövlətin tibb sahəsində siyasətinin prioritetlərindəndir.

Söhbət zamanı rəqəmsal tibb sahəsində həyata keçirilən elmi tədqiqatlardan da söz açılıb. Bildirilib ki, elmi müəssisənin alim və mütəxəssislərinin rəqəmsal tibb sahəsində qabaqcıl texnologiyaların tətbiqi, tibbi demoqrafiyanın formalaşması ilə bağlı apardıqları araşdırmalar uğurlu nəticələr verir. Eyni zamanda, süni intellekt, data science, təbii dilin emalı, kiberfiziki sistemlər, kibertəhlükəsizlik, dərin təlim, böyük verilənlərin analitikası istiqamətində tədqiqatlar davam etdirilir.

Sonra çıxış edən professor Nadeem Fazal iştirakçılara elmi-pedaqoji fəaliyyəti, tədris və tədqiqat sahəsindəki nailiyyətləri haqqında məlumat verib. Alim "Səhiyyənin gələcəyi: fərdiləşdirilmiş tibb" mövzusunda məruzəsini təqdim edərək müasir dünyada tibb sahəsində gedən proseslərdən söz açıb.

ABŞ alimi qeyd edib ki, tibb təhsili bu gün ənənəvi modellərlə məhdudlaşmır, bu sahədə yeni istiqamətlərin formalaşması və süni intellekt texnologiyalarının tətbiqi getdikcə daha böyük əhəmiyyət kəsb edir: "Gələcəyin həkiminin insan bilikləri ilə süni intellektin imkanlarını birləşdirəcəyi, tibbdə süni intellekt əsaslı yeni diaqnostika imkanlarının formalaşacağı proqnozlaşdırılır. Lakin dəqiq diaqnoz üçün tibbi mütəxəssisin rolu əvəzolunmaz olaraq qalacaq".

***Qabil ƏLİYEV***
***XQ***

*1 Noyabr Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günüdür*

# Azərbaycan kəndi yeni yüksəliş yolunda



## *Son 20 ildə aqrar məhsulların həcmi 2 dəfədən çox artıb*

**Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində və iqtisadi inkişafın təşviqində mühüm rol oynayır. Son illər bu vacib sahənin ölkə iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına töhfəsi getdikcə artır.**

Ümummilli lider Heydər Əliyevin gərgin əməyi sayəsində istər keçmiş sovetlər dönəmində, istərsə də müstəqillik illərində bütün sahələrdə olduğu kimi, aqrar sahədə də ciddi islahatlar aparılıb, ehtiyatlardan səmərəli və məqsədyönlü istifadə təmin olunub, sahənin dayanıqlı inkişafı üçün möhkəm baza yaradılıb. Əsası Ulu öndər tərəfindən qoyulmuş aqrar strategiya hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi strategiya nəticəsində aqrar sektor keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Kənd təsərrüfatının strateji əhəmiyyətli və iqtisadi cəhətdən səmərəli istehsal sahələrinin inkişaf etdirilməsi prioritet vəzifələrdən biri kimi müəyyən edilib.

Ümumilikdə isə, aqrar islahatlar kənd təsərrüfatının inkişafının daha da sürətləndirilməsini nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. Fermerlərin texnika, gübrə və damazlıq heyvanla təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Məlum olduğu kimi, 2020-ci ildən aqrar subsidiyalar yeni mexanizm əsasında verilir. Bununla yanaşı, ölkədə aqrar sığortanın tətbiqi müxtəlif təbiət hadisələri nəticəsində fermerlərə dəyən ziyanı qarşılamağa imkan yaradır. Heç şübhəsiz, bütün bunlar kənd təsərrüfatına, zəhmət adamına olan doğma münasibətin göstəricisidir. Dövlət başçısı İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli fərmanı ilə hər il noyabr ayının 1-nin Azərbaycanda kənd təsərrüfatı işçilərinin peşə bayramı günü kimi təsis edilməsi isə, heç şübhəsiz, bu sahədə çalışan zəhmət adamının fəaliyyətinə verilən yüksək qiymətdir.

Son illər aqrar sektorda təşəbbüskarlıq artır, bu sahədə məşğul əhalinin sayı çoxalır. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda ölkə üzrə 5 milyon 29,8 min nəfər məşğul əhalinin 1 milyon 782,3 min nəfəri məhz kənd təsərrüfatında çalışır. Hazırda əhalisinin, təqribən, yarısının bölgələrdə yaşadığı Azərbaycanda aqrar sahənin inkişafı, daxili bazarın mühüm kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Elə ölkədə həyata keçirilən aqrar islahatların birinci hədəfi də məhz buna nail olmaqdan ibarətdir.

İkinci hədəf isə qeyri-neft istehsalında xüsusi çəkiyə malik kənd təsərrüfatı məhsullarının ixracını artırmaqdır. Son illər aqrar sektorun inkişaf etdirilməsi, Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirlər nəticəsində hər iki istiqamətdə uğurlarımız getdikcə artır.

Aqrar sahədə inkişaf ölkədə kənd təsərrüfatı məhsullarının ixracına da əhəmiyyətli təsir göstərib. Aqrar sahənin ixrac potensialı yüksəlib, kənd təsərrüfatı məhsullarının ölkənin valyuta gəlirlərinin formalaşmasında rolu artıb. Bu nəticələrə dövlətin yürütdüyü uğurlu aqrar siyasət və fermerlərə göstərilən xüsusi diqqət sayəsində nail olunub. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 il ərzində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi real ifadədə 2 dəfədən çox artıb. Ötən dövrdə ölkədə bitkiçilik məhsullarının istehsalında 53 faiz, heyvandarlıq məhsullarının istehsalında isə 42,5 faiz artım qeydə alınıb. Bu da kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının, təqribən, 30 faiz artmasına imkan yaradıb.

Aqrar sektorda müşahidə olunan müsbət dinamika bu ilin 9 ayında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 11 milyard 359,8 milyon manat təşkil edib. Bunun da 5 milyard 951,8 milyon manatı bitkiçilik, 5 milyard 408 milyon manatı isə heyvandarlıq məhsullarının payına düşüb. Cari ilin 9 ayında əvvəlki ilin eyni dövrü müqayisədə kənd təsərrüfatının ümumi istehsalı 0,1 faiz artıb.

Bununla belə, kənd təsərrüfatının mühüm sahələrindən sayılan bitkiçilik məhsullarının istehsalının artırılması üçün ölkədə geniş imkanlar mövcuddur. Bu səbəbdəndir ki, son illər istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Əkin sahələrinin genişləndirilməsi isə məhsul bolluğuna təminat yaradan mühüm amildir. Bu məqsədlə ötən ilin payızından başlayaraq 2025-cü ilin məhsulu üçün bitkiçilik məhsullarının əkini intensiv qaydada davam etdirilib.

Torpaq da kəndliyə borclu qalmayıb, səxavəti ilə onun üzünü ağardıb. Qoynunda yetişdirdiyi barı-bərəkəti ilə həm gün-güzəranın yaxşılaşmasına, həm daxili bazarda məhsul bolluğunun yaradılmasına, həm də ölkənin ixrac potensialının artırılmasına töhfə verib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-sentyabr aylarında sahələrdən 2 milyon 992 min ton taxıl, 1 milyon 670 min tondan çox tərəvəz, 875 min tona yaxın kartof, təqribən 459 min ton bostan bitkiləri, 802 min tondan artıq meyvə və giləmeyvə, 165 min ton üzüm və digər məhsullar yığılıb.

Kənd təsərrüfatının digər mühüm sahəsi olan heyvandarlıqda da qənaətbəxş nəticələr əldə olunub. Belə ki, cari ilin 9 ayında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 434,3 min ton ət, 1 milyon 699 min ton süd, 1 milyard 789 milyon ədəd yumurta və digər heyvandarlıq məhsulları istehsal olunub. Bütün bunları isə kənd təsərrüfatı işçilərinin bayram hesabatı kimi qəbul etmək olar.

Bayramınız mübarək, zəhmət adamları, əmək fədailəri!

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Torpaq zəhmətin əvəzini birə-beş qaytarır

**Salyan rayonunun fermerləri ötən ilin payızında cari ilin məhsulu üçün 19 min 736 hektar sahədə taxıl əkiblər. Bu il havalar əlverişli keçdiyindən taxıl sahələrində yetişmiş bol məhsul qısa müddətdə yığılıb.**

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, taxıl istehsalı ilə məşğul olan mülkiyyətçilər əkdikləri 5 min 693 hektar buğda sahəsindən 18 min 155 ton məhsul götürüblər. Arpa yığımında da yüksək nəticələr əldə olunub. Səpin aparılmış 14 min 43 hektar sahədən 45 min 538 ton məhsul götürülüb. Ümumilikdə, bu il sahələrdən 63 min 993 ton məhsul yığılıb ki, bu da ötən ildəkindən 9 min 693 ton çoxdur.



Artıq rayonda növbəli əkin üçün 14 min 232 hektar sahə şumlanıb. Rayonun **Yenikənd kəndində yaşayan fermer Müşviq Səfərov** bildirdi ki, Salyanda taxılçılıq ənənəvi əkin növü olduğundan yeniyetmə vaxtlarından bu işlə məşğul olub. 1996-cı illərdə torpaqlar camaata verildikdən sonra bu iştiqamətdə işlər daha da sürətləndi və hamı ənənəni saxlamağa üstünlük verdi. Bu il 30 hektara yaxın torpaqda əkin apardığını bildirən fermer onu da qeyd etdi ki, toxum yaxşı olarsa və beçərmə aqrotexniki qaydalara uyğun aparılarsa, bol məhsul götürmək mümkündür.

M.Səfərov sözünə davam edərək dedi:

– Bu il "Qarabağ 22" və "Qobustan" toxumları əkdik. Şükür, zəhmətimiz öz bəhrəsini verdi. Hektardan 55 sentner buğda və 43 sentner arpa toplaya bildik. Satışda da heç bir problemlə qarşılaşmadıq. Texnikalar da işimizə xeyli kömək etdiyindən məhsulu vaxtında itkisiz toplaya bildik. Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri də bu işdə fermerlərə lazımi kömək göstərirlər. Texnikalar da xeyli artıb. Hazırda istifadə etdiyimiz yeni malalar sahəni tam düzəltdiyindən məhsuldarlıq 10-15 sentner artır və sudan istifadəyə də qənaət edirik. Növbəli əkin də aparırıq və faydasını görürük. Çünki torpağa sevgi ruzini yüksəldir.

Kolxozçu ailəsində böyüyən ali təhsilli iqtisadçı M.Səfərovun sözlərinə görə, indən belə dincə qoyulmuş torpağa da subsidiya veriləcək. Aqrar sığorta mexanizminin fermerin bütün problemlərini qarşıladığından dərin razılığını ifadə edən fermer zərərvericilərə qarşı dərmanlara endirim edilməsinə də ehtiyac duyulduğunu bildirdi.

***M.NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***




**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən elektrik közərmə lampalarının dövriyyəsinə dair yeni qaydalarla bağlı sahibkarlıq subyektləri arasında maarifləndirmə işinə başlanılıb. Bununla bağlı Bakı şəhəri və regionlarda fəaliyyət göstərən 3 min 700-ə yaxın mağazanı əhatə edən 46 ticarət şəbəkəsi və satış obyekti, eləcə də 5 iri ticarət mərkəzi və 1 onlayn satış platformasının rəhbərliyinə mövcud tələblər barədə maarifləndirici məktublar göndərilib.**

Qeyd edək ki, elektrik közərmə lampalarının dövriyyəsinə dair yeni tələblər "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş 11 aprel 2025-ci il tarixli dəyişiklikdə öz əksini tapıb. Qanunvericiliyə uyğun olaraq istehsal proseslərində və əsas məqsədi işıqlandırma olmayan məhsullarda xüsusi istifadəsi nəzərdə tutulan közərmə lampaları istisna olmaqla, dəyişən cərəyan dövrəsində işıqlandırma məqsədilə istifadə edilə bilən 60 Vt və yuxarı gücə malik elektrik közərmə lampalarının 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik lampaların isə 2026-cı il iyulun 1-dən idxalı, istehsalı və satışı qadağan edilib. Göstərilən tələblərin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində də inzibati məsuliyyət müəyyən edilib.

Bundan əlavə, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 oktyabr tarixli Fərmanı ilə sözügedən lampaların satışına münasibətdə inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti Azərbaycan Respublikasının Energetika Nazirliyinə və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə verilib. Bununla əlaqədar olaraq agentlik sahibkarlıq subyektlərini qanunvericiliyin tələblərinə riayət etməyə və elektrik közərmə lampalarının dövriyyəsinə dair müəyyən edilmiş qaydalara əməl etməyə çağırır.

***XQ***

# Tezliklə "Xızı-Abşeron" KES işə salınacaq

**Azərbaycanın bərpaolunan enerji sektorunda reallaşdırılan mühüm layihələrdən sayılan "Xızı-Abşeron" Külək Elektrik Stansiyası yaxın vaxtlarda istismara hazır olacaq. Bu barədə energetika naziri Pərviz Şahbvazov "X" hesabında paylaşım edib.**

"240 meqavat gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının Abşeron və Xızı sahələrində aparılan son tikinti işləri ilə tanış olduq. Stansiya yaxın vaxtlarda istismara hazır olacaq", – paylaşımda qeyd edilib.

Xatırladaq ki, Azərbaycanın təmiz ətraf mühit və yaşıl artım ölkəsi prioritetinə uyğun olaraq həyata keçirilən 240 meqavat gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyası ölkəmizdə bərpaolunan enerji sahəsində ən böyük layihələrdən biridir. Layihə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən tamamilə xarici investisiya hesabına həyata keçirilir.



Layihə Abşeron və Xızı rayonlarında, ümumilikdə, 36 hektar ərazidə icra edilir. 12 külək turbinindən ibarət hissə ümumi gücü 78 meqavat olmaqla Abşeron rayonunun, 25 külək turbinindən ibarət olan 162 meqavatlıq hissə isə Xızı rayonunun ərazisində yerləşəcək. Abşeronda illik 300 milyon kilovat-saatdan, Xızıda isə 600 milyon kilovat-saatdan çox elektrik enerjisinin istehsalı proqnozlaşdırılır. Külək texnologiyasında enerji istehsalının səmərəliliyi küləyin sürətindən asılıdır. Belə ki, tədqiqatlar göstərir ki, Abşeronda küləyin orta illik sürəti saniyədə 9,35 metr, Xızıda isə 9,63 metr təşkil edir. Mütəxəssislərin fikrincə, bu göstərici turbinlərin səmərəli fəaliyyəti üçün kifayət qədər yüksəkdir və stansiyanın enerji istehsalında dayanıqlılığı təmin edəcək.

***XQ***

# Süni intellektin texnoloji məsələləri

**Naxçıvan Dövlət Universitetində "İnkişaf və innovasiyalar: Süni intellekt və maşın öyrənməsi" adlı I beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Naxçıvan Dövlət Universiteti (NDU), Azərbaycan Texniki Universiteti (AzTU), Mingəçevir Dövlət Universiteti (MDU), Özbəkistanın Daşkənd Dövlət Texniki Universiteti, Malayziyanın Asya Pasifik Universitetinin və Pakistanın Milli Elm və Texnologiya Universitetinin birgə təşkilatçılığı, bir sıra xarici və respublika universitetlərinin iştirakı ilə hibrid formada təşkil edilən konfransın əsas məqsədləri süni intellekt və maşın öyrənməsi sahəsindəki ən son tədqiqat və texnoloji yenilikləri təqdim etmək, məlumatın keyfiyyəti, modelin izah edilə bilməsi, miqyaslana bilməsi kimi əsas məsələləri araşdırmaq, süni intellekt dövründə inkişafı dəstəkləmək üçün akademiya, sənaye və hökumət arasında əməkdaşlığı təşviq etməkdən ibarət olub.



Açılış nitqi ilə çıxış edən NDU-nun rektoru Elbrus İsayev konfransı aktual və müzakirəsi zəruri olan süni intellekt yönündə tədqiqatçıları, sahə mütəxəssislərini, alimləri bir araya toplayan mühüm beynəlxalq forum adlandırıb. Rektor ilin əvvəlində NDU-da robot moderator qadının təqdimatında "Süni intellekt: nəzəriyyədən praktikaya" II beynəlxalq elmi konfransı keçirildiyini xatırladıb, burada tədris olunan ixtisaslarda süni intellektin seçmə fənn olaraq şaxələndirildiyini bildirib.

ATU-nun rektoru Vilayət Vəliyev isə qlobal əhəmiyyətli mövzuya həsr olunmuş konfransa 13 ölkədən 200-ə yaxın məqalə daxil olduğunu bildirib. Onun sözlərinə görə, ilkin mərhələdə seçilmiş 135 məqalə dəyərləndirildikdən sonra müxtəlif beynəlxalq elmi platformalarda çap olunacaq. Türkiyənin Düzcə Universitetinin rektoru Nedim Sözbir konfransda iştirakdan məmnunluğunu ifadə edərək burada yeni ideyaların paylaşılması, problemlərin müzakirəsi və mühüm yeniliklərin təşviqi yönündə önəmli fikirlər səslənəcəyinə əminliyini bildirib.

MDU-nun rektoru Anar Eminov isə Naxçıvan Dövlət Universitetinin süni intellektlə bağlı maarifləndirmə işində ölkədə nümunəvi ali təhsil müəssisələrindən olduğunu vurğulayıb, konfransın tədqiqatçıların bilik və təcrübələrini bölüşməsi, yeni tədqiqat istiqamətlərinin təməlinin qoyulması baxımından olduqca əhəmiyyətli tədbir olduğunu deyib.

Pakistanın Milli Elm və Texnologiya Universitetinin prorektoru Osman Həsən "Süni intellekt sistemləri vasitəsilə neyromorfik davamlı öyrənmə üçün effektiv təkrar yaddaşa əsaslanan metodologiya", Budapeşt Korvinus Universitetinin Maliyyə İnstitutunun direktoru Kata Varadi "Mürəkkəb svop opsionlarının qiymətləndirilməsində süni intellektdən istifadə", Belarus Dövlət İnformatika və Radioelektronika Universitetinin kafedra müdiri Boiprav Olga "Materialların mikrodalğadan qorunma effektivliyini proqnozlaşdırmaq üçün fizika-əsaslı neyron şəbəkələrə əsaslanan müasir yanaşma" mövuzlarında çıxış ediblər.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə fotosu çəkdirilib, qonaqlar NDU-da İnnovasiya Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

***S.HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Qədim Naxçıvanın gənc akademiyası

**Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illik yubileyi bu günlərdə ölkəmizdə silsilə tədbirlərlə qeyd edilir. Milli elmimizin məbədi sayılan bu mötəbər qurum ötən 8 onillikdə nailiyyətlərlə zəngin bir yol keçmişdir.**

AMEA respublikanın elmi-intellektual potensialını milli sərvətə çevirən mərkəz kimi tanınmış, Azərbaycanın hərtərəfli inkişafına öz töhfələrini vermiş və respublika elmini beynəlxalq səviyyədə tanıtmışdır. Bütün bunları nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixdə Sərəncam imzalamışdır.

Ölkə elminə dövlətin verdiyi böyük önəmi və yüksək qiyməti ifadə edən sənəddə deyilir: "Azərbaycan Milli Elmlər Akademiyası ötən müddət ərzindəki səmərəli fəaliyyətinin əsasında elmin zamanın tələblərinə uyğun prioritet problemlərinin araşdırılması, ən müxtəlif elmi istiqamətlər üzrə yüksək hazırlıqlı kadrların yetişdirilməsi, elmi məktəblərin formalaşdırılması və nüfuzlu beynəlxalq elm qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi prinsipləri dayanmışdır. Bu gün də Akademiya elm sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir, sosial-humanitar tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni səviyyənin yüksəldilməsi işinə töhfələr verir".

Azərbaycan Milli Elmlər Akademiyası ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin böyük qayğıları sayəsində inkişaf etmiş, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi, elmi və mədəni inkişafına, elmi elitanın formalaşmasında mühüm xidmətlər göstərmişdir. Prezident İlham Əliyevin "Azərbaycanda elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsinin bəzi məsələləri haqqında"kı 28 iyul 2022-ci il tarixli Sərəncamı əsasında ölkəmizdə elm sahəsində yeni tarixi mərhələyə start verilmişdir.

Bu tarixi mərhələ Milli Elmlər Akademiyasının tabeliyində fəaliyyət göstərən humanitar və ictimai elmləri əhatə edən elmi–tədqiqat institutlarında elmi-tədqiqat fəaliyyətinin azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərin inkişaf etdirilməsinə doğru inkişaf etdirilməsi diqqət mərkəzinə çəkilmişdir. Hazırkı mərhələdə Azərbaycan Milli Elmlər Akademiyasında dövlətimizin elm siyasətinin uğurla həyata keçirilməsi üçün yeniləşdirmə və islahatlar dönmədən həyata keçirilir. Milli Elmlər Akademiyasında inkişaf dövründə yeni elmi-tədqiqat müəssisələri, elmi mərkəzlər, elmi bölmələr yaradılmış, yüksək elmi dərəcəli kadrlar hazırlamış və əhəmiyyətli tədqiqat işləri aparılmışdır.

Azərbaycan Respublikasında elmin inkişafını daim diqqət mərkəzində saxlayan, qayğısını heç vaxt əsirgəməyən ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq 2002-ci il avqustun 7-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi Sərəncam imzaladı.

Sərəncama müvafiq olaraq, Naxçıvanda fəaliyyət göstərən müxtəlif elmi qurumlar əsasında bölmədə 6 elmi-tədqiqat institutu – Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu yaradıldı.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təşkili və formalaşdırılması ilə əlaqədar Prezident Heydər Əliyevin sədrliyi ilə 2002-ci il 12 avqust tarixində muxtar respublikada keçirilən müşavirədə bölmənin yaradılması zəruriliyindən bəhs edən Ümummilli lider demişdir: "Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, tarixi abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".

AMEA Naxçıvan Bölməsinin fəaliyyəti üçün, ilk növbədə, bölmənin rəhbərliyi, elmi-tədqiqat müəssisələrinin direktorları müəyyənləşdirildi, aparılacaq elmi-tədqiqat işlərinin istiqamətləri və mövzuları dəqiqləşdirildi. Bölmənin Əsasnaməsi hazırlandı və təsdiq olundu. Naxçıvan Bölməsi üçün inzibati binalar ayrıldı, onlarda yenidənqurma və təmir işləri aparıldı. 2003-cü il avqustun 23-də əsas bina Rəyasət Heyətinin və elmi işçilərin ixtiyarına verildi.

Sonrakı illərdə bu proses davam etdirildi. 2004 və 2005-ci illərdə Təbii Ehtiyatlar, Bioresurslar institutları, Əlyazmalar Fondu, Batabat Astrofizika Rəsədxanası, Elmi Kitabxana, Elmi Arxiv, Nəşriyyat üçün yeni binalar istifadəyə verildi. Təbii Ehtiyatlar İnstitutu üçün inzibati binanın



açılışında Prezident İlham Əliyev proqram xarakterli çıxış etdi, bölmənin fəaliyyət istiqamətlərini göstərdi. Dövlət başçısının diqqət və qayğısı nəticəsində bölmənin Nəbatat bağının sahəsi genişləndirildi, yenidən quruldu və abadlaşdırıldı, ikimərtəbəli inzibati bina tikildi, su problemini birdəfəlik həll etmək üçün subartezian quyusu istifadəyə verildi, yeni texnika alındı.

Batabat Astrofizika Rəsədxanası üçün ikimərtəbəli müasir layihə əsasında inzibati bina istifadəyə verildi. Rəsədxananın teleskop sistemi yenidən qurularaq tam



avtomatlaşdırıldı, sürətli internet sisteminə qoşuldu, müasir avadanlıqlarla təchiz edildi, elmi işçilərin tədqiqat aparmaları üçün normal şərait yaradıldı. "Tusi" nəşriyyatı üçün avadanlıqlar alındı.

Yeni yaradılan elmi-tədqiqat müəssisələrinin struktur bölmələri – şöbə və laboratoriyalar təşkil edildi, onların maddi-texniki bazası möhkəmləndirildi. Qısa müddətdə 10-dan çox laboratoriya quruldu, yeni cihaz və avadanlıqlar alındı. Biokimyəvi tədqiqatlar laboratoriyası üçün Ordubad rayonunun Aşağı Əylis kəndində üçmərtəbəli inzibati bina tikildi, ən müasir cihaz və avadanlıqlarla təchiz edildi. Muxtar respublikanın 4 rayonunda Seysmoloji stansiyalar və Təbii Ehtiyatlar İnstitutunda Seysmoloji mərkəz quruldu. "Arxeologiya və etnoqrafiya" və "Təbii ehtiyatlar" muzeyləri təşkil edildi. Elektron Kitabxana yaradıldı. Bölmə beynəlxalq İnternet şəbəkəsinə qoşuldu, 5 elektron portal yaradıldı. "Elmi əsərlər" və "Axtarışlar" jurnalları nəşr olundu.

**Kadr hazırlığı.** AMEA Naxçıvan Bölməsi fəaliyyətə başlayarkən ən vacib və həlli tələb olunan məsələlərdən biri kadr potensialının yaradılması idi. 2003-cü ilin yanvarında 139 əməkdaşla, o cümlədən 51 elmi işçi ilə fəaliyyətə başlayan AMEA Naxçıvan Bölməsinin kadr potensialının artırılması istiqamətində bir sıra tədbirlər həyata keçirildi. Ulu öndər Heydər Əliyevin qayğısı sayəsində AMEA Naxçıvan Bölməsi üzrə seçkilər keçirildi, 2 nəfər AMEA-nın həqiqi üzvü, 3 nəfər isə müxbir üzvü seçildi. AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarına, təhsil müəssisələrinin doktoranturalarına gənc elmi kadrlar göndərildi, magistr təhsilli gənclər işə dəvət edildi.

Bu diqqət və qayğı sonrakı illərdə də davam etdirildi. Təqribən 10 ildən sonra Bölmədə işçilərin sayı artaraq 259 nəfərə, elmi işçilərin sayı isə 102 nəfərə çatdırıldı. Bölmə əməkdaşlarının 2 nəfəri AMEA-nın həqiqi üzvü, 4 nəfəri AMEA-nın müxbir üzvü, 4 nəfəri elmlər doktoru, 56 nəfəri isə fəlsəfə doktoru olaraq fəaliyyət göstərirdi ki, bu da elmi işçilərin 66 faizini təşkil edirdi. Elmi əməkdaşların 6 nəfəri professor, 40 nəfəri isə dosent idi.

2006-cı ildən AMEA Naxçıvan Bölməsində "Vətən tarixi", "Arxeologiya", "Müəssisələrin təşkili və idarə olunması" ixtisasları üzrə Dissertasiya Şurası fəaliyyət göstərməyə başladı, 2013-cü ildə bu Şuraya doktorluq dissertasiyaları müdafiə etmək səlahiyyəti verildi. Bu Dissertasiya Şurasında indiyə qədər 17 nəfər elmlər doktoru, 95 nəfər isə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir. 2015-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Bölmənin nəzdində "Botanika" və "Fiziki kimya" ixtisasları üzrə fəlsəfə doktoru Dissertasiya Şurası təsdiq edildi.

AMEA Naxçıvan Bölməsinin fəaliyyətə başladığı ilk illərdə başqa elm və təhsil müəssisələri bölmə üçün kadr hazırlayırdısa, artıq son illərdə Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikası ilə yanaşı, həm də Azərbaycanın müxtəlif elm və təhsil müəssisələri, eləcə də qonşu xarici ölkələr üçün də kadr hazırlığında iştirak edir. Ümumiyyətlə, hər il bu məqsədlə 8-10 nəfərin doktorant və dissertant mövzularının təsdiqinə və sonrakı illərdə onların müdafiəsinə nail olunur.

**Elmi nəşrlər, patentlər və layihələr.** Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasının tarixinin, arxeologiyasının, etnoqrafiyasının, mədəni mühitinin, folklorunun, ədəbi mühitinin, dialekt və şivələrinin, flora və faunasının, təbii ehtiyatlarının araşdırılmasından əldə olunan mühüm nəticələr nəşr edilmişdir.

Bölmənin 2 cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan tarixi atlası", 3 cilddə "Naxçıvan tarixi", "Naxçıvan teatrının salnaməsi", 4 cilddə "Naxçıvan folkloru antologiyası", "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası, "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: hazırkı vəziyyəti və perspektivləri", 2 cilddə "Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", 2 cilddə "Naxçıvan coğrafiyası", 2 cilddə "Naxçıvan etnoqrafiyası" və başqa bu kimi fundamental nəşrləri işıq üzü görmüşdür.

Əməkdaşlarımız muxtar respublikanın rayonlarının tarixi yazılmış, "Şərur rayonunun tarixi", "Culfa rayonunun tarixi", "Ordubad rayonunun tarixi", "Kəngərli rayonunun tarixi", "Sədərək rayonunun tarixi" monoqrafiyalarının hazırlayıb nəşr etdiriblər. Qalan iki rayonun tarixi də bu il nəşr edilmişdir.

Ümumiyyətlə, Naxçıvan Bölməsi fəaliyyəti dövründə əməkdaşların 11 min 764 əsəri, o cümlədən 286 monoqrafiyası, 266 kitabı, 6 dərs vəsaiti, 34 metodik vəsaiti 10.919 elmi məqaləsi və konfrans materialı, 245 tezisi, 26 xəritəsi çap olunmuşdur. Əsərlərdən 33 monoqrafiya, 20 kitab, 2 min 308 elmi məqalə və konfrans materialı, 89 tezis xarici ölkələrdə çapdan çıxmışdır. Elmi məqalələrdən 391-i "Web of Science", "Scopus" və digər elmi bazalara daxil olan impakt faktorlu jurnallarda çap edilmişdir.

Son 5 ildə əməkdaşların 7 min 437 əsərinə istinadlar qeydə alınmışdır. Bölmə əməkdaşları açıq dünya ensiklopediyası - Vikipediyanın ingilis və rusdilli səhifələrində Naxçıvan tarixi ilə bağlı erməni iddialarını əks etdirən məqalələrin redaktəsini həyata keçirmiş, Azərbaycandilli Vikipediya ensiklopediyasında redaktələrlə yanaşı, Naxçıvan tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri, təbii sərvətləri ilə bağlı 330 yeni məqalə yerləşdirmişlər. Əməkdaşların 5305 qəzet məqaləsi müxtəlif mətbu orqanlarda çap olunmuşdur.

Bölmə əməkdaşları 5 tövsiyə, 55 buklet hazırlamış, 38 patent almışlar. Onların "İxtiraçılıq sahəsində nailiyyətlərinə görə III, IV və V Respublika Müsabiqə"lərinə təqdim etdikləri ixtira patentləri qalib olmuş, diploma layiq görülmüşdür. Bölmənin elmi əməkdaşları fəaliyyət dövründə "Azərbaycan ensiklopediyası"nın, "Cümhuriyyət ensiklopediyası"nın və "Türk dünyası ədəbiyyatçılar ensiklopediyası"nın, "Naxçıvan Muxtar Respublikası fövqəladə hallar atlası"nın hazırlanmasında fəal iştirak etmişlər.

Ötən dövrdə 2 seriyada nəşr olunan Bölmənin "Elmi əsərlər" jurnalının 76 nömrəsi, "Axtarışlar" jurnalının isə 50 nömrəsi işıq üzü görmüşdür. Naxçıvan Bölməsinin əməkdaşlarının məqalələri əsasında "İrs", "Naxçıvan", "Yol", "Folklor (Ədəbiyyat)", "Qafqaz", "Elm və həyat" jurnallarının xüsusi nömrələri Naxçıvana həsr edilmişdir. Fəaliyyəti dövründə Bölmə əməkdaşları 4-ü beynəlxalq olmaqla 23 qrant layihəsinin qalibi olmuşlar. AMEA Naxçıvan Bölməsi fəaliyyəti dövründə icra edilən elmi-tədqiqat işlərinin 209 mühüm nəticəsi AMEA-nın illik hesabatlarına daxil edilmişdir.



Bölmənin əməkdaşları "Şorsu" palçığının tərkibini öyrənmiş, iki növdə müalicəvi əhəmiyyətə malik olduğunu müəyyənləşdirmiş və istehsal edilmişdir. Darıdağ termal suyunun quru qalığı alınmış, müalicəvi əhəmiyyəti nəzərə alınaraq istehsal edilmişdir. 132 rəsmi dərman bitkisinin olduğu müəyyən edilmiş, qarışıqlar hazırlanmış, muxtar respublikanın apteklərində satışı təşkil olunmuşdur. Arpanın Qılçıqlı-85 və noxudun Qaraca-85 sortları yaradılmışdır. Bitkilərdən müxtəlif efir yağları, gülab, boya və doşab alınmasına başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamına əsasən, bölmədə 1200-dən çox tarix və mədəniyyət abidəsi aşkar olunmuş və pasportlaşdırılmışdır. Bu abidələrin 57-si dünya, 485-i isə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsidir. Bunlar əsasında Abidələr ensiklopediyası hazırlanmışdır.

Bölmənin elmi fəaliyyətində təşkil edilmiş beynəlxalq və respublika səviyyəli arxeoloji ekspedisiyaların və onların apardıqları arxeoloji tədqiqatların mühüm əhəmiyyəti olmuşdur. İki beynəlxalq (ABŞ və Fransa arxeoloji ekspedisiyası) və iki respublika səviyyəli (AMEA Naxçıvan Bölməsi) arxeoloji ekspedisiya Oğlanqala, Ovçular təpəsi, I Kültəpə, Duzdağı, Naxçıvan təpə, Qızqala, Uçan ağıl, Bülövqaya, Sədərək şəhər yeri, Xələc yaşayış yeri kimi arxeoloji abidələrdə tədqiqatlar aparılmış və əhəmiyyətli nəticələr əldə edilmişdir. Arxeoloji tədqiqatlar Naxçıvanın Eneolit və Tunc dövrü mədəniyyətinin ardıcıl mərhələlərini izləməyə imkan vermiş, Naxçıvan şəhərində məskunlaşmanın 8 min il bundan əvvəl başladığını təsdiq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 fevral 2004-cü il tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 7 oktyabr 2015-ci il tarixli "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" və 4 iyul 2016-cı il tarixli "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq edilməsi haqqında" sərəncamlarını rəhbər tutaraq yaradılmış tədqiqat qrupları hər üç tarixi abidə üzrə bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasına və tədqiq edilməsinə çalışmış, materiallar hazırlamış, ingilis və rus dillərinə tərcümə etmişlər.

Hər 3 tarixi abidə haqqında hazırlanmış kitablar nəşr olunmuşdur. Bölmə əməkdaşlarının Əshabi-Kəhf, Gəmiqaya, türbələr, imamzadələr, buzxanalar, körpülər, hamamlar haqqında, Naxçıvanın görkəmli və tarixi şəxsiyyətləri ilə bağlı, onların taleyi və sənəti seriyasından 19 kitab hazırlanıb çap edilmişdir.

AMEA Naxçıvan Bölməsi, Geologiya və Geofizika İnstitutu və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə UNESCO səviyyəli "İlandağ" geoparkının yaradılması və onun Qlobal Geoparklar Sisteminə və Ümumdünya İrsi Siyahısına salınması ilə əlaqədar lazımi işlər görülmüş, 1700 kvadratkilometr sahəni əhatə edəcək "İlandağ" geoparkının xəritəsi və geoparkın ərazisində yerləşən tarix-mədəniyyət və arxeoloji abidələrin siyahısı və kompüter məlumat bazası yaradılmışdır.

**Beynəlxalq əlaqələr və tədbirlər.** AMEA Naxçıvan Bölməsi fəaliyyət dövründə 20-dən çox elm və təhsil mərkəzləri, o cümlədən ABŞ, Fransa, Polşa, Şimali Makedoniya, Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və b. ölkələrin elm və təhsil müəssisələri ilə sıx elmi əlaqələr qurmuş və bu gün uğurla davam etdirilir.

AMEA Naxçıvan Bölməsi tədqiqatçıları elmi ezamiyyələrə göndərilir. Hər il bölmədə müxtəlif elm və tədris müəssisələrinin iştirakı ilə beynəlxalq səviyyəli simpozium və konfranslar keçirilir.

Bölmə əməkdaşları dünyanın müxtəlif şəhərlərində keçirilən beynəlxalq tədbirlərdə Azərbaycan elmini layiqincə təmsil etmişlər.

**Elm və təhsil əlaqələri.** Ölkə təhsilində ilk dəfə olaraq "İnteraktiv açıq dərs" layihəsi çərçivəsində AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri arasında müxtəlif mövzularda interaktiv açıq dərslər təşkil olunmuşdur. Naxçıvan Bölməsindən deyilən interaktiv açıq dərslər muxtar respublikanın 200-dən artıq məktəblərində dinlənilir.

Naxçıvan Dövlət Universitetinin 5 ixtisas üzrə təhsil alan tələbələri AMEA Naxçıvan Bölməsinə hamiliyə verilmiş və həmin tələbələrin iştirakı ilə Bölmənin elmi-tədqiqat müəssisələrində müvafiq layihələr çərçivəsində birgə tədqiqatlar, seminarlar, dəyirmi masalar, açıq dərslər, laboratoriya məşğələləri və s. keçirilir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə həyata keçirdiyi "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində Naxçıvan şəhərinin ümumtəhsil məktəblərindən 50 şagird bölmə alimləri tərəfindən hamiliyə götürülərək fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb edilmiş və uğurlu nəticələr əldə olunmuşdur.

Naxçıvan Bölməsinin 20-yə qədər əməkdaşı Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunda yarımştat, yaxud saathesabı yolu ilə il ərzində müəllim kimi çalışırlar.

**Mükafatlar və təltiflər.** Naxçıvan Bölməsinin əməkdaşlarının səmərəli elmi fəaliyyəti ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Bölmə əməkdaşlarından 3 nəfər "Əməkdar elm xadimi", 2 nəfər "Əməkdar müəllim", 1 nəfər "Əməkdar jurnalist" fəxri adına, 1 nəfər "Şöhrət" ordeninə, 7 nəfər "Tərəqqi" medalına, 3 nəfər Prezident mükafatına, 1 nəfər isə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən "Naxçıvan tarixi" çoxcildliyi, akademik İ.Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyası elm sahəsi üzrə Naxçıvan Muxtar Respublikası mükafatına, AMEA-nın müxbir üzvləri H.Qədirzadə və H.Səfərli "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" və "Tarixi mənbələrdə Nuh peyğəmbər" əsərlərinə görə Ali Məclisi Sədrinin mükafatına layiq görülmüşdür.

Bölmənin 1 əməkdaşı Azərbaycan Milli Məclisinə, 6 əməkdaşı Naxçıvan Muxtar Respublikası Ali Məclisinə üzv seçilmiş, 4 elmi əməkdaş Naxçıvan şəhərində mənzillə təmin edilmişdir.

Beləliklə, AMEA Naxçıvan Bölməsi muxtar respublikada elmi mühitin inkişaf etdirilməsində bir sıra uğurlara nail olmuşdur. Bölmə əməkdaşları qarşıya qoyulan vəzifələrin bundan sonra da yüksək səviyyədə yerinə yetirilməsinə, mövcud elmi potensialdan səmərəli istifadə etməklə elmi-tədqiqat işlərinin müasir tələblərə cavab verə biləcək səviyyədə aparılmasına çalışacaqlar.

*İsmayıl HACIYEV,*
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

*I Türkoloji Qurultay – 100*

# Azərbaycan bu gün də türkoloji mərkəzdir

**Bir əsr öncə – 1926-cı ilin fevralında Bakı şəhəri təkcə Azərbaycanın yox, bütün türk dünyasının elm və mədəniyyət salnaməsinin ən parlaq səhifələrinin yazıldığı paytaxta çevrilmişdi. Həmin günlərdə Bakının intellektual mühiti yalnız bir beynəlxalq elmi-məfkurəvi toplantıya deyil, türk xalqlarının mənəvi birliyinə, mədəni həmrəyliyinə və elmi tərəqqiyə qovuşmaq məramına da şahidlik etmişdi.**

I Türkoloji Qurultay, sadəcə, geniş elmi müzakirə və mübadilə hadisəsi deyil, türklüyün elm, dil və mədəniyyət müstəvisində özünü dərk etməsinin təcəssümü, türk xalqlarının gələcək mənəvi birlik yolunu müəyyənləşdirmək cəhdi, mənəvi platforma idi. O dövrün siyasi məhdudiyyətləri və sosial təzyiqlərinə baxmayaraq, Qurultay türk xalqlarının tarixində intellektual azadlığın, elmi əməkdaşlığın və milli birliyin bərqərar olduğu nadir məqam kimi yadda qaldı.

Bakı o illərdə, sanki, bütün Türk dünyasının düşüncə və yaradıcılıq enerjisini özündə cəmləmiş bir mərkəzə çevrilmişdi. Krımdan Qazaxıstana, Türkmənistandan Anadoluyadək müxtəlif bölgələrdən gələn alimlər, dilçilər, tarixçilər və ədəbiyyatşünaslar burada türklük ideyasının elmi əsaslarını formalaşdırmaq, ortaq dil, ortaq əlifba və ortaq gələcək barədə düşünmək üçün bir araya gəlmişdilər. Türkoloji Qurultay qədim bir mədəniyyətin etnik-mədəni kimliyini elmi dildə ifadə etdiyi tarixi dönüş nöqtəsi, türk xalqları arasında intellektual və mənəvi qovuşmanın başlanğıcı idi.

100 il sonra da bu hadisəyə dövlət səviyyəsində verilən qiymət, xüsusən də möhtərəm Prezident İlham Əliyevin Qurultayın 80, 90 və 100 illik yubileylərinin keçirilməsi ilə bağlı imzaladığı sərəncamlar bir daha sübut edir ki, Azərbaycan türklüyün mərkəzi, türk birliyinin ideya və mədəni dayağı olaraq qalmaqdadır.

Prezident İlham Əliyevin "Türk dünyası bizim mənəvi dayağımızdır, biz bu birliyin güclənməsi üçün bütün istiqamətlərdə fəaliyyət göstəririk" fikri, əslində, sadəcə siyasi bəyanat deyil, tarixi və mənəvi ardıcıllığın ifadəsidir. Bu yanaşma təkcə siyasi mövqenin ifadəsi deyil, həm də 1926-cı il Bakısında təməli qoyulmuş ideyanın – türk xalqlarının mədəni və elmi birliyinin müasir dövrdə davamıdır.

Azərbaycan Prezidentinin vurğuladığı bu konsepsiya, türklüyün yalnız tarixi keçmişdə deyil, müasir dünyada da vahid mənəvi güc kimi mövcud olduğunu göstərir. Əgər 1926-cı ildə Bakı elm və mədəniyyət sahəsində türk xalqlarının ortaq düşüncə mərkəzinə çevrilmişdisə, bu gün həmin missiya müstəqil Azərbaycan dövlətinin siyasi iradəsində və İlham Əliyevin strateji baxışında öz davamını tapır.

1920-ci illərin ortalarında SSRİ məkanında baş verən mürəkkəb proseslərə baxmayaraq, Bakı həmin dövrdə həm iqtisadi, həm də intellektual baxımdan regionun ən mühüm mərkəzlərindən biri idi. Burada fəaliyyət göstərən ziyalı təbəqə – Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Əli Nazim, Salman Mümtaz, eləcə də kommunist rəhbərlər Səməd ağa Ağamalıoğlu, Ruhulla Axundov və başqaları — türklüyün elmi əsaslarını formalaşdırmaq, mədəni inteqrasiyanı təmin etmək məqsədilə böyük işlər görürdülər.

Məhz belə bir şəraitdə keçirilən Birinci Türkoloji Qurultay 131 alim və ziyalını bir araya gətirdi. Onların arasında Türkiyədən Fuad Köprülü, Qazaxıstandan Əhməd Baytursun, Tatarıstandan Qalimcan Şərəf, Yakutiyadan İsidor Baraxov, Rusiyadan Vasili Bartold, Aleksandr Samoyloviç, Özbəkistandan Abdurrəşid Abducabbarov, Almaniyadan Radebold Valter kimi böyük adlar da var idi.

Qurultayın əsas məqsədi türk xalqları arasında ortaq əlifba, elmi metodologiya və mədəni əlaqələrin formalaşdırılması idi. Ən çox müzakirə olunan mövzulardan biri əlifba islahatı və ortaq latın qrafikasına keçid məsələsi idi. Bu, bir tərəfdən elmi yenilik, digər tərəfdən isə milli oyanışın simvolu idi. Elə bu səbəbdən də Qurultay Sovet rəhbərliyi tərəfindən "pantürkizm" meyli kimi qiymətləndirildi.

Qurultayın ən mühüm və strateji hədəflərindən biri türk xalqları arasında elmi, mədəni və yazı birliyinin bərqərar olunması idi. Bu məqsədlə toplantının əsas müzakirə mövzularından biri ortaq əlifba məsələsi olmuşdu. Türk dünyasının müxtəlif bölgələrindən gələn alimlər — Bəkir Çobanzadə, Fuad Köprülü, Əhməd Baytursun və başqaları — hər biri öz baxış bucağından çıxış etsələr də, hamısını bir ideya birləşdirirdi: türk xalqları arasında elmi ünsiyyətin asanlaşdırılması və ortaq mədəni sistemin qurulması. Bu məqsədlə latın qrafikalı yeni əlifbaya keçid ideyası xüsusilə böyük maraq doğurmuşdu.

Bu təklif həm dilin tədrisini və elmi yazılış qaydalarını sadələşdirməyi hədəfləyirdi, həm də türklərin ortaq mənəvi köklərini birləşdirən mədəni bağ rolunu oynayacaqdı. Məhz bu səbəbdən əlifba məsələsi sıradan bir texniki yenilik deyil, türklüyün elmi və ideoloji birliyi məsələsinə çevrilmişdi.

Lakin o dövrdə Sovet rəhbərliyi, xüsusilə Moskva ideoloqları, türk xalqlarının yazı birliyini və mədəni inteqrasiyasını "pantürkizm" və "milli təəssübkeşlik" kimi qələmə verirdilər. Onların baxışına görə, ortaq əlifba yalnız elmi proses deyil, həm də türklər arasında milli həmrəyliyi gücləndirən amil idi və bu, imperiyanın gələcək idarəçiliyi üçün potensial təhlükə yarada bilərdi. Buna görə də Bakı Qurultayı həm türk xalqları arasında elmi modernləşmə ideyasının, həm də mərkəzdə qorxu doğuran milli oyanış prosesinin simvoluna çevrildi.

Qurultayın gedişində 17 iclas keçirilmiş, onların 10-dan çoxu dil və əlifba məsələlərinə həsr olunmuşdu. Türk dillərinin tarixi mənşəyi, qohumluq əlaqələri, orfoqrafiya və terminologiya prinsipləri geniş şəkildə müzakirə olunmuşdu. Bəkir Çobanzadə türk dillərinin fonetik sistemləri üzərində elmi əsaslı çıxış etmiş, Hənəfi Zeynallı isə məktəblərdə tədris dili məsələsini gündəmə gətirmişdi.

Birinci Türkoloji Qurultayda ən çox fikir ayrılığı doğuran məsələlərdən biri əlifba problemi idi. Bu məsələ, əslində, yalnız yazı sisteminin seçimi ilə məhdudlaşmırdı — o, dərin ideoloji və siyasi məna daşıyır, sovet məkanında milli kimliyin gələcək istiqamətinin müəyyənləşdirilməsində mühüm rol oynayırdı. Uzun elmi müzakirələrdən sonra 1926-cı il martın 4-də Qurultayın 13-cü iclasında əlifba məsələsi səsverməyə çıxarıldı. Səsvermə nəticəsində 101 nümayəndə latın qrafikasının, 7 nəfər ərəb əlifbasının tərəfdarı oldu, 9 nümayəndə isə bitərəf qaldı. Bu qərar yalnız Azərbaycanın deyil, həm də sovet məkanında yaşayan digər türkdilli və qeyri-rus xalqlarının yazı sistemlərinin gələcək inkişaf istiqamətinə təsir göstərən mühüm hadisəyə çevrildi.



Əslində, bu müzakirələr sadəcə dil elmi çərçivəsində deyildi. Bunlar türk xalqlarının öz kimliyini elmi əsasda ifadə etməsinin təzahürü idi. Lakin bu ideya dövrün siyasi sisteminə uyğun gəlmirdi. 1937-ci ilin repressiyaları zamanı Qurultayda fəallıq göstərən çoxsaylı ziyalılar – Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Nazir Torequlov, Eldes Omarov, Bilal Süleyev, Nikolay Qavriloviç Katanov və başqaları – "pantürkist" damğası ilə güllələndı, bəziləri isə ən yaxşı halda sürgünlərə məhkum edildilər. Beləcə, Qurultay bir tərəfdən milli-mədəni yüksəlişin, digər tərəfdən isə sovet totalitarizminin faciəvi simvoluna çevrildi.

Tarix göstərir ki, milli yaddaşın qorunması, Türk dünyasının elmi və mənəvi birliyinin bərpası yalnız müstəqillik dövründə mümkün oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədə həyata keçirdiyi siyasət məhz 1926-cı il ideallarının müasir mərhələdə davamı kimi qiymətləndirilməlidir.

2006 və 2016-cı illərdə Prezident İlham Əliyev tərəfindən imzalanan fərmanlarla I Türkoloji Qurultayın 80 və 90 illik yubileylərinin qeyd olunması dövlət səviyyəsində təmin olundu. Hər iki yubiley çərçivəsində elmi konfranslar, sərgilər və beynəlxalq toplantılar təşkil edildi. Bu tədbirlər bir daha göstərdi ki, Azərbaycan dövləti türk mədəni irsinin qorunmasını milli ideologiyanın əsas istiqamətlərindən biri kimi qəbul edir.

Ulu öndər Heydər Əliyev Türk dünyası ilə bağlı çıxışlarında tez-tez vurğulayırdı ki, ulu babalarımız və əvvəlki nəsillər əsrlər boyu bu dostluq və qardaşlıq münasibətlərini formalaşdırmış, onları qoruyub saxlamış və bu günə qədər yaşatmışlar. Eyni kökdən gələn xalqlarımız tarixən öz dostluq ənənələrinə sadiq qalmış, bu ənənələr sayəsində dil, din və mənəvi dəyərlərimizi qorumuşlar. Prezident İlham Əliyevin fikirləri də bu baxışın məntiqi davamıdır: bizim kökümüz, dilimiz, dinimiz və mənəviyyatımız eynidir. Türk dünyası arasındakı birlik və həmrəylik möhkəmləndikcə, bölgədə sülh, sabitlik və inkişaf daha da güclənəcək.

Qurultayın ən mühüm nəticələrindən biri – ortaq əlifba və dil birliyi ideyası – bu gün yenidən aktuallaşıb. Türk Dövlətləri Təşkilatı 2023-cü ildə "Ortaq Türk Əlifbası Konsepsiyası"nı qəbul etdi. Bu sənəd, əslində, 1926-cı ildə Bakıda səslənən ideyanın çağdaş elmi-siyasi ifadəsidir.

Bu gün Azərbaycanla Türkiyə arasında "Bir millət, iki dövlət" prinsipi artıq bütün Türk dünyası üçün strateji modelə çevrilib. Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Şimali Kipr Türk Respublikası və Macarıstan kimi dost dövlətlərin də bu birliyə qatılması Bakının 1926-cı il missiyasının XXI əsr reallığına çevrildiyini göstərir.

Türkoloji Qurultayın 100 illiyi ərəfəsində bu elmi və mənəvi hadisəni formalaşdıran zəka və fədakarlıq nəslini yad etmək təkcə keçmişə hörmət deyil, həm də milli yaddaşımızın dirçəldilməsi deməkdir. O dövrün alimləri, maarifçiləri və ideoloqları yalnız öz xalqlarının deyil, bütün Türk dünyasının gələcəyi üçün düşünür, çalışır və mübarizə aparırdılar. Türkçülük tarixini düşünərkən unutmamalıyıq ki, onların yaratdığı ideyalar — türk birliyi, mədəni inteqrasiya, ortaq əlifba, dil və elm birliyi — qələmlə yazıldı, lakin zamanla bu ideallar can bahasına qorundu, həyatlarını qurban vermiş qəhrəmanların iradəsi ilə möhkəmləndi.

I Türkoloji Qurultayın 100 illik yubileyinin ölkəmizdə dövlət səviyyəsində qeyd edilməsinin qərara alınması, əslində, təkcə yubiley xarakteri daşımır, o, həm də Azərbaycanın türk birliyinin elmi-mədəni mərkəzi statusunu təsdiqləyir. Bu Sərəncam həm də onu göstərir ki, Bakı 1926-cı ildə olduğu kimi, bu gün də Türk dünyasının intellektual paytaxtıdır. Azərbaycan artıq təkcə keçmişin mirasını qoruyur, həm də Türk Dövlətləri Təşkilatında elmi, mədəni və siyasi inteqrasiyanın lideri rolunu oynayır.

***N.ƏHMƏDOV,***
***Əməkdar jurnalist,***
***filologiya üzrə fəlsəfə doktoru***

*Rüfət Rüstəmov – 80*

# Milli türkologiyanı zənginləşdirən alim-pedaqoq

**Tanınmış türkoloq, Bakı Dövlət Universiteti türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmovun anadan olmasının 80 illiyini elmi-mədəni ictimaiyyət yubilyarın zəngin və mənalı ömür yoluna, çoxillik elmi-pedaqoji fəaliyyətinə yüksək qiymət, şəxsiyyətinə sevgi-sayğı ilə qeyd edir.**

Rüfət Rüstəmov 1945-ci il noyabrın 1-də Gədəbəy rayonunun Düzrəsullu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olub. Tələbəlik illərində Türkiyədə tərcüməçi kimi fəaliyyət göstərib. 1973-cü ildən həyatını doğma şərqşünaslıq fakültəsi ilə bağlayıb.

1980-ci ildə müdafiə etdiyi namizədlik, 1996-cı ildə isə doktorluq dissertasiyaları ilə türkologiyada yeni elmi istiqamət açıb. Türk dilçiliyinin müxtəlif problemlərinə həsr olunmuş araşdırmaları ilə yanaşı, respublikada ilk "Türk dili" dərsliyinin də müəllifidir. BDU-da türk filologiyası kafedrasının yaradılmasında və bu sahənin inkişafında onun sanballı xidmətləri olub.

Uzun illərdən bəri redaksiyamızla yaxın əlaqəsi olan Rüfət müəllimin saçlarına sığal çəkən zaman onun enerjisinə, gənclik ruhuna toxuna bilməyib. Zəkalı alim, təcrübəli pedaqoq kimi ölkə türkologiyasının inkişafında səmərəli fəaliyyəti ilə seçilən professor Rüfət Rüstəmov müsahibimizdir.

***– Professor, 80 illik ömür yolunuza bu zirvədən nəzər salanda hansı mənzərə görünür, nələr yada düşür?***

– Ömrümün 80 illik yoluna baxanda elm və təhsil sahəsində çəkdiyim zəhmətin hədər getmədiyini böyük uğur kimi görürəm. Mənim həyatım universitet auditoriyalarında, tələbələrlə ünsiyyətdə, elmi axtarışlarda keçib. Ölkədə ilk "Türk dili" dərsliyini yazmaq, türk filologiyası kafedrasının əsasını qoymaq və bu gün də onun xidmətində olmaq mənim üçün ən böyük qürurdur. Amma illər əvvəl dərs dediyim tələbələrin bu gün alim, müəllim, ziyalı olduqlarını görmək mənə bütün bunlardan çox xoşbəxtlik yaşadır.

Əslində, insanın həyatda qoyub getdiyi ən böyük miras onun topladığı titullar yox, yetişdirdiyi nəsil, elmi irs və yaratdığı məktəbdir. Mən də özümü xoşbəxt sayıram ki, bu ömür yolunda həm elmi, həm pedaqoji, həm də ictimai sahədə Azərbaycan elminə, dilçiliyinə, xüsusilə türk filologiyasına xidmət edə bilmişəm.

***– Türk filologiyası sahəsinə gəlişiniz necə oldu? Yol göstərən, qolunuzdan yapışan insanları nəzərdə tuturuq.***

– Türk filologiyası sahəsinə gəlişim tamamilə təbii bir maraq və həyati seçim nəticəsində oldu. Uşaqlıqdan dillərə, ədəbiyyata və milli mədəniyyətə böyük həvəsim var idi. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil aldıqca türk dili və onun zəngin tarixi məni özünə cəlb etdi.

Bu sahədə fəaliyyət göstərməyimdə isə bir sıra müəllim və ziyalıların böyük təsiri olub. Xüsusilə tələbəlik illərimdə mənə yol göstərən və elmi araşdırmalara həvəsləndirən professorlar, Türk dünyasının dil və mədəniyyətini sevdirən müəllimlərim mənim formalaşmağımda mühüm rol oynayıblar. Onların dəstəyi və nümunəsi sayəsində türk filologiyası yalnız bir elmi istiqamət deyil, həm də həyat missiyası halına gəldi.

***– Tələbəlik illərində o zaman dəmir sərhədlər arxasında olan Türkiyədə olmağınız, orada çalışmağınız sizi hələ gənc ikən ölkəmizdə tanıtmışdı...***

– Tələbəlik zamanı – 1972–73-cü illərdə Türkiyədə tərcüməçi kimi çalışmağım mənim həyatımda böyük bir məktəb oldu. O dövrdə Sovet İttifaqından Türkiyəyə getmək asan deyildi, amma elmi marağım, dilə olan sevgim və müəllimlərimin dəstəyi sayəsində bu fürsəti qazandım. Türkiyədə həm türk dilinin canlı danışıq mühitini yaxından öyrəndim, həm də bu coğrafiyadakı zəngin mədəniyyətlə tanış oldum. Bu təcrübə sonrakı elmi axtarışlarıma, türk dili və filologiyası üzrə araşdırmalarıma güclü təkan verdi.

***– Türk dünyası ədəbiyyatı və türk dilləri ilə bağlı araşdırmalarınız milli türkologiyamızı önəmli dərəcədə zənginləşdirib.***

– Bu araşdırmalar bir neçə mühüm nəticəyə yol açıb. Əvvəla, türk dillərinin tarixi və tipoloji xüsusiyyətlərini sistemli şəkildə öyrənmək imkanı qazandım və bu dillər arasında həm oxşarlıqlar, həm də fərqlilikləri daha dəqiq müəyyən etdim.

Xüsusilə Türk dünyasında köməkçi nitq hissələrinin funksiyaları və onların mədəniyyətlə bağlı rolu barədə yeni nəticələr əldə etdim ki, bu da türk dillərinin müqayisəli tədqiqatına mühüm töhfədir. Ümumilikdə, araşdırmalarım Türk dünyası mədəniyyətinin və dilinin daha dərindən anlaşılmasına, həmçinin türkologiya elminin zənginləşməsinə xidmət edib.

Universitetdə, eləcə də ümumilikdə Azərbaycanın təhsil sistemində ilk dəfə Türk dili kafedrasının yaradılması istiqamətində gördüyüm işlərin uğurla gerçəkləşməsində bu mühüm amillər həlledici rol oynadı. Müasir dövrdə türkologiyanın sistemli şəkildə tədrisinə olan maraq, türkdilli xalqlar arasında elmi və mədəni inteqrasiyanın güclənməsi bu təşəbbüsün reallaşmasına əlavə stimul verdi. Bu kafedranın təsis olunması yalnız yeni bir strukturun yaradılması deyildi; bu, həm də milli elmi ənənələrin bərpası, dil və kimlik məsələlərinə konseptual yanaşmanın formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyırdı.

***– Müasir dövrdə türkoloji araşdırmaların qarşısında duran ən mühüm problemləri nədə görürsünüz?***

– Çağdaş türkoloji araşdırmaların qarşısında bir neçə mühüm problem dayanır. Əvvəla, məlumat və mənbələrin parçalanmış olması və bəzən əlçatmaz olması araşdırmaların sistemli aparılmasını çətinləşdirir. Bu, xüsusilə klassik türk ədəbiyyatı və qədim sənədlərin öyrənilməsində müşahidə olunur. İkincisi, türk dillərinin və ədəbiyyatının müqayisəli tədqiqi üçün vahid metodologiyanın olmaması elmi işlərin dəqiqliyinə təsir göstərir. Üçüncüsü, gənc türkoloqların hazırlığı və elmi resurslarla təminatı sahəsində çatışmazlıqlar var.

Qlobal elmi mühitdə türkoloji araşdırmaların daha geniş tanınması, beynəlxalq əməkdaşlığın gücləndirilməsi də aktual məsələlərdəndir. Bütün bu problemlər qarşısında məqsəd yalnız tənqid deyil, həm də yeni elmi strategiyalar və interaktiv metodlar vasitəsilə türkoloji araşdırmaları daha sistemli və səmərəli etməkdir.

***– Siz həm də bir sıra ədəbi əsərlərin müəllifisiniz. Yazıçılığın alim və pedaqoqluğun kölgəsində qala bilməsi sizi qorxutmayıbmı?***

– Mənim üçün alim, pedaqoq və yazıçı anlayışları bir-birindən ayrı deyil, əksinə, bir-birini tamamlayır. Alim olaraq türk dili və ədəbiyyatı sahəsində elmi araşdırmalar aparmaq mənim əsas fəaliyyətimdir və bu sahədə elmi dərəcə alan ilk alim olmuşam. Hətta qürurla deyə bilərəm ki, 24 nəfərin alim kimi yetişməsində bilavasitə rolum olub, onların elmi rəhbəri olmuşam.

Pedaqoq kimi tələbələrlə işləmək, onların bilik və bacarıqlarını inkişaf etdirmək isə həm böyük məsuliyyət, həm də şərəfli bir işdir. Çoxsaylı dərslik, dərs vəsaitlərinin və tədris proqramlarının müəllifiyəm.

Yazıçı kimi fəaliyyətim isə mənim elmi və pedaqoji işlərimi daha geniş oxucu auditoriyasına çatdırmaq, dil və mədəniyyət məsələlərini daha sadə və anlaşıqlı şəkildə təqdim etmək üçün bir vasitədir. Əslində, bu üç rolu bir-birindən ayırmaq çətindir; hər biri mənim həyatımın və yaradıcılığımın ayrılmaz hissəsidir.

***– Sizi tanıyanlar bədii yaradıcılığınızda bioqrafiyanızın izlərini görürlər. Həmin əsərlərdə Rüstəmovlar nəslinin dədə-baba dünyası duyulur.***

– Ədəbi əsərlərimdə oxuculara əsasən milli kimlik, mədəni irs, tarixi yaddaş və insanpərvərlik kimi dəyərləri çatdırmağa çalışıram. Məqsədim oxucuda öz xalqına, dilinə və mədəniyyətinə bağlılıq hissini gücləndirməkdir. Ətrafımda baş verənlər mənim mövzum olub. Eyni zamanda, əsərlərimdə insanın daxili dünyası, mənəvi inkişafı və əxlaqi prinsipləri ön plana çıxarmağa çalışıram. Düşünürəm ki, ədəbiyyat təkcə estetik zövq verməməli, həm də oxucunu düşündürməli, onun dünyagörüşünü zənginləşdirməli və cəmiyyətdə müsbət dəyişikliklərə ilham verməlidir.

Haqlısınız, bədii əsərlərimdə mənim üçün çox əziz olan Rüstəmovlar nəslinin igid və şanlı tarixini əks etdirmək borc və şərəfdir. Yazıçı-publisist kimi 8 kitabın müəllifiyəm. Bu nəslin qəhrəmanları arasında həm döyüş meydanlarında, həm də ictimai-siyasi mübarizələrdə ad qoymuş şəxslər var.

Milli Qəhrəman Məzahir Rüstəmov döyüşdə göstərdiyi cəsarət və vətənpərvərliyi ilə tanınırdı. Cahangir Rüstəmov isə həm igidliyi, həm də xalqına sədaqəti ilə yadda qalmış bir şəxsiyyətdir. Bu qəhrəmanlar yalnız döyüş meydanlarında deyil, həm də gündəlik həyatlarında əxlaqi və mənəvi dəyərlərə sadiq qalmış insanlardır. Əsərlərimdə onların həyat yolunu və fədakarlıqlarını işıqlandırmaqla oxucuya həm tariximizi, həm də bu nəslin mənəvi irsini çatdırmağa çalışıram. Beləcə yalnız bir nəslin və ailənin yox, bütöv bir xalqın qəhrəmanlıq ənənələrini də yaşatmış oluruq.

***– Qarşıdan Bakıda keçirilmiş I Türkoloji Qurultayın 100 illiyi gəlir. Türkologiya ötən 1 əsrdə necə zənginləşib? Türk dövlətlərinin yüksək səviyyəli birliyi babaların açdığı yolu hara aparır?***

– Bakıda keçirilmiş ilk Türkoloji Qurultayın 100 illiyi ərəfəsində - bu bir əsrdə böyük irəliləyişlər əldə etmişik. Qazandığımız uğurlar arasında türk dillərinin müqayisəli tədqiqi, ortaq folklor və ədəbiyyat nümunələrinin sistemləşdirilməsi, türkoloji elminin tədrisi və elmi nəşrlərin artması mühüm yer tutur. Eyni zamanda, türkoloji elminin beynəlxalq səviyyədə tanınması və dünya elmi mərkəzləri ilə əməkdaşlığın qurulması da böyük nailiyyətdir.

Amma hələ görüləsi işlər çoxdur: ortaq elmi mərkəzlərin yaradılması, türk xalqlarının mədəni irsinin qorunması və təşviqi, elmi resursların vahid bazada birləşdirilməsi bu sahədə növbəti məqsədlərimiz olmalıdır. Mən ümid edirəm ki, gələcəkdə bu proses daha sistemli və səmərəli olacaq.



Türk dünyasının mədəni və elmi inteqrasiyası mənim üçün həm tarixi, həm də gələcəyə baxan bir məsələdir. Arzum odur ki, türk xalqları arasında dil, ədəbiyyat, tarix və mədəniyyət sahəsində əlaqələr daha da güclənsin, qarşılıqlı əməkdaşlıq genişlənsin və gənc nəslin elmə marağı artaraq birgə layihələrdə iştirak etsin.

***– 80 yaşda özünüzü necə hiss edirsiniz, bundan sonra üçün nələri seçib ayırırsınız?***

– 80 illik yubileyimdə özümü həm xoşbəxt, həm də məsuliyyətli hiss edirəm. Bu uzun ömür yolu boyu qazandığım təcrübə, yetişdirdiyim tələbələr, gördüyüm işlər mənim üçün böyük qürur mənbəyidir. Amma belə günlər həm də insanı düşünməyə vadar edir.

Bu yaşda önəmini sıraladığım, xatırladığım, əlbəttə ki, mənə dəstək olan valideynlərim, müəllimlərim, elmi yolumu açan ustadlarım, tələbə yoldaşlarım və bu yolda əziyyəti olan hər kəsdir. Ad çəkəsi olsam, uzun, çox uzun bir siyahı alınar. Ona görə də ad çəkmək istəmirəm. Amma onların hər birinin əziz xatirəsi bu gün də mənimlədir.

Bu yubiley yalnız mənim deyil, uğurlarıma yol açmış, güvənmiş, dəstək olmuş insanların da ömür yoluna işıq salır, bütün çevrəmi dəyərləndirir.

***– Sizi redaksiyamız və oxucularımız adından səmimi təbrik edir, dəyərli türkoloqumuza möhkəm cansağlığı və uzun ömür arzulayırıq.***

***Söhbəti apardı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Qardaş Türkiyə 44 gündə sonadək yanımızda idi

*Zəfər yürüşünün fəthləri isə birgə alqışlanırdı*



**Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci il noyabrın 1-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi regional siyasət, hərbi-siyasi münasibətlər və diplomatik kommunikasiya baxımından əhəmiyyətli hadisə idi. Bu görüş iki ölkə arasında ənənəvi dostluğun təzahürü olmaqla bərabər, eyni zamanda, münaqişə şəraitində respublikamızın mövqeyinin beynəlxalq aləmdə necə formalaşdığını, hərbi-siyasi strategiyasını, diplomatik hədəflərini və gələcək addımlarını bütün dünya ictimaiyyətinə nümayiş etdirdi.**

Prezident İlham Əliyevin görüş zamanı səsləndirdiyi əsas məqamlar – Türkiyənin dəstəyi, ordumuzun Vətən savaşında keçirdiyi əməliyyatların gedişi, müharibənin səbəbləri sistemli şəkildə təhlil olundu. Məqsəd təkcə hadisələrin xronologiyasını təqdim etmək deyildi, eyni zamanda, bu bəyanatların daxili və xarici siyasətə təsirini və bölgədəki geosiyasi prosesin dinamikasını diqqətə çatdırmaq idi.

Prezident İlham Əliyevin "Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan həmrəyliyini göstərir" ifadəsi siyasi mesaj xarakteri daşıyırdı. Başqa sözlə, bu, beynəlxalq aləmə qardaş ölkə ilə münasibətlərin Azərbaycan üçün hər zaman strateji əhəmiyyət kəsb etdiyini, mədəni, tarixi və qardaşlıq bağları ilə güclənən çoxşaxəli əməkdaşlın mövcudluğunu bir daha xatırladırdı.

Dövlətimizin başçısı görüşdə Türkiyənin Vətən müharibəsinin ilk günündən Azərbaycanın yanında dayandığını, siyasi və mənəvi dəstək göstərdiyini açıq şəkildə bildirdi. Azərbaycan lideri, eyni zamanda, Türkiyə Prezidentinə və xalqına minnətdarlığını vurğulayaraq, bu qardaşlığın həm tarixə, həm mənəviyyata, həm də regionda sülh və ədalətə sadiqliyin təzahürü olduğunu dedi.

Dövlətimizin başçısı görüşdə xüsusilə Türkiyənin qətiyyətli mövqeyinin bölgədə geosiyasi sabitliyin və güc balansının əsas təminatçısına çevrildiyini diqqətə çatdırdı. O, bu amilin bir tərəfdən Ermənistanı və onu himayə edən dairələri məsuliyyətli davranmağa vadar etdiyini, digər tərəfdən isə Azərbaycan xalqına mənəvi ruh verdiyini bildirdi. Ölkə rəhbəri, eyni zamanda, Türkiyə-Azərbaycan münasibətlərinin "bir millət, iki dövlət" prinsipindən çıxaraq artıq "strateji müttəfiqlik" səviyyəsinə yüksəldiyini də xatırlatdı.

Prezident İlham Əliyev görüş zamanı Qarabağ məsələsində Azərbaycanın mövqeyinin tam şəkildə beynəlxalq hüquqa əsaslandığını bir daha vurğuladı. Dövlət başçısı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində (822, 853, 874, 884) Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb olunduğunu da bildirdi.

Yeri gəlmişkən, bu qətnamələrin illərlə icra olunmaması beynəlxalq hüququn ədalətli tətbiqinə ciddi zərbə vururdu. Prezident İlham Əliyevin arqumentləri isə Azərbaycanın öz ərazi bütövlüyünü gerçəkləşdirmək hüququnu beynəlxalq hüquq normalarına uyğun olaraq Vətən müharibəsindəki qələbələrimizlə həyata keçirdiyini göstərirdi. Bu arqumentlərin Türkiyə auditoriyasına təqdim olunması həm diplomatik, həm də psixoloji baxımdan əhəmiyyətli idi. Çünki Türkiyə Cənubi Qafqazda sabitlik və ədalətin təmin olunması baxımından Azərbaycanın ən güclü dəstəkçisi idi.



Prezident İlham Əliyev görüşdə Ermənistanın uzun illər boyu bölgədəki sülh prosesini pozduğunu, danışıqlardan yayınmaqla status-kvonu saxlamağa çalışdığını faktlarla sübut etdi. Ölkə rəhbəri, eyni zamanda, Ermənistanın 2020-ci ilin iyulunda Tovuz istiqamətində törətdiyi təxribat, daha sonra sentyabr ayında atəşkəsi pozması ilə Azərbaycanın səbr kasasını daşırdığını vurğuladı.

Türkiyənin münaqişə dövründəki hərtərəfli dəstəyi (siyasi, diplomatik, media və ictimai rəy platformalarında) respublikamızın beynəlxalq imicinə mühüm təsir göstərirdi. Prezident İlham Əliyevin vurğuladığı kimi, Vətən savaşı getdiyi günlərdə Türkiyənin yüksək ranqlı rəsmiləri – parlament sədri, xarici işlər naziri, müdafiə naziri və digər şəxslər dəfələrlə Azərbaycana dəstəyini bəyan edirdi. Bu, həm NATO çərçivəsində, həm də iki ölkənin ikitərəfli formatında Azərbaycanın dayanıqlığını gücləndirən amil kimi nəzərə çarpırdı. Eyni zamanda, Türkiyə mediasının və türk ictimaiyyətinin fəallığı da Azərbaycanın narahatlıqlarını dünya ictimaiyyətinə çatdırmaqda vacib rol oynayırdı. Dövlət başçısının bildirdiyi kimi, Türkiyə jurnalistlərinin döyüş meydanlarına yaxın operativ işləri və geniş yayımı faktların, hadisələrin və emosiyaların qlobal auditoriyaya ötürülməsi baxımından informasiya müharibəsində mühüm rol oynayırdı.

Azərbaycan lideri çıxışında müharibədən sonrakı mümkün geosiyasi nizam barədə də fikirlərini bölüşdü. Bildirdi ki, regionda sülhün bərpası yalnız işğala son qoyulması və ədalətin təmin olunması ilə mümkündür. O, respublikamızın gələcəkdə həm Ermənistanla, həm də digər qonşularla normal münasibətlər qurmaqda maraqlı olduğunu, lakin bunun yalnız qarşı tərəfin ədalət və beynəlxalq hüquqa hörmət göstərdiyi təqdirdə reallaşa biləcəyini vurğuladı. Bu mesaj, əslində, 2020-ci ilin payızında regionun gələcək diplomatik xəritəsini müəyyənləşdirən bir konseptual baxış idi.

Prezident İlham Əliyevin sözləri bir daha göstərdi ki, Azərbaycan rəhbərliyi həm siyasi, həm diplomatik, həm də mənəvi müstəvidə öz xalqına arxalanır. O, xalqa ünvanladığı mesajlarda daim birliyə, inama və ədalətə çağırış edirdi. Dövlətimizin başçısının dərin məzmunlu söhbəti xalqda əminlik yaradırdı ki, Azərbaycan bu mübarizəni sonadək aparacaq və qələbə mütləq olacaq.

Beləliklə, ölkə rəhbərinin görüşdəki nitqi Azərbaycan diplomatiyasının, siyasi liderliyinin və milli qətiyyətinin parlaq nümunəsi idi. Bu müsahibə təkcə bir informasiya çıxışı deyildi, həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq hüququn müdafiəsi və qardaş Türkiyə ilə strateji birliyin təbliği baxımından mühüm tarixi hadisə idi. Bu çıxış, əslində, döyüş meydanında, diplomatik tribunada, informasiya sahəsində qazanılan qələbələrin bir hissəsi idi. İlham Əliyev bu görüşü ilə bir daha göstərdi ki, Azərbaycanın səsi artıq dünyada daha aydın, daha inamlı və daha ədalətli şəkildə eşidilir.

Bu məqamda onu da deyək ki, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələrdə də Ermənistanın yürütdüyü işğalçılıq siyasətinin, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açdı, ölkəmizin haqlı mövqeyini konkret faktlarla dünya ictimaiyyətinə çatdırdı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Prezident İlham Əliyev görüş zamanı əməliyyatların uğurla davam etdiyini və Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı kimi şəhərlərin, eləcə də, təqribən, 200 yaşayış məntəqəsinin işğalçılardan azad olunduğunu bildirdi. Bu rəqəmlər və konkret şəhərlərin adları əməliyyatın sahə-sahə irəliləyişini göstərirdi. Hərbi uğurların ictimai bəyan edilməsi isə həm xalqımızın ruhunu yüksəldir, həm də beynəlxalq diplomatik aləmdə ölkəmizin mövqeyini gücləndirmək məqsədi daşıyırdı. Vətən müharibəsində taktiki baxımdan bu cür əməliyyatlar çoxşaxəli planlaşdırma, kəşfiyyat, hava və topçu dəstəyi, xüsusi əməliyyat qüvvələrinin koordinasiyası, eləcə də logistika təminatı tələb edirdi. Belə uğurların əldə olunması isə ordunun mütəşəkkil əməliyyat qabiliyyətinin artdığını göstərirdi.

Prezident İlham Əliyev nitqində Azərbaycanın məsələnin danışıqlar masasında həllinə çalışdığını, lakin Ermənistanın atəşkəsi pozmaqla bu prosesə imkan vermədiyini də diqqətə çatdırdı. Bu açıqlama iki aspektdə önəmli idi: Birincisi, Azərbaycan tərəfinin dialoq istəyi rəsmi şəkildə öz ifadəsini tapır, ikincisi, Ermənistanın hərbi davranışları bu dialoqu çətinləşdiririrdi.

Dövlətimizin başçısı daha sonra bildirdi ki, Ermənistanın Gəncə və Bərdə kimi dinc şəhərlərə raket atması və nəticədə mülki itkilərin olması beynəlxalq və humanitar hüquq baxımından ciddi adaqlmalara səbəb olur. Bu cür hərəkətlər Azərbaycanın beynəlxalq hüquqi mövqeyini gücləndirə və Ermənistanın statusunu diplomatik aləmdə çətinləşdirə bilər.

Xatırladaq ki, Gəncənin bombalanmasından bir neçə saat sonra insanlar sosial şəbəkələrdə, küçələrdə "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha birləşdilər. Bu, düşmənin məqsədinə zidd olaraq, xalqın milli iradəsini daha da möhkəmləndirdi. Azərbaycan lideri həmin anlarda yalnız siyasi lider deyil, həm də mənəvi rəhbər, xalqın səsini dünyaya çatdıran qətiyyətli bir sərkərdə idi.

Prezident İlham Əliyev görüşdə həm də beynəlxalq ictimaiyyətin ikili standartlarını dolayı yolla ifşa etdi. Çünki Gəncədə çox sayda mülki insanın raket atəşi nəticəsində şəhid olması dünya mediasında kifayət qədər diqqət çəkmədi. Bununla da beynəlxalq sistemin ədalətsizliyi bir daha təsdiqini tapdı. Lakin dövlətimizin başçısı həmişə olduğu kimi, soyuqqanlılıqla, diplomatik incəliklə bu vəziyyəti idarə etdi. O, qisası döyüş meydanında almaq prinsipini qorudu və beynəlxalq arenada Azərbaycanın haqlı mövqeyini əsaslandırdı. Bütün bunlar İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın savaşda olduğu kimi, informasiya müharibəsində də üstünlük qazandığını göstərirdi. Dünya ictimaiyyətinin diqqətinə Ermənistan terroru törədən, Azərbaycanı isə ədaləti bərpa edən tərəf kimi çatdırılırdı.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası



**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

**1 noyabr**

• Müdafiə Nazirliyinin məlumatına əsasən, oktyabrın 31-i gün ərzində və noyabrın 1-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. İşğalçı ordu döyüşlərin ən qaynar getdiyi istiqamətdə istifadə etməyə çalışır.

Məlumatda daha sonra vurğulanır ki, oktyabrın 31-də axşam saatlarında ərazinin havadan müşahidəsi zamanı sursatla dolu iki yük maşınının daldalandığı yer müəyyənləşdirilib. İstiqamətlənmiş dəqiq atəş zərbəsi ilə hərbi nəqliyyat vasitələri dərhal məhv edilib.

• Ermənistan silahlı qüvvələrinin döyüş sursatı yüklənmiş hərbi yük maşınları partladılıb.

• Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində gedən



nun xeyli sayda canlı qüvvəsi, 1 ədəd piyada döyüş maşını, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, 5 ədəd avtomobil texnikası sıradan çıxarılıb.

• Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

• Müdafiə Nazirliyinin Mətbuat xidmətidən bildirilib ki, işğal olunmuş ərazimizdə yerləşən Ermənistan silahlı qüvvələrinin raket-artilleriya silahları anbarını ordumuz bir neçə gün əvvəl məhv edib. Nəticədə düşmən bölmələrində ciddi sursat qıtlığı yaranıb. Buna görə də düşmən sərəncamında olan bütün sursatları döyüşdə zərərsizləşdirilən düşmən bölmələrindən hərbi qənimət kimi silah və sursat götürülüb.

• Düşmənə məxsus iki ədəd "Qrad", iki artilleriya batareyası, hərbi avtomobil korteji sıradan çıxarılıb.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsinin məhv edilməsinin videogörüntüsünü paylaşıb.

• Hərbi Hava Qüvvələrinin Su-25 həmlə təyyarəsi düşmən mövqelərini bombardman edib. Endirilən aviazərbələr nəticəsində düşmənin səngərlərdə və yeraltı sığınacaqlardakı xeyli sayda canlı qüvvəsi sıradan çıxarılıb.

***Mustafa KAMAL***
***XQ***

# Ağdamın Xıdırlı kəndində məskunlaşma davam edir



**Dünən Ağdamın Xıdırlı kəndində 124 nəfərdən ibarət 24 ailəyə mənzillərin açarları təqdim olunub. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.**

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

***XQ***

*Vətən Müharibəsi Qəhrəmanı*

# İgidlik boyuna biçilmişdi...





**Veysəl Yadulla oğlu Musibov 15 fevral 1989-cu ildə Qazaxıstanın Taldı-Kurqan vilayətinin Kirov qəsəbəsində anadan olub. Sonra ailəsi doğma ata yurduna qayıdıb. Şahbuz rayonunun Sələsüz kəndində Vahid Ələkbərov adına orta məktəbdə oxumağa başlayıb. 7-ci sinfə qədər bu məktəbdə təhsil alıb. Sonra Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. 2007-ci ildə oranı bitirib və Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. Zabit kimi "N" saylı hərbi hissədə taqım komandiri qismində xidmət edib. 2012-ci ildə Xüsusi Təyinatlı Qüvvələr kursu keçərək Xüsusi Əməliyyat Qrup komandiri təyin olunub. 2012–2016-cı illər ərzində dəfələrlə çətin döyüş tapşırığında fədakarcasına iştirak edib. 2016-cı ildə məlum Aprel döyüşlərində özünəxas məharəti, qorxmazlığı ilə düşməni pərən-pərən salıb.**

Veysəl Musibov dəfələrlə hərbi hissədə və Milli Ordu səviyyəsində, xarici silahlı qüvvələrin təmsilçiləri arasında keçirilən yarışlarda üz ağardıb, Azərbaycan zabitinin nəyə qadir olduğunu göstərə bilib. 2018-ci ildə ordu arasında keçirilən kəşfiyyatçı qrup yarışında 1-ci yeri tutub. Həmin il "Efes-2018" Xüsusi Təyinatlılar yarışında onun dəstəsi 24 ölkədən olan iştirakçılar arasında mütləq qalibiyyət əldə edib. Xüsusi taborda əməliyyat zabiti, qərargah rəisi vəzifələrində Vətənə layiqincə qulluq göstərib. "Hərbi xidmətlərə görə", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, yubiley təltifləri olub.

İkinci Qarabağ müharibəsinə can-başla qatılan Veysəl Musibov Kəlbəcər rayonu istiqamətində Murov yüksəkliyinin alınmasında fərqlənib. Həmçinin Füzuli rayonunun bəzi kəndlərinin azad olunmasında iştirak edib. Döyüşlərdə rəhbərlik etdiyi qrupla birgə düşməni pusquya salaraq hərbi texnikasını və 200-dən çox canlı qüvvəsini məhv edən təcrübəli kəşfiyyatçı göz qırpmadan ölümün üstünə getməsi ilə seçilir və silahdaşlarını daha da ürəkləndirirdi. Veysəl Musibov oktyabrın 7-də Cəbrayıl uğrunda döyüşlərdə Vətənə can borcunu ləyaqətlə ödəyərək şəhidlik zirvəsinə ucalıb.

Cəbrayıl yurdunun tanınmış şairi İsmayıl İmanzadə Veysəlin və torpaqlarımızın uğrunda can əsirgəməyən digər şəhidlərimizin müqəddəslik qazanmasını özünəməxsus tərzdə belə tərənnüm edib:

**Uğrunda can verdiyin**
**bu ana torpaq sənin,**
**Döyüş günü səsini əks etdirən**
**dağ sənin.**
**Bayraqdarı olduğun**
**üçrəngli bayraq sənin,**
**Şəhid ucalığında**
**vətən daşına döndün –**
**Azadlıq nəğməsinə,**
**Zəfər marşına döndün!**

Onun döyüş yoldaşı Elvin Məmmədov deyir ki, o, həqiqətən də bizim irəlidə yürüyən qəhrəmanımız idi. Komandirin ən çətin məqamlarda ani olaraq verdiyi qərarlar, atdığı addımlar bütün heyəti xilas edirdi. Məzarı nurla dolsun qəhrəman şəhidimizin!

Veysəl Musibova şərəfli ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verilib. Şəhid kəşfiyyatçı, həmçinin "Vətən uğrunda", Cəbrayılın, Kəlbəcərin, Qubadlının, Xocavəndin və Füzulinin azad olunmasına görə medallarına layiq görülüb. Əlbəttə, hərbçilərə bu adlar, təltiflər müstəsna xidmətlərə görə verilir. Veysəl kəşfiyyatçı olduğu üçün biz onun konkret olaraq icra etdiyi döyüş tapşırıqları barədə ətraflı söhbət aça bilmirik, çünki çoxu hərbi sirr olaraq qalır. Heç özü də bu haqda danışmaz, "adi xidmətimizi yerinə yetiririk" deyərdi. Onun əməliyyatlar zamanı nümayiş etdirdiyi fərdi fərqlənmə cəhətlərini, necə deyərlər, bilənlər bilir. Bizsə "Aprel döyüşləri", "Lələtəpə", "Murov", "Ohanyan səddinin yarılması" kimi ifadələrə əsasən fəhmlə duyuruq ki, Veysəl necə vətənpərvər, torpaq həsrəti çəkən, dözümlü, iradəli, nümunəvi zabit olub.

...Qəhrəmanımızın dəfn olunduğu Xırdalan şəhər Şəhidlər xiyabanında, adını daşıyan 5 saylı tam orta məktəbdə anım tədbirləri həmişə yaddaqalan olur. Məktəblilər tərəfindən hazırlanan və şəhidlərimizə, vətənimizə aid şeir və mahnılar təqdim olunur. Belə tədbirlərin birində şəhid kapitanın anası Səməngül Musibovanın həyəcanlı çıxışının hələ də təsiri altındayıq. O, balasının adının uca tutulmasından məmnunluğunu bildirdi. Dövlət tərəfindən şəhid ailələrinə yüksək diqqət və qayğının göstərildiyinə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını ifadə etdi. Qürurla vurğuladı ki, ailəsi şəhidin 6 yaşlı oğlu Yadullaya və 8 yaşlı qızı Nilaya vətənpərvər ruhda gözəl tərbiyə verir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Gülüşü yanağında nur saçan oğul

**Vətən müharibəsində bizə qələbə sevinci yaşadanlardan biri də 19 yaşında ömrü bitən Sayad Azad oğlu Hacıyevdir.**



Sayad 2001-ci il martın 21-də Zaqatala rayonunun Bazar kəndində anadan olub. İncəsənət Universitetinin tarixi abidələrin bərpası və mühafizəsi fakültəsini bitirib. Sonra əsgərliyə yola düşüb. Goranboyda "N" saylı hərbi hissədə xidmət edib.

Sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlananda Sayad da "Öncə Vətən" deyərək silaha sarıldı. Bütün hərbçilər kimi onda da qarşısıalınmaz qələbə əzmi var idi. Savaşın ilk çağında Sayadgil Tərtər istiqamətində dislokasiya olundular. O, imkan tapıb atası ilə də danışdı: "Ata, haqqını halal et, mən döyüşə gedirəm", – dedi. Oğluna halallıq verən ata inandı ki, oğullarımız azğın düşmənin layiqli cavabını verəcəklər.

Topçu Sayad öz şücaətini hər döyüşdə göstərirdi. Komandirləri onun döyüş bacarığından çox razı idilər. İrəliləmək və əraziyə nəzarət baxımından olduqca önəmli rola malik Suqovuşan ermənilərin "6-cı müdafiə rayonu" sayılırdı və orada onların güclü hərbi hissələrindən biri yerləşirdi. Sayadgil heç nəyə baxmadan inamla döyüşürdülər. Oktyabrın 3-də Suqovuşan düşməndən azad olundu və igid əsgərlərimiz bundan daha da ruhlandılar. Sayadın bu döyüşlərdə, o cümlədən Talış kəndinin azad olunmasında böyük payı vardı.

Onun döyüş yolu Suqovuşan, Ağdərə, Xocavənd və Xocalı istiqamətində davam edib. Şəhid olarkən onunla bir səngərdə olan döyüş dostu sonralar Sayadın atasına bunları demişdi: "Oktyabrın 13-dən 14-nə keçən gecə idi. Biz adsız yüksəkliklərdən birində idik. Gündüz də döyüşdə iştirak etdiyimiz üçün o səhnələr heç gözümüzün qabağından getmirdi. Sayad zarafatlar edir, əhvali-ruhiyyəmizi qaldırırdı. Səhərə yaxın komandir bizə irad tutdu: – Yatın, bəsdir güldünüz. Səhər bizi ağır döyüş gözləyir". O nə biləydi ki, bu gülüş Sayadın işıqlı dünyadakı son gülüşü olacaq?..".

Səhər döyüş zamanı onların səngərinə minomyot düşür. Sayad şəhid olur, dostu isə bir qolunu itirir. Oktyabrın 14-də şəhid olan Sayadın nəşi ərazidən götürülüncə, ailəsinə verilincə günlər keçir. Onu əzizləri, el-obası oktyabrın 17-də Sarıpir deyilən bölgədə məşhur ziyarətgahın yerləşdiyi kənd qəbiristanlığında torpağa tapşırır. Müharibənin qanunu belədir: Vətən torpaqları qarış-qarış azad olunduqca, şəhid verməli olursan.

Artıq həmin şərəfli "Zəfər yürüşü"ndən, qanlı döyüşlərdən 5 il keçib. 44 günlük müharibənin qələbə sevincini yaşadığımız kimi, bu qələbəni qazanan şəhidlərin də ruhunu hörmət və ehtiramla yad edirik. Sayadın şəklini atasının iş yoldaşları onun vaxtilə çalışdığı Sədərək ticarət mərkəzinin girişində general Polad Həşimovun şəkli ilə yanaşı asıblar. Hörmət nənəsi bunu xüsusi qürur hissi ilə qeyd edirdi:

– Balamın şəkli generalın şəkli ilə yanaşıdır. Əmisi Dağıstanda olduğu üçün pandemiya səbəbindən dəfn mərasimində iştirak edə bilməmişdi. O pul göndərib ki, kəndin mərkəzində Sayadın adına bir bulaq ucaldın. Hazırda bulağın tikintisində tamamlama işləri gedir və tezliklə hamılıqla bu bulağın açılışında iştirak edəcəyik. Bir vaxtlar biz içməli su sarıdan çox korluq çəkərdik. Sayad kəndə gələndə həvəslə evə su daşıyar və deyərdi: "Ay nənə, bir gün özüm sənin həyətinə bulaq çəkəcəyəm".

Onun dəfnindən sonra bu arzusunu kənd rəhbərliyi reallaşdırıb. Tikilən el bulağı şəhidin ruhuna gözəl bir xatirədir.

Ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunan Sayad Hacıyevin əziz xatirəsi qəlbimizdə hər zaman yaşayacaq.

***Elmira MEHDİYEVA***

# "Dəmir atlı" cəngavər

**Həyatla vidalaşmaqlarının 5 ili tamam olan şəhidlərimizi xatırladıqca, istər-istəməz kövrəlirik. Yarımçıq ömürləri kimi arzu-xəyalları, həvəs-istəkləri də yarıda qırılan, torpağa, Vətənə sevgisini canını fəda etməklə sübut edən şəhidlərimiz, təbii ki, unudulmur. Onların hər birinin adı ilə fəxr edirik. Bu gün ömrünü Vətənə qurban verənləri qürurla anırıq.**



Qələbənin 5 illiyi ərəfəsində xatırladığımız igidlərimizdən biri də Orxan Eminalıyevdir. Orxan 1994-cü il noyabrın 5-də Tovuz rayonunun Aşağı Mülkülü kəndində anadan olub. Ermənistan tərəfdən rayonun kəndlərinə edilən atəş səsləri altında böyüyən Orxan hələ kiçik yaşlarından oz tay-tuşları ilə tez böyümək, mənfur qonşularına layiqli cavab vermək arzusu ilə yaşayıb.

İllər ötdükcə düşmənə nifrət hissi ilə böyüyən Orxanda hərbçi olmaq, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda savaş başlayarsa, peşəkar döyüşçü kimi qarşı tərəfə qan uddurmaq istəyi daha da artıb. Orta məktəbdə keçdiyi hərbi hazırlıq dərslərini daha çox sevib. Müəllimlər onun gələcəkdə yaxşı hərbçi olacağını deyirmişlər. Valideynlərinə bu istəyini bildirəndə anası öncə narazı olsa da, oğlunun təkid etdiyini görüb onun hərbi zabitlər hazırlayan ali məktəbə getməsinə xeyir-dua verib. Bundan sonra Orxan 2013–2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil alıb və hərbçi sənətinə mükəmməl yiyələnib.

Orxan Eminalıyev 2017-ci ildə leytenant kimi Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başlayır. 2019-cu ildən xidmətini baş leytenant olaraq davam etdirir. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda Vətən müharibəsi başlananda bir hərbçi kimi qələbə çalacaqlarına inanır və qürurlanır. Bunu valideynlərinə də bildirir, amma özünün döyüşdə iştirakını ailəsinə bildirmir. Atası Eyvaz və anası Nəzakət Eminalıyevlər hər an cəbhədən xoş xəbərlər gözləyir, narahatlıqlarını büruzə vermirlər. Onlar televiziyada verilən cəbhə xəbərlərini diqqətlə izləyir, azad edilən ərazilərlə bağlı eşitdikləri hər xoş xəbərin sevincini yaşayırlar.



Vətən müharibəsində Orxan Eminalıyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun davamçısı olub. Onun kimi tankçı komandir olmağı seçərək cəsarətlə döyüşə qatılıb. Füzuli, Cəbrayıl və Qubadlıda vuruşub. Bir neçə dəfə tankı vurulsa da, yenə döyüşməyə davam edib. İdarə etdiyi ilk tank vurulandan sonra yanan tankdan cəld çıxa bilib və ikinci tanka keçib. Yalnız irəli gedib və düşmənin xeyli hərbi texnikasını sıradan çıxarıb. Amma ikinci tankı da vurulub. Alovlanan tankdan çıxmağı yenə bacarıb və növbəti tanka keçib. Taqım komandiri olan "dəmir atlı" cəngavər düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edib.

Füzuli uğrunda gedən ağır döyüşlərdə çoxlu itkimiz olur. Düşmənin qurduğu istehkamları yarıb keçmək elə də asan deyildi. Yaralılar döyüş meydanından böyük çətinliklə təxliyə olunurlar. Orxan Eminalıyevin idarə etdiyi 4-cü tank oktyabrın 26-da Qubadlı döyüşləri zamanı bir neçə istiqamətdən vurulur. Döyüş o qədər şiddətli imiş ki, həmin anda yaralıları atəş altından çıxarmaq mümkün olmur. Çoxlu güllə yaraları alan igidimiz qanitirmə nəticəsində şəhadətə ucalır.

Orxanın şəhid olma xəbəri ailə üzvlərinə çatanda bütün kənd sakinləri Eyvazgilin həyətinə toplanır, şəhidin yolunu gözləyirlər. Nəhayət, maşın karvanı görünür və dalğalanan Azərbaycan bayraqları altında Orxanın nəşi vidalaşmaq üçün həyətə gətirilir. Kənd camaatı bu ağır xəbəri elliklə qarşılayıb, 26 yaşlı şəhidi Tovuz rayonunun Aşağı Mülkülü kəndində ehtiramla dəfn edir.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Orxan Eminalıyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə, həmçinin "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Orxan subay idi. Onun Vasif adlı qardaşı, Nigar adlı bacısı var. Orxanın adı qəhrəman olaraq dillərdə dolaşır. Aylar, illər keçəcək, kənddə çox orxanlar doğulacaq, məktəblərdə igidlərimizdən söz düşəndə Orxan Eminalıyevin adı da şərəflə çəkiləcək. Amma anası hələ də ovunmur. Yaşadığı 26 ilin 10 ilini Vətənə həsr etmiş nakam oğlu üçün göz yaşı axıdır, sonda toxdayıb: "Təki Vətən yaşasın!", – deyir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Vətən müharibəsinin poetik salnaməsi

**2020-ci ilin payızı Azərbaycan xalqı üçün əbədi olaraq zəfər mövsümünə çevrildi. 30 ilə yaxın işğal altında olan Qarabağ torpaqlarının azadlığı uğrunda başlanmış və 44 gün davam etmiş Vətən müharibəsi yalnız hərbi güc və diplomatiyanın təntənəsi deyil, həm də ədəbiyyatımızın qürur mövzusudur.**




Şair Tapdıq Əlibəyli "Payız çöhrəsində yazdı 44 gün" adlı şeir kitabı ilə Vətən müharibəsinin dolğun poetik salnaməsini yaradıb. O, qələbə coşqusunu və xalqın həmrəyliyini, müharibənin acılarını sözün bədii qüdrəti ilə tərənnüm edib.

**Bürüsə də duman, çən Qarabağı,**
**Zəfər çiçəklədi bağrının dağı.**
**Yaddadı illərin çiskin-sazağı...**
**Payız çöhrəsində yazdı 44 Gün.**

Bu misralarda müharibənin sonunda yüksələn Zəfər çiçəyi – döyüşlərdən sonra yenidən canlanmış, qürurlu, şanlı Azərbaycanın payızı təsvir edilir. Yəni həm fiziki, həm də mənəvi olaraq qayıdan həyat və bərpaolunan vətənə sevgilərlə yeni bir mənzərə yaradılır.

**Döyüş meydanında yenildi yağı,**
**Düşmən sırğa etsin qoy ağ bayrağı!**
**Sərkərdə gur çatıb tonqal, ocağı...**
**Qələbə tarixi yazdı 44 Gün!**

Kitabda Azərbaycan Ordusunun bədii obrazı xüsusi yer tutur. T.Əlibəyli ordumuzun birliyini və igidliyini şeirində yüksək mənəvi dəyərlər şəklində tərənnüm edir. Şair, silahlı qüvvələrimizin haqq işini və qələbə əzmini təsvir edir.

**Ordumun müzəffər, haqq səsi gəlir,**
**Qələbə qoxulu nəfəsi gəlir...**
**Allahın da xoşu, həvəsi gəlir,**
**"İrəli!" marşından Azərbaycanın!**

Bu misralar Azərbaycan xalqının birliyini, Vətənə olan sədaqətini və zəfər yürüşünün həmişəlik yaddaşlarda qalacağını təsdiqləyir. Şair burada Ordunun yalnız hərbi gücünü deyil, gözəl ideallarını – haqqın, ədalətin və insanlığa olan sevginin də qələbəsini təcəssüm etdirir. Tapdıq Əlibəyli şəhidlərin unudulmaz xatirəsinə ehtiram olaraq Zəfərlə dalğalanan bayrağımızın şöləsində ölməz şəhidləri salamlayır:

**Körpələrin yuxusundan,**
**Süd ətirli qoxusundan,**
**Dan yerinin yaxasından**
**Şəhidlərə salam olsun!**

"Qələbə təqvimin mübarək" şeiri, xüsusilə 8 Noyabr tarixinin, Azərbaycanın Zəfər Günü kimi tarixə düşdüyü günün hər bir azərbaycanlı üçün necə əhəmiyyətli olduğunu poetik şəkildə ortaya qoyur.

**Doğub Qarabağda zəfər günəşi,**
**Zəfər gözlü şəfəq göz qamaşdırır.**
**Ordumun çiynində Vətən savaşı**
**İşğala son qoyur, sədləri aşır...**

Bu şeir həm də Vətənin yeni bir dövrə qədəm qoymasını, müharibənin bitməsini və yeni həyatın başlanmasını təcəssüm etdirir. Zəfər yalnız hərbi qələbə deyil, həm də Azərbaycanın yeni bir dönəmə – daha güclü və qürurlu bir dövrə girməsinin təntənəsidir.

Kitaba daxil edilmiş "Zəfər paradı" adlı şeir haqqında. "Baş meydan başını dik tutub, Yurdum" ifadəsi paradı tam suverenliyin və müstəqilliyin simvolu kimi dəyərləndirir.

**Baş meydan başını dik tutub, Yurdum,**
**Sinəsin süsləyib Zəfər paradı.**
**Müzəffər yürüşdən dönübdür Ordum,**
**Şəhid, qazi, qalib - əsgərin adı!..**

Tapdıq Əlibəylinin bu kitabı yalnız müharibənin və zəfərin şeirə düşməsini deyil, həm də müasir Azərbaycan poeziyasının yeni bir mərhələyə keçməsini göstərir. Müəllif zəfəri qeyd etməkdən daha çox, bu zəfərin cəmiyyətin ruhunda, millətin yaddaşında necə yer etdiyini, xalqın birliyinin necə təcəssüm tapdığını göstərir.

***Səyadulla KƏRİMLİ,***
***yazıçı-publisist***




# Oğlunu azad torpaqlarda, dalğalanan bayraqda görən ana

**...Onunla görüşə ciddi hazırlaşmışdım, amma bütün "planlarım" pozuldu. Həmsöhbətimə verəcəyim suallar dilimin ucunda asılı vəziyyətdə, düşündüyüm jurnalist "fəndləri" beynimdə donub qaldı. Şəhid anası Alidə Hüseynova oğlu Sənanın ömür hekayətini danışarkən əvvəlcə həyəcandan kövrəldim, amma sonra həyəcanımı qürur və fəxarət hissləri əvəz elədi.**

**Minlərlə can qurban oldu!**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər,**
**Hərə bir qəhrəman oldu!**

Şəhid anasını dinləyərkən qeyri-ixtiyarı Himnimizin bu misralarını xatırlayırdım. Qəhrəman oğlunun ömür hekayətini danışarkən səsi hərdən titrəsə də, danışığı məntiqli, sərrast, kəlmələri dolğun və tutarlı idi. Azərbaycana Zəfəri qazandıran 44 günlük Vətən müharibəsində şərəflə döyüşərək şəhid olmuş Azərbaycan Ordusunun çavuşu Sənan Hüseynovun anası Alidə xanımla baş-başayıq.

**Yeganə oğul övladını Vətən yolunda qurban verən ananın içi paramparça olsa da, gözlərində məlum yanğının közü və bir də qürurun yandırdığı işıq görünür. Alidə xanım danışır:**

– Sənan evimizin tək oğul övladı idi. Bir bacı, bir qardaş olublar. Uşaqlıqdan çox fərasətli, mərd idi, hər işdə birinci olmaq istəyirdi. Əslimiz Füzulidəndir. Yurdumuzu erməni işğal edəndən sonra məcburi köçkün olduq, ailəliklə Bakının Xəzər rayonu Binə qəsəbəsində məskunlaşdıq. Sonra mən Qazaxıstanın Aktau şəhərində yaşayan dayım oğlu ilə ailə qurdum. Sənan orada dünyaya gəldi və 4-cü sinfə qədər rus məktəbində təhsil aldı. Daha sonra ailəliklə yenidən Binə qəsəbəsinə qayıtdıq və Sənan təhsilini buradakı 149 saylı orta məktəbdə davam etdirdi. Görmədiyi doğma yurduna sevgisi uşaqlıqdan onun ürəyində idi. 2014-cü ildə hərbi xidmətə çağırıldı, kəşfiyyatın sirlərinə yiyələndi. 2016-cı ilin aprelində hərbi xidmətini başa vurub evə qayıtmalı idi. Onu aprelin 1-də gözləyirdik ki, gəlsin, ad gününü birlikdə qeyd edək. Amma zəng vurub ayın axırı gələcəyini bildirsə də, niyəsini demədi. Bizim narahat olmağımızı istəməmişdi.

Aprelin 2-si səhər yuxudan oyananda eşitdim ki, Qarabağda döyüşlər gedir. Sənan ön cəbhədə döyüşdü və sağ-salamat qayıtdı. Aprel döyüşlərinin iştirakçısı olduğuna görə sevincinin həddi-hüdudu yox idi. Amma o zaman heç düşünməzdim ki, taleyin sərt sınağı hələ qarşıdadır. 2020-ci il sentyabrın 21-də hərbi çağırışa sevə-sevə getdi. Doğrudur, Vətən müharibəsinin başlanmasına hələ bir həftə qalmışdı. Sənan cəbhəyə yola düşəndə gözümün içinə dik baxıb "Ana, narahat olma, bu torpaqlar bizim olmalıdır!", - dedi. Həmin an oğlumun baxışlarında qorxu yox, qürur gördüm.

...Sənan Hüseynov sentyabrın 27-dən, Vətən müharibəsinin ilk günündən Füzulidə Qaraxanbəyli istiqamətində hərbi əməliyyatda ön cəbhədə vuruşur. Ağır döyüşlərdə hərbi hissə komandirindən tutmuş əsgərinə kimi hamı həlak olur, amma Sənanla birlikdə 4 əsgər döyüşdən sağ çıxır. "Haradan biləydim ki, bir neçə gündən sonra Sənan da şəhidlik zirvəsinə ucalacaq", - deyən Alidə xanım dərindən köks ötürür. Titrək səslə onun üçün bu barədə danışmağın çox çətin olduğunu deyir. Biz təkid eləmirik, amma özü davam edir:

– Müharibə vaxtı tez-tez zəng edirdi. Səsində, sözündə bir an belə qorxu hissi keçirdiyini duymadım. Hər dəfə belə deyirdi: "Ana, qorxmalı nə var ki. Torpağımızı düşməndən azad edirik, Vətən üçün vuruşuruq. Qarşımızda iki yol var – ya şəhid olmaq, ya da sağ-salamat qayıtmaq. Qismətimizə hansı yazılıbsa, o da olacaq. Mənə görə narahat olmayın". Sənan həqiqətən igid oğul idi. Cəbhə yoldaşları danışırlar ki, Sənan döyüşdə həmişə irəli can atıb, son nəfəsinə qədər döyüşüb.

...Alidə xanımla görüşənədək mənə elə gəlirdi ki, hər sabah Günəş doğanda kədər şəhid analarının qapısını döyür, qaranlıq düşəndə isə zaman və məsafə onlardan uzaqlaşır. Və onlar gecələr gizlincə için-için ağlayırlar. Amma düşündüyüm kimi deyilmiş.

**Qələbə soraqlı o günləri hamımız xatırlayırıq. Hər axşam ekrana dirənib cəbhə xəbərlərinə qulaq kəsilirdik. Hər gün neçə kəndimiz, yüksəklik yağı tapdağından azad olunurdu. Şəhid anası o günləri unutmayıb:**

– Mən hər dəfə televizorda o xəbərləri eşidəndə elə bilirdim, Sənan da oradadır. Sonra bir gün qapımız döyüldü. O dəhşətli sükut, o baxışlar və qara xəbərin gətirdiyi soyuq külək… Həmin an dondum, ürəyim dayandı, amma gözlərim ağlamadı. Sözsüz, izahsız anladım – Sənanım şəhid olub. Yeganə oğlum canını Vətən yolunda fəda etdi. Mənə "ana" deyən dili sussa da, adı göylərə ucaldı.

Daşaltı və Şuşa istiqamətində gedən döyüşlərin birində düşmən onların postunu görmüş və mina atmışdılar. Sənan həmin partlayışdan yaralanıb, bir-iki saat huşsuz vəziyyətdə qalıb. Qəlpələrdən biri ürəyinə toxunmuşdu. Digər yaraları onu öldürə bilməzdi. Amma o qəlpə oktyabrın 8-də Sənanı şəhidlik zirvəsinə qaldırdı. İndi o, Tanrıya ən yaxın, uca məqamdadır.

**...O gündən Binə məzarlığında şəhidlər üçün ayrılan məkan Alidə xanımın doğma ünvanına çevrilib. Orada uyuyan 26 şəhiddən biri onun oğludur. Söhbətin bu yerində baxışları çox uzaqlara gedir və pıçıltı ilə danışır:**

– Hər dəfə məzarlığa gedəndə torpağın altından bir istilik duyuram. Elə bil, Sənan mənim əlimdən tutur və deyir: "Ana, ağlama, mən buradayam". Hərdən mənə elə gəlir ki, əsən meh onun nəfəsi, dalğalanan üçrəngli bayraq isə ruhudur. Sənan ölməyib, aldığım hər nəfəsimdə yaşayır. Bəzən soruşurlar ki, bu dərdə necə dözürsən? Mən isə deyirəm: Ana dözmür – Vətən dözür. Bəli, içim göynəyir, yanır, amma o yanğının içində bir təsəlli nuru var. Fəxr edirəm ki, oğlum Vətəni, doğma torpağı üçün canını verdi, indi onun adı Vətənlə yanaşı çəkilir. Mən oğlumu itirmədim, mən onu Vətənə qazandırdım..

Müharibədən bir neçə il əvvəl sosial şəbəkədə bir paylaşım etmişdi. Bacısı onu saxlayır. Yazmışdı ki, "Mən o şəxsəm ki, çoxdan yazılmışam, amma hələ oxunmamışam". Həqiqətən də, Sənanın taleyi şəhid olandan sonra yazıldı və indi onu qədirbilən xalqım oxuyur. Anım Günündə ziyarətinə gələn dostları, cəbhə yoldaşları Sənanın qəhrəmanlığından danışırlar. Oğlum ölməyib, bu gün onun ruhu canından çox sevdiyi Vətənin azad torpağını rahat dolaşır və sevinir.

...Səsyazanın düyməsini sıxıb, ayağa qalxanda içimdə qəribə rahatlıq hiss elədim. Bu, şəhid anasının içimi yansıdan, amma qəlbimi qürurla dolduran oğul hekayətinin gətirdiyi rahatlıq idi. Oğlunu bayrağa bənzədən Alidə xanımın əllərini sıxıb ayrılanda beynimdən Əhməd Cavadın Vətən sevgisindən yoğrulmuş bu misrası keçdi:

**Üçrəngli bayrağınla məsud yaşa!**

Sənan Vidadi oğlu Hüseynov Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında hərbi tapşırıqları şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

***N.ADİLQIZI***
***XQ***

# Doğma rayonunda şəhid olan zabit

**Vətən müharibəsində millətinə, dövlətinə və torpağına bağlılığı, vətənpərvərliyi ilə gələcək nəsillərə örnək olan şücaətli oğullardan biri də şəhid Elçin Əzizovdur. 30 mart 1985-ci ildə Cəbrayıl rayonunda dünyaya göz açıb. 1991-ci ildə Cəbrayıl rayonu Yuxarı Mərcanlı kənd orta məktəbində 1-ci sinfə daxil olub. Cəbrayıl rayonu işğal olunanda ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb, 2002-ci ildə Nizami rayonunda yerləşən Füzuli rayon 88 nömrəli məktəbi bitirib. 2002-2006-cı illərdə Azərbaycan Texniki Universitetində ali təhsil alıb. 2006-2007-ci illərdə müddətli həqiqi hərbi xidmətdə olan Elçinin ən böyük arzularından biri də işğal altında olan doğma Cəbrayılına qovuşmaq idi.**



Gündən-günə artan vətən həsrəti və düşmənə nifrət hissi Elçinin 2012-ci ildən yenidən ordu sıralarına gəlməsinə səbəb oldu. Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Dəstəsində müxtəlif vəzifələrdə xidmət edən Elçin hər bir sərhədçi kimi səbirsizliklə işğal altında olan ərazilərin azad olunması uğrunda zəfər yürüşünün başlanacağı günü gözləyirdi.

Vətən müharibəsinin ilk günlərindən cəbhəyə yollanan Elçin dünyaya göz açdığı doğma Cəbrayılın azadlığını gördükdən sonra elə doğma torpaqda şəhadətə yüksəlib. Cəsur zabitimizin sonuncu dayandığı yer Cəbrayıl rayonundakı Mahmudlu sərhəd zastavası idi. Oktyabrın 13-də baş leytenant Elçin Əzizov Naxçıvandan olan mayor Malik Əliyevlə birgə Cəbrayıl rayonunun Sarıcallı kəndində ağır yaralanmış hərbçilərimizi xilas etməyə - savaş meydanından çıxarmağa gedərkən düşmən idarə olunan raketlə onların maşınını vurur. Bu amansız atəş hər iki zabitimizi şəhid edir. 15 oktyabr 2020-ci ildə Bakı şəhərində İkinci Fəxri xiyabanda dəfn olunub. 3 övladı yadigar qalıb.

Prezident İlham Əliyevin sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Hərbi xidmətlərə görə", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Qardaşı Cavid Əzizov söyləyir ki, Elçini Sərhəd Qoşunlarında xüsusi təyinatlı kimi işə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev şəxsən qəbul etmiş, bu bacarıqlı oğlanın onun rəhbərliyi altında xidmət etməsini istəmişdi. Qəbul zamanı general ona belə bir sual da vermişdi:

- Səni Azərbaycanın ən ucqar bölgəsinə xidmətə göndərsəm gedərsənmi?

Elçin Əzizov düşünmədən cavab vermişdi:

- Cənab general, Azərbaycanın bayrağı harada dalğalanırsa, mən orada sevə-sevə xidmət etməyə hazıram.

Vətənin ərazi bütövlüyünü və sərhədlərimizin toxunulmazlığını bərpa etmək üçün xidmətə başlayan Elçin tezliklə xüsusi təyinatlı kimi cəbhənin müxtəlif istiqamətlərinə ezam olunur. Ağdərə bölgəsində, Talış kəndi istiqamətində olur, daha sonra doğma rayonuna - Cəbrayılın Cocuq Mərcanlı kəndindəki Lalətəpəyə gəlir. Elçin Əzizov nümunəvi xidmətinə görə bir sıra təltif alır. 2016-cı ildə baş verən Aprel döyüşlərində göstərdiyi fədakarlığa görə baş leytenant hərbi rütbəsinə layiq görülür.

Baş leytenant kimi qüsursuz xidmətə davam edən Elçin Əzizov inanırdı ki, bir gün Ali Baş Komandan torpaqlarımızı azad etmək üçün "İrəli!" komandası verəcək. Və nəhayət o gün gəldi... Vətən müharibəsinin başlanmasına ən çox sevinənlərdən biri Elçin idi. "O, bütün varlığı ilə inanırdı ki, bu müharibə bizim qələbəmizlə bitəcək. Elçin bizim hansı bir şərəfsiz düşmənlə üz-üzə dayandığımızı yaxşı bilirdi. Buna görə də yalnız Qələbə üçün vuruşmalı olduğumuzu vurğulayırdı. Onu ancaq irəli getmək, düşməni geri oturtmaq, məhv etmək, torpaqlarımızı düşmən tapdağından xilas etmək düşündürürdü. Bizimlə telefon əlaqəsi saxlayanda da çox nikbin əhvali-ruhiyyədə olur, zarafatından qalmır, narahat olmamağımızı tövsiyə edir, bayrağımızın tezliklə Cəbrayılda, Zəngilanda, Şuşada dalğalanacağını söyləyirdi", - deyə Elçinin dayısı, həm də qayınatası Vaqif Əhmədov bildirir.

Evdə anası, xanımı və 3 azyaşlı uşağı Elçindən nigaran qalsa da onun xəyalı Qarabağda - doğma Cəbrayılda, Füzulidə, Qubadlıda, Laçında, Zəngilanda, Ağdamda, Şuşada dolaşırdı. Qəlbinin vətən haraylı çağırışının arxasınca uçmağa da hazır idi ki, işğal altındakı torpaqlarımıza çata bilsin.

Müharibədən uğurla dönəcəyinə söz vermişdi... Savaşda qələbənin hansı ağır məhrumiyyətlər hesabına başa gəldiyini təsəvvür etmək o qədər də çətin deyil. Vətən məhəbbəti, Qələbə eşqi bütün bunlara dözməyi, hər ağrıya-acıya üstün gəlməyi digər hərbçilər kimi Elçin Əzizova da "öyrətmişdi". Elçin şəhid olmazdan əvvəl doğma Cəbrayılın azadlığı uğrunda vuruşdu, doğulduğu Böyük Mərcanlı kəndinin düşmən tapdağından xilas olmağını görə bildi. O, Füzuli-Cəbrayıl istiqamətində gedən qanlı döyüşlərdə cəsurluq nümayiş etdirdi, bir sıra yaşayış məntəqələrinin düşməndən geri alınmasında iştirak etdi.

Şəhidin böyük oğlu Yusif atasının hansı amal uğrunda canını fəda etdiyini yaxşı anlayır. Onun atasının məzarı üstünə yazıb qoyduğu məktub indiyə kimi də hamını təsirləndirib: "Atam şəhid olandan sonra hərə bizə bir cürə köməyini əsirgəmədi. Kaş onların yerinə mənə atamı bir dəfə qucaqlayıb öpmək və səsini eşitmək hədiyyəsini verə biləydilər", - deyə o, məktubunda qeyd edib. Atasının şəhadətə qovuşması Yusifin həyatında yeni bir səhifə açıb, onu şərəfli bir yola çıxarıb. Eləcə də digər övladları Duyğu və Uğuru...

***M.MİRZƏ***
***XQ***

# O, həm qardaş idi, həm də dost və ata!



**Qələbənin qazanılmasında şücaət göstərən şəhid Oktay Əhmət oğlu Səfərov 1993-cü il mayın 15-də Saatlı rayonunun Qaralar kəndində dünyaya göz açıb. Oktay 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Vətən müharibəsinə Xocavəndin azadlığı uğrunda gedən döyüşlərə qatılıb.**

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Oktay Səfərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" , "Xocavəndin azad olmasına görə" medalları ilə təltif edilib.

"Qardaşım tək mənə qardaş olmayıb. Məndən bir yaş balaca idi. O, mənə dost, sirdaş olub", - deyə şəhidin bacısı Günel Rəsulova qardaşı Oktay barədə danışır. O, bildirir ki, həm müharibədən qabaq, həm də döyüşlər vaxtı hər zaman qardaşıyla əlaqə saxlayıb: "Oktay sanki mələk idi, gəldi bu dünyaya və getdi. O ailəmizi necə sevirdisə, Vətəni də elə sevirdi. Məncə, o bizi belə kimsəsiz qoyub getmək istəməzdi. Mən sağlığında da onunla fəxr edirdim, indi də fəxr edirəm. Vətən sağ olsun. Amma kaş o da sağ olaydı. Hər birimizin dayağı idi. Arzumuz odur ki, onun xatirəsi daim yaşasın. Hamı onu tanısın".

Günel qardaşı üçün həmin ildə nişan hazırlıqlarına başladıqlarını da diqqətə çatdırır: "Sevdiyi qız var idi. 6 il idi ki, bir-birlərini sevirdilər. Pandemiya yayıldığına görə nişanını təxirə salmışdıq. Hər dəfə nişan məsələsi gündəmə nəsə problemlər çıxırdı. Sonuncu dəfə Türkiyədən qayıdanda sevdiyi qızın anası rəhmətə getdi. Elə bir ağır durumdan sevdiyini çıxardı. Həmin qızın atası da rəhmətə getmişdi. O da bizim ailəmizin bir üzvüdür. Hər gün bir-birimizlə maraqlanmışıq. Doğma bacım kimidir. Qardaşım ailə qursaydı, çox xoşbəxt olacaqdı. Mənim övladlarıma elə bir dayı idi ki, təsəvvür edə bilmirəm ki, onun öz uşaqları olsaydı, o necə bir ata olardı.



Mən ailə quranda qardaşımın 20 yaşı var idi. O həm də mənə atalıq etdi, 2 il işləyib bütün cehizlərimi aldı. Onun mənə etdiklərini, çox təəssüf ki, qaytara bilmədim. Tovuz hadisələrində, Aprel döyüşlərində şəhid olanların hamısına bir-bir ağlamışdım. Sanki mən də bunu yaşayacaqmışam kimi. Allaha yalvarırdım ki, bizə bunu yaşatmasın. Amma indi necə dözürük anlaya bilmirəm. Yəqin ki, həyatda ailəmizə görə ayaqda dururuq".

Şəhidin anası Zülfiyə Səfərova bildirir ki, övladı Zəngilan, Qubadlı, Füzuli, Xocavənd istiqamətlərində döyüşlərdə iştirak edib: "Baş atıcı kimi ön cəbhədə olub. Sonuncu zəngimiz noyabrın 2-nə təsadüf etdi. Ona kimi hər gün demək olar ki, danışırdıq. Çətinlikləri barədə söz açmadı. Bir sonuncu zəngdə bizə dedi ki, döyüşə girdik, yaralananlar oldu. Ayın 2-dən 18-nə kimi məlumat ala bilmədik. Oktay noyabrın 3-də şəhid olubmuş. Elə uşaq idi ki, heç cür məni xəbərsiz qoymazdı.

Artıq ayın 11-dən mən narahat oldum. Hər yerdə onu axtardım. Noyabrın 18-də nəşini Füzuli rayon Diaqnostika Mərkəzində tapdıq. Ayın 19-da kənddə dəfn etdik. Oktay çox mehriban, qayğıkeş, ağıllı bir balaydı. Savadlı idi, ancaq ali məktəbə daxil olmaq ona qismət olmadı. Hərbi xidmətə getdi. Əsgərlikdən gəlməyinə 4 ay qalmış atası qəzaya düşdü. Yaddaşını itdi. Bütün ailənin yükü onun çiyinlərinə düşdü, ona görə təhsil ala bilmədi. 1 il yol idarəsində işlədi, sonra Bakıda tikintidə, 3 il də Türkiyədə yaşayıb işlədi. 2019-cu ilin dekabrında evləndirmək məqsədilə gətirdim. Onun nişan hazırlıqlarının hamısını etmişdik. Oğlumun da, bizim də arzularımız yarımçıq qaldı".

Qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi ilə qəhrəmancasına döyüşüb şəhid olan Oktay kimi bütün şəhidlərimiz sübut etdilər ki, bu xalqın qəhrəmanları yüzlərlə, minlərlədir. Onların ömür yolu gənclərimizə nümunədir.

***M.MÜŞFİQ***
***XQ***



# Torpaqda izi olanlar...

Bu gün yaxın-uzaq bölgələrimizə getsəniz, hər yerdə görəcəksiniz ki, bir kənddə bağlara, tarlalara gübrə daşıyır, başqa bir yerdə meliorasiya işləri aparılır, texnika növbəti mövsümə hazırlanır. Un dəyirmanlarında Vətənin sarı kəhrəba buğdası üyüdülür. Çörəyin hər zaman bol olsun, Azərbaycan!

Builki payız həm də barlı-bərəkətli, toylu-büsatlıdır. Bölgələrimizdə məhsul bayramları, festivallar keçirilir, belə xoş, təmtəraqlı mərasimlərdə insanlar deyir, gülür, sevinirlər.

Bəli, Azərbaycan kəndi bu ili də yaxşı göstəricilərlə başa vurur. Həqiqətən, "zəhməti ömrümün ilk bəzəyi bilmişəm" (Bəxtiyar Vahabzadə) deyənlərin yurdudur Azərbaycan!

*XQ*

**Əziz oxucular, "Xalq qəzeti" növbəti dəfə sizə "Regionlar" səhifəsini təqdim edir. Müxbirlərimiz bu dəfə Lerikin kəndlərində payızlıq şum aparılmasından, Qusarın aqrar sektorundakı uğurların sosial şəbəkələrdə əks olunmasından, Sədərəyin bal kimi dadlı üzümündən, Şirvan şəhərinin gündən-günə abadlaşdırılaraq gözəlləşməsindən söhbət açıblar.**

# Lerikin dağ ətirli çörəyi

## *Hazırda növbəti ilin məhsulu üçün şum aparılır*



**Boykəndil kəndi dağların ətəyində yerləşir. Sərin meh, payızın ılıq nəfəsi bu yerlərə sığal çəkir. Lerik Rayon Kommunal Müəssisələr İstehsalat Birliyinin rəis müavini Azər Həsənov bu kənddə yaşayır. Söhbət edə-edə onun ata-baba ocağına yaxınlaşırıq.**

Evləri qonşu kəndlərə gedən yolun üstündədir. Uzaqdan təndir çörəyinin ətrini hiss edirik. Qonağı təzə bişirilmiş isti təndir çörəyi ilə qarşılayırıq, - deyə həmsöhbətim bildirir:

– Gördüyünüz təndir ata-babadan qalıb, yerini dəyişməyə ürək eləmirəm. Əvvəllər anam o təndirdə çörək bişirib, indi estafeti həyat yoldaşım Nurənə xanıma verib.

Ailənin başçısı Hacıbaba müəllim ömrünün 45 ilini müəllim peşəsinə həsr edib. Ömür-gün yoldaşı Gültəkin xanımla 5 uşaq tərbiyə edib ərsəyə çatdırıblar. Halal zəhmətlə tikdiyi evdə Gültəkin xanım və oğlu Azərin ailəsi ilə birgə yaşayırlar.

"Çörək müqəddəs və əvəzsiz nemətdir, həm də qonaqpərvərlik rəmzidir", - deyə ağsaqqal söhbətə başlayır. Sonra isə sözünün davamını gətirir:

– Ata-babadan bizim ərazi bərəkətli, çörəkli olub. İkinci Dünya müharibəsinin ağır illərində Lerik qonşu rayonlara taxılla kömək edib. Minlərlə ailə aclıqdan xilas olub.

Süfrəyə yerli buğda unundan bişirilmiş isti təndir çörəyi gəlir. Dadı, ləzzəti, ətri zavodlarda, sexlərdə bişirilən çörəklərdən tam fərqlidir.

Azər müəllim deyir ki, ailə keçən il 2 hektarda "Əzəmət" sortlu buğda əkib, 8 ton məhsul götürüblər. Cari ilin məhsulu üçün əkin sahəsini 4 hektara çatdırıblar. Biçin vaxtı texnika cəhətdən korluq çəkməyiblər.

Boykəndil kəndində 20 ailə yaşayır. Bu il 15 ailə pay torpaqlarını əkərək 70 tona yaxın məhsul götürüb. Camal Qardaşov 1,8 hektar sahədən 8 ton, Teyyub Baxşıyev 1,3 hektardan 5 ton, Xanoğlan Məmmədov 1,5 hektardan 7 ton buğda toplayaraq, yüksək məhsuldarlığa nail olublar. Taxılçılar məhsulu rayonun Şingədulan kəndində sutkalıq istehsal gücü 12 ton olan müasir dəyirmanda üyüdürlər.

Mükafat Yaqubov Xüsusi Təyinatlı Qüvvələrin xidmət rəisi olmuş baş leytenant, "Azərbaycan bayrağı" ordenli, Vətən müharibəsi şəhidi Əliqismət Yaqublunun atasıdır. Lerik Dövlət Rəsm Qalereyasının direktorudur. Mükafat həm də ata-baba yurdu Kələxan kəndində əkinçiliklə məşğul olur.

**Mükafat Yaqubov bizimlə söhbətə bu sözlərlə başladı:**

– Zuvand ərazisinin məhsuldar, bərəkətli torpaqları var. Bu yerlərdə dəmyə şəraitində çovdar yaxşı məhsul verir. Çovdar faydalı mikroelementlərlə zəngindir, unundan bişirilən çörək dadlı və keyfiyyətli olur.

Məlum oldu ki, Mükafat kişi keçən il 7 hektarda çovdar əkib. Bu il əkin sahəsini artıracağını deyir. Lerik respublikamızda taxılçılığın intensiv inkişaf etdirildiyi rayonlardandır. Lerik Dövlət Aqrar İnkişaf



Mərkəzinin (DAİM) direktoru Cahani Nüsrətzadənin sözlərinə görə, rayonun taxılçıları son 1 ildə əkinlərini 560,5 hektar, arpa əkinlərini isə 11,6 hektar artırıblar. Cari ildə 3 min 520 hektar buğda, 138 hektar arpa və 60 hektar çovdar sahəsindən, ümumilikdə, 9 min 629 ton məhsul yığılıb. Bunun 9 min 152 tonu buğdadır.

**DAİM direktoru sonra sözünə davam edərək bildirdi:**

– Dağlar diyarında əhalini taxıl məhsulları, öz çörəyimizlə tam təmin etməyi hədəf götürmüşük. Qarşıdakı ilin məhsulu üçün 4 min hektarda taxıl əkməyi nəzərdə tutmuşuq. Fermerlərə 40 faiz güzəştlə kənd təsərrüfatı texnikaları satılıb. Rayonun ərazisində 68 şum traktoru vardır, kömək məqsədilə qonşu rayonlardan da 10 traktor gətirilib. Artıq 1500 hektar sahədə payızlıq şumu aparılıb, 600 hektara toxumluq buğda səpilib.

Uzun illərdir mətbuatda çalışıram. Ən müxtəlif mövzularda reportaj, korrespondensiya, məqalələr yazmışam. Etiraf edirəm ki, taxılçılıq mövzusunda daha həvəslə yazıram. Axı, taxıl xalqın, dövlətin gücü, elin sərvəti, qüdrətidir. Qoy bol sünbüllü kəhrəba zəmilərimiz çox olsun, xeyir-bərəkət heç vaxt süfrələrimizdən əksilməsin.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# "Sədərək üzümü" bal dadır

**Naxçıvanın sərhəd bölgəsi olan Sədərək rayonu bu qədim diyarda üzümçülüyün məskəni kimi tanınır. Muxtar respublikanın əksər rayonlarında üzüm yetişdirilsə də, bu bölgədə ərsəyə gələn çeşidli üzüm sortları daha çox tanınır. Əhali arasında şəkər kimi şirin "Sədərək üzümü" xüsusilə məşhurdur. Burada elə bir ailə tapmazsan ki, həyatyanı sahəsində üzüm bağı olmasın.**

Təsadüfi deyil ki, hələ Sovetlər Birliyi dövründə indiki Şərur rayonunun tərkibinə daxil olan Sədərək kəndinin ərazilərində böyük üzüm bağları olub və ilk dəfə 1967-ci ildə burada şərab zavodu tikilərək istifadəyə verilib. Amma yerli tələbatı ödəmədiyindən 1973-cü ildə əlavə şərab zavodu da işə salınıb. Bir müddət sonra Sədərəyin Ermənistanla sərhəd ərazisində əlavə olaraq yeni bir şərab zavodu tikilib.

Ərazilərdə yerləşsə də, bu ərazilərin çox hissəsi sıra dağlarla əhatələnib. Ümumiyyətlə, əkinçilikdə, hər zaman dağlıq, dağətəyi və aran ərazilərin hər biri özünəməxsus iqlimə malik olur. Buraya Günəş şüalarının sahələrə yayılması, hava axınının sirkulyasiyası və sair kimi amillər təsir edir.

Öyrənirik ki, vaxtilə burada, demək olar ki, bütün ailələr üzümçülük, bir qismi isə gülçülüklə məşğul olub. Doğrudur, gülçülü-



Bu məlumatları bizimlə söhbətində **Sədərəkli təsərrüfatçı Muxtar Nəsirov** bölüşür. Hazırda təqaüddə olan Muxtar Nəsirov 50 ilə yaxındır ki, üzümçülüklə məşğuldur. Deyir ki, vaxtı ilə burada fəaliyyət göstərən zavodlara hər il 20 min tona yaxın üzüm tədarük olunurdu və ümumilikdə, hər zavodda 60-70-ə qədər işçi çalışırdı.

Müsahibimin sözlərinə görə, Sədərəkdə bir çox üzüm sortları yetişdirilir. Ağ süfrə, kişmişi, bayanşirə, misqalı sortları bu rayonda daha çox yayılıb. Şərabçılıq üçün ən uyğun olanı isə bayanşirə sortudur. Şirəlilik faizi yüksək olan bu üzümün Sədərəkdə yayılması da ötən əsrin yetmişinci illərinə təsadüf edir. Həmin dövrdə bu üzüm sortuna üstünlük verilməsi təsərrüfat sahibləri üçün də sərfəli sayılırdı.

Bəs, Sədərək üzümünü digərlərindən fərqləndirən əsas özəllik nədir? – sualına isə həmsöhbətim belə cavab verir:

– Naxçıvanın təbii şəraiti meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üçün münbit sayılsa da, bu diyarda hər bölgənin özünəməxsus yeri var. Məsələn, Sədərəkdə hansı meyvəni yetişdirsən də, Şahbuzdakı, Ordubaddakı meyvənin dad-tamını verməyəcək. Eləcə də burada yetişdirilən üzümün dadı digər bölgələrdən fərqlənir. Bunun da səbəbi odur ki, Sədərəyin üzüm əkilən sahələri düzəngah

yə maraq sonradan azalsa da, üzümçülüklə məşğul olanlar bu ənənəni davam etdiriblər.

Bunu da öyrəndik ki, hazırda təcrübəli təsərrüfatçının iki üzüm bağı var. Aqrotexniki qaydalara əməl etməklə, hər il bu bağlardan 6-7 tona yaxın məhsul götürür. Bağda ən çox bayanşirə sortuna üstünlük verib. Bu üzüm sortu süfrə üzümü kimi də daha çox tələb olunandır. Yığılan məhsulu isə əsasən daxili bazarda satışa çıxarır. Bundan əlavə, bağındakı müxtəlif üzüm növlərindən kompot, mürəbbə hazırlanması üçün də istifadə edir.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, ötən il muxtar respublikada 850 hektara yaxın üzüm bağları olub və bu bağlardan, ümumilikdə, 6 min 500 tona yaxın məhsul tədarük edilib. Sədərək rayonunda isə üzüm bağları 93 hektar, tədarük edilən məhsul isə 607,2 ton olub. Hazırda isə bu sahənin inkişafı üçün lazımi addımlar atılır. Belə ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda üzümçülüyün inkişafı əsas prioritetlər sırasındadır.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Qusarda bərəkət mövsümü





**Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Rauf Minhacov bir neçə ildir ki, feysbukda dostluğumdadır. Bunu ona görə qeyd edirəm ki, Rauf müəllim həmkarlarının çoxundan fərqli olaraq, rayonun aqrar sektorunda əldə olunan nailiyyətlər, bu uğurları halal, fədakar zəhmətləri sayəsində qazananlar barədə xəbərləri sosial şəbəkələrdə vaxtaşırı paylaşır. Özü də bu işi şövqlə, səriştə ilə görür.**

Konkret bir neçə misal gətirmək istəyirəm. Rauf Minhacov bu günlərdə feysbukda rayonda fəaliyyət göstərən meyvə-tərəvəz şirələri üzrə ixtisaslaşmış istehsalat müəssisəsi haqqında söz açıb. Yazıb ki, sahibkar Akif Rüstəmovun rəhbərliyi ilə yaradılan bu müəssisədə səmərəli iş mühiti var. Kollektivin məqsədi yerli məhsullardan təbii və keyfiyyətli şirələr hazırlamaq və bazara çıxarmaqdır. Bura yüksək əmək intizamı ilə seçilir. Müəssisədə 22 nəfər daimi işlə təmin edilib.

R.Minhacov sonra bunları qeyd edib: "Təşəbbüskar insanların əməyi və dövlətimizin dəstəyi sayəsində yaradılan və uğurla fəaliyyət göstərən müəssisə həm iqtisadi, həm də sosial məsuliyyət baxımından uğurlu bir model kimi qiymətləndirilə bilər". Təqdirəlayiq haldır ki, sosial şəbəkə izləyiciləri bu paylaşıma biganə qalmayıblar. Məsələn, rayonun Həsənqala kəndindən olan bir fermer minnətdarlıq hissilə bildirib ki, ölkəmizin aqrar sektorunda, müsbət dəyişikliklər baş verir. Bütün bunlar Prezident İlham Əliyevin hərtərəfli dəstəyilə həyata keçirilir.

Bu günlərdə Qusar rayonunda Aqrar Biznes Festivalı və toxum satış yarmarkası keçirilib. Tədbir Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Qusar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə təşkil olunub. Festival çərçivəsində Qusar rayonundan olan fermerlər, həmçinin toxum satışı ilə məşğul olan fermerlər öz məhsullarını təqdim ediblər. DAİM direktorunun bu barədə paylaşdığı məlumatda qeyd olunur ki, festival çərçivəsində fermerlər özlərinin təzə, orqanik meyvə-tərəvəz və süd məhsullarını nümayiş etdiriblər.

Bəlkə də burada bu kiçik yazıya nöqtə qoymaq olardı. Mənim üçün maraqlı olan həm də o oldu ki, DAİM direktoru festivalda iştirak edən Rövşən adlı sadə bir peşə sahibi – çörəkçi barədə ayrıca status paylaşıb: "Festivalda ləzgilərin bütün bölgələrdə tanınan və sevilən xərək çörəyi və şirniyyatlarının usta Rövşən təqdim edib. Festival iştirakçılarında ən çox maraq doğuran və diqqətçəkən stend məhz köhnə dostum Rövşənin idi". R.Minhacov Rövşənlə çəkdirdiyi birgə fotosunu da paylaşmağı unutmayıb.

Yeri gəlmişkən, Rauf Minhacov Qusar rayonunun ecazkar təbii mənzərələrini mobil telefonun yaddaşına köçürməyi də sevir və bu fotoları da bəzən "fb"də həvəslə paylaşır. Bu günlərdə o, Qusar şəhər sakinlərinin sevimli istirahət məkanı olan N.Nərimanov parkının kövrək payız ovqatını əks etdirən bir şəkil yerləşdirib.

Fotonun müəllifinin payız haqqında düşüncələri də səmimi və düşündürücüdür: "Payızın insan ömrünə bir bənzəri var. İlin bu fəslində ağacların yarpaqları saralıb tökülduyü kimi, insanların da fikir və düşüncələri kövrək bir xatirəyə dönərək söz-söz, cümlə-cümlə, səssiz-səmirsiz ağ vərəqlər üzərinə səpələnir. Payız, əslində, kövrək, duyğusal bir hissdir...".

***Məsaim ABDULLAYEV***
***XQ***



# Şirvana gəl, Şirvana...

**Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Şirvan şəhərində genişmiqyaslı abadlıq-quruculuq və əsaslı təmir-bərpa işləri aparılır. Şəhər ərazisində nəqliyyatın manevsiz hərəkətinin tənzimlənməsi və əhalinin rahat gediş-gəlişinin təmin edilməsi məqsədilə mərkəzi və məhəllədaxili küçələrə asfalt-beton örtüyü vurulur.**

2020-2024-cü illərdə Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemi tamamilə yenilənməklə 111 prospekt və küçəyə 177 min 777 kvadratmetr asfalt-beton örtük döşənib. Şəhər icra hakimiyyətindən verilən məlumata görə, bu ilin ötən dövrü ərzində şəhərin Heydər Əliyev və İstiqlaliyyət prospektləri, eləcə də T.Ələkbərov, F.Eynullayev, N.Nərimanov, Cavad xan, Ə.Cəfərzadə, Ə.Ləmbəranski, Naxçıvan, A.Gərəybəyli, 20 Yanvar, M.Mirzəyev, M.İbrahimov , T.İsmayılov, N.Xəlilov, C.Naxçıvanski, Xaqani və M.Füzuli küçələrində məhəllədaxili yollar əsaslı təmir olunub, 26 küçədə 48 min 729 kvadratmetr sahəyə asfalt-beton örtük vurulub.

Bununla yanaşı, bu ilin 9 ayında şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri ilə bağlı Şirvan, M.Əsədov, Şəhidlər, M.S.Ordubadi və M.Hüseynzadə küçələrinə 31 min kvadratmetr asfalt-beton örtük döşənib. Ümumilikdə, son 5 ildə şəhərin 142 küçəsi üzrə 257 min 506 kvadratmetr asfalt-beton örtük işləri görülüb. Yeri gəlmişkən, 2025-ci ildə şəhər ərazisində yolların əsaslı təmiri ilə əlaqədar başa çatmış tender proseduruna əsasən şəhərin 26 küçəsində 48 min 729,4 kvadratmetr asfalt-beton örtüyünün vurulması planlaşdırılır.

2020-ci ildən 2025-ci il oktyabrın 1-dək şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri çərçivəsində 64 min 424 poqonometr içməli və 33 min 954 poqonometr tullantı su xətləri çəkilib. Həmin işlər nəticəsində şəhər əhalisinin 70 faizi 24 saat fasiləsiz içməli su ilə təmin olunub. Bununla yanaşı, şəhərin kanalizasiya şəbəkəsinin 42 faizi yenidən qurulub. Eyni zamanda, Şirvan şəhərinin qazlaşdırılması işləri də tam yekunlaşdırılıb. Bunun nəticəsidir ki, artıq şəhər əhalisinin 100 faizi "mavi yanacaq"la təmin olunub.

Şirvan şəhərində ekoloji vəziyyəti yaxşılaşdırmaq, yeni yaşıllıq zolaqlarının salınması məqsədilə son 5 ildə, ümumilikdə, 2 min 757 ədəd həmişəyaşıl ağac, 45 min 94 ədəd gül və gül kolları əkilib, 28 min 675 kvadratmetr qazon örtüyü döşənib. Şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov sözügedən ərazilərdə görülən işlərə baxış keçirib, icraçılara, aidiyyəti qurumlara müvafiq tövsiyə və tapşırıqlar verib.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Şirvan şəhərinin Naxçıvan küçəsində "Yeni Şirvan" yaşayış kompleksi inşa edilir. Ümumi sahəsi 8,11 hektar təşkil edən kompleksdə 11 on ikimərtəbəli və 14 doqquzmərtəbəli bina ucaldılır. Layihə çərçivəsində 80 yerlik uşaq bağçasının elektrik, santexnik və fasad suvaq işlərinə başlanılıb. 960 şagird yerlik məktəb binasının, 14 doqquzmərtəbəli və 11 onikimərtəbəli yaşayış binasının daxili suvaq və bəzək, elektrik, santexnika, taxta və laminat döşəmənin vurulması, 13 doqquzmərtəbəli və 10 onikimərtəbəli yaşayış binasının dam örtüyünün quraşdırılması, 13 doqquzmərtəbəli və 10 onikimərtəbəli yaşayış binasının fasadlarında isə rənglənmə işlərinə başlanılıb.

Ərazidə abadlıq işləri ilə bağlı beton bordürlər düzülür, asfalt-beton örtüyü vurulur və yaşıllıq sahələri salınır. Binaların həyətyanı sahələrində sakinlər üçün söhbətgahlar, uşaq əyləncə kompleksləri quraşdırılır, idman meydançaları tikilir.

***M.NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

*Mahirə Hüseynova – 65*

# Tanınmış alim, pedaqoq, şair



**Tanınmış dilçi alim, ADPU-nun prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın anadan olmasının 65 illiyi münasibətilə AMEA-da yebiley mərasimi keçirilib.**

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun təşkil etdiyi məclisdə professor Mahirə Hüseynovanın elmi-pedaqoji və ictimai fəaliyyəti yüksək qiymətləndirilib. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli professor Mahirə Hüseynovanın Azərbaycan dilçiliyinə verdiyi layiqli töhfələrdən söz açıb. AMEA rəhbəri bildirib ki, yubilyarın elmi yaradıcılığı dilçiliyin müxtəlif istiqamətlərini – dialektologiya, müasir ana dili, terminologiya, dövlət dil siyasəti və türkologiya məsələlərini əhatə edir. Sonra akademik İsa Həbibbəyli professor Mahirə Hüseynovaya AMEA-nın Fəxri fərmanını və Nəsimi adına Dilçilik İnstitutunun “Fəxri professoru” diplomunu təqdim edib.

Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli Mahirə Hüseynovanın nitq mədəniyyəti, onomastika, üslubiyyat, dialektologiya və dil nəzəriyyəsi sahələrində apardığı səmərəli tədqiqatlarla ensiklopedik mənbə yaratdığını bildirib. O, professorun "Müasir Azərbaycan dilində punktuasiya məsələləri" kitabının durğu işarələri sistemini müasir dilçiliyin nailiyyətləri baxımından əhəmiyyətini vurğulayıb.

Fəlsəfə doktoru Etibar Əliyev və digər çıxış edənlər fədakar alim Mahirə Hüseynovanın dilçilik elminə gətirdiyi yeniliklərdən, şeir yaradıcılığından, ədəbiyyatşünaslığımızın məsələlərinin araşdırılmasında xidmətlərindən söz açıblar.

Professorlar Sayalı Sadıqova, Məsud Mahmudov, filologiya elmləri doktoru Gülbəniz Babayeva və fəlsəfə doktoru Kifayət İmanquliyeva yubilyarın elmi yaradıcılığının müxtəlif istiqamətləri barədə məruzələrlə çıxış ediblər.

**AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Baba Məhərrəmli mərasimdən sonra XQ-yə bildirdi:**

– Professor Mahirə Hüseynovanın 65 illik yubileyinin məhz Dilçilik İnstitutunda keçirilməsi onun elmi taleyi ilə sıx bağlıdır. Belə ki, Mahirə xanım həm fəlsəfə, həm də elmlər doktoru dissertasiyasını məhz bu institutda müdafiə etmişdir. Mahirə Hüseynova nəinki Azərbaycanda, həm də ölkəmizin coğrafi sərhədlərindən kənarda da kifayət qədər tanınan, Azərbaycan dilçiliyinin ən nüfuzlu simalarından biridir. Mahirə xanımın çoxşaxəli yaradıcılığında əsas xətt fundamental türkoloji istiqamətdir. Bu silsilədən olan 2020-ci ildə nəşr edilmiş 600 səhifəlik “Ümumtürk dilləri dialekt və şivələrinin qırışıqlı inteqrasiyası” adlı əsər türkologiyada ən aktual məsələlərdən biri olan dialekt və şivələrin təsnifatına ilk dəfə olaraq genişmiqyaslı elmi təhlil gətirmişdir.

**Dilçilik İnstitutunun baş elmi işçisi, dosent Qətibə Vaqifqızı isə dedi:**

– Elə alimlər var ki, onların həyat yolu hər kəs üçün örnəyə və məktəbə çevrilir. Professor Mahirə Hüseynova məhz belə dəyərli dilçilərdəndir. Azərbaycan elminə sanballı töhfələr verən alim Azərbaycan dilçilik elmini və ədəbiyyatını xarici ölkələrdə də layiqincə təmsil edir.

***Arzu ƏLİYEVA***
***XQ***

# Xalçaçı rəssamın inanc dünyası

## *Eldar Mikayılzadənin sənət ibadətləri*

**Xalq rəssamı, UNESCO yanında Rəssamlar Birliyinin üzvü, Azərbaycan manatının ilk eskizlərinin müəllifi Eldar Mikayılzadə uşaq yaşlarından xalçaçılıqla yaxından maraqlanmış, sonradan bu sənət onun həyatının mənasına, yaradıcılıq bioqrafiyasına çevrilmişdir.**



Xalq rəssamları Səttar Bəhlulzadə və Lətif Kərimovun əhatəsində püxtələşmiş gənc rəssam milli irsimizin Sultan Məhəmməd, Behzad kimi klassiklərinin yaradıcılığından ilhamlanmış, onları özünə müəllim qəbul etmişdir. Eldar Mikayılzadənin müxtəlif illərdə London, Paris, İstanbul, Brüssel kimi şəhərlərdə fərdi sərgiləri keçirilmiş, Frankfurt sərgisində “Yaranış” xalçası qızıl medala layiq görülmüşdür.

Hələ 10 yaşında ikən “Qurani-Kərim”i öyrənməyə başlayan Eldar Mikayılzadə həm də inanclı insandır. Rəssamın "114. Bismillah", "İslam", "Bismillahir-rəhmanir-rəhim", “On dörd məsum”, “Səcdə” adlı xalçaları dərin mənalı kompozisiyası ilə insanı heyran edir. Onun dinimizə və ərəb əlifbasına bələd olması “114. Bismillah” kimi bir əsərin meydana gəlməsinə səbəb olmuşdur.



İslam dinində "Bismillahir-rəhmənir-rəhim!" kəlməsi peyğəmbərə 114 dəfə nazil olmuşdur. 113 surədə başlanğıc kimi işlənmişdir. "Tövbə" surəsində isə "Bismillahir-rəhmanir-rəhim" başlanğıcda gəlməsə də, "Nəml" surəsində əvvəldə olmaqla yanaşı, ayələrin birində də işlənmişdir - bu da Quran üzrə ümumi 114 edir.

Bu mübarək cümlənin ərəb əlifbasının müxtəlif yazı və xətt şəkilləri ilə 113 cür yazılış forması məlumdur. Eldar Mikayılzadə isə öz xalçasında "Bismillahir-rəhmanir-rəhim!" cümləsinin eynilə peyğəmbərə nazil olduğu qədər yazılmasını istəmiş və onu fərqli bir yazı üsulu ilə bulud şəklində yazaraq 114-ə tamamlamış, xalçanı isə "114. Bismillah" adlandırmışdır.

Eldar Mikayılzadə sadəcə İslam deyil, digər təkallahlı dinlərə də hörmət və ehtiram göstərən sənətkar, multikultural ölkənin tolerant vətəndaşıdır. Xalçaçı rəssamın müxtəlif illərdə ərsəyə gətirdiyi "Üç peyğəmbər" , "Üç din" və "Xilaskar" kimi möhtəşəm sənət əsərləri onun səmavi dinlərə olan ehtiramının təzahürüdür.

Bu günlərdə isə ictimaiyyət Eldar Mikayılzadənin ilk dəfə olaraq Vatikanda sərgilənən “Səmavi dinlər” adlı triptixi haqqında danışır. Üç ayrı xalçadan ibarət olan bu triptix yəhudilik, xristianlıq və İslam dinlərinin tarixini, müqəddəs ayinlərini, ritual və hekayələrini özündə əks etdirir.

Yəhudilik dininə həsr olunmuş xalçanın kənar haşiyələrində David ulduzu və içərisində yerləşdirilmiş menora bu dinin rəmzi kimi diqqət çəkir. Xalça dünyanın altı gündə yaradılışı ilə başlayıb, Musa peyğəmbərin Nebo dağında dünyaya vida etməsi ilə bitir. Xalçanın kompozisiyasında Nuhun gəmisi, Yusifin quyuya atılması, İsrailoğullarının köçü, sarı rəngli inək, əhd sandığı kimi müxtəlif dini hekayələr vizuallaşdırılmışdır.

Səmavi dinlərin ikincisi olan xristianlığa həsr olunmuş xalça Məryəm ananın doğumu ilə başlayıb çarmıxa çəkilmiş İsa peyğəmbərin ruhunun göylərə yüksəlməsi ilə bitir. Xalçanın kompozisiyasında İsa peyğəmbərin müqəddəsliyi həm onun doğumu, həm də çarmıxa çəkildiyi anda ətrafında bəyaz göyərçinlərin təsvir olunması ilə göstərilib. Xalçanın kompozisiyasına İsa peyğəmbərin müxtəlif möcüzələri, həvarilərlə birlikdə sonuncu şam yeməyi kimi səhnələr daxil edilmişdir.

Təkallahlı dinlərin sonuncusu olan İslam dininə ithaf olunmuş xalça kompozisiyasının mərkəzində müsəlman dünyasının müqəddəs ziyarət yeri olan Kəbə dayanır. Xalçanın kompozisiyası İslam peyğəmbəri Həzrəti Məhəmmədin doğumu, bütlərin yıxılması ilə başlayıb, Bilal Həbəşinin Kəbədə azan çəkməsi ilə bitir. Bu xalça üzərində isə İslam dinində bütün müsəlmanlar tərəfindən qəbul edilən dini hekayələrə yer verilmiş, xalçanın müxtəlif hissələrində Quran ayələri yerləşdirilmişdir. Xalçada “Fil” surəsi-əbabil quşları, Sevr mağarası, peyğəmbərin hicrəti, Kəbənin yenidən qurulması, Bizansa elçi göndərilməsi kimi maraqlı faktlara da yer verilmişdir.

Ümumiyyətlə, Eldar Mikayılzadənin “Səmavi dinlər” triptixi estetik sənət əsəri səviyyəsini aşaraq möhtəşəm bir həyat fəlsəfəsinin, uzun illərin araşdırma və emprik biliklərinin tolerant xülasəsinə çevrilib. 3 xalça bir sənətkarın yaradıcılıq məhsulu olmaqla yanaşı, onu yetişdirən, formalaşdıran Azərbaycan mədəniyyətinin və tolerantlığının da ilmə-ilmə toxunmuş dastanıdır.

***Zəminə RƏSULOVA,***
***Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi***

*“Füyuzat” – 119*

# Milli mətbuatımızın ilk ədəbi-ictimai həftəlik nəşri

## *Türki düşüncəli, İslam inanclı, Avropa qiyafəli məfkurə çırağı*

**Azərbaycanın mətbuat tarixi xalqın milli düşüncə və şüurunun formalaşması tarixidir. Bu, elə bir dövr olub ki, bir qəzet və ya jurnal millətin oyanış səsi, maarifin və azad fikrin təbliğatçısı kimi çıxış edib. XX əsrin əvvəllərində, milli ideyaların formalaşdığı, cəmiyyətin qərb və şərq arasında öz yolunu axtardığı bir zamanda yaranan “Füyuzat” jurnalı məhz bu missiyanın daşıyıcısı idi.**

1906-cı il noyabrın 1-də Əli bəy Hüseynzadənin rəhbərliyi ilə Bakıda nəşrə başlayan “Füyuzat” cəmi bir il – 1907-ci ilin noyabrınadək fəaliyyət göstərsə də, Azərbaycan milli mətbuatının, həm də ümumtürk maarifçilik hərəkatının ən parlaq səhifələrindən birinə çevrildi. “Həyat” qəzeti bağlandıqdan sonra onun ideoloji xəttini davam etdirmək istəyən Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu xalqı maarifləndirmək, milli düşüncəni formalaşdırmaq və türkçülük ideyasını yaymaq məqsədilə yeni nəşr yaratdılar. Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə “Kaspi” mətbəəsində çap olunan jurnalın adı “Füyuzat”, yəni “feyz, bərəkət, ilham” mənasını daşıyırdı. Bu ad jurnalın mahiyyətinə, onun maarifçi missiyasına tam uyğun gəlirdi.

Jurnalın ilk sayında məram və məqsədlərini açıqlayan Əli bəy Hüseynzadə "Həyat və meyli-füyuzat" məqaləsində füyuzat kəlməsinin mənasını açıqlayaraq yazırdı:

“Məcmuəmizə "Füyuzat" adı təsadüfi verilmiyor, bu nam həyatdan təbii olaraq təvəllüd ediyor... "Füyuzat" ləfzon "feyz"in cəmil-cəmi olub rifah və bərəkətə, bolluğa, maddi və mənəvi nemətlərin bolluğuna, tərəqqiyyat və kəmalatın şəniəyyi-təcəllisinə dəlalət edərsə də, fəqət əsl məfhumu səadət və ələlxüsus səadəti-mənəviyyədir, həqiqi zövq və səfalərdən ibarət bir səadəti-mənəviyyədir. Həyat isə mənayi batinisilə daimi bir meyli-səadət, bir meyli-füyuzatdır”.

“Füyuzat”ın ətrafında toplanan ziyalılar o dövrün ən parlaq simaları idi. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Abdulla Şaiq, Abbas Səhhət, Məhəmməd Hadi, Həsən Səbri Ayvazov və başqaları jurnalın səhifələrində yeni milli ideologiyanın təməlini qoyurdular. Hər bir məqalə xalqın mənəvi dirçəlişinə, düşüncənin formalaşmasına xidmət edirdi. Jurnalda qadın hüquqları, azadlıq, maarif, ictimai islahatlar, Qərb elminin Şərq mühitində tətbiqi kimi məsələlər geniş şəkildə müzakirə olunurdu.

“Füyuzat” jurnalı dövrünün, sadəcə ədəbi tribunası deyil, ideoloji məktəb idi. Jurnalın səhifələrində Avropa maarifçiliyinə tənqidi, lakin seçici münasibət hiss olunurdu. Məqsəd kor-koranə təqlid deyil, Qərb elmini, təfəkkürünü və nizamını milli dəyərlərlə sintez etmək idi. “Füyuzat”çılar inanırdılar ki, millətin yüksəlişi yalnız elm, birlik və milli şüurun oyanması ilə mümkündür. Bu düşüncələr sonradan “füyuzatçılıq” adlanan ədəbi-siyasi cərəyanın əsasını qoydu. Füyuzatçılıq cərəyanı çarizmin istibdadına, əsarət və cəhalətə qarşı yönəlmiş, eyni zamanda, türk xalqlarının mənəvi birliyini təbliğ edən bir ideoloji axın oldu.




“Füyuzat” (1906-1907)

Jurnal Azərbaycan oxucusuna Avropa ədəbiyyatı və fəlsəfəsinin görkəmli nümayəndələrindən olan Tolstoy, Höte, Russo, Monteskyö kimi dahiləri ilk dəfə tanıdırdı. “Füyuzat”ın səhifələrində bu mütəfəkkirlərin ideyalarının tərcümə və şərhlərinə yer verilirdi ki, bu da Azərbaycan oxucusuna dünyəvi düşüncə tərzinin əsaslarını, humanizmin və maarifçiliyin əsl mahiyyətini anlatmaq məqsədi daşıyırdı.

“Füyuzat” Azərbaycan ədəbiyyatında neoromantizmin yaranmasına təkan verirdi. Neoromantizm bu dövrdə milli idealın ədəbi ifadəsi kimi insan azadlığı, milli qürur, mənəvi saflaşma və ictimai islahat arzusu füyuzatçıların yaradıcılığının əsas qayəsini təşkil etdi.

Əli bəy Hüseynzadənin “Bizə fədai lazımdır! Türki hissiyyatlı, İslam etiqadlı, Avropa qiyafəli fədai!” sözləri bu ideoloji istiqamətin simvoluna çevrildi. Sonralar bu ifadə müxtəlif mətbuat orqanlarında, “Təzə həyat”, “İrşad”, “Yeni Füyuzat”, “İqbal”, “Tərəqqi”, “Həqiqət”, “Dirilik”, “Azərbaycan” və digərləri tərəfindən inkişaf etdirilərək “Türkləşmək, islamlaşmaq, müasirləşmək” fikrinin təməlini qoydu.

Jurnalda yer verilən bu fikirlər 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji əsasını təşkil etdi. Cümhuriyyətin üçrəngli bayrağındakı mavi, qırmızı və yaşıl rənglər türklüyü, müasirliyi və islamı ifadə etdi. Bu ideya sisteminin müəllifi və mənəvi memarı məhz Əli bəy Hüseynzadə və onun ətrafında toplanan füyuzatçılar idi.

Jurnalın təsiri o qədər güclü idi ki, bəzi tədqiqatçılar 1905–1910-cu illəri “Əli bəy və Füyuzat dövrü” adlandırırlar. Əli bəy Hüseynzadənin “Həyat” qəzetinin son sayında yazdığı “Vidanamə” məqaləsində dediyi kimi, “Füyuzat” “qüdrətli, ədəbi qələm sahiblərinin cəmi” idi. Doğrudan da, jurnalın hər bir müəllifi öz dövrünün söz və fikir fədaisi idi.

Müasir dövrdə də “Füyuzat” jurnalı cəmiyyəti maarifləndirməyə davam edir. 2007-ci ildə Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondu tərəfindən “Füyuzat” jurnalının bərpası bu baxımdan tarixi-mədəni hadisə idi. Fondun təşəbbüsü ilə nəşrin davamı 33-cü nömrədən başlayaraq, professor Teymur Əhmədovun baş redaktorluğu ilə yüksək poliqrafik keyfiyyətdə çap olunmağa başladı. Bu fakt həm tarixi ənənənin, həm də müasir Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərin elmi əsaslarla təbliği üçün yeni platforma formalaşdırdı.

Son 18 ildə bərpa edilib yenidən nəşr olunan “Füyuzat” jurnalı milli-mədəni, ictimai-siyasi, tarixi və mənəvi-əxlaqi mövzuları əhatə etməklə geniş tematik istiqamət qazanıb. Jurnalın təsir dairəsi yalnız ölkə sərhədləri ilə məhdudlaşmır. O, xüsusilə Türkiyə Cümhuriyyətində və digər ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları və mədəniyyət ocaqları tərəfindən böyük maraqla qarşılanır. Bu fakt “Füyuzat”ın müasir dövrdə Turan məfkurəsinin elmi əsaslarla təbliğində strateji rol oynadığını təsdiq edir.

Jurnalın elmi-publisistik məzmunu onu həm akademik dairələrdə, həm də geniş oxucu auditoriyasında nüfuzlu intellektual mənbəyə çevirmişdir. Bu gün də Əli bəy Hüseynzadənin “Türkləşmək, islamlaşmaq, müasirləşmək” ideyasına sadiq qalaraq fəaliyyət göstərən “Füyuzat” milli özünüdərk prosesində ideoloji varisliyini göstərir.

**Bakı Dövlət Universitetinin jurnalistika kafedrasının müdiri professor Cahangir Məmmədli müasir dövrdə “Füyuzat” jurnalının fəaliyyətindən danışdı:**

– Azərbaycan mətbuat tarixində xüsusi yeri olan “Füyuzat” jurnalı XX əsrin əvvəllərində milli oyanışın, ictimai tərəqqinin və maarifçilik ideyalarının əsas təbliğatçılarından olub. Jurnalın redaksiyası Tağıyevin Nikolaevski küçəsində yerləşən mülkündə fəaliyyət göstərirdi. Bu mətbuat orqanı öz dövrü üçün həm mədəni, həm də elmi-siyasi hadisə idi. “Füyuzat” Azərbaycan mətbuatının və bədii fikir tarixinin parlaq səhifələrindən biri kimi milli ideologiyanın formalaşmasında əvəzsiz rol oynamışdır.



Cahangir Məmmədli

Jurnalın loqosunda onun mahiyyətini ifadə edən bu cümlə yer alırdı:

“Ədəbi, siyasi, ictimai, həftəlik, türkcə məcmuə-i islamiyyə”. Bu ifadə “Füyuzat”ın əsas istiqamətindən olan ədəbi, elmi və ictimai müstəvidə İslam mədəniyyətinə, türklüyə və müasirləşməyə xidmət etmək amalını özündə birləşdirirdi. Ədəbiyyat burada yalnız bədii forma deyil, həm də milli düşüncənin daşıyıcısı kimi ön plana çəkilirdi. Jurnalın ədəbi hissəsi daha üstün yer tutur, siyasi və ictimai məqalələr də onun ideoloji xəttini tamamlayırdı.

Əli bəy Hüseynzadə “Füyuzat”ın ətrafında dövrün ən görkəmli ədəbi və intellektual simalarını birləşdirmişdi. Jurnalın əməkdaşları sırasında Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Abbas Səhhət kimi yazıçı və şairlər yer almışdılar. Onların bədii və publisistik yazıları milli romantizmin, maarifçiliyin və milli azadlıq ideyalarının ifadəsi idi. Elə buna görə də ədəbiyyatşünaslıqda 1905–1910-cu illər “Əli bəy və Füyuzat dövrü” adlandırılır. Bu mərhələ milli ədəbiyyatın ideya-fəlsəfi dərinliyinin artdığı, bədii düşüncənin Avropa təsirləri ilə sintezə girdiyi bir dövr idi. “Füyuzat” həm yazı tərzi, həm də ideya istiqaməti baxımından Azərbaycan ədəbi dilinin və milli kimliyinin formalaşmasında mühüm rol oynamışdır.

Jurnal Türk-müsəlman dünyasının bir çox aktual problemlərinə toxunurdu. Onun səhifələrində milli azadlıq, təhsil, qadın hüquqları, milli kimlik və ictimai tərəqqi kimi mövzulara geniş yer verilirdi. “Füyuzat” Qarabağ məsələsinə də diqqət yetirir, erməni silahlı dəstələrinin bölgədə törətdikləri vəhşilikləri ifşa edir, bu hadisələri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışırdı. Redaksiya heyəti bu hadisələri milli yaddaşın bir parçası kimi təqdim edirdi.

Jurnalın tərtibatı dövrün digər nəşrləri ilə müqayisədə fərqli idi: məqalələrə uyğun foto və illüstrasiyalar əlavə olunur, dizayn və çap keyfiyyəti yüksək səviyyədə idi. Bu, o dövr üçün mətbuat texnologiyası baxımından böyük yenilik sayılırdı.

Maraqlıdır ki, cəmi 1 il fəaliyyət göstərmiş jurnalın ideyaları XXI əsrdə də öz əhəmiyyətini itirməyib. Müasir dövrdə Azərbaycan mediasında “unutmadıq, unutmuruq” şüarı ilə aparılan təbliğat və erməni vandalizminin faktlarla sənədləşdirilməsi həmin dövrün “Füyuzat” ruhunun davamı kimi səslənir.

“Füyuzat” irsinin müasir dövrdə oxuculara çatdırılması istiqamətində mühüm elmi işlər görülmüşdür.

Bu sahədə tanınmış alim, mərhum Ofelya Bayramlının rolu xüsusilə qeyd olunmalıdır. O, jurnalın bütün nömrələrini transliterasiya edərək müasir Azərbaycan türkcəsinə uyğunlaşdırmış, bununla da “Füyuzat” irsinin geniş oxucu kütləsinə çatdırılmasına imkan yaratmışdır. Eyni zamanda, bir çox tədqiqatçılar “Füyuzat”ın ideoloji xəttini, publisistik dəyərini və ədəbi məzmununu elmi aspektdən araşdırmışlar.




Yeni “Füyuzat”

2007-ci ildə Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondunun “Füyuzat” jurnalını yenidən nəşr etdirməsi bu böyük ənənənin müasir mərhələyə daşınması demək idi. Yeni “Füyuzat” milli irsə, mədəni köklərə və klassik ədəbiyyata sadiqliyin ifadəsi oldu. Bu gün “Füyuzat” jurnalı klassik irsi müasir dəyərlərlə birləşdirən, klassikanı müasirləşdirən elmi və mədəni platforma rolunu oynayır. MİMTA Fondu ətrafında birləşən ziyalıların və tədqiqatçıların fəaliyyətində vətənpərvərlik, milli dəyərlərə bağlılıq və elmi dürüstlük əsas prinsiplər kimi qorunur.

***Ləman TƏHMƏZ***
***XQ***

# Bələdiyyələr: Yerli özünüidarə cəmiyyətdə yerini tapıbmı?

**Azərbaycanda bələdiyyə institutu dövlət müstəqilliyinin bərpasından sonra demokratik cəmiyyət quruculuğunun tərkib hissəsi kimi formalaşmağa başlayıb. 1995-ci il Konstitusiyasında ilk dəfə olaraq yerli özünüidarəetmə prinsipi hüquqi cəhətdən təsbit olunub, 1999-cu ildə isə ölkədə ilk bələdiyyə seçkiləri keçirilib. Bu hadisə ilə Azərbaycanın idarəetmə tarixində mühüm mərhələnin əsası, vətəndaşların isə öz icmalarının idarə edilməsində birbaşa iştirakı üçün hüquqi bazanın formalaşmasının əsası qoyulub.**

Başqa sözlə, ötən illər ərzində bu institutun hüquqi bazası mərhələli şəkildə təkmilləşdirilib, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə əmlakı haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" və digər qanunlar qəbul edilib. Son illərdə həyata keçirilən inzibati islahatlar çərçivəsində bələdiyyələrin strukturunun optimallaşdırılması, bir sıra kiçik bələdiyyələrin birləşdirilməsi və onların idarəetmə qabiliyyətinin artırılması istiqamətində addımlar atılıb. Bununla yanaşı, dövlət bələdiyyələrə dotasiyalar ayırmaqla, onların maliyyə imkanlarını qismən də olsa gücləndirib.




Bələdiyyələrin maliyyə mənbələrinə yerli vergilər, rüsumlar, əmlak icarəsi, torpaq satışından gəlirlər, könüllü ianələr və dövlət subsidiyaları daxildir. Bununla belə, bələdiyyə büdcələrinin payı ölkə üzrə ümumi maliyyə sistemində hələ də çox aşağıdır. Əksər bələdiyyələr öz resurslarını əsasən torpaq idarəçiliyi, abadlıq, ətraf mühitin qorunması və sosial yardım proqramlarına yönəldirlər.

Burada bir məqamı da xatırlatmaq istərdik. "JEK" adı ilə tanınan Mənzil-Kommunal İstismar Sahələrinin fəaliyyəti uzun illərdir ki, cəmiyyətdə müzakirə mövzusu kimi diqqətdə saxlanılır və bu qurumun ləğvi ilə bağlı müəyyən mülahizələr səsləndirilir. Əlbəttə, bu zaman MKİS-in işi bələdiyyələrlə müqayisə olunur, hansının fəaliyyətinin vətəndaş məmnuniyyətinə daha çox təsir göstərə biləcəyi, şəhər və kəndlərin sosial-iqtisadi inkişafına daha çox töhfə verəcəyi ilə bağlı fikirlər bildirilir.

MKİS bir idarəetmə sistemi olaraq bir vaxtlar çoxmənzilli binalarda yaşayış şəraitinin qorunması, təmir-təhlükəsizlik işlərinin görülməsi, abadlıq və təmizlik xidmətlərinin təmin edilməsi kimi mühüm vəzifələri yerinə yetirirdi. Lakin bazar iqtisadiyyatına keçidlə bu sistemin fəaliyyət dairəsi məhdudlaşdırıldı və hüquqi əsasları dəyişdi.

Bu gün "JEK"lərin fəaliyyəti bir sıra hallarda formal xarakter daşıyır, bina və həyətlərdə təmir, sanitar xidmətlər, yaşıllaşdırma işləri ya sakinlərin öz təşəbbüsü, ya da yerli icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilir. Bakı və Gəncə kimi iri şəhərlərdə bəzi MKİS yeni idarəçilik modellərinə keçsə də, hələ də çoxu köhnə idarəetmə mexanizmləri ilə fəaliyyət göstərir.



Xatırladaq ki, "JEK"lər uzun illər şəhər və rayonlarda əsasən çoxmənzilli binaların təmir-təhlükəsizlik, təmizlik, həyətlərin abadlığı və digər kommunal xidmətlərini həyata keçirirdi. Lakin ötən əsrin 90-cı illərindən sonra mülkiyyət münasibətləri mövcud şəraiti dəyişdikcə, MKİS-in də rolu getdikcə zəiflədi.

Bugünkü reallıq isə onu göstərir ki, bir çox MKİS ya formal fəaliyyət göstərir, ya da əksər işlər sakinlərin təşəbbüsü ilə həll olunur. Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə həyata keçirilən pilot layihələrdə binaların idarə olunması üçün mülkiyyətçilərin birgə idarəetmə icmaları (HOA modeli) yaradılır. Bu, beynəlxalq təcrübəyə uyğun yanaşma sayılır. Ekspertlərin fikrincə, belə bir modelin təsis olunması bu istiqamətdə qanunvericiliyin tətbiqi və mövcud problemlərin həlli məqsədi daşıyır. Bu təşəbbüs sakinlərin binanın ümumi idarə olunmasında daha fəal iştirakını gerçəkləşdirərək mənzil qanunvericiliyinin tətbiqini yaxşılaşdırmağı şərtləndirir.

İndi isə MKİS ilə bələdiyyələr arasında cərəyan edən bir narahatlığı da diqqətə çatdırmaq istərdik. Belə ki, vətəndaş müvafiq vergini hansı tərəfə ödəyəcəyini bilmir. Məsələn, "zibil pulu" deyilən məişət tullantılarının daşınması üçün ödənişlər həm MKİS, həm də bələdiyyələr tərəfindən tələb olunur. Yaxud, evlərə və qeyri-yaşayış sahələrinə görə əmlak vergisinin reallaşması qanunvericilikdə bələdiyyələrə həvalə edilib. Amma MKİS də bu vəsaitin onun hesabına köçürülməsini iddia edir və bu məqsədlə qurumun əməkdaşları tərəfindən qapılar döyülməkdə davam edir. Bəs, əslində, əsl həqiqət kimin – hansı qurumun tərəfindədir?

İqtisadçı-ekspert Ruslan Atakişiyevin sözlərinə görə, vətəndaşlar sahib olduqları evə və qeyri-yaşayış sahəsinə görə əmlak vergisi ödəyirlər. Bu vergi qanunvericilikdə müəyyən edilib və toplanılması bələdiyyələrə tapşırılıb. Amma insanları çaşdıran digər məqam isə mənzil-istismar sahəsinin əməkdaşlarının da onlardan ev pulu istəmələri ilə bağlıdır. Ancaq bu qurumun belə bir fəaliyyətlə məşğul olması qeyri-qanunidir. Çünki əvvəllər mənzil-istismar sahəsinin bununla bağlı üzərinə düşən səlahiyyətlər indi bələdiyyələrə aiddir. Bəzi vətəndaşlardan tələb olunan "ev pulu"ndan isə söhbət gedə bilməz. Çünki vergilər müvafiq qanuna əsasən, bələdiyyəyə ödənilir. Bu vəziyyət sovet dövründə dövlətin tikdiyi binaların və indiki özəlləşdirilmiş mənzillərin idarə olunması arasındakı fərqlə əlaqədardır.

Bir binada həm özəl, həm də dövlət mülkiyyətli mənzil varsa, bu zaman özəl evin sahibi nə etməlidir? Məsələ ilə bağlı hüquqşünas Roman Qaraşov qeyd edir ki, özəl mülkiyyət sahibi əgər özü istəyərsə, mənzil istismar sahəsi ilə müqavilə bağlayıb, onun hansı bir xidmətindən ödənişli yolla istifadə edə bilər. Əks halda, onlardan ödəniş tələb olunması qanunsuzdur.

Buradan aydın olur ki, mənzil-istismar sahələrinin indiyə qədər həyata keçirdiyi səlahiyyətlərin bir qismi artıq bələdiyyələrə məxsusdur. Əmlak özəlləşdirildiyindən, vətəndaşlardan "ev pulu" adı altında əlavə ödəniş tələb edilməsi qanunsuzdur, çünki vergilər bələdiyyələrə ödənilir.

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Mənzil-kommunal təsərrüfatı sistemində struktur islahatlarının aparılması zamanın tələbidir. Bu barədə illərdir ki, müzakirələr aparılır, Mənzil-Kommunal İstismar Sahələrinin (MKİS) ləğvi və onun səlahiyyətlərinin bələdiyyələrə verilməsinin zəruriliyindən danışılır. Amma nəticə nəzərə çarpmır. Bəzi mütəxəssislərin fikrincə, belə durğunluq bələdiyyələrin bu sistemi idarə edə bilməyəcəyinə əminliyin olmaması ilə bağlıdır. Lakin bunun əksinə olan fikirlər də var. Məsələn, bildirilir ki, MKİS ləğv edildiyi təqdirdə, bələdiyyələr MKİS-in üzərinə düşən işləri görmək iqtidarındadır.

Bu gün perspektivdə bələdiyyələrin səmərəli fəaliyyətinə böyük ümid bəslənilir. Buna görə də bu qurumun tam formalaşması, maliyyə baxımından güclənməsi üçün müəyyən yerli əhəmiyyətli sosial-iqtisadi layihələrin onlara həvalə edilməsi məqsədəuyğundur.

Bələdiyyələr yerli özünüidarəetmənin əsasıdır. Onlar ərazi inkişafını təmin etməli, sosial proqramları həyata keçirməli və vətəndaş tələbatını ödəməlidir. Lakin bu gün bələdiyyələrin maliyyə baxımından gücsüzlüyü səbəbindən onlar üzərinə düşən vəzifəni çətinliklə yerinə yetirir. Ona görə də, ilk növbədə, maliyyə mənbələrinin məhdudluğu aradan qaldırılmalıdır. Onların büdcəsi əsasən torpaq və əmlak vergisi ilə formalaşır. Belə halda bələdiyyə büdcəsinin maliyyələşmə sahələrinin əhatə dairəsi genişləndirilməlidir.

Bundan başqa, etiraf edək ki, bələdiyyələrdə səlahiyyət çatışmazlığı ciddi nəzərə çarpır, mərkəzi icra hakimiyyətinin bəzi funksiyaları ilə eyniliyi bir sıra hallarda, belə demək mümkünsə, toqquşmalara gətirib çıxarır.

Beləliklə, bələdiyyələrin potensialı yüksək olsa da, resursları və səlahiyyətləri məhduddur. Onlar nümunəvi quruma çevrilmək üçün, ilk növbədə, vurğulandığı kimi, həm maliyyə, həm də idarəçilik baxımından dəstəklənməlidir.

Dövlət mülkiyyəti ilə əmlak özəlləşdirilməsi arasındakı fərqə gəldikdə isə qeyd edilir ki, sovet dövründə dövlət mənzilləri tikib vətəndaşlara verirdi, buna görə də mənzil-kommunal sahələri fəaliyyət göstərirdi. Mənzillər özəlləşdirildikdən sonra isə vəziyyət dəyişib və vətəndaşların əmlakına sahibliyi onun maliyyə məsuliyyətini də əhatə edir.

## Mövcud problemlər həllini gözləyir

Bələdiyyələrin fəaliyyətində bir sıra digər problemlər də nəzərə çarpır. Ən diqqətçəkən çətinliklərdən biri maliyyə resurslarının məhdudluğudur. Yerli vergi bazasının zəifliyi, gəlir mənbələrinin azlığı və bələdiyyələrin özəl sektorla əməkdaşlıq imkanlarının məhdud olması onların iqtisadi müstəqilliyini məhdudlaşdırır. Nəticədə bələdiyyələr çox vaxt yalnız formal fəaliyyətlə kifayətlənir və sosial layihələrin icrasında passiv mövqe tutur.

Digər mühüm məsələ inzibati səlahiyyətlərin məhdudluğudur. Mövcud qanunvericilik bələdiyyələrin səlahiyyətlərini əsasən yerli əhəmiyyətli məsələlərlə – torpaq idarəçiliyi, abadlıq, sosial yardım və kommunal xidmətlər sahəsi ilə məhdudlaşdırır. Lakin bu səlahiyyətlərin həyata keçirilməsi üçün bəzən yerli icra hakimiyyəti orqanlarının razılığı tələb olunur ki, bu da bələdiyyə müstəqilliyinin praktik icrasını çətinləşdirir.

Kadr potensialı da bələdiyyələrin səmərəli fəaliyyətinə təsir edən əsas amillərdəndir. Bir çox bələdiyyələrdə peşəkar idarəetmə, maliyyə planlaşdırması və layihə idarəçiliyi bacarıqlarına malik mütəxəssislərin azlığı özünü büruzə verir. Bu sahədə dövlət dəstəyi olsa da, bələdiyyə təlim proqramlarının institusional xarakter alması hələ də zəruridir. Bununla yanaşı, ictimai nəzarətin zəifliyi, vətəndaşların bələdiyyə iclaslarında iştirakının az olması və hesabatlılıq mexanizmlərinin tam formalaşmaması da mövcud problemlərdəndir. İctimai iştirakçılığın zəif olması bələdiyyələrin fəaliyyətinə olan etimadı azaldır və qərarların şəffaflığını məhdudlaşdırır.

Bütün bu qeyd edilənləri yekunlaşdırıb deyə bilərik ki, sözügedən qurumun fəaliyyətinin nizamlanması istiqamətində aşağıdakı layihələr:

**– "JEK"lərin mərhələli şəkildə özəlləşdirilməsi və səlahiyyətlərinin bələdiyyələrin idarəetməsinə verilməsi;**

**– mülkiyyətçi icmaları modelinin tətbiqinin genişləndirilməsi, dövlətin bu sahədə yalnız nəzarət funksiyasının saxlanılması;**

**– bələdiyyələrin müstəqilliyinin artırılması;**

**– bələdiyyələrin yerli vergi bazasının genişləndirilməsi, kənd və qəsəbə səviyyəsində layihələrin maliyyələşməsi üçün dövlət-bələdiyyə tərəfdaşlığı mexanizminin yaradılması;**

**– elektron idarəetmənin tətbiqinin – "E-bələdiyyə" və "E-kommunal xidmətlər" platformaları vasitəsilə şəffaflığın gerçəkləşdirilməsi, vətəndaş müraciətlərinin onlayn qaydada izlənilməsi;**

**– bələdiyyə sistemində çalışan kadrların idarəçilik mədəniyyətinin yüksəldilməsi məqsədilə davamlı tədris proqramlarının təşkil olunması həyata keçirilməlidir.**

Bu gün Azərbaycanda yerli idarəetmənin səmərəliliyi inzibati, eləcə də sosial ədalət və vətəndaş məmnuniyyəti məsələsidir. "JEK"lərin köhnə modeldən yeni, bazaryönümlü sistemə keçidi, bələdiyyələrin isə real səlahiyyət və resurslarla təmin olunması gələcəkdə yerli demokratiyanın və sosial rifahın əsas sütunlarından birinə çevrilə bilər. Beləliklə, yerli səviyyədə idarəetmənin modernləşdirilməsi dövlətin ümumi inkişaf strategiyası ilə bir xətdə dayanmalıdır. Belə halda mərkəzdən güc alan, lakin yerində məsuliyyət daşıyan idarəçilik modeli müasir Azərbaycan cəmiyyətinin tələblərinə daha çox cavab verə bilər.

Bütün bunlar deməyə əsas verir ki, bələdiyyələr yerli icmaların səsi və dövlət idarəçiliyinin sosial dayağıdır. Onların güclü olması həm demokratik cəmiyyətin inkişafı, həm də dayanıqlı iqtisadi artımın təminatı baxımından əhəmiyyətlidir. Azərbaycan Respublikasında həyata keçirilən islahatlar da bu istiqamətdə atılan mühüm addımlardır. Lakin beynəlxalq təcrübənin sistemli şəkildə öyrənilməsi və milli xüsusiyyətlərə uyğun tətbiqi bələdiyyə institutunun daha da möhkəmlənməsini təmin edə bilər.



## Xarici təcrübə necə öyrənilir?

Bələdiyyə idarəçiliyi sahəsində beynəlxalq təcrübə göstərir ki, yerli özünüidarəetmə institutlarının səmərəli fəaliyyəti üçün əsas amillər maliyyə müstəqilliyi, qərar qəbulunda şəffaflıq, ictimai nəzarət və kadr potensialıdır.

Avropa Şurasının "Yerli Özünüidarəetmə Xartiyası" bu sahədə əsaslı sənəd sayılır. Azərbaycan 2002-ci ildə bu Xartiyanı ratifikasiya edib. Sənəddə göstərildiyi kimi, yerli orqanlar öz səlahiyyətlərini "qanunla müəyyən olunmuş sərhədlər daxilində, müstəqil şəkildə" həyata keçirməlidirlər. Bu prinsip bələdiyyələrin dövlət idarəetməsinin tərkib hissəsi deyil, vətəndaş cəmiyyətinin institutu kimi fəaliyyət göstərməsini gerçəkləşdirir. Türkiyə təcrübəsi göstərir ki, yerli özünüidarəetmənin gücləndirilməsi üçün bələdiyyələrə geniş iqtisadi səlahiyyətlər və layihə maliyyələşdirmə imkanları verilməlidir. Böyük şəhərlərdəki "bölgə bələdiyyələri" modeli Azərbaycanda şəhərətrafı zonaların inkişafı üçün nümunə ola bilər.

Fransa və Almaniyada bələdiyyələrin rolu xüsusilə sosial xidmətlər, təhsil, nəqliyyat və ekoloji siyasət sahəsində mühüm önəm daşıyır. Onların büdcə gəlirlərinin əsas hissəsi yerli vergilərdən və icmaların iqtisadi fəaliyyətindən formalaşır. Bu, maliyyə muxtariyyətini artırmaqla, yerli təşəbbüslərin reallaşmasına şərait yaradır.

Polşa və Skandinaviya ölkələrində bələdiyyələr həm iqtisadi, həm də sosial inkişafın əsas lokomotivlərindən biri hesab olunur. Onlar həm sahibkarlığın təşviqində, həm də yerli məşğulluğun artırılmasında fəal rol oynayırlar. Bu ölkələrdə "şəffaf bələdiyyə" platformaları vasitəsilə bütün qərarlar, tenderlər və maliyyə hesabatları ictimaiyyət üçün açıqdır.

Bu təcrübələr göstərir ki, bələdiyyələrin uğurlu fəaliyyəti üçün əsas şərtlərdən biri maliyyə müstəqilliyi və ictimai etimaddır. Azərbaycan üçün də bu istiqamətlərdə islahatların dərinləşdirilməsi vacibdir.

***Vaqif BİNYATOĞLU***
***XQ***

*Türkün şanlı tarixi*

# Qızıl Orda – Şimal türklərinin qızıl dövrü

**Qızıl Orda dövlətçiliyinin orta əsrlər imperiyası kimi formalaşmasının mühüm səciyyəvi cəhəti ondan ibarət idi ki, öz mədəni-tarixi ənənələrinə malik müxtəlif xalqları birləşdirərək nadir sivilizasiya yarada bilmişdi. Qızıl Ordanın rəsmi dininə çevrilən İslam orta əsr türk-tatar mədəniyyətinə öz gözəlliyini və üslub xüsusiyyətlərini də gətirmiş, Qızıl Orda dövründə türk-islam mədəniyyəti öz yüksəliş dövrünə çatmışdı.**


Qızıl Ordanın bayrağı

Özbək xan İslamı dövlət dini kimi qəbul etdikdən sonra Qızıl Orda qlobal İslam mədəniyyətinə inteqrasiya edir, Türküstandan, xüsusilə Buxara və Xarəzmdən gələn alimlər Qızıl Ordada yaşayan xalqlara İslamın təbliği, elm və mədəniyyətin inkişafı sahəsində təsir göstərməyə başlayır. Məhz bunun nəticəsi idi ki, o dövrdə Qızıl Orda dövlətində məscidlər, mədrəsələr, məktəblər, xanəgahlar, monastırlar və nadir məqbərələr inşa edilirdi.

1230-1240-cı illərdə Bulqar şəhərində inşa olunan məscid Qızıl Orda şəhərlərində tikilən məbədlərin ən məşhuru idi. 1314-cü ildə Özbək xanın əmri ilə tikilən məscid və 1288-ci ildə Misir Məmlük Sultanının vəsaiti ilə onun adına inşa edilən “Baybars məscidi” gözəl memarlıq abidəsi kimi tarixə düşüb.

Mədrəsələrdə fəqihlər, ruhani məsləhətçilər və ilahiyyatçılar yetişdirilirdi. Mədrəsə, xanəgah və zəviyyələrin tikintisi çox vaxt hökmdarlar, yüksəkvəzifəli şəxslər və zadəganlar tərəfindən maliyyələşdirilirdi.

Xanəgahlar sufi ayinlərini yerinə yetirmək üçün istifadə edilir, zəviyyələr həm də dərvişlərin və Həcc ziyarətinə gedən zəvvarların sığınacaq yeri idi. Burada zəvvarlar və səyahətçilərə pulsuz yemək də verilirdi.

Mədrəsələrdə həm də dünyəvi elmlər tədris edilirdi, burada kitabxanalar vardı və alimlər bu məkanda biliklərini təkmilləşdirirdilər. Özbək xanın dövründə Qızıl Orda güclü inkişaf yolu tutur. Xan sarayına təkcə ilahiyyatçılar və hüquqşünaslar deyil, riyaziyyat və astronomiya sahələrində çalışan alimlər də dəvət olunurdular.

Qızıl Orda dövrünün lap əvvəlində Mahmud Krımlı “Yusif və Züleyxa” poemasını, Özbək xanın dövründə Əbuəl-Müzəffər Qiyasəddin Tukluk Teymur bəy riyaziyyatla bağlı kitab yazmışdı.

Rəbquzinin 1310-cu ildə yerli monqol bəyi Nəsrəddin Tokbuğ üçün tərtib etdiyi “Kyisəs əl-ənbiya” (“Peyğəmbərlər tarixi”) əsəri, həmçinin Məhəmməd Xarəzminin 1353-cü ildə Məhəmməd Xocabəyə həsr etdiyi “Mühəbbətnamə” kitabı, Qütb Xarəzminin böyük Azərbaycan şairi Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasından ilhamlanaraq 1341-1342-ci illərdə yazdığı "Xosrov və Şirin" poeması, Həştərxan şairi Şərif Hacı Tərxaninin 1550-ci ildə qələmə aldığı “Zəfərnamə-i Vilayət-i Qazan” (“Qazan dövlətinin qələbəsi haqqında esse”) kitabı o dövrün məşhur əsərləri sırasındadır.


Berke sikkələri, Krım sikkəxanası, 662-665-ci illər

## Qızıl Orda necə yarandı?

Qızıl Orda Çingiz Xanın nəvəsi Cucinin oğlu Batı xan tərəfindən yaradılan türk-monqol dövlətidir. Yarandığı gündən, yəni 1207-ci ildən 1269-cu ilədək Monqol imperiyasının tərkibində olub.

Batı xan 1236-1255-ci illərdə Şimali Qafqaz, Xarəzm, Sibirin bir hissəsini, eləcə də Krım və Qıpçaq çöllərini işğal edərək Qızıl Orda dövlətinin əsasını qoyub. Rus mənbələrində bu dövlət Qızıl Orda, Şərq qaynaqlarında Cuci ulusu, Dəsti-Qıpçaq və ya "Göy Orda" adı ilə tanınıb. Mənbələrdə göstərilir ki, Batı xan qızıl saplardan hazırlanan çadırlardan istifadə etdiyindən dövlətin adı Qızıl Orda adlanıb. Batı xandan sonra dövlətin güclü hökmdarlarından biri olan Özbək xan da qızıl çadırlarda oturub.

Qızıl Orda dövləti yüksəliş dövründə qərbdə Dunay çayından Fin körfəzinə, şərqdə İrtış hövzəsindən Ob çayının aşağı axınına, cənubda Qara dəniz, Xəzər dənizi, Aral dənizi və Balxaş gölünə, şimalda Novqorod torpaqlarınadək əraziləri əhatə edib.

Qızıl Orda dövlətinin paytaxtı əvvəl indiki Həştərxanın yaxınlığında, Volqa (İtil) çayının sahilində, mənzərəli bir məkanda salınan Saray Batu, XIV əsrin ortalarından etibarən isə indiki Volqoqrad şəhəri yaxınlığında salınan Saray Bərkə şəhəri olub. Dövlətin dilləri monqol dili, qədim qıpçaq dili, qədim tatar dili, uyğur dili, rəsmi dili cığatay türkcəsi, dini Şamanizm, Tanrıçılıq, Buddizm (1243-1313), İslam, Hənəfi məzhəbi (1313-1502), ərazisi təxminən 6.000.000 km² olub.

## Qızıl Ordanın dövlət quruluşu

Dövlətin başında Xan dayanıb, dövləti Xan evi, yəni Xan, oğlanları və digər ailə üzvləri idarə edib. Xanın yanında ali məşvərətçi orqan olan Qurultay fəaliyyət göstərib. Xan evindən başqa dövlətin idarə olunmasında varlı adamlar və bəylər (noyonlar) da iştirak ediblər. Qızıl Orda xanlarının rəsmi fərmanları türk dilində yazılıb.

Hərbi işləri bəylərbəyi idarə edib, qoşunun əsas hissəsini türk tayfalarından ibarət hissələr təşkil edib. Digər işlərlə isə vəzirlər məşğul olub, vergi yığan şəxslər baskak adı daşıyıb.

Bulqar dövlətindən və rus knyazlıqlarından Türküstana və Monqolustana gedən yol İtil çayının cənub hissəsindən keçdiyindən, digər tərəfdən bu ərazilərdə əkinçilik, maldarlıq və qoyunçuluq üçün münbit şərait olduğundan saray Batu şəhərinin əhəmiyyəti daha cəlbedici idi.

Rus knyazlıqları coğrafi cəhətdən Qızıl Ordaya daxil olmasalar da, bu dövlətin vassalı idilər və ona bac (töycü) ödəyirdilər. Bu da məlumdur ki, Rus knyazlıqları XII əsrdən XV əsrədək Monqol-tatarların, XV əsrdən XVII əsrədək təxminən 250 il Krım xanlarının vassalı olublar. Ümumiyyətlə, rus knyazlıqları 500 ildən artıq monqol-tatarlara, Qızıl Ordaya və Krım xanlarına bac ödəyiblər. Aleksandr Nevskinin Krım xanlarının, İvan Qroznının Qızıl Orda dövlətinin qarşısında baş əyməsi, bac ödəməsi tarixi faktlardır.

Rus tarixçi, tarix elmləri namizədi Vadim Rudakov Rusiya telekanallarından birində yayımlanan proqramda deyib ki, XI-XVI əsrlər rus aristokratiyası türk dilində danışıb. Bu, onların yüksək təbəqəyə aid olduqlarının göstəricisi sayılıb. O dövrdə bu dili tatar dili adlandırsalar da, əslində türk dili idi.

O bildirib ki, hətta hər kəsə çox yaxşı tanış olan Monomax papağı da araxçının bir neçə dəfə şəklini dəyişməsi ilə yaranıb. Alim türk dilinin qədimliyi barədə qeyd edib ki, Qızıl Orda və ondan əvvəlki dövrlərdə rus aristokratiyası türk dilinin qıpçaq ləhcəsində danışıb.

O deyib: “Monqol imperiyasının dili də türk dili olub. Öz dövründə bu dövlət ən qüdrətli və zəngin dövlət kimi tanınıb. Bu dili Rusiyada qıpçaq dili kimi tanıyırlar”.

## Bərkə xan və nəvələrinin hakimiyyəti

Batı xan vəfat etdikdən sonra hakimiyyətə qardaşı Bərkə xan keçir və dövləti 1257-ci ildən 1266-cı ilədək tam doqquz il idarə edir. Bu vaxt Monqol dövlətində daxili çəkişmələr güclənmişdi və Bərkə xan bundan istifadə edərək dövlətin müstəqilliyinin daha da möhkəmlənməsi istiqamətində addımlar atır, Qafqaz uğrunda gedən döyüşlərdə digər monqol dövləti olan Hülakülərlə toqquşur. Bərkə xan 1265-ci ildə qardaşı oğlu Noqayın komandanlığı altında 20 minlik ordunu Bizans üzərinə göndərir və döyüşlərdə bizanslılar məğlub olub Bulqar torpaqlarından çıxırlar.

Bərkə xandan sonra hakimiyyətə növbə ilə Batı xanın nəvələri Məngi Teymur, Tuta Məngü və Teleboğa gəlib. Bununla belə, hakimiyyəti dövlətdə və ordu içərisində böyük nüfuzu olan Noqay xan idarə edib. 1291-ci ildə hakimiyyətə Toxta xan çıxıb və doqquz il çəkən mübarizədən sonra 1300-cü ildə Noqay xana qalib gəlib və onun öldürülməsini əmr edib. Bundan sonra Aşağı İdil, Yayik (Ural) və Əmbə çayları ətrafında yaşayan tayfalar Noqay xana tabe olub və noqaylar adlanıb.



Qızıl Ordanın ərazisi


Xan Batı Qızıl Ordanı qurarkən

## Özbək xan - Qızıl Ordanın qızıl dövrü

1313-cü ildə hakimiyyətə gələn Özbək xan 1342-ci ilədək tam 30 ilə yaxın taxtda oturur, buna qədər olan daxili çəkişmə və qarşıdurmalara son qoyur. Özbək xan hakimiyyətə gəldikdən sonra İslam dinini qəbul edir, İslam dini dövlətin əsas dini elan olunur, bu da dövlətin türkləşməsini daha da inkişaf etdirir. Özbək xanın dövründə bir sıra torpaqlar, o cümlədən Azərbaycan işğal olunur, rus knyazlarından alınan vergi sistemində dəyişiklik edilir. Özbək xanın və oğlu Canı xanın dövründə (1342-1357) dövlət hərbi sahədə güclü inkişaf etsə də, Canı xan öldürüldükdən sonra yenidən daxili çəkişmələr başlayır. Bunun nəticəsi idi ki, 1357-ci ildən 1380-ci ilədək Qızıl Orda dövlətində 25-dən çox xan dəyişib.


Qızıl Ordanın gerbi

XIV əsrin 60-cı illərində Xarəzm müstəqil xanlığa çevrilir, Həştərxan Qızıl Ordadan ayırılır, Polşa və Litva Qızıl Ordanın Dneprboyu torpaqlarını işğal edir. Bundan istifadə edən rus knyazları Dmitri Donskoyun başçılığı ilə öz qüvvələrini birləşdirir və 1380-ci ildə Kulikovo döyüşündə Qızıl Orda xanı Mamayı məğlub edir. Bundan sonra 1380-ci ildə Toxtamış xan hakimiyyətə gəlir, 1395-ci ilədək mərkəzi hakimiyyəti gücləndirir. 1382-ci ildə Toxtamış Moskvanı tutaraq yandırır, sonra isə Əmir Teymura qarşı mübarizəyə başlayır. Türk dünyasının bu iki məşhur sərkərdəsi arasında baş verən qanlı müharibə 1395-ci ildə Terek döyüşündə Toxtamışın ağır məğlubiyyəti ilə başa çatır.

## Moskva 9 əsrdə 4 dəfə yandırılıb

Moskvaya 1571-ci ildə Krım xanı Devlet I Gəray od vurub. Bu yanğın tarixə ən böyük yanğın kimi düşüb. Belə ki, əsən külək yanğını ətrafa yayıb. Sonra Toxtamış bu şəhərdə tonqal qalayıb. Bir dəfə isə Polşa–Litva qoşunları Moskvanın cızdağını çıxarıb. Moskvanı sonuncu dəfə imperator Napoleon Bonapart (1804-1814) yandırıb.

1480-ci ildə Qızıl Orda xanı Əhməd xan Moskva knyazlığı üzərinə sonuncu dəfə uğursuz yürüş edir. Əhməd xanın «Uqra görüşü»ndə uğursuzluğu Rusiyanın Qızıl Ordadan vassal asılılığına son qoyur. Soyuqların düşməsi və əlverişli məqamın əldən getməsi Əhməd xanın geri qayıtmasına səbəb olur və Əhməd xan noqaylar tərəfindən öldürülür.

Bundan sonra Qızıl Orda dövləti bir daha özünə gələ bilmir, dövlətdə çoxsaylı xalq və millətlərin yaşaması hakimiyyət uğrunda münaqişələrə gətirib çıxarır. Onu demək kifayətdir ki, 1361-ci ildə hakimiyyət uğrunda münaqişədə 6 xan dəyişib. 1362-ci ildə isə Qızıl Orda iki yerə bölünüb. Əmir Teymurun ordusuna məğlubiyyət, həmçinin rus knyazlarının yürüşləri Qızıl Ordanın dayaqlarını xeyli zəiflədib.

## Qızıl Ordada ticarət

Qızıl Orda dövləti Böyük İpək Yolu üzərində yerləşdiyindən buraya Qafqazdan, Misirdən, Hindistandan, Qərbi Avropa ölkələrindən tacirlər gəlirdilər. XIII əsr və XIV əsrin birinci yarsında bu dövlətdə karvan yolları və ticarət güclü inkişaf etmişdi. Belə ki, Qızıl Orda hakimləri vergi aldıqlarına görə ticarətin inkişafına dəstək verirdilər.

Məşhur florensiyalı maliyyəçi, Bardi ticarət evinin agenti Françesko Balduçi Peqolotti 1338-1342-ci illərdə yazdığı məşhur “La Pratica della Mercatura” kitabında bununla bağlı deyib: "Tandan Çinə gedən yol tacirlərin sözlərinə inansaq, səhər və gecə tam təhlükəsiz olub, işdir tacir yolda ölərsə onun malı və var-dövləti öldüyü torpağın məmuruna qalır. Amma əgər həmin yerdə ölənin yaxın dostu və ya qardaşı olarsa və ya kimsə ölənin qardaşı olduğunu təsdiq edərsə, bütün mallar ona verilir".

İlk dəfə 1765-1766-cı illərdə nəşr olunan bu kitab XIV əsr Qərbi Avropa və Qara dəniz ölkələrinin iqtisadiyyatı üçün mühüm mənbə olub. Peqolottinin məlumatlarından Qızıl Orda ilə bağlı ümumi əsərlərdə də istifadə edilib və kitab Qızıl Orda dövlətinin pul və çəki sistemi ilə bağlı qiymətli mənbədir.

O dövrdə Qızıl Orda tacirləri əsasən mal-qara və at ticarəti ilə məşğul idilər. Ərəb səyyahı İbn-Batut at ticarəti ilə bağlı bu sözləri yazıb: "Bu diyarda–Dəşt-i-Qıpcaqda atlar həddindən artıq çoxdur. Əla atların qiyməti 50,60 dirhəmdir, yəni bizim 1 dinar".

## Monqol imperiyası dövrü

Cuci, Çingiz xanın böyük oğlu, 1207-1227

Batı, Cuci xanın ikinci oğlu, 1227-1255

Sartak, Batı xanın oğlu, 1255-1256

Ulaqçı, Sartakın oğlu, 1256-1257

Berke, Cucinin oğlu, 1257-1266

Məngu Teymur, Batı nəslindən, 1266-1269

1269-cu ildən Qızıl Orda hökmdarı Məngu Teymur ilə monqol xanı arasında bir çox məsələlərdə fikir ayrılığı və ən əsası müstəqil olmaq arzusu Qızıl Ordanı suveren dövlətə çevirib və bütün məsələlərdə müstəqil siyasət həyata keçirilib.

## Müstəqil Qızıl Ordanın hökmdarları

Məngu Teymur xan, Batı nəslindən, 1269-1282

Tuda Məngu xan, Batı nəslindən, 1282-1287

Tele Boğa xan, 1287-1291

Toxta xan, Batı nəslindən, 1291-1312

Özbək xan, Batı nəslindən, 1312-1341

Tanibəy xan, Batı nəslindən, 1341-1342

Canibəy xan, Batı nəslindən, 1242-1257

Berdibəy xan, Batı nəslindən, 1257-1259

Kulpa xan, avqust 1359-yanvar 1360

Novruz xan, yanvar 1360-iyun 1360

Xızır xan, Orda Ejen nəslindən, iyun 1360-avqust 1361

Teymur Xoca xan, Orda Ejen nəslindən, avqust 1361-sentyabr 1361

Ordu Məlik xan, Tuka Teymur nəslindən, sentyabr1361-oktyabr 1361

Gəldibəy xan, oktyabr 1361-sentyabr 1362

Murad xan, Orda Ejen nəslindən, sentyabr 1362-payız 1364

Mir Polad xan, Şiban nəslindən, payız 1364-sentyabr 1365

Əziz Şeyx xan, sentyabr 1365-1367

Abdulla xan, Batı nəslindən, 1367-1368, 1369-1370

Həsən xan, 1368-1369

Məhəmməd Bulaq xan, 1370-1372, 1375-ci ilin əvvəli-iyun 1375, iyul 1375-dekabr 1375

Urus xan, 1372-1374, iyun 1375-iyul-1375

Çərkəz xan, 1374-1375

Kaqan bəy (Aybek xan), 1375-1377

Ərəbşah xan (Karı xan), 1377-1380

Toxtamış xan1380-1395

Teymur Qutluq xan, 1395-1399

Şadıbəy xan, 1399-1407

Polad xan, 1407-1411

Teymur xan, 1411-1412

Cəlaləddin xan, 1412-1413

Kərimberdi xan, 1413-1414

Kəpək xan, 1414-1414

Çokrə xan, 1414-1416

Cabbar Berdi xan, 1416-1417

Dərviş xan, 1417-1419

Kadır Berdi xan, 1419-1419

Hacı Məhəmməd xan, 1419-1419

Ulu Məhəmməd xan, 1419-1423, 1426-1427, 1428-1428, 1428-1432

Barak xan, 1423-1426, 1427-1428

Kiçi Məhəmməd xan, 1428-1428, 1432-1459.

## Qızıl Orda dövlətinin bəylərbəyləri

Noqay, Cucinin nəticəsi, 1256-1267, 12801300

İksar (İlbasar) 1300-1309

Teymur Qutluq, 1310-1321

Mamay, 1357-1359, 1363-1364, 1367-1369, 1370-1372, 1377-1380

Edigey bəy, 1395-1419

Mansur bəy, 1419

Novruz bəy

1419-cu ildə Qızıl Orda dövləti faktiki olaraq süqut edib, həmin il dörd hökmdar Qızıl Orda dövlətinin taxtında oturub - Dərviş xan (1417-1419), Kadır Berdi xan (1419-1419), Hacı Məhəmməd xan (1419-1419) və Ulu Məhəmməd xan (1419-1423, 1426-1427, 1428-1428, 1428-1432). Bununla belə, Barak xan (1423-1426, 1427-1428) və Kiçi Məhəmməd xan 1428-1428, 1432-1459-ci illərdə Qızıl Orda dövlətini saxlamağa cəhd ediblər.

## Qızıl Orda 10 xanlığa parçalanır

*XV əsrin 20-ci illərindən başlayaraq Qızıl Orda parçalanır, dövlətin ərazisində Böyük Orda xanlığı, Krım xanlığı və ya Krım Yurdu, Qazax xanlığı, Özbək xanlığı yaranır. Orta Volqaboyu Qızıl Ordadan ayrılır və Qazan xanlığı təşkil edilir. Volqa çayının aşağı tərəflərində Həştərxan xanlığı meydana gəlir. Volqanın aşağı axarlarından İrtış çayına qədər ərazidə Noqay Ordası, Qərbi Sibir ərazilərində Sibir xanlığı, Moskva yaxınlığında Qasım xanlığı yaranır (Bu xanlıqlar haqqında gələn nömrələrimizdə ayrıca materiallar veriləcək).*

Son olaraq onu da deyək ki, Qızıl Ordada İslam hüququ geniş inkişaf etmişdi, belə ki, təkcə macar torpağında yetmiş fəqih yaşayıb. Bu dövlətin coğrafiyaşünasları da var idi ki, onların ən məşhuru Numan bin Dövlətşah olub.

1354-cü ildə Gülüstanda Kamaləddin ət-Türkmanın yazdığı astronomik traktat Ömər əl-Çaqminin əsərinin şərhi haqqında idi.

Qızıl Ordanın yerli əhalisi içərisindən Mahmud əl-Bulqari, Rəbquzi, Seyf Sarai, Hisam Kyatib kimi çoxlu mütəfəkkir, alim, yazıçı və şair yetişmişdi.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

***Daşkənd***

# Payıza bürünmüş həzin misralar...

**Təbiəti qızılı donuna bürüyən, barı-bəhəri, toyu-nişanı bol olan, hər kəsi kövrək duyğulara kökləyən payız şairlərin çoxunun sevimli fəslidir. Az qələm sahibi tapılar ki, bu "sarı sim"ə toxunmaya. Çünki sərgərdan xəzəllər onların çiyinlərə qonub, ömrün daha bir baharının arxada qaldığına işarə vurur. Durna qatarları uçub gedir, xatirələr cığırı adamın əlindən tutub uzaqlara aparır. Payız poeziyada bir növ canlı obraza çevrilir. Elə "payız" və "poeziya" sözləri də sanki bir kökdən su içib. Oxuculara təqdim etdiyimiz bu ədəbiyyat səhifəsində əsasən payız duyğulu şeir nümunələrini ipə-sapa düzmüşük.**



## ...İsidir qarğalar qanadlarını

Qarğanı görəsən yer şumlananda –
Elə bil, torpağın altından çıxıb.
Elə mehribandır traktorçuya
Deməzsən bu saat təmsildən çıxıb.

Əl-ayaq çəkilib... bir şüar qalıb:
"Torpağa düşməsin havayı bir dən".
Qolları boşalıb qoruqçunun da –
Qarğa yumurtlayır cibinə bəzən.

Bəlkə də, hiss edib qarşıdan gələn
Qışın soyuğunu, qışın qarını,
Qara tüstüsündə traktorların
İsidir qarğalar qanadlarını.

*Akif ƏHMƏDGİL*



## Ömür – islanmış kağız

Hər gün ürəyimdən durnalar uçur,
Mənim də canımda payızmış, demə.
Məni bu dünyanın yadına salan
Çoxdan unutduğum o qızmış, demə.

Bu yol hara belə köçünü çəkir?
Ölüm də kəfənin ucunu çəkir...
Baxdım ki, bir söyüd içini çəkir –
O da mənim kimi yalqızmış, demə...

Udduğum havanın içində dadın,
Qoy, yanım, – bir isin, üşüyən qadın.
Çərpələng düzəltdim, o da uçmadı –
Bu ömür islanmış kağızmış, demə...

*Əlizadə NURİ*



## Payız nağılı

Elə ki payız gəldi –
yenə soyuq, darıxmaq...
Yenə sözümə baxmır
bu ürək ey, bu "axmaq"...

Yarpaqlar veyillənir
tinində küçələrin.
Payız ömrü uzanır
bu qərib gecələrin.

Yavaş-yavaş çəkilir
arılar öz "evi"nə.
Payız "soğan doğrayır"
kəpənəyin kefinə.

Göydə köçəri quşlar
buludlarla yarışır –
yuyur göyün üzünü,
yuyur, payız yağışı.

Cığırlar mürgü döyür,
yol özünə sığınır.
Gedib qonaq-qarası,
kol özünə sığınır.

Sarı yarpaqdan geyib
böcəklər qış kürkünü.
Durnaların başlayıb
uzaqlara "sürgün"ü.

...Uzun payız gecəsi
təşnəsiyəm nələrin...
Boyunu oxşayıram
uzaq xatirələrin...

*Namiq DƏLİDAĞLI*



## Sən məni hamıdan yaxşı unutdun

Nə sevdin sevəntək, nə üz çevirdin,
Adi təsəlliydin, adi umuddun.
Mən səni hamıdan yaxşı sevirdim,
Sən məni hamıdan yaxşı unutdun.

Neyniyər dodağım şəkəri, qəndi,
Ürəyim payıza, bahara yatmaz.
Daha nə əllərim tumar çəkəndi,
Nə də ki, tellərim tumara yatmaz.

Nə sözün üstündən söz deyəsiyəm,
Nə də bacarmaram, nəyisə danam.
Ömrün sonunacan gözləyəsiyəm,
Məni tanıyırsan, həmin oğlanam.

Dünyanın yolları sevinc qarışıq,
Yolların dünyası müsibətiymiş.
Bir gün məhəbbətdən biz yaranmışıq,
Bizi öldürən də məhəbbətiymiş.

Nə sevdin sevəntək, nə üz çevirdin,
Adi təsəlliydin, adi umuddun.
Mən səni hamıdan yaxşı sevirdim,
Sən məni hamıdan yaxşı unutdun.

*Vasif SÜLEYMAN*

## Şair və payız

Bir az darıxmağa başladım yenə.
elə bil, ölümlə vaxtı didirəm.
Payızın ot basmış biçənəyində
dumanın altında bir yol gedirəm.
Səmti itirmişəm, azmışam, bəlkə,
gedirəm bəxtəbəxt payız içində.
Hayana getsəm də, fərqi nədi ki,
gəlib qovuşduğum payız köçündə
bu sarı yolların sonu bəllidi.
Payız hicranların ən sevimlisi,
payız həsrətlərin ən gözəlidi.



payız baxışların ən kədərlisi,
payız nəğmələrin ən yanıqlısı,
Payız - sevgilərin dəliqanlısı,
Payızı mən belə sevdim əzəldən!
...Nə qədər gözəlsiz, payız gülləri,
Mən sizə vuruldum hər vaxt təzədən
Qənirsiz, qədirsiz payız gülləri.
...Heç zaman yollardan yorulmadım ki,
Mən yollar keçmişəm saysız-hesabsız.
...Yenə bir-birinə qoşulub gedir
Dumanın altında Şair və Payız.

*Tofiq NURƏLİ*



## Yağış yağır, islanır ömrüm

Yağış yağır,
saatımın əqrəbləri vaxtı yox,
səni göstərir,
yağış yağır, islanır həsrətim,
gəlmirsən, gəlməyəcəksən də.

...bir mahnı oxuyuram sən haqda,
yağış yağır,
islanır səsim,
bilmirsən, bilməyəcəksən də.

yağış yağır,
islanır ömrüm,
qurumaz.
Günəşi səndə.

*Mətləb AĞA*



## Bizim evimizin damı damardı

Damı lığdan idi, suvağı gildən...
Palçıq evimizdə buxarı vardı.
Yağış başımıza döysə də, onda
Bizim ömrümüzün axarı vardı.

Torpaq divarına, döşəməsinə,
Anam əlləriylə mala verərdi.
Elə bil dünyanın dərdi-sərini
O kiçik daxmada yola verərdi.

Aradan nə qədər illər keçsə də,
Gözümdən çəkilmir o divar, o dam.
Payız yağışları başlayan kimi,
Fikir dəryasına dalardı atam.

Tutub gözləriylə dayandırardı,
Gah əsən küləyi, gah da yağışı.
Palçıq evimizin damı damardı,
Hər dəfə yağanda göyün qarğışı.



Atam namaz üstə dua edərdi,
Allaha çatmazdı yalvarışları.
Külək apardı dualarını,
Alıb gətirərdi yağışla qarı.

Elə ki, əlini üzərdi göydən,
Durub pəncərədən çölə baxardı.
Gözünün önündə evinin damı,
Yağış sularında batıb axardı.

Palçıq evimizin damı damardı,
Yığışıb yağışla dava edərdik.
Sonra bir sərçənin qanadlarında,
Allahın yanına uçub gedərdik.

Damı lığdan idi, suvağı gildən...
Palçıq evimizdə buxarı vardı.
Yağış başımıza döysə də, onda
Bizim ömrümüzün baharı vardı.

*Baloğlan CƏLİL*



## Güllənir

Ana necə döyər
Öz uşağını,
Yağış elə döyür
Dərəni, dağı.
Suçlu uşaq kimi
Kiriyib onlar
(Yaxşı ki, varmış
Qızıl qaydalar).
Nə dərə dillənir,
Nə dağ dillənir,
Ananın öyüdü dönür çiçəyə
Dərə də güllənir, dağ da güllənir...

*Zeynalabdin NOVRUZOĞLU*



## Çox da gileylənmə...

Çox da gileylənmə soyuq havadan,
Çox da gileylənmə çiskin yağışdan.
Sən orda bir qırıq üşüyən kimi
Mən burda donuram soyuq baxışdan.

Yağışdan qorunmaq nəmənə şeydi?
Dünyadan usanma, həyatdan doyma.
Başında sıxlaşan buludları qov,
İçində günəşi sönməyə qoyma.

Gözümdə, könlümdə tutiya kimi
Var mənim hər cürə havam, – deyirəm.
Bütün ağrıları, acılarıyla
Bu alçaq həyata davam deyirəm.

Dəyişkən havadan üzülmə çox da,
Dəyişkən adamlar qorxudur məni.
Nə qədər istəsən, günəş göndərim,
Sən yolla bu yana dumanı, çəni.

Yolüstü görüşün havalarımız,
Qaynayıb-qarışıb olsunlar birgə.
Günəşlə buludun qovuşmasından
Bizə də azacıq pay düşər bəlkə.

İstəsən ah çəkib yığım köksümə;
Deyirsən yağışlar yağır durmadan.
Gözümdə daşıyıb töküm Xəzərə,
Günəş gülümsəsin sizin səmadan.

Qəlbimi bir şeirə bükub yollayım,
Hər səhər bağçanda açan gül olsun.
Sizin havalar da, Nizami demiş,
Bərdə havasıtək mötədil olsun.

*Zəki Bayram YURDÇU*

## "Zaman durna köçüdür"

**Mərhum şairimiz Eldar Baxışın "Zaman durna köçüdür" adlı şeirlər kitabı çap olunub.**

Eldar Baxış böyük Vətən sevgisi, incə ruhu, eyni zamanda, qırmanc sözləri ilə tanınırdı. Bu misraları sanki özü üçün yazmışdı:

**Sünbülü qıçada qalar,**
**Buğdası puçada qalar,**
**Alması taxçada qalar,**
**qalar, saralmaz-saralmaz.**

Onun solub-saralmayan misraları bu gün də dillərdə gəzir. Əslində, az yaşadı (49 ildən də bir ay az), bütün duyğularını şeirə çevirə bilmədi. Amma şairlər ordusunun önündə layiqli yerini tuta bildi. Ondan 2 dəfə artıq yaşayan, cild-cild kitabların müəllifi olan qələm sahibləri var ki, Eldar Baxış səviyyəsinə qalxa bilməyiblər.




Onunla ilk görüşümüzdə çay süfrəsi arxasında xeyli söhbət eləmişdik və Eldar Baxışın milli ruhuna, imperiya buxovu ilə barışmazlığına heyran qalmışdım. Sonralar dövlət teleradio komitəsində birlikdə çalışdıq. Hamımız onun başına toplaşır, gərəkli söhbətlərinə "acgözlüklə" qulaq asırdıq. Milli azadlıq hərəkatının yenicə pərvəriş tapdığı bir vaxtda oxuduğu şeirlər çox tezliklə ağız ədəbiyyatımıza dönürdü: "O nədi yazmısan, Zori Balayan, Kür-Araz deyirsən – kəkələyirsən..." Qələminə güvənirdi, elinə, xalqına, tarixinə üz tuturdu Eldar Baxış.

**Ruhum uçub mənim, ruhum qovuşub**
**Avara, Xəzərə, Huna, Oğuza.**
**Qələmə demişəm dərdim olubsa,**
**Qələmim də açıb, deyib kağıza.**

İctimai-siyasi hadisələrə biganə qalmayan, sovet rejimini cəsarətlə qamçılayan şairin lirikası da güclü idi. Təkcə "Sərçə balası" şeirini bu gün də çoxsaylı qiraətçilər sevə-sevə təqdim etməkdən yorulmurlar.

**Elə eləmə ki, bu qız bu eldə,**
**Dilə-dişə düşsün məndən ötəri.**
**Sərçə balasıdı bu qız bu saat,**
**Boynunu uzadıb dəndən ötəri...**

"Gecənin bir aləmi" şeiri də sevgi duyğularından doyunca su içən nümunələrdəndir.

**Gecənin sümüyü sürmə olmuşdu,**
**Dişinə dəyirdi dişi gecənin.**
**Bütün qitələri bölüşdürmüşdük,**
**Biri bizim idi, beşi gecənin.**

Şairin təzə kitabı məni beləcə həzin xatirələrə daldırdı. 29 il əvvəl aramızdan gedən Eldar Baxışla aramızdakı zaman dumanını qaldırdı. Zamanın durna köçünə qoşulub getmiş şairin poetik dünyasına qovuşdurdu.

Kitab çıxan kimi birini özünə, birini də mənə alıb gətirən poeziyasevər həmkarım İlqar Həsənov bu müjdəni oxuculara çatdıracağıma əminliyini bildirdi. Söz verib, məmnuniyyətlə əməl elədim. Yeni topluda Eldar Baxışın indiyə qədər çap olunan kitablarından, arxivindən seçilmiş və vaxtilə dövri mətbuatda işığa çıxan şeirləri toplanıb. 8 bölmə və 472 səhifədən ibarət nəşrdə şairin taleyi, Vətən sevgisi, insanların saf məhəbbəti, müasirlərinin zəngin mənəvi dünyası, azadlıq ideallarının tərənnümü, eləcə də haqsızlığa qarşı barışmaz mövqeyi öz əksini tapır.

Tərtibçisinin şair İlham Qəhrəman olduğu yeni topluda Eldar Baxışın 197 (silsilə ilə bir yerdə 230-dan çox) şeiri və 5 poeması yer alıb. Kitabın Ön söz müəllifi mərhum ədəbiyyatşünas alim İradə Musayevadır.

İlham Qəhrəman deyir ki, Eldar Baxış yaradıcılığının şah damarı sevgidir. Orada hər kəsə – Allahdan tutmuş bəndəyəcən, hər şeyə – ağacdan otacan, güldən çiçəyəcən sevgi var. Elə bu yazını yazdıran da həmin böyük sevgidir.

*Səhifəni hazırladı:*
***Ə.DOSTƏLİ***
***XQ***

# Beynəlxalq Əmanət Günü: Əmanətlərin qorunması – sabit maliyyə sisteminin əsası

**31 oktyabr dünyada Beynəlxalq Əmanət Günü kimi qeyd olunur. Bu günün əsası 1924-cü ildə İtaliyanın Milan şəhərində keçirilmiş Beynəlxalq Əmanət Bankları Konqresində qoyulub. Məqsəd cəmiyyətdə qənaət mədəniyyətini formalaşdırmaq, vətəndaşları gələcəyi düşünərək yığım vərdişlərinə təşviq etmək və maliyyə sisteminə inamı möhkəmləndirmək olmuşdur. Əmanət Günü daha sonra Birləşmiş Millətlər Təşkilatı tərəfindən də tanınaraq rəsmi status almış, hazırda da iqtisadi sabitliyin və sosial rifahın təməl dəyərlərini xatırladan gün kimi qəbul və qeyd olunur.**




Müasir dünyada əmanətlərin sığortalanması mexanizmi maliyyə təhlükəsizliyinin mühüm dayağı sayılır. Əmanətlərin sığortalanması sistemi vətəndaşların vəsaitlərini risklərdən müdafiə etməklə yanaşı, bank sektoruna inamı artırır, dayanıqlı iqtisadi inkişafın əsasını qoyur. Beynəlxalq təcrübə göstərir ki, əmanətlərin sığortalandığı ölkələrdə maliyyə sisteminə etimad, investisiya fəallığı və yığım meyilləri daha yüksək olur.

Azərbaycanda bu istiqamətdə mühüm addım 2006-cı ildə "Əmanətlərin sığortalanması haqqında" Qanunun qəbul edilməsi ilə atılmışdır. Qanun vətəndaşların əmanətlərinin sığortalanması mexanizminin hüquqi əsaslarını təsbit etmiş, əmanət vəsaitlərinin təhlükəsizliyini təmin edən institusional baza formalaşdırmışdır. Bunun nəticəsində ölkəmizdə əmanətçilərin hüquqlarının müdafiəsi, bank sektorunda şəffaflıq və məsuliyyət prinsipləri daha da güclənmişdir.

Həmin qanuna əsasən yaradılmış Əmanətlərin Sığortalanması Fondu (ƏSF) bu sistemin səmərəli fəaliyyətinə təminat verir. Fondun əsas missiyası banklarda sığorta hadisəsi baş verdiyi halda əmanətçilərə kompensasiyaların qanunla müəyyənləşdirilmiş müddət ərzində ödənilməsidir. Bununla yanaşı, ƏSF maliyyə sabitliyinin qorunmasında, bank sisteminin etibarlılığının və dayanıqlığının artırılmasında mühüm rol oynayır.

Son illərdə Fond öz fəaliyyətini beynəlxalq təcrübəyə və rəqəmsal innovasiyalara uyğun şəkildə modernləşdirməkdədir. Kompensasiyaların mümkün ən qısa müddət ərzində ödənilməsinin, proseslərdə şəffaflığın və avtomatlaşdırmanın təmin olunması, məlumat mübadiləsinin rəqəmsal sistemlərə inteqrasiyası, eləcə də maliyyə savadlılığının artırılması layihələri ƏSF-nin fəaliyyətində keyfiyyətcə yeni mərhələ təşkil etmişdir. Bu tədbirlər əmanətçilərin məmnunluğunu artırmaqla ölkədə bank sisteminə olan etimadı daha da möhkəmləndirməkdədir.

*XQ*

# "Art Weekend" təqdim edir: "Şeh. Olmayan səhər" ekspozisiyası Şərq fəlsəfəsinin sükutuna işıq salır







**Oktyabrın 31-də "Bakıya Uçuş. İncəsənət Həftəsonu. Gələcəyi İNDİ DUY" (Fly to Baku. Art Weekend. Sense the Future NOW) layihəsi çərçivəsində qonaqların iştirakı ilə daha bir kurator turu İçərişəhərdə Şirvanşahlar Saray Kompleksində baş tutub.**

Burada "Art Weekend" layihəsinin daha bir sərgisi "Şeh. Olmayan səhər" ekspozisiyası təqdim edilir. Sərgidə rəssam Vüsalə Ağarəziyeva Şirvanşahlar Sarayını gecə ilə sübh arasındakı o incə, düşüncəli məqama çevrilən kontemplativ bir məkana bənzədir.

Heykəltaraşlıq instalyasiyaları, zərif video işləri və abstrakt rəsmlər vasitəsilə Vüsalə Ağarəziyeva şehin mahiyyətini – uzaqdan görünməyən, lakin yaxınlaşdıqca dərin dəyişdirici gücə malik olan, ötəri,



amma təsirli təbiətini əks etdirir. Sərgi yaddaş, varlıq və reallığı necə qavradığımızı formalaşdıran incə keçidlər üzərində düşünməyə çağırır.

Sərgidə instalyasiya, videoinstalyasiya və rəngkarlıq əsərləri bir-birini tamamlayaraq vahid fəlsəfi konsepsiya yaradır. Rəssamın bu dəfə metalla işləməsi isə diqqətçəkici yenilikdir. O, metalın sərtliyini və parlaqlığını "şeh"in həm soyuq, həm də mistik təbiəti ilə birləşdirərək yeni bir ifadə dili yaradıb. Onun əsərləri zərifliklə dərinliyi birləşdirir, uzaqdan görünməyən, lakin yaxınlaşdıqca izləyicini dəyişdirən bir güc daşıyır. Rəssamın yaradıcılığında keçicilik, dərinlik və səssiz enerjinin harmoniyası duyulur.

*XQ*

*Xuntaçıların məhkəməsi*

# Təqsirləndirilən ermənilərin istintaqı başa çatdı



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 31-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən Levon Mnatsakanyanın müdafiəçisi Oqtay Mədətov məhkəməyə müraciət edərək, fasilə zamanı müvəkkili ilə görüşmək istədiyini deyib.

Hakim fasilədə bunun üçün şərait yaradılacağını bildirib.

Sonra təqsirləndirilən David Manukyan vəsatət verərək ittiham olunduğu cinayətlərlə bağlı bəzi xüsusatlarla razılaşmadığını deyib. Təqsirləndirilən şəxs cinayətkar birliyin yaradılması ilə bağlı ittihamın cinayət işinin ona aid olan epizodlarından çıxarılmasını, habelə onun barəsində olan cinayət işinin ayrıca icraata ayrılmasını xahiş edib.

David Manukyanın müdafiəçisi təqsirləndirilənin vəsatətini müdafiə etdiyini söyləyib.

Vəsatətə münasibət bildirən dövlət ittihamçısı Fuad Musayev deyib ki, hazırda sübutların qiymətləndirilməsi mərhələsi deyil. Müdafiə tərəfinin qeyd etdiyi hal isə sübutların qiymətləndirilməsi mərhələsinə aiddir.

İttiham tərəfi qeyd olunan xüsusata məhkəmə istintaqı yekunlaşdıqdan sonra, çıxışlar zamanı fikir bildirəcəyini deyib. Eyni zamanda, dövlət ittihamını müdafiə edən prokuror məhkəmə tərəfindən sübutlara müşavirə otağında hüquqi qiymət verəcəyini də xatırladıb.

Məhkəmə zərərçəkmiş şəxslərin nümayəndələrini də dinlədikdən sonra qərar qəbul edib. Qərara əsasən vəsatət əsassız olduğu üçün təmin edilməyib.

Sonra Madat Babayanın müdafiəçisi Leyla Namazzadə vəsatətlə çıxış edərək hüquqlarını müdafiə etdiyi təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittihamdan bəzi epizodların çıxarılmasını xahiş edib.

Təqsirləndirilən Madat Babayan müdafiəçisi tərəfindən verilən vəsatətlə razı olduğunu bildirib.

Dövlət ittihamçısı Təranə Məmmədova vəsatətdə qeyd olunan halların prosesin hazırkı mərhələsinin predmetinin olmadığını xatırladaraq diqqətə çatdırıb ki, məhkəmə bunu müşavirə otağında qiymətləndirir.

Məhkəmə vəsatətdə qeyd olunan hallara müşavirə otağında baxılaraq qiymətləndiriləcəyini bildirib və vəsatəti baxılmamış saxlayıb.

Təqsirləndirilən Bako Sahakyan isə ötən iclasda təqdim etdiyi sübutların tədqiqi ilə bağlı müdafiəçisinin suallarını cavablandırıb.

Bundan sonra Levon Mnatsakanyanın müdafiəçisi təqsirləndirilən şəxslə görüşərkən hüquqlarını müdafiə etdiyi şəxsin cinayət işinə əlavə olunması üçün ona şəxsi arxivindən bir neçə sənəd verdiyini bildirib və onları məhkəməyə təqdim edib.

Təqsirləndirilən Levon Balayanın vəkili Saqi Məmmədov da hüquqlarını müdafiə etdiyi şəxslə konfidensial görüşmək istədiyini deyib.

Hakim Zeynal Ağayev fasilədə onlara şərait yaradılacağını bildirib.

Məhkəmə iclasının sonunda iclasa sədrlik edən məhkəmə istintaqının yekunlaşdırılması ilə bağlı tərəflərin fikirlərini öyrənib.

Tərəflər məhkəmə istintaqının yekunlaşdırılmasına etiraz etməyiblər.

Baş Prokurorun böyük köməkçisi Vüsal Əliyev ittiham tərəfinin məhkəmə baxışı zamanı təqdim olunan sübutlarla kifayətləndiyini bildirib.

Məhkəmə iclasına sədrlik edən məhkəmə istintaqının yekunlaşdığını elan edib və çıxışlar zamanı tərəflərin yalnız məhkəmə istintaqında tədqiq olunan sübutlara istinad edə biləcəyini bir daha proses iştirakçılarının diqqətinə çatdırıb.

Bundan sonra dövlət ittihamını müdafiə edən prokurorlar çıxış üçün noyabrın 3-dək vaxt verilməsini məhkəmədən xahiş ediblər.

Növbəti iclasda tərəflərin çıxışlarına başlanılması qərara alınıb.

Məhkəmə prosesi noyabrın 3-də davam etdiriləcək.

*XQ*

**"AZƏRELEKTROTERM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN**

**2024-cü il dekabrın 31-nə mühasibat balansı**

manatla

| Aktivlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər | 799,771.79 | 868,492.00 |
| Qeyri-maddi aktivlər | 5,905.09 | 6,561.21 |
| **Cəmi uzunmüddətli aktivlər** | **805,676.88** | **875,053.21** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 903,087.24 | 1,295,490.24 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 583.08 | 5,951.83 |
| Digər aktivlər | 7,660,538.90 | 7,660,538.90 |
| Kapitallaşdırma üçün aktivləri | 0.00 | 0.00 |
| Qısamüddətli debitor borcları | 883,177.01 | 2,179,320.28 |
| Gələcək dövrün xərcləri | 0.00 | 0.00 |
| **Cəmi qısamüddətli aktivlər** | **9,447,386.23** | **11,141,301.25** |
| **Cəmi aktivlər** | **10,253,063.11** | **12,016,354.46** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 1,771,462.00 | 1,771,462.00 |
| Hesabat dövrünün xalis mənfəəti | 66,985.24 | 187,144.21 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 7,999,827.78 | 7,812,683.57 |
| **CƏMİ KAPİTAL** | **9,838,275.02** | **9,771,289.78** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli kreditor borclar | 57,001.19 | 778,943.94 |
| Gələcək dövrün gəlirləri | 0.00 | 0.00 |
| Digər öhdəliklər | 357,786.90 | 1,466,120.74 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **414,788.09** | **2,245,064.68** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **10,253,063.11** | **12,016,354.46** |

**Mənfəət və zərər haqqında hesabat**

| | | |
|---|---|---|
| **Gəlirlər** | | |
| Əsas əməliyyat gəlirləri | 880,000.00 | 439,161.29 |
| Əməliyyat xərcləri | 21,150.00 | 19,793.73 |
| **Ümumi mənfəət (zərər)** | **858,850.00** | **419,367.56** |
| Ümumi idarəetmə xərcləri | 313,339.12 | 102,161.12 |
| Amortizasiya | 69,376.27 | 76,111.21 |
| Sair əməliyyat xərcləri | 392,403.00 | 7,164.97 |
| **Cəmi sair əməliyyat xərcləri** | **775,118.39** | **185,437.30** |
| **Əsas fəaliyyət üzrə mənfəət (zərər)** | **83,731.61** | **233,930.26** |
| **Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri** | **0.00** | **0.00** |
| Mənfəət vergisi | 16,746.32 | 46,786.05 |
| **Vergi tutulduqdan sonra mənfəət** | **66,985.29** | **187,144.21** |
| Gəlirdən çıxılmayan xərclər | 0.00 | 0.00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **66,985.29** | **187,144.21** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | 31 dekabr 2024-cü il |
|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | **66,985.24** |
| Digər düzəlişlər | 0.00 |
| Əlavə kapital | 0.00 |
| Amortizasiya xərcləri | 69,376.27 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | |
| Digər aktivlərdə artma və ya azalma | 0.00 |
| Ehtiyatlarda artma və ya azalma | 392,403.00 |
| Qısamüddətli debitor borcları - artma və ya azalma | 1,296,143.27 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 |
| Qısamüddətli kreditor borcları - artma və ya azalma | -1,830,276.59 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 0.00 |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Əsas vəsaitlərin alınması | 0.00 |
| Nizamnamə kapitalında artım | 0.00 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Borc verilmiş digər vəsaitlərdə xalis artma | |
| Dividendlər və buna oxşar pul şəklində digər ödəmələr | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma, azalma** | 5,368.75 |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | 5,951.83 |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 583.08 |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Əlavə kapital | Kapitalın ümumi cəmi |
|---|---|---|---|---|
| **2024-cü il yanvarın 1-nə qalıq** | **1,771,462.00** | **7,812,683.57** | **187,144.21** | **9,771,289.78** |
| Nizamnamə kapitalında artma | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Xalis mənfəət artma | 0.00 | 0.00 | -120,158.97 | **-120,158.97** |
| Sair düzəlişlər | 0.00 | 187,144.21 | 0.00 | **187,144.21** |
| Əlavə kapital | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| ***2024-cü il* dekabrın 31-nə qalıq** | **1,771,462.00** | **7,999,827.78** | **66,985.24** | **9,838,275.02** |

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9 oktyabr 2025-ci il tarixli 3-28/3-1-563/2025 nömrəli əmrinə əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki aşağıdakı müəssisələrin ləğv olunması haqqında qərar qəbul edilmişdir:**

**1)** Gəncə Şəhər Təsərrüfathesablı Ailə və Nikah Məsləhətxanası

**2)** Gəncə Şəhər Təsərrüfathesablı Reproduktiv Sağlamlıq və Ailə Planlaması Mərkəzi

**3)** Gəncə Şəhər Körpələr Evi.

Bu məqsədlə ləğvetmə komissiyası yaradılmış və adıçəkilən müəssisələrin bütün maliyyə, hüquqi və təşkilati məsələlərinin tənzimlənməsi üçün fəaliyyətə başlanılmışdır.

Müəssisələrin kreditorlarından mövcud borc tələblərini təqdim etmələri, debitorlarından isə müəssisələrə çatası borclarını tam şəkildə ödəmələri xahiş olunur.

Müraciətlər bu elan dərc olunduğu gündən etibarən 2 (iki) ay müddətində yazılı şəkildə aşağıdakı ünvana təqdim edilməlidir:

**Ünvan:** *Bakı şəhəri, M.Mirqasımov küçəsi 1A.*

**Əlaqə telefonu:** *012-441-26-03.*

**E-mail:** *office@health.gov.az*

## "AKSERMAN" ASC səhmdarlarının nəzərinə!

28 dekabr 2025-ci il saat 11:00-da Ağcabədi şəhəri, M.Ə.Rəsulzadə küçəsi 157 nömrəli ünvanda "AKSERMAN" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2024 və 2025-ci illərin fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi

**2.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 234 (30928) 1 noyabr 2025-ci il, şənbə

## İDMAN

### “Qarabağ” – “Çelsi” oyununa 27 min 500 bilet satılıb



**UEFA Çempionlar Liqasının əsas mərhələsinin IV turu çərçivəsində Bakıda keçiriləcək “Qarabağ” və İngiltərənin “Çelsi” komandaları arasında oyuna indiyədək 27 250 bilet satılıb. Bu barədə Ağdam klubundan məlumat verilib.**

“Qarabağ” – “Çelsi” oyunu noyabrın 5-də Tofiq Bəhramov adına Respublika stadionunda, saat 21:45-də start götürəcək.

Dünən Misli Premyer Liqasında X turun oyunlarına start verilib. İlk oyun günü keçirilən yeganə qarşılaşmada “Qarabağ” “İmişli”ni qəbul edib. “Azərsun Arena”da baş tutan oyun ağdamlıların qələbəsi ilə başa çatıb–2:0. Bu qələbədən sonra 9 oyundan 20 xal toplayan Ağdam təmsilçisi turnir cədvəlinin 1-ci pilləsinə yüksəlib.

Bu gün “Karvan-Yevlax” – “Zirə” və “Neftçi” – “Kəpəz” komandaları, sabah “Turan Tovuz” – “Şamaxı” və “Sumqayıt” – “Araz-Naxçıvan” klubları qarşılaşacaq. Noyabrın 3-də isə Bank Respublika Arenada “Sabah” “Qəbələ”ni qəbul edəcək.

### Avropa birinciliyində 2 qızıl, 1 bürünc medal!




**Ağırlıqqaldırma üzrə yığma komandamızın üzvü Ravin Alməmmədov Albaniyanın Dürres şəhərində keçirilən Avropa birinciliyinin qalibi olub. 79 kiloqram çəki dərəcəsində mübarizə aparan Ravin birdən qaldırma hərəkətində 151 kiloqram çəkini ram etməyi bacarıb. Təkanla qaldırmada 189 kiloqram ağırlığı başı üzərinə qaldıran Alməmmədov iki hərəkətin cəmində 340 kiloqram nəticə göstərib. Beləliklə, birdən qaldırmada bürünc, təkanla qaldırma hərəkətində isə qızıl medal qazanan Ravin Alməmmədov toplamda Avropa birinciliyinin qalibi olub. Təmsilçimiz, eyni zamanda, təkanla qaldırma hərəkətində və toplamda Avropa birinciliyinin rekordunu müəyyənləşdirib.**

Mükafatçılara medalları Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının “Məsləhət Qrupu”nun üzvü və Azərbaycan Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov və AAF-ın Avropa birinciliyindəki nümayəndəsi, “Göyəzən” klubunun prezidenti Azər Əlizadə təqdim ediblər.

### Moldovadan Avropa cüdo qızılı

**Moldovanın paytaxtı Kişineuda cüdo üzrə U-23 Avropa çempionatı start götürüb. İlk yarış günündə milli komandamız aktivinə bir qızıl medal yazdırıb.**




66 kiloqram çəkidə çıxış edən İslam Rəhimov finalda Niderland idmançısı Yoxem van Harten üzərində əzmkar qələbə qazanaraq çempion olub.

Turnirə 1/16 finaldan başlayan İslam Rəhimov ardıcıl olaraq slovakiyalı Roman Dekan və xorvatiyalı Dani Klaçarı mübarizədən kənarlaşdırıb. Növbəti görüşdə Ermənistan idmançısı Jirayr Hambaryanı məğlub edən cüdoçumuz final yolunda son olaraq ukraynalı Nazar Viskova qalib gəlib.

Qeyd edək ki, İslam Rəhimov 4 il öncə yeniyetmələr arasında Avropa çempionu tituluna yiyələnmişdi.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Olmuş hadisə*

# “Kubik” Dadaş

“Günəş” taksi maşınları parkında Dadaşı hamı tanıyır. Onu görənlər istər-istəməz gülümsəyirlər. Bilirsiz niyə? O gün Dadaş işə vaxtından əvvəl gəlmişdi. Maşının ora-burasına baxıb, “smenşik”in qarasına deyindi: “Zalım oğlu maşına heç baxmır. Elə bil, anbara salıb, hər tərəfi palçıqdı. Heç olmasa qaraja girəndə uşaqlara üç manat ver, yusunlar. Bu gündə şəhərə çıxmaq olar?”. Sonra maşının yağına–suyuna baxıb, narazı halda başını buladı: “Suyu da yoxmuş...”. Dadaş maşını yuyucuların yanına sürdü. Oğlan Dadaşı görən kimi gülümsədi:

- Sabahın xeyir, Dadaş əmi, maşallah, lap tezdən gəlmisən.

Sonra rezin çəkməni geyinib maşına baxdı və dedi:

- Bahoo, qaragün maşın nə gündədi! İncimə Dadaş əmi, sənin o “smenşik”in lap “krısadı” ha...

Dadaş oğlana cavab vermədi. Bildi ki, ona cavab versə, iş uzanacaq, oğlan nədən oldu “üyüdüb” tökəcək. O, gödəkçəsinin düymələrini bağlayıb gəzişməyə başladı. Yadına düşdü ki, axşam arvadla toya getməlidi, Səidənin rəfiqəsinin toyudu, getməsə olmaz. Toyun pulunu çıxara bilsə, yaxşı olar. Hələ bu toydan əlavə iki dəvətnamə də veriblər. Kişi dilxor oldu: “Allah evini yıxmasın toyu bazara çevirənlərin. Qazandığımız toylardadı...”. Yadına Anaxanımın toyla bağlı dedikləri düşdü: “A kişi, elə demə, təki şadlıq olsun. Maşallah, kiçik qız da böyüyüb. Bir də gördün elçilər girdi qapıdan. İndi sən gedirsən, sənin qızının toyu olanda da onlar gələcəklər. Hələ qabaqda nəvələrin var...”.

Dadaş kişinin çöhrəsi işıqlandı, ürəyini sevinc hissi bürüdü: “Hə, Anaxanım düz deyir, təki toy olsun. Maşallah, Səidə də gözəl-göyçək qız olub...”. Dadaş kişi Səidəni çox istəyir, çünki o, rəhmətlik anasına oxşayır. Buna görə ona həmişə “anam” deyir, bir sözünü iki eləmir. Ürəyi istəyəni haradan olsa tapıb alır. Anaxanım da buna görə arabir deyinir ki, belə eləmə, qızı ərköyün öyrədirsən.

Dadaş maşına minəndə dedi: “Bizdən hərəkət, Allahdan bərəkət! Yaxşı olar, inşallah”. Bu vaxt sürücü yoldaşlarından biri onun yanından keçərkən zarafatla:

- Yenə formadasan, ha, Dadaş, ceyran ovuna gedirsən? – dedi.

Dadaş ona cavab vermədi. Baləmi sürüb getdi. Kişi onun dalınca:

- Heyif deyildi köhnə vaxtlar. Gecə-gündüz yatdı yox idi – pul da ki, zibil kimi axırdı. Evə dönəndə cibindəkiləri tökürdün stolun üstünə, arvad-uşaq sayırdı. O yandan da dostlarla hər axşam ley-pey. Çexski pivənin tapılmayan vaxtında “Kubinka”dan yeşiklə alırdıq... Yoxsa indi, planı güclə çıxarırıq. Arvad-uşaq yanında da üzqaraçılıqdı. «Atanşik»lər də o qədər çoxalıb ki. Götürürsən maşına lazımi yerə çatanda pul vermək istəmir, deyir bağışla, xəstəyəm, o biri deyir olanım budu. Hərəsi bir bəhanə ilə aradan çıxır...

“Kömürçü meydanı”nın yanından ötəndə bir qız əl qaldırdı və maşına minən kimi dedi ki, əmi, imtahana on dəqiqə qalıb, məni universitetə çatdır.

Dadaş:

- Çalışaram qızım, ancaq çox gec qalmısan. Gərək elə yolla gedək ki, “probka”ya düşməyək. Narahat olma, əmi səni imtahana çatdıracaq.

O avtomobili ara küçələrlə sürüb Cavid prospektinə çıxardı və metronun yanından keçib universitetin böyük qapısı ağzında saxladı. Qız sevincək halda maşından düşdü və beşliyi ona uzadıb “sağ ol, əmi” deyib, tez uzaqlaşdı.

Dadaş kişinin yadına yenə Səidə düşdü. Çünki Səidə də bu universitetdə oxuyurdu. Qızı axşamlar gec yatsa da, hər gün tezdən durur, çay qoyur, yemək yeyir və sakitcə universitetə yollanır. İmtahanlardan da, maşallah, çox vaxt “əla” alır. Bir dəfə də olsun ata-anaya əziyyət verməyib...

Cavid prospektinə yenicə çıxmışdı ki, supermarketin yaxınlığında Şamil müəllimi gördü. Deyəsən, uşağı dərsə aparırdı. Maşını düz onun qarşısında saxladı. Şamil müəllim Dadaşın köhnə qonşusuydu, Dağlı məhəlləsində yaşayırdılar. Darvazaları bir-birinə baxırdı. Şamil müəllim qonşucanlı idi. Məhəllədə hər kəsin harada həlledilısi vacib işi olurdu Şamil müəllimi axtarırdı. Tanınmış alim olsa da, sadə insan idi. Buna görə də məhəllədə xeyir-şər olanda Şamil müəllimi yuxarı başda oturdurdular. Universitetdə dekan idi. Qonşuların oxuyan uşaqlarının çoxuna köməyi dəymişdi. Elə Dadaşın oğluna da bir neçə dəfə imtahandan qiymət yazdırmışdı. Sonra da yanına çağırıb demişdi ki, atan zəhmət-zillətlə çörək qazanır, yaxşı oxu... Oğlan da söz vermişdi ki, daha yaxşı oxuyacaq. Bir dəfə də təyinat zamanı Şamil müəllimdən xahiş etmişdi ki, onun cənub rayonların birinə göndərilməsinə kömək etsin. Müəllim də nazirlikdə kiməsə ağız açmışdı, sözünü yerə salmamışdılar. Şamil müəllim rüşvət-zad alan deyildi. Buna görə də universitetdə ona hörmət edirdilər, bir dəfə rektor qoymaq istəmişdilər, razılıq verməmişdi, demişdi ki, ora can atanların çoxunu tamah aldadır. Mən ildə bir kitab yazıram, mühazirələr oxuyuram, aldığım bəsimdi, vəzifə gəldi-gedərdi...

Dadaş sükanın arxasından çıxıb Şamil müəllimlə görüşdü, sonra da nəvəsini öpdü:

- Necəsiniz, Şamil müəllim, bacı necədi? Maşallah, nəvə də böyüyüb.



Şamil müəllim də Dadaşdan ailəsini, uşaqlarını soruşdu. Sonra da dedi ki məhəllədə nə var, nə yox?

Dadaş “məhəllə” sözünü eşidən kimi köks ötürdü:

- Daha məhlədə məhləlik qalmayıb, sakinlərin çoxu pulunu alıb köçüb gedib, beş-on ailə qalıb. Yəqin bizi də hansı yollasa didərgin salacaqlar. Verdikləri pulla da harada, necə mənzil alamaq olar?

Müəllim dedi:

- Tez, ya gec o yerlər sökülməli idi. Bu gün şəhərin mərkəzində belə məhəllələrin olması xoşagələn deyil. Ancaq gərək əhalini razı salaydılar. Yoxsa, çıx sökürəm, olmaz.

Dadaş onun haqqında ürəyindən keçənləri Şamil müəllim maşından düşəndən sonra dedi:

- Allah belə insanları saxlasın, kişi oğlu kişidi. Adam belələrindən ötrü canını verər.

Birdən gözü yan oturacaqdakı pula sataşdı. Şamil müəllim Dadaşın ondan almayacağını bilib, pulu sakitcə ora qoymuşdu. Dadaş yenə yola çıxsa da, Şamil müəllim haqda fikirləşirdi. Birdən iki cavan oğlan ona əl qaldırdı. Maşın dayanandan sonra onlardan biri pəncərədən başını içəriyə salıb dedi:

- “Aeroport”a gedəcəyik.

Dadaş:

- Əyləşin, - dedi.

Cavanlar yolun kənarındakı korobkanı maşının baqajına qoyduqdan sonra hər ikisi arxada oturdu. Yolboyu astaca nəsə danışırdılar. “Aeroport”a dönən yolda qəza olmuşdu, yol polisi hərəkəti nizamlamağa çalışırdı. Xeyli dayanmalı oldular...

Maşın vağzalın qarşısında dayananda cavanlardan biri dedi:

- Mümkünsə, üççə dəqiqə gözləyin, saxlama kamerasındakı bağlamanı götürək, qardaşım sizinlə şəhərə dönəcək.

Cavanlar getdilər, lakin dedikləri vaxtdan xeyli keçsə də, qayıtmadılar. Dadaş kişi dilxor olmuşdu. Öz-özünə deyinirdi: “Korobkalarını götürsəydilər, heç gözləməzdim, rədd olub gedərdim...”. O, daha on dəqiqə gözlədi, ancaq cavanlar qayıtmadılar. Dadaş məsələnin nə yerdə olduğunu başa düşdü. Maşını işə salıb geri dönmək istəyirdi ki, bir qadın əl qaldırdı. Əvvəl istədi maşını saxlamasın, amma yağış başlamışdı və qadın nazik paltarda və çətirsiz idi. Buna görə də maşını saxladı və qadının çamadanlarını baqaja qoydu.

Qadın astaca dedi:

- Zəhmət olmasa, Yasamal tərəfə, “Olimp” mağazasının yerləşdiyi binanın həyətinə gedəcəyəm.

Dadaş o dəqiqə başını qaldırıb güzgüdə qadına baxdı. Bu o, idi – Flora müəllimənin qızı... Ancaq heç nə demədi, heç nə soruşmadı. Gözünü yola dikib məktəb illərini gözü önünə gətirdi. Səidə ilə bir məktəbdə oxuduğu illəri, günləri sıralamağa başladı. Səidənin qızılı saçları, qoşa hörükləri, yumru ala gözləri vardı. Kağız kimi ağ idi, buna görə də utandığından çox vaxt kapron corab geyinirdi. Dilli-dilavər qız idi. Məhəllə oğlanlarının çoxu ürəyində Səidəni sevirdi. Ancaq heç kəs ürək eləyib bu istəyi dilə gətirə bilmirdi. Dadaş da o qızı sevirdi.

Bir dəfə bərk qar yağmışdı. Oğlanlar məktəbdən çıxan qızları qartopu ilə vururdular. Dadaş onlardan bir qədər arxada dayanıb Səidənin nə vaxt çıxacağını gözləyirdi. Zəng çalındı. Məktəblilər həyətə töküldülər. Az keçmişdi ki, Səidə Rayihə ilə qapıda göründü. Oğlanlar qartopu atmağa başladılar. Dadaş özünü saxlaya bilmədi, oğlanlardan birini yaxalayıb qarın üstünə yıxdı və yumruqlamağa başladı. Sonra hay-küy qopdu, məktəbin həyəti döyüş meydanına çevrildi. Dadaşın dostları ona köməyə gəlmişdilər.

Səhəri gün direktor Dadaşı öz otağına çağırdı və məsələni öyrənməyə çalışdı. Ancaq o, dava-dalaşın niyə və kimə görə baş verdiyini demədi.

Günlərin bir günü Səidə məktəbə gəlmədi və Dadaş hər gün onun yolunu gözlədi. Səidənin isə Dadaşın ona bəslədiyi məhəbbətdən xəbəri olmadı. Sən demə, Səidənin atasını hansı rayonasa işləməyə göndəriblərmiş...

O vaxtdan illər ötsə də, Dadaşın ürəyində o qoşa hörüklü qızın surəti hələ də yaşayırdı.

- Bağışlayın, siz Səidə xanım deyilsiz?

- Nədən bildiniz?

- Biz sizinlə 175 saylı məktəbdə oxumuşuq. Onda Əli müəllim direktor idi.

- Hə, doğrudur, ancaq mən sizi xatırlamıram.

Qadının son sözləri Dadaşın ürəyində tutuşan ilk sevgi qığılcımlarını yenidən söndürdü.

Şəhərə çatanda yağış daha da bərkimişdi. Bəzi küçələrdə gölməcə yaranmışdı. Küçəni keçmək istəyən adamlar topuğa qədər suya girirdilər. Dadaş Bakının belə günlərini çox görmüşdü. Onların evi isə dikdirdə olduğu üçün yağış, qar suları onlardan yan keçirdi. Ancaq indi Dadaş yağış barədə düşünmürdü. O arxada oturmuş Səidə haqqında fikirləşirdi. O, bir azdan maşından düşəcəkdi...

Səidə maşından düşmüşdü ki, blokdan ucaboylu bir oğlan çıxdı. Yaxınlaşıb əvvəlcə Səidə xanımı öpdü və sonra:

- Mama, niyə xəbər eləməmisən, özüm qarşılayardım səni.

- Eybi yoxdu, narahat eləmək istəmədim. Sağ olsun bu qardaş, kömək elədi, gətirdi. Deyir ki, bir məktəbdə oxumuşuq...

Oğlan çıxarıb Dadaşa pul vermək istədi. Amma Dadaş pulu almadı:

- Eyib deyil, bir məhlədə böyümüşük, bir məktəbdə oxumuşuq.

Qadın dedi:

- Xahiş edirəm götürün, yoxsa bir də sizi görsəm, maşınınıza minmərəm...

Dadaş Səidəyə baxdı. O yaşa dolsa da yumru gözləri heç dəyişməmişdi. Ağappaq çöhrəsi necə də aydın və nurlu idi. Qoşa hörüklərini isə şəlaləyə bənzər şabalıdı saçlar əvəzləmişdi....

Dadaş nə fikirləşdisə, maşını öz evlərinə tərəf sürdü. Həyətə girdi və baqajdakı korobkanı götürüb pilləkənləri qalxdı. Anaxanım Dadaşın bu xəbərsiz gəlişinə təəccüblənsə də, onu əlidolu görüb sevinən kimi oldu. O, aynabənddə oturub arvadından çay istədi. Sonra istədi başına gələnləri arvadına danışsın, amma bu fikirdən vaz keçdi. Anaxanım çayı gətirib onun qarşısına qoydu, sonra heç nə demədəm gedib korobkanı açdı. Anaxanım gördüyünə heyrətləndi:

- Dadaş, başuva daş, bu nədi?

Lakin Dadaş heç nə olmamış kimi pəncərəyə doğru getdi və yağan yağışa tamaşa eləməyə başladı. Fikri hələ də Səidənin yanında idi... Anaxanım isə dinməzcə oturub gah stolun üstündəki mişar daşına, gah da özünü qəribə aparan ərinə baxırdı...

Doğru deyiblər, yerin də qulağı var. Bir neçə gündən sonra qarajda çoxları bu məsələdən xəbərdar oldu. O vaxtdan onu iş yerində “Kubik” Dadaş deyə çağırırlar.

***Səməd MƏLİKZADƏ***

## HAVA

# Yağmursuz şənbə



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 10-15, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9, gündüz 19-24 dərəcə isti, dağlarda gecə 0-4 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR –
BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3462
SİFARİŞ 2209
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00